
Nəsibə Günəş

MƏNİ ÖZÜMƏ QAYTAR

...Hər insanın fikir və düşüncələri fərqli ola bilər,
bunun belə olduğunu anlayaraq qəbul edən insan, kamil insandır.



Nəsibə GÜNƏŞ

Azf-289365

MƏNİ ÖZÜMƏ QAYTAR

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI - YAZIÇI - 2016

Az2
2016
N 63
BBKC 63

"Məni özümə qaytar..."(roman). Nəsibə Günəş
Bakı, "Yazıçı" nəşriyyatı - 2016, 252 səh.

"Məni özümə qaytar" romanı, ömrün sonlarından geri boylanan insanların, o yaşanmışların içində həyatlarında önəmli rol oynayan xatirələrin axtarışından bəhs edir.İnsanın irəlidə yaşayacaqları hələ də həyat olduğu halda, geridə buraxdıqları artıq sadəcə xatirələrdir.Ancaq irəlidəki o həyatda nələr yaşanacaqsa, o yaşananlarda mütləq geridə buraxılmış xatirələrin rolu, təsiri, izi olacaqdır.Əsərin qəhrəmanları olan iki rəfiqə, Həyatla Səməngülün həyatında olduğu kimi.Uşaqlıqdan bir yerdə böyümüş bu iki qızın sonradan başlarına gələnlər də öz başlanğıcını həmin o keçmiş günlərdən, geridə qalan xatirələrdən alır. O acılı-şirinli xatirələrdən...

20.08.2005.Saat 23:00.Diest.

Nəşriyyatın direktoru əvəzi
Ələsgər HÜSEYNOĞLU


Redaktor
Ataş CƏBRAYILLI

Kompyuter dizaynı | Aygün HÜSEYNOVA

Operator | Səyalə BAXIŞOVA

N 5204000395 - (042) qrifli nəşr
M - 656 - 2016

©YAZIÇI



Sizə nədən deyim, nədən danışım...

QÜRBƏT DƏ BELƏDİR, SIXAR KÖNLÜMÜ...

Birdən ürəyim darıxdı. Qalxıb küçəyə çıxdım. Qəsəbəmizdən dörd bir yana ayrılan yollardan ən baxımlısını tutub yeriməyə başladım. Üzü yoxuşa gedən bu yol məni tənhalığı ilə, iki tərəfdən də qalın meşələrə qədər uzanan yamyaşıl zəmiləri ilə cəlb edir. İçimdəki ünvansız həsrət, tutduğumuz bu yolun doğru olub-olmadığına dair nigarançılıq, arabir ürəyimə elə güclü həmlələr edir ki, mən boğulmamaq üçün tez özümü bayıra atır, bu fikirlərimi təkbaşına saf-çürük eləmək üçün həmin bu yolu tutub gedirəm. Ətrafda gördüklərim, əsla fikirləşməkdə mənə mane olmur. Əksinə, gözümü oxşayan tərtəmiz yollar, gül-çiçəklə bəzənmiş küçələr, hər otuna-ələfinə sığal çəkilmiş otlaqlar, zəmilər məni sakitləşdirir, bir növ öz içimdə duruluram. Elə bil bu yolları tutub öz ümidlərimə doğru gedirəm, gedirəm ki, bir gün illər öncəsi baş götürüb getdiyim doğma obama-elimə dönüm. Oranın hər qarış yerini burdakı kimi sığal çəkilmiş, abad olmuş görüm. İnsanları burdakı kimi qayğı ilə bəslənmiş, dərddən-sərdən uzaq görüm... Neyləyim ki, nə tv kanallarından eşitdiyim saxta raportlar, nə də firavan yaşamağın yolunu tapan bəzi tanışların danışdıqları məni qane eləmir. Çünki, bilirəm ki, orada hələ nə qədər insanlar var ki, öz əxlaqını, tərbiyəsini, həyasını basıb o yolları gedə bilmirlər. Buna görə də bu gün də yoxsulluğun ən dərin quyusunda çabalaya-çabalaya qalıblar.

Bu qərib ölkədə hər cür sıxıntıdan uzaq olsaq da, bir türlü rahatlıq tapa bilmirik. Bunun da səbəbi odur ki, hər sıxıntıdan uzaq olmağımız bizi vətəndən də uzaq saldı. İkisini heç cür bir arada tapa bilmədik. Seçim bu qədər amansız oldu:ya o olacaq, ya da bu.

Ya, qürbətdə eviniz, dinc yaşayışınız, dövlətin qayğısı ilə əhatə olunmuş həyatınız olacaq, ya da vətəndə, sizin kimilərin haqqını yeyə-yeyə gün-gündən azğınlaşan mafiya tipli dövlət adamlarının hökmü altında ömrünüzün sonuna kimi əzilərək yaşamaq olacaq. Bunun da adını yaşamaq qoymaq olarsa əyər...

...Bir azdan bizim ara küçəmiz, iki tərəfindən yaşayış evlərinin cərgələndiyi ana yola çıxır. Bu yolu tutub üzü yoxuşa gedirəm. Yol kənarında şəxsi villalar sıralanıb. Mən onların önündən keçə-keçə, bu günkü günəşli yaz havasını fürsət bilib, həyətlərinin otunu biçən qonşulara baxıram. Onlar yanlarından kiminsə keçdiyini gördükdə, mütləq əl saxlayıb təbəssümlə salam verirlər. Bu, mənim onlarda ən çox bəyəndiyim xasiyyətdir. Mən bu xasiyyətin ciddi bir dövlət proqramı olduğunu öyrənəndə, bir daha onlara həsəd apardım. Onlar, bircə təbəssümün, bir salamın insanlar arasındakı münasibətdə nə qədər vacib olduğunu, necə böyük rol oynadığını dünyaya göstərmək istəyirlər. Bəzən yanından keçən yad bir insanın təbəssümlə verdiyi salam, səni ürəyindəki ən ağır fikirlərdən də qurtara bilir.

Günəşli bir bazar günüdür, və qonşuların çoxu bu gün sübh tezdən qalxıb, ən sevimli məşğuliyyətləri olan ot biçimi ilə məşğul olurlar. Mən hələ səhər yataqdan qalxmamışdım, ancaq onların istifadə elədikləri elektrikli ot biçən maşınların səsinə oyanmışdım. Başqa-başqa həyətlərdən gələn ot biçən maşınların səsləri bir-birinə qarışmışdı. İndi bu zəhmətkeş qonşuların həvəslə gördükləri təmizlik və yığın-dərin işlərinə baxıb fikirləşirəm ki, kaş hər kəsin qayğısı bu qədər ürəkaçan, bu qədər yüngül olaydı. Bir ailənin bazar günü birlikdə iməcilik keçirməsi, onların həyatına bu qədərcik də olsa məna qata bilir. Ata otu biçir, uşaqlar gülləri sulayır, ana da arxa həyətdə manqalda nəsə bişirir. Təzə biçilmiş otun bihuşedici qoxusuna, az sonra bir də kabab iyi qatılır. Bir avropalının həyatında ən tipik yaşam tərzi budur.

Bütün həftəni çalışacaq, şənbə ilə bazardan birini o qonaq gedəcək, birində də ona qonaq gələn olacaq. Gələn olsa da, olmasa da, bir avropalı istirahət gününü ailəsinə həsr edərək, uşaqlarının sifarişi ilə barbikü bişirəcək, ailəsini bir süfrədə başına yığacaq. Sonra da cənnəti xatırladan güllü-çiçəkli geniş həyətində iti ilə, uşaqları ilə top oynadacaq.

Bu millətdə bəyəndiyim və bəyənmədiyim çox şeylər var. Bəyəndiyim ən əsas şey, onların çox dürüst və çox zəhmətkeş olmalarıdır. Bu millət gün boyu qarışqa kimi çalışır. Havayı çörək yeyən yoxdur. Hər kəs öz işini özü görür. İşdə böyük bir firmanın patronu da olsa, evdə adi bir vətəndaş olub, iş paltarını geyinir, qolunu çırmalayır, hər işini özü görür. Hər kəs özünün həm ağasıdır, həm də nökəri. Hər kəs, azmı, çoxmu, lakin qazandığını alır. Burda rüşvətin heç anlamını da bilən yoxdur, anlatsan da anlamazlar. Bu dövlətlərdə vergilər çox yüksəkdir, və bu vergi məsələsi bu millətin yaralı yeridir. Di gəl ki, vergini ödəməmək, vergidən yayınmaq heç kimin heç ağlına da gəlmir. Çünki, hər kəs bilir ki, vergi bu dövlətin onurğa sütunudur. Vergilər vaxtlı-vaxtında toplanıb, qəpiyinə kimi dövlətin büdcəsinə gedir, dövlət də qüvvətlənir, inkişaf edir. Bir avropalının yaddaşına həkk olunmuş ana fikir budur. Bu fikir onları qanunlara sayqılı olmağı, hər kəsi də qanuna uymağa dəvət etməyi öyrədir. Bu ölkədə hər kəs bir-birinə nəzarət edir, polisin işini görür. Düzgün olmayan hər şeyə vətəndaş tərəfindən müdaxilə var. Biz bunu görməyə də bilərik, çünki, çox zaman yaşlı vətəndaş pəncərədən görüb, gözü tutmayan bir şeyi elə evindən telefonla polisə xəbər verir. Dünyanın ən çevik polisi sayılan avropa polisi də, iki dəqiqə sonra olay yerində olur. Məhz belə olduqları üçündür ki, onlar bizdən fərqli olaraq, bu gün belə düzgün yaşayırlar. Gəlmələrin çoxu onların bu xasiyyətlərini bəyənmirlər, pisləyirlər. Ancaq mən düşünürəm ki, bunlar hamısı öz ölkəsinə canı yanmaqdan

irəli gəlir. Burda hər kəs təkcə öz evinə deyil, öz ölkəsinə də sahib çıxır. Çünki, ölkənin hər qarışında onların zəhmət payı var. Zəhmətlə başa gələn hər şeyin qədir-qiyməti də böyük olur.

Həmin o dediyim villalarda yaşayanların çoxu çox varlı nəsillərdən gəlir, mötəbər yerlərdə çalışırlar. Ancaq onların hər günü, sübh tezdən qadının pəncərələri silməyi ilə, kişinin də küçəni süpürməyi ilə başlayır. Həm də onlar bu işləri qışda da, qarda da, həm də elə titizliklə görürlər ki, sanarsan, kimsə gəlib onların gördüyü işi yoxlayacaq. Ancaq biz onlarla eyni mühiti paylaşdığımızdan, artıq bilirik ki, bu bir vərdişdir, və bu vərdişin də tarixi bəlkə yüz ildir. Bu gün bu vərdiş onların həyatının bir parçasına çevrilib, artıq istəsələr də tərgidə bilmirlər. Əvəzində, nəinki, təkcə bir küçənin, hətta şəhərin də, ölkənin də belə bir qazancı var ki, küçələr də, aynalar da həmişə güzgü kimi tər-təmiz olur. Necə deyərlər, bal tök, yala... Bizdə belə bir şeyi təsəvvür eləmək mümkündürmü?

Bizim vətəndaşımız, kasıbçılqdan azacıq uzaqlaşan kimi, evinə qulluqçu, maşınına sürücü, qapısına qarovulçu tutmasa, yaşaya bilməz. Baxırsan ki, boş söz deyil, doğurdan da başqa-başqa dünyalardır bu gördüklərim.

Mən yoluma davam edirəm. Artıq qəsəbənin son evləri də arxada qalır. Bundan sonra otlaq yerləri, əkin sahələri başlayır. Hər tərəf eyni cür yamyaşıl çəməndir. Otlaq yerini əkin sahəsindən ayıran tək şey, həmin sahədə tənbəl-tənbəl otlayan mal-qara, qoyun-quzudur. Heyvanlar o qədər kökdür ki, güclə hərəkət edirlər. Ayrı-ayrı otlaq sahələrində otlayan inəklər də, qoyun-quzu da nazik məftillə hasarlanmış bu göy çəməndə gün boyu yeyib yatırlar. Odur ki, yenicə doğulmuş bir-iki həftəlik ağappağ, yupyumru quzular da yaşıl meydançada futbol topuna bənzəyirlər.

Bu ölkənin təbiəti enişli yoxuşludur. Eynən ömür yolu kimi, bir eniş, sonra bir yoxuş, sonra yenə eniş... Burda bu yoxuşlara

dağ deyirlər, və bu ölkəni dağlıq ölkə adlandırırlar. Daha demirlər ki, biz necə dağlar görmüşük...

Mən, otu dizə qədər qalxmış zəmiyə çatıb dayanıram. Bura yolun təpəcik hissəsidir, odur ki, önümdə gah enişə enən, gah da yoxuşa qalxan mənzərələr bir-birini əvəz edərək üfüqə qədər uzanıb gedir. Çəmən, çiçək qoxulu təmiz havanı acgözlüklə ciyərlərimə çəkib ətrafa nəzər salıram. Hər yüksəklikdə başqa bir mənzərə görünür. Bir təpədə yaşayış evlərinin qırmızı kirəmidli damları görünür. Bir təpədə səliqə ilə cərgələnmiş alma bağlarının uzaqdan kölgə kimi görüntüsü, bir təpədə əkin tarlasını şumlayan traktorun zil qara torpaqda əmələ gətirdiyi zolaqlar... Bir təpədə qədim kilsənin göylərə dirənən ucu xaçlı qülləsi, və bu kilsədən gələn zəng səsləri... Burda hər bazar, kilsədən gələn zəng səsləri insanları ibadətə səsləyir.

Göz işlədikcə uzanan mənzərələrə tamaşa elədikcə, xatirələrimdə nələrsə oyanmağa başlayır. Tarlaların bir-birinə köndələn əkilmiş zolaqları, bir də ətrafda bir-birini əvəz edən yaşılın fərqli-fərqli çalarları, bu yerdə əlifba kitabından bir rəsmi yadıma salır. O rəsim lap uşaqlıqdan yaddaşıma həkk olunduğundan, keçdiyim ömür yolunda mənə daima yoldaşlıq eləyirdi. Görünür, bu sadə mənzərənin vaxtilə mənim üzərimdə çox böyük etkisi olmuşdu ki, hələ o vaxtdan həm traktor səsi, həm də günəşin parlaq şəfəqləri mənə xoş təsir bağışlayır, əhvalıma pozitiv enerji yükləməyi bacarırdı. Ona görə də, könlümdəki yaşamaq eşqini artıran çox az şeylərin içində, yer şumlayan traktorun səsi də var, günəşin dünyanı nura boyayan şəfəqləri də... Özümdən asılı deyil, hər dəfə buna bənzər mənzərələri görəndə, eyni rəsim yenidən xəyalımda canlanır. Halbuki, o rəsim bəsit bir kənd mənzərəsindən başqa bir şey deyildi. Tarlada yer şumlayan traktorun əmələ gətirdiyi tünd qəhvə rəngli zolaqlar, arxada göz işlədikcə uzanan yamyaşıl çəmənlər, ondan da o yana, cərgələnmiş şam ağacından, ağcaqayından, küknardan ibarət qalın ormanların,

yaşılın ən tünd çalarına bürünmüş görüntüləri... Dağın döşünə kimi qalxan qarışıq meşənin sıx cəngəllikləri arasından orda-burda gözə dəyən kənd evlərinin qırmızı kirəmidli damları... Mavi səmada özünü sərbəst hiss edərək, var gücü ilə parlayan al günəş, və ara-bir günəşin üzünə yaşmaq tutmağa çalışan, topa-topa ağ buludlar... Yaşılla mavinin təması, bir də pambıq bəyazlığının bu mənzərəyə vurduğu çalarlar, adamı lap rəssam olmağa həvəsləndirir... Bütün bu gördüklərim, heç şübhəsiz ki, ana təbiətin ruhumuza qida verən, qarşısında bizi daim aciz qılan möhtəşəm gözəlliklərindən biriydi...

Bu gözəlliklər, həm də mənim xatirələrimin rəng çalarıdır. Bəxtəvər günlərimin yadigarı olan xatirələrimdə həmin o mavi, yaşıl, bəyaz rənglərin yeri bir başqadır. Üstündən qərinələr keçsə də, o rənglər solmaq bilməyəcək. Çünki, mənim bəxtəvər ömrümün o çağında, güləndə üzündə güllər açan anam da var idi, anamın nurlu üzünə yaraşan ağ kəlağayısı da var idi. Günəşli günlərin sayı da indikindən qat-qat çox olardı. Ona görə də uşaqlıq dünyamın bir yaşılı, bir mavisi, bir də bəyazı digər rənglərindən daha çox olardı. Anamın isti nəfəsi ilə günəşin isti şüaları, dünyamızı nura boyamaqdan başqa, həm də ömrümüzü əbədi bir hüzura qərq edərdi. Yadıma gəlir ki, o vaxtlar günəşi anama, ağ buludları da ona çox yaraşan ağ kəlağayıya bənzədərdim. Bu bənzəyiş ürəyimə yağ kimi yayılardı, təkcə gözlərimi deyil, ruhumu da oxşayardı. Bir baxmaqla, bu gün də bu xəfif buludlar xatirələrimi qarışdırır, elə bil məni o günlərə qaytarmaq istəyir. Günəş yenə anamın xəyalı ilə eyniləşir. Onun isti nəfəsi anamın yumşaq əlləri kimi yanaqlarımı sığallayır, al şəfəqləri də, ana laylası kimi ruhumu oxşayır, eynilə o vaxtlardakı kimi... Buludlar yenə də anamın ipək kəlağayısı kimi mavi səmada xəfif-xəfif yırğalanır... Bilirəm ki, mən yaşadıqca, o zolaqlı tarlalar həmişə mənə doğma vətənimin bərəkətli torpaqlarını, al günəş, o

vaxtdan dünyamda yeri boş qalmış anamı, o xəfif buludlar da anamın ağ kəlağayısını xatırladacaq. Hər görəndə, bu görüntülər məni məndən alıb aparacaq, o keçən günlərə, bəxtəvər-analı günlərimə qaytaracaq. Məni kövrəldən bu mənzərə, yenə də anamı, onun burnumdan heç vaxt getməyən saçlarının qoxusunu, bir də həyalı üzünə çox yaraşan ağ kəlağayısını yadıma salacaq. Bu gün məndən həm zaman, həm də məkan baxımından çox uzaqda qalmış, uşaq qədər məsum bir mənzərə... İndi, nə o illərin əlifbası var, nə o əlifba ilə dünyanı tanımağa başlayan qızcığaz var, nə də o mələk simalı anam var... Onların üçü də çoxdan əfsanəyə döndüklərindən, uzun zamandan bəri qiymətli xatirə kimi mənim könül xanimanımda özlərinə sığınacaq tapıblar...

Düşünürəm ki, insanın hafizəsi onun həm dostudur, həm də düşməni. Sənin ən şirin xatirələrini əmanət edib saxlayanda, o sənin dostun olur. Ancaq, vaxt-bivaxt keçən günlərinin ən əziz xatirələrini yadına salıb əziyyət verəndə, doğma yerlərin həsrətini ürəyinin içindən keçirdib burnunun ucunu göynədəndə, o sənin düşmənin olur. Çünki, səni unutmağa, unudaraq yaşamağa qoymur...

...Bu millətdə sevmədiyim, daha doğrusu ürəyimi üşüdən şey, onların çox soyuqqanlı olmalarıdır. Onlar sevgilərini çətin biruzə verən, hər şeyə ölçülü yanaşan, özlərindən başqa heç kimi ürəklərinə yaxın buraxmayan millətdirlər. Avropada artıq hamının bildiyi bir həqiqət var, yerlilər gəlmələri, xüsusən də bizi sevmirlər. Onlar robot kimi siyasətin apardığı təbliğata uyaraq, müsəlmanlara qarşı çox ehtiyatlı, çox soyuq bir mövqe tuturlar. Onlar bizi sevmirlər, onlar sadəcə bizə dözürlər. Əslində, bizə olan münasibətə görə onları qınamağa haqqımız da yoxdur. Gündəlik həyatın içində yerlilər bizimlə çox nəzakətlə davranır, ürəklərindəki fikirlərini məharətlə bizdən gizlədirlər. Sadə vətəndaşı yolundan eləyən olmasa, onlar da bizim kimi adi insanlardır. Bir insana aid olan qayğıların hamısı onlarda da var. Az, ya çox, amma var. Dövlətin rəsmi dairələri hər şeyi qanuna uyğun həll edirlər, onlar

ölkələrinin qanunlarına əsaslanaraq, bizi insan kimi qəbul da edirlər, anlamağa da çalışırlar, hər çür yardım da edirlər. Dövlət qulluqçuları, ölkələrinə pənah gətirmiş hər xalqın nümayəndələrinə qucaq açır, onların normal yaşaması üçün hər şəraiti yaradırlar, çünki qanunlar bunu tələb edir. Bu məsələnin rəsmi tərəfi... Məsələnin qeyri-rəsmi tərəfinə gəldikdə isə, nə gizlədim, onlar bizi bir millət olaraq sevmirlər. Əvvəla, ona görə ki, biz müsəlmanıq, ikincisi də ona görə ki, biz, cəmiyyətində hər cür eybəcərliklərin baş verdiyi bir ölkədən gəlmişik. Onlar bu eybəcərliklərdən xəbərdardırlar, və hesab edirlər ki, bizim düzgün yaşamamağımızda, bütün dünyaya arxa çevirib öz bildiyimiz kimi qüsurlu bir cəmiyyət qurmağımızda, sonra da bu cəmiyyətdə yaşaya bilməməyimizdə, yeganə günahkar elə özümüzük. Onlar o qədər haqlıdırlar ki, mən onları qınaya bilmirəm, onlardan inciyə bilmirəm. Adama deməzlərmi ki, "İndiki bizim kimi yaşamaq istəyirsiniz, siz də özünüzə əziyyət verin, mübarizə aparın, belə bir cəmiyyət qurun. Siz rüşvətin kökünü kəsib, düzgün yaşasanız, nə baş götürüb buralara gəlməyinizə, nə də bizim boğazımıza şərik olmağınıza ehtiyac qalmaz... Problemlərinizi qoyub qaçmaqla, siz bizi də çətin duruma salırsınız. Çünki, heç bir ölkənin imkanları sınırsız deyil. Axın-axın gələn köçmənlərlə paylaçdıqca, bizim də güzəranımız gün-gündən ağırlaşır. "

Düz sözə nə deyəsən?

Ancaq arada onların bilmədikləri bir şey var. Onlar bilmirlər ki, bəzi qüvvələr Azrbaycan xalqının arzuları ilə əməlləri arasındakı uçurumu gün keçdikcə saxta şəkildə elə dərinləşdirirlər ki, bir azdan insanların arzuları bir boyutda, əməlləri isə başqa bir boyutda yerini tapacaq, və onların bir araya gəlməsi bir də heç vaxt mümkün olmayacaq...

Bunları düşünə-düşünə qürbət eldə ömür keçir, başımıza qar yağır...

Nəsibə Günəş. 20 aprel 2010.

YERİ GÖRÜNÜR...

Ömür nağıl oldu, uzaqda qaldı,
Həsrəti könlümə kölgələr saldı,
Xoş günlərin sayı xeyli az oldu,
Yenə o günlərin yeri görünür.

Üfüqlərə baxan qara gözlərin,
Şirin söhbətlərin, şirin sözlərin,
Qumda qoşa gedən ayaq izlərin
Yeri görünür...

Dağlardan boylanan əlvan günəşin,
Ürəklərdə yanan sönməz atəşin,
Vəfalı dostların, qohum-qardaşın,
Yeri görünür...

Səs-küylü küçənin, köhnə məhlənin,
Damına qır tökən yorğun fəhlənin,
Axşamlar toplaşan şəhər əhlinin,
Yeri görünür...

Dəcəl uşaqlardan qopan səslərin,
Elə qahmar çıxan yaşlı kəslərin,
Yüngül inciklərin, umu-küslərin,
Yeri görünür...

Bayrama toplaşan oğuz elinin,
Şirniyyat bişirən qızın-gəlinin
Qapıda pay uman öksüz dəlinin,
Yeri görünür...

Qeybətçi qonşunun, ara qatanın,
Məhlədə ətirli çörək satanın,
Məzarda uyuyan ana-atanın
Yeri görünür...

Bizdən uzaqlaşan keçən günlərin,
Yaşanmış ən gözəl, xoşbəxt anların,
Kimi sevmişdiksə, bu gün onların,
Yeri görünür...

Nəsibə Günəş. 2003. Belçika.

MƏNİ ÖZÜMƏ QAYTAR...

Roman

...Hər keçən gün sürətlə bizdən uzaqlaşaraq, yavaş-yavaş unudulur. Yaşanmış günlərdən geriyə ancaq xatirələr qalır. O xatirələr də yaddaşımızda toplanaraq, orda qiymətli bir xəzinə əmələ gətirir. . N. G. .

2005-2007. Belçika

Romanda təsvir olunan hadisələr
Müəllif təxəyyülünün məhsuludur. N. G.

Nazlanar, yırğalanardı dənizin dalğaları,
Əriyərdi kənd-kəsək günəşin ilğımında.
Sahildə bir cənnətdi əncir, üzüm bağları,
İstidə dərman idi gəzmək dəniz qumunda.
Başımın üstündəki günəşdən ilham alıb,
Ən şirin nəğmələri qoşardım bağ yolunda.

Nəsibə...

PROLOQ

Bir gün sizə desələr ki, musiqi gəldi-gedər bir seydir və onun insan həyatinda elə də önəmli rolu yoxdur, inanmayın. Belə bir fikir məncə yalnışdır. Musiqinin yaranişı barədə dəqiq bir sey bilməsəm də, məncə insanin esitdiyi ilk melodiyalar küləyin, suyun, küləkdə pıcıldaşan yarpaqların, bir də quşların səsi ola bilər ki, bu da şübhəsiz çox gözəl bir musiqidir, çünki onu təbiət özü bəstələmişdir. Insan da yaradici bir varlıq olduğu üçün bu səsləri ürəyinin hökmü ilə notlara düzmüs, və bunun nəticəsində bir-birindən gözəl əsərlər ortaya çıxmışdır. Musiqi, insan ruhunun

ən həssas bir nöqtəsində özünə yer edərək, onu ozünə tabe eləyir. Musiqinin tərcümana ehtiyacı yoxdur, çünki birbaşa ürəklərlə danışır. Ona görə də, gözəl bir musiqi insan üzərində hökm sahibi ola bilir, onu gah güldürür, gah ağladir. Xalq musiqisi də belə ecazkar musiqilərdəndir, illər ötdükcə daha duyumlu, daha ecazkar olur.

Mənim yaşıdlarımın hamısı da olmasa çoxu eşitmiş olar, bizim zamanımızda belə bir oyun havasi var idi,"Sevgilim". Bu oyun havasını bəyənib sevəndə, hələ adını bilmirdim. Sonra adını öyrəndim, və fikirləşdim ki, oyun havası üçün əcəb romantik addır. Amma təkrar dinləyəndən sonra qərar verdim ki, şəxsən mənim ücün sevgili də olmasa, həmdəm olmağa layiq bir melodiyadır. Bunun da çox uzaqlardan gələn səbəbləri vardı... .

Mən bu havanı az dinləməmişdim, amma bu qör nə vaxt olmuşdu, taa... uşaqlığımda. O da xatirələrim kimi bu qün məndən çox-çox uzaqlarda qalmışdır. Zarafat deyil, aramızda əsr uzaqlığı var artıq...

Hər kəs bilir ki, ömür yolunda geriyə yol yoxdur, amma xatirələrə dönüş var, və bir gün məhz "Sevgilim" oyun havasi məni geriyə, qırx beş-əlli il əvvəl yaşanmış ömrün xatirələrinə qaytardı.

Belə bir deyim var ki, insan Allahın yaratdığı varlıqların ən mükəmməlidir. Heç şübhəsiz ki, bu belədir. Elə bircə ona diqqət edək ki, təbiətin yeddi möcüzəsinin qarşısına insan oğlu min bir möcüzəsi ilə çıxdı, xarüqələr yaratdı, elmi acılışlar, yeni-yeni kəşflər elədi, elmi-texniki tərəqqini inkişaf elətdirərək ağlasızmaz nailiyyətlər əldə elədi...

Lakin, bütün bu uğurların qarşısında insan bir tək öz imkanlarının hüdudlarını bilmir. Bir tək öz daxili aləmini, ruhunda bas verən sarsıntıları ya sonuna qədər anlaya bilmir, ya da, anlayırsa da, onu izah edə bilmir. Məsələn, bir də görürsən ki, burnunun ucundan xəfif bir meh kimi əsib keçən qoxudan, ya da, hardansa qulağına gələn bir melodiyadan, yaddaşında nələrsə oyanmaq istəyir, amma heyif ki, oyanmağa macal tapmamış uçub gedir, və sən qalırsan özünü yora-yora, axı nə idi bu?Nə idi

ildırım sürətilə beynimdən gəlib keçdi?Bircə onu bilirsən ki, o nə idisə, çox uzaqdan gəldi, keçdi , sən onu tuta bilmədin...

Ömrün dünəni də bu qün artıq bir xatirədir. Amma nə sirdirsə xatirələr nə qədər uzaqdan gəlirsə, bir o qədər əziz, bir o qədər də şirin olur.

Qırx-əlli il bundan əvvəl mağar toylarının ən sevilən oyun havası idi "Sevgilim"... O vaxtlar toylar toy sahibinin evinin qabağında qurulmuş toyxanalarda kecirilərdi. Məhlədə təşkil olunan hər bir toy, altı-yeddi yaşdan üzü yuxarı, qayğısız ömür sürən uşaqlar ücün böyük bayram idi. O qün hər kəs dərs oxumaq, ev işləri görmər kimi ciddi tapşırıqlardan azad olardı, hamı təzə paltar, geyim-kecim, toya getmək üçün yol yoldaşı tapmaq hayında olardı.

Belə haray-həşirli günlərdə ortalardan cəkilməyən, toy qayğıları ilə ora-bura qaçan böyüklərin əl-ayağına dolaşan, lakin heç nəyə və heç kəsə məhəl qoymadan öz dəcəlliklərinə davam edən uşaqların arasında mən də var idim. Bu qün nəvələrimin dəcəlliyini görəndə, riyakarcasına "Ay balam bunlar kimə cəkib nadinclikdə?"-desəm də, ürəyimdə gözəl bilirəm, mənə çəkiblər yaramazlar. Çox nadinc olmuşam uşaqlığımda. Leysan yağışda novalçanın altında durduğuma görə, dama dırmaşdığıma görə, həyətimizdəki tut ağacının lap kəlləsində oturduğuma görə çox tənbeh olunardım, amma əməlimdən əl çəkməzdim. Novalçanın altında durduğuma görə xəstələnər, damdan düşər, ağaca dırmaşanda paltarımı ilişdirib cırardım, bunların da mütləq cəzası olurdu. Di gəl ki, ertəsi qün yenə öz bildiyimi eləyərdim. Zamanında ata-anama nələr çəkdirmişəm, bir özüm bilirəm.

***

"Sevgilim"... Artıq nə vaxtdır ki, ruhuma hakim kəsilmiş həmən bu melodiyadan yuxularımla xatirələrim bir birinə qarışır, və hər ikisi də məni uşaqlığımın keçdiyi o dar dalanlara qaytarır. Yuxularımı kontrol edə bilməyəcəyimə görə, içimdən heç olmasa xatirələrimi səhmana salmaq gəldi. Ömrümün taa... o ucundan

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

yadıma gələnləri sətirlərə düzmək istədim. Heç şübhəsiz ki, üzün bir hekayət alınacaqdı, bir ömür qədər üzün hekayət... . Nələr yaşanmışdı o illər o dalanlarda?Fikrimi cəmləmək istəyirəm, qulağıma çox uzaqdan guclə eşidilən bir musiqi sədası gəlir, get-gedə ucalmağa başlayır və mən onu tanıyıram. "Sevgilimdir" çalınan. Səs, sanki mənə doğru gəlir, və arxasınca xatirələrimi çəkib gətirir. Nələr, nələr düşür yadıma...

"Sevgilim" çalınardı, məhləyə gəlin aparmağa gələn maşın karvanı girərdi, hamı bu səsə küçəyə çıxardı, bu gözəl oyun havasına qol götürüb oynayardı. Heç kəs təklif gözləməzdi, sanki boynuna duşən borcmuş kimi ortaya çıxıb sındıra-sındıra oynayardi. Qonşuların oynamaqdan əhd aldığı zaman, içəridə gəlini yola salma tələşları yaşanardı.

Birdən musiqi dəyişərdi,"Vağzalı" çalınardı, hamı geri çəkilərək, ata evindən birdəfəlik çıxan gəlinə, və onu gözüyaşlı yola salan ana-bacısına yol verərdi. Heç kəs bizə məhəl qoymasa da, biz hər şeyə diqqət yetirərdik, heç nə gözümüzdən qaçmazdı.

Gəlin karvanı hərəkət etmək istəyəndə karvanın yolu kəsilərdi, toy sahibindən xələt alardılar, biz də yerə tökülmüş şirniyyatı toplardıq. Düzü, gəlin yola salmağı çox da sevməzdik, çünki həm çox tez bitirdi, həm də gəlin gedəndən sonra məhləni bir həzin sükut bürüyərdi. Di gəl ki, toy bizdə olaydı, bax bu başqa aləm olurdu... Küçəmizin abi-havası, insanların əhvalı-ruhiyyəsi, uşaqların səs-küyü, mağar quran kişilərin qayğıarı, yemək bişirən qadınların vurnuxması,-bunlar hamısı böyük bir şənliyin təm-tərağından xəbər verərdi. Havada dolaşan quzu qovurmasının, yarpaq dolmasının, qazmağlı plovun ətri də hər kəsi məst edər, axşam dadacağı bu gözəl yeməklərin görüşünə tələsdirərdi.

Yaşlılarımızın dili ile desək, gün əyiləndə toy başlardı, nə başlardı...Ən şux, ən yeyin, ritmik havaları elə ucadan çalardılar ki, toyun başladığını hər kəs eşidərdi. Bundan sonra mağara axın başlardı. Maqara vaxtinda gələnlər, gecikənlər üçün yer saxlardı.

Mağar toyu, nə qədər sadə idisə, bir o qədər də şən idi. Mağar toyunda hörmət var idi, mərifət var idi, bərəkət var idi.

Mağar toyunun öz qanunları var idi, və bu qanunlara hamı riayət edərdi. Beləki, hər kəsin öz havasi var idi, hamı əvvəlcədən bilirdi ki, filankəs Qoçəlini, filankəs Şalaxonu, filankəs Süleymanini oynayacaq. Musiqini sifariş edən adam istədiyi şəxsi rəqsə dəvət edərdi, ürəyi istədiyi qədər rəqs edərdi, heç kim də bu rəqsə müdaxilə eləməzdi. Çünki, ədəb var idi. Oynayanların məharətini, rəqsin gözəlliyini rahat izləmək, hər xirda detalını görmək mümkün olurdu. Sıxlaşıb oturmuş qonaqlar da sanki bir münsif idi, hər rəqsin giyməti verilirdi "Əhsən vallah, filankəs cox gözəl oynadı".

Hər kəs toya həvəslə gəlirdi, gözəl iştirak edirdi, gücü çatan məbləği salıb gedirdi. Azmı yığılırdı, çoxmu yığılırdı, onu bilmirəm, amma bilirəm ki, bu məbləğdə bərəkət var idi. Biz uşaqlar toya ya qapı ağzından, ya da dəlmə-deşikdən baxirdiq. Adam o qədər çox olurdu ki, böyüklər içəri girdikcə, uşaqlar yerlərini onlara verib özləri qapi tərəfə çəkilirdilər. Beləliklə, bir də görürdük ki, çöldəyik. Lakin heç kim bundan inciməzdi, çünki böyük-kiçik var idi.

Mağar toyları... Xalqımın ən gözəl xüsusiyyətlərini, ən mərifətli cəhətlərini mən bu mağar toyu adlanan alaçıqlarda gördüm. Bizim xalqın sırf ona məxsus toy adət-ənənələrini, mətbəx mədəniyyətini, ifaçılıq məharətini, musiqi zənginliyini, dinləyici qabiliyyətini yaşadan sən demə məhz mağar toyları imiş. Çox kiçik yaşlarımda aşıq Şakirin, Islam Rzayevin, Hacıbaba Hüseynovun, Məmmədbağır Bağırzadənin, Niyaməddin Musayevin, Arif Babayevin, Rəmişin, sonralar, Aftandil Israfilovun, Ilhamənin, Zaur Rzayevin, Dadaşova bacılarının, və digərlərinin iştirak etdiyi mağar toylarında olmuşam. O zamanlar müğənnilər bu qədər əlçatmaz deyildilər. Əyər toy sahibi deyərdisə,"Niyyət eləmişəm, oğlumun toyunda sən oxuyasan,"--bunun bazarlığını eləməzdilər, atanın arzusunu müqəddəs sayıb onu qəbul edərdilər. Mağar toylarında kəramət var idi. Bu qədər səmimiyyəti özündə cəmləşdirən mağar toyları imkanlını da, imkansızı da eyni dərəcədə sevindirib eyni cür murada yetirərdi. Indi nə mağar toyları var, nə də "Sevgilim"-i

sifariş edən. Musiqiçilər də,"heç belə hava eşitməmişik"-desələr, təəcüb eləmərəm.

Çox təəssüf ki, son zamanların gətirdiyi bayağı dəbdəbələr hesabını insanın ruhuna deyil, gözünə tutaraq, müqəddəs saydığımız çox şeyləri həyatımızdan da, yaddaşımızdan da silib atdi. Təbiətcə unutqan xalq olduğumuz üçün, göz qamaşdıran mühitin təsirinə düşərək, qısa zamanda çox şeyləri unutduq, elə bil heç olmayıbmış, ya da elə bil o heç biz deyildik. Mənim üçün əziz olan bu toyları, sonralar palatka toyu adlandırıb gözdən saldılar və hamı üz tutdu şadlıq evlərinə. Həyatım boyunca sadlıq evində keçirilən çox toylara getdim, amma onlarin hec biri mənə mağar toyunun verdiyi sevinci vermədi, heç biri xatirimdə iz buraxmadı. Vaxtilə mağar toylarının hər birindən bir kitab təəssüratla dönürdüksə, növbəti toya kimi bu təəssüratlar dilimizdən düşmürdüsə, sonradan meydana çıxan şadlıq evlərinin toylarına, işə gedər kimi getməyə başladıq. Hər şey yeknəsək, hər şey yorucu, hər şeyin dadı qaçmış...Bir vaxtlar toya gedib dincəlirdiksə, bu günkü təbirlə desək, stres atıb müsbət enerji alırdıqsa, indiki toylara gedib qulaqbatıran əcaib-qəraib musiqinin yad ritmlərindən yorulur, ortada ayaq üstə güclə dayanan sərxoş kütlənun bəzən diskoteki, bəzən də mağara rəqslərini xatıladan atılıb-düşmələrindən bezib, bir-iki saatı güclə dözərək, yorğun-arğın, sanki beş-altı saat daş daşımışıq-kimi evə dönüb, "kaş heç getməyib pulunu göndərəydik"-demirikmi?Kaş ki, arabir oturub gəlirimizi-çıxarımızı hesablayaydıq, nələri itirdik, nələri tapdıq?Nə qədər götür -qoy edirəmsə, şadlıq evinin gözqamaşdıran çil-çırağı, təm-tərağı, zövqlə bəzənmiş tərtibatı, ərzaq bolluğundan dolub-daşan masaları yenə də xatirələrimdəki o dəmir boruların üstünə çəkilmiş çadırın, onun tozlu-torpaqlı döşəməsinin, taxta skamyalarının yanında ağır gəlmir ki, gəlmir. Bu bir nostalji deyil, ən azı ona görə ki, yaddaşımın ağlı-qaralı filmində burnumun ucunu göynədən çox xatirələr var, onları bir mövzu üzərində toplamaq mümkün olmasa da, mozaik parçalara bənzəyən yaddaş qırıqlarının hamısında mağar toylarından bir epizod var.

"Sevgilim... " Ruhuma hakim kəsilmiş xalq musiqisi. O mənim çox uzaqda qalmış əski günlərimin acili-şirinli xatirələrindən yoğrulmuş bir hekayənin təməl daşı olacaq.

Mənim və yaşıdlarımın hamısının toyu həmin o mağarlarda, "Sevgilim" rəqsinin ən dəbdə olduğu o dövrdə olmuşdu. Toy, əslində bütün qohum-əqrəbanın birlikdə iştirak etdiyi böyük bir şənlikdir, amma buna baxmayaraq, bütün qızlar nədənsə ata evindən gözü yaşlı cıxır. Toy günü təməli qoyulan ailə həyatında hələ nələrlə qarşılaşacağını bilməyən qızlar, ata evində keçirdikləri qayğısız günlərinə bir də heç vaxt qayıda bilməyəcəklərini, "uşaqlığım" adlandırdıqları dövrün bitdiyini, bundan sonra tamam başqa bir həyat yaşayacaqlarını anlayırlar. Bu duyğuları mən də yaşamışam, və bilirəm ki, toy gecəsi, əslində uşaqlığın son gecəsi deməkdir. Bəlkə elə buna görədir ki, "Sevgilim" kimi ritmik bir oyun havası belə, urəyimin sarı siminə toxunur, məni elə kövrəldir ki, melodiya başlayandan bitənə kimi gözümün yaşı sel olub axır, və mən buna heç cür mane ola bilmirəm.

"Sevgilim" çalınır, gözümü yumuram, xatirələrim keyfiyyətini itirmiş, qırıq-qırıq olmuş kino lenti kimi yaddaşımdan gəlib keçir, gözümün yaşı yanağımdan sel kimi axır... . Əbəs yerə deyil ki, xatirələrimizin acısını da, şirinini də, eyni həsrətlə, eyni ürək ağrısı ilə yada salırıq. Çünki, hər acıda bir şirin, hər şirində bir acı xatirəmiz var... .

BİRİNCİ HİSSƏ

Səməngül adlı sarışın bir gözəlin həyat hekayəsi, uzaq keçmişimdən yadıma gələn acı xatirələrimdəndir. O, mənim ən yaxın rəfiqəm idi, bir həyətdə böyümüs, bir sinifdə oxumuşduq. Əslinə baxarsan, Səməngüllə keçirdiyimiz o dövr bizim ömrümüzün demək olar ki, ən qayğısız hissəsi idi. Bir yandan uşaqlığımızın günəşi bol, sevinci bol günlərindən danışarkən "acı" sözünü işlətməyə dilim gəlmir, digər tərəfdən də, Səməngülün uğursuz talehi onu sevənlərin həyatina bir acılıq qatdı, və mən bu gün də o acını unuda bilmirəm. Bir şeyə fikir vermişəm ki, əyər bir insanın hər şeyi gözəldirsə, yəni siması gözəl, xasiyyəti gözəl, niyyəti gözəl, o insanın talehi mütləq acı olur. Nədəndir, bilmirəm, amma gözəl insanların uğursuz taleh kimi bir qisməti var. Səməngülün hər şeyi gözəl idi, boy-buxunu, qaş-gözü, sarışın saçları, nəğməyə bənzər həzin səsi, üzünə nur çiləyən gülüşü, hamısı gözəl idi. Amma sadaladığım bu gözəlliklərin hamısı onun ürəyindən su içmişdi, Səməngülün ürəyi çox gözəl idi. Ətrafindakı insanlara qarşı qayğıkeş idi, heç kimin qəlbinə dəyməzdi, heç kəsə pislik arzulamazdı. Onun bu gözəlliklərinin fərqinə varanda, bizim artıq on dörd-on beş yaşımız var idi. Bundan neçə il əvvəl isə, Səməngül də başqaları kimi bütün günü küçədə gizlən -paç, ip atdı, sinif-sinif oynayan balaca bir qizciğaz idi. Bu yaşda hələ dost nədir, dostluq necə olur, bilməsək də, bircə onu bilirdim ki, küçəyə çıxan kimi urəyim onu istəyirdi, gözüm onu axtarırdı. Hər dəfə evdən çıxanda, anam əlimə ya iki alma, ya iki konfet, ya da başqa nəsə verərdi, və tapşırardı ki, dostlarımla paylaşım. Mən də o qədər uşağın içində, ancaq Səməngülü tapar, onunla paylaşırdım. Bir yerdə oynadığımız yeddi-səkkiz uşağın arasında, o da mənimlə daha yaxın idi. Xasiyyətimizdə oxşarlıq vardı, amma hələ o vaxt anlamışdım ki, o daha gözəl, və daha istedadlı bir qız olacaq. Mənim yerimə başqası olsaydı, bəlkə də onun paxıllığını çəkərdi, mənsə, onunla qürur duyurdum, çünki, onu çox sevirdim, onu

özümə bacı bilirdim. Hər yerə qoşa gedərdik, birlikdə dərs edərdik, gah o bizə gələrdi, gah mən onlara gedərdim.

İbtidai sinifdə oxuduğumuz illəri günümüzün çox hissəsini bir yerdə keçirirdik. O qədər bir yerdə dərs hazırlamışdıq ki, xəttimiz də eyni olmuşdu. Bəzən müəllimlərimiz yazılarımızı səhv salardı. O vaxt ibtidai sinif dörd illik idi. Bu dörd ildə biz bir-birimizə çox bağlandıq, bütün günü bir yerdə olurduq, yalnız yatmaq vaxtı gələndə ayrılırdıq. Rəhmətlik anam deyərdi ki, heç doğma bacı olsaydılar bir-birinə bu qədər bənzəməzdilər, bu qədər mehriban olmazdılar. Yaxsi ki, rəngləri fərqlidir. Anam düz deyirdi, əslində biz ruhən çox oxşar idik, eyni cür düşünürdük, eynu şeyləri sevirdik, sevmədiklərimiz də eyni idi. Amma daxilən çox bənzər cəhətimiz olsa da zahirən fərqli idik. Səməngül sarışın idi, mənsə əsmər...

***

İllər ötdükcə biz böyüyürdük, dostluğumuz daha da möhkəmlənirdi.

Bir -necə il keçdi, biz ibtidai sinifi bitirdik. Valideynlərimizin qayğıları bir az da artdı. Əyər ibtidai məktəbimiz məhləmizdə, lap evimizin qabağında idisə, indi biz şəhər məktəblərindən birində təhsilimizi davam etdirməli olacağdıq. Bu da o demək idi ki, biz indi şəhər nəqliyyatından istifadə etməli idik, evdən xeyli uzaqlaşmalı idik, yeni kollektivə alışmali idik, yeni müəllimlərə özümüzü tanıtmalı idik... Əlbəttə, valideynlərimiz bizi tək buraxmayacaqdı, onlar da hamı kimi bir müddət bizi aparıb-gətirəcəkdilər. Anamla Sona xala çox tez məsələni planlaşdırdılar, biri bizi səhər aparacaqdı, o biri də günorta gəlib gətirəcəkdi. Həyatımızdakı ilk dəyişiklik bizi çox həyəcanlandırmışdı, gorxu ilə sevinc bir-birinə qarışmışdı. Bir yandan irəlidə bizi nə gözlədiyini, hər şeyin yaxşımı, pismi olacağını bilmədiyimiz üçün qorxurduq, o biri yandan da, az da olsa böyüdüyümüzü hiss edib sevinirdik. Belə yerdə deyirlər ki, qız uşağı hər sevindiyində bir arpa boyu böyüyür...

Biz bilirdik ki, rast gələcəyimiz çətinliklərdə, dostluğumuz bizə dayaq olacaq, ona görə də yay tətilinin sona gəlməsini, yeni məktəbə gedəcəyimiz ilk günü, artıq səbirsizliklə gözləyirdik.

Vaxt gəlib çatdı. Yay tətilinin son gecəsi idi. Axşamdan həyətlərdən ucalan danışıq səsləri, şən qəhqəhələr, get-gedə azalırdı. Hər evdə yeni dərs ilinin başlanacağı sabahki günə ciddi hazırlıq gedirdi. Bəlkə də çoxları sabah yatıb yuxuya qalmasın deyə, ertədən hər hazırlığını edib yerinə girib yatmışdı. Saat çox gec idi, amma nə mən yatmışdım, nə də Səməngül.

Gündüzdən ikimiz də sabah geyəcəyimiz məktəbli paltarını səliqəyə salmışdıq. Tərs kimi paltarımız da eyni idi, anamgil bu geyimləri qonşumuz alverçi Tufan xaladan almışdılar. Tufan xala o vaxt məhlənin ən hörmətli adami idi, çünki Moskvaya hər kəs gedə bilmirdi, amma kimə nə lazim olsaydi Tufan xalaya sifariş edirdi, o da alib gətirirdi. Tufan xala hər Moskvaya gedəndə necə-necə evdə onun yolunu həsrətlə gözləyən olurdu. Bu yay biz də onun yolunu həsrətlə gözləyənlərdən oldug, çünki ikimizin də anamız ona məktəb geyimi sifariş eləmişdi. O illər satılan mallar çox gözəl idimi, ya da Tufan xalanin gözəl zövqü vardımı, bilmirəm, ancaq onu bilirəm ki, bu qadın bizə elə gözəl paltar alıb gətirmişdi ki, hamının gözü qalmişdı. Badımcan rəngində gofre yubka, və qar kimi ağ atlasdan kofta. Ikimizə də ağ ayaqqabı, ağ qısa corab, qırmızı atlasdan pioner qalstuku, və uclarında rəngli kəpənək rəsmi olan ağ lentlər almışdı. Bu dəst əyində çox gözəl qalırdı və bir-birini tamamlayırdı. Biz Tufan xalanın tapşırdığı kimi yubkalarımızı kapron corabın içinə salıb yatağımızın dəmir başından asmışdıq. Koftaları çox ehtiyatla ütüləyib yükün üstünə sərmişdik. Corabları, qalstuku, lenti və ayaqqabıları da göz qabağına qoymuşduq ki, sabah bizi gecikdirəcək heç bir səbəb olmasın. Məktəb çantamız da, dərs kitablarımız da, qələm-dəftərimiz də, hamısı yeni alınmışdı. Axşamdan kitablarımıza üz çəkmişdik, çantamıza lazımı qədər dəftər qoymuşduq, rəngli qələmləri yonmuşdug, bir sözlə, əməlli-başlı hazırlıq görmüşdük. Bu qədər gözəl əşyaların, yeni geyimin, yeni çantanın gətirdiyi sevinc köksümüzə sığmırdı, odur ki, yuxumuz ərşə çəkilmişdi.

Səməngül evlərinə getdi, mən də yerimə girib yatmaq istədim, amma yata bilmədim. Birdən ağlıma bir fikir gəldi. Heç inanmazdım ki, anam icazə verə, amma mən deyəndə ki, "ana, icazə ver bu gecə Səməngüllə mən yerimizi damda salıb orda yataq,"-anam əvvəl, "bircə bu qalmışdı"-dedi, sonra isə, "soyuq olmaz ki?"-deyə soruşdu. Bu razılıq demək idi, anam fikirini dəyişər deyə "olmaz, olmaz,"-deyib Səməngül gilə qaçdım. Görünür analarımız da bir -biri ilə çox gözəl anlaşırdılar, çünki, əyər bir şeyə biri razılıq verərdisə, o biri də sözü çevirməzdi. Anam damda yatmağımıza icazə vermişdi deyə, Sona xala da bir söz demədi.

O gecə, səs olmasın deyə, ayağımızın ucunda anamın köməyi ilə yükümüzü dama daşıdıq, yerimizi döşədik, soyuq olmasın deyə, elə geyimli-geyimli yerimizə girdik. Avgust ayının son gecəsi idi, və artıq gecələr sərin keçirdi. Çox xoşbəxt idik o gecə, uçmağa qanadımız yox idi. Ilk dəfə özümüzü arzuların zirvəsində hiss edirdik. Bu günün təm-təraqlı hazırlığı ilə, bu gecənin qaranlığı qeybə çəkən aydınlığı ilə, başımızın üstündə sayrışan irili-xırdalı ulduzların kəh- kəşanı ilə ürəyimizə dolan sevinc, əslində həyatımızın sabah yaşamağa başlayacağımız yeni səhifəsindən bu günümüzə uzanan cığırı idi. Bu cığırı biz yuxuda ikən qət edərək, sabah açılanda ömrümüzün yeni səhifəsinə başlayacağdıq. Hələliksə, ətrafımızda gecənin səssizliyini pozan cırcırama səsləri, damımızı divar kimi sarıb ətrafdan bizi görünməz eləmiş üzüm tənəklərindən galxan xoş ətir, başımızın üstündə sayrışan ulduzlar... bir də biz.

-Sən böyüyəndə kim olacaqsan?--bunu o soruşdu.

-Müəllim, bəs sən?

-Mən həkim olacağam,--dedi Səməngül, və mən ilk dəfə aramızda bir fərq olduğunu anladım, -arzularımız fərqli idi. Bu günə kimi bu mövzuya toxunmamışdıqsa da, mən hər zaman elə bilmişdim ki, biz həyatda mütləq eyni sənəti seçəcək, eyni həyat yolu keçəcək, hətta bütün ömrümüzü də eyni cür yaşayacağıq. Səmimi uşaq xəyallarımda hər şeyin belə olacağına inandığımdan, Səməngülün cavabı mənim üçün gözlənilməz

oldu. Bu qısa dialoqda fövqəladə heç bir şey yox idi, hətta bu gün mən əminəm ki, çox insanların talehində damda uzanıb ulduzlara baxa -baxa bir-birindən "böyüyəndə kim olacaqsan," deyə bir xatirəsi də var. O gün mən ən yaxın rəfiqəmlə aramızdakı ilk fərqi gördüm. Bu gün arxada bir ömür buraxdığım üçün deyə bilərəm ki, insanlar çox şeydə bir-birinə bənzəyə bilərlər, amma hardasa, nədəsə onların bir fərqi mütləq vardır, və bəlkə də məhz bu fərq onların talehindəki fərqliliyin başlanğıcıdır. İnsanların bir-birinə bənzəməsi talehlər üçün keçərli deyil, hardasa mütləq bir fərq olacaq, və o fərqə görə də, onlar fərqli talelər yaşayacaqlar. Səməngüllə mənim kimi... . .

Yeni dərs ilinin başlandığı o gün xatirimdə dumanlı bir iz buraxsa da, həmin günü əks etdirən yeganə ağ-qara şəkil çox şeyləri yadıma salan, yeni məktəbdə, yeni insanlarin arasinda, özümüzü çox qərib hiss elədiyimiz, və həyəcandan unutduğumuz xirdalıqları xatirimdə bərpa edən çox qiymətli bir yaddaşdır. O gun güclü hisslərin, həyəcanların burulğanında nələr yaşadıqsa, hamısı o fotosəklin arxasında qaldı. Fotosəkildəki görüntüdə isə müəllim, şagird və valideyin toplumundan bir izdiham arxa planı təşkil edirdi. Öndə isə, orta planda eyni boy-buxunda, eyni geyimdə, əllərində çəhrayı gizilgüllərdən böyük dəstələr tutmuş biri sarışın, biri də əsmər iki qız dayanmışdı. Bu biz idik. Səməngülün yanında mənim anam, mənim yanımda Sona xala... Hamımızın üzündə xoş bir təbəssüm var. Bu təbəssüm fotoqrafçının adətən düyməni basmadan əvvəl verdiyi "gülümsəyin" komandasına uyğunlaşmış məcburi aksiya deyildi, bu təbəssüm bizim içimizdən gəlirdi, çünki yaşadığımız bütün gərginliklərə baxmayaraq, o gün hər şey və hər kəs cox gözəl idi...

2. İllər su kimi axıb keçirdi. Gözümüzü açib-yummamış daha dörd il arxada qaldı.

Bu arada uğurlarımız da oldu, öhdəsindən gələ bilmədiyimiz uğursuzluqlar da. Sevindiyimiz günlər də çox oldu, pərişan olduğumuz günlər də. Ağlayan və gülən günlərimizin hesabını aparmasaq da, ağlayan günlərimiz də, gülən günlərimiz də yetərincə

oldu. Dərs oxumağa boyük bir həvəslə girişdiyimizdən özümüzdə baş verən dəyişiklikdən xəbərimiz yox idi. Sən demə, bu ötən illər ərzində bizim həm xarakterimiz, həm də xarici görünüşümüz xeyli dəyişibmiş. Bunu bizə hiss etdirən, oğlanların bizə yönəlmiş oğrun baxışları oldu. Bir gün mən güzgüyə daha diqqətlə baxanda, qarşımda "qızlar bulağından su içmiş," yaraşıqlı bir qız gördüm. İndiyə qədər hər güzgüyə baxanda ürəyim sıxılırdı, gördüyüm adi, heç bir xüsusi gözəlliyi olmayan, üstəlik tez-tez də sızaqlarla daha da çirkinləşən eybəcər ördək balasının yerinə indi, güzgüdən mənə qarabuğdayı, suyuşirin, gözlərinin qarası alışıb yanan gənc bir qız baxır, mənalı-mənalı gülümsəyirdi. Özümdə bu dəyişiklikləri hiss elədiyim o günlərdə rəfiqəmə göz qoydum, düzünü deyəcəyəm, Səməngül olan yerdə, gərək heç kim özünə gözəl deməyəydi. Allahdan ona verilmiş gözəllik mükəmməl idi, tam idi. Mütənasib bədən, uca boy, ağ bəniz, qələmlə çəkilmişə bənzər qaş-göz, inçə ağiz-burun və bütün bunların tamamında sarışın uzun saçlar. Hörülmüş halında ilan kimi qıvrılan, açılıb darananda şəlaləyə bənzəyən sarışın saçlar... .

Səməngülün bu gözəllikləri onu sevənlərin fəxri idisə, onun özünün baş bəlası olacaqdı. Çünki ətraf mühit bu gözəlliyə biganə qala bilmirdi, kimi ona həsəd aparırdı, kimi onun paxıllığını çəkirdi, kimi də ona aşiq olurdu. Təkcə biganə qalan yox idi ki, bu da məsələnin ən pis tərəfi idi. Səməngül xasiyyətcə çox sadə qız idi, gözəlliyindən xəbəri olsa da, eşitdiyi tərifl ərdən qulağı döyənək olsa da, yerişini itirməz, ağır oturub batman gələrdi. Sinifdəki qızlar ona qibtə eləsələr də, xasiyyətinin yumşaglığına görə nə inciməyə, nə də ondan üz döndərməyə bir səbəb tapa bilmirdilər. Bu cəhət bəzilərini lap dəliyə döndərəndə isə, onlar qarşılarında məni görürdülər. Səməngül nə qədər üzüyola idisə, mən bir o qədər sərt xarakterli idim. Ona yönəlmiş haqsızlıqları anındaca geri qaytarırdım. Mən bilirdim ki, rəfiqəmin müdafiəyə ehtiyacı yoxdur, o hər kəsin cavabını sərt də olmasa, çox mədəni şəkildə verə bilər, lakin vaxt olurdu ki, onun hövsələli davranışı məni onun yerinə danışmağa məcbur edirdi. Çox mehriban idik o zaman. Ən gizli sirlərimizi də bir-birimizə etibar edə bilirdik.

Aradan keçən illərin yazı da, qışı da, yayı da, payızı da bizim birlikdə keçirdiyimiz aylar, illər oldu. Tək bir dəfə yay tətilini bir-birimizdən ayrı keçirdik, onda da mən Bakıda yağışa düşüb xəstələndim. Sonradan məlum oldu ki, Səməngül də Qubada nənəsigildə soyuqlayıb xəstələnib. Bu bir təsadüf idi bəlkə, amma bu həm də bir-birinə bağlı iki insanın həsrəti də ola bilərdi. Aramızı vurmaq istəyənlər az olmamışdı, amma bütün cəhdlər boşa çıxırdı, çünki dostluğumuzun təməli möhkəm idi, bizi çox şey bağlayırdı. Mən onu, o da məni özü kimi tanıyırdı. Dilimizə gətirməsək də, ürəyimizdə ikimiz də fikirləşirdik ki, bu dostluğun ömrü həyatımızın sonuna kimi olacaq...

Səkkizinci sinifdə idik. Sinfimizdə iyirmi altı şagird vardı. Bunlardan on dördü qız, on ikisi isə oğlan idi. Yaşımızın ən çətin dövrü idi. Bu yaşda gənclər həm böyüyür, həm də xaraktercə formalaşır. İlk sevgi, məhəbbət də bu illərdə gənc ürəklərə yol tapır. Sevib-sevilmək həvəsi bu yaşda çox güclü olur. Sinif yoldaşlarımın arasında da bir-birini demək olar ki, dəlicəsinə sevənlər var idi. Adı dillərə düşmüş sevgililərdən biri də Lalə ilə Rasim idi ki, özlərini lap nişanlı kimi aparırdılar . Bu sevgililəri hər yerdə baş- başa görmək olardı. Onlar adətən öz aləmlərində olurdular. Ətrafda baş verənlərdən, onlara göz qoyan muəllimlərdən, yaranan dedi qodudan xəbərsiz, onlar tənəffüsdə də məktəbin bağçasında dolaşırdılar. . Hər yerdə, hətta dərsdə də bir yerdə olurdular, bir parta arxasında otururdular. Onlarin munasibəti o qədər aşkar idi ki, bir ara muəllimlər hətta onları ayırmağa cəhd göstərdilər, amma Rasim bir dəlilik elədi ki, hər kəs bu yaxınlığa daha ciddi, daha təmkinli yanaşmağa başladı. Ömrümüzün çox maraqlı dövrünü yaşayırdıq o vaxtlar. O qədər səmimi idik ki, ürəyimizin aşıb daşan hisslərini mütləq kiməsə danışmaq, öhdəsindən gələ bilmədiyimiz bu güclü duyğuları içimizdən atmaq istəyirdik. Bu səbəbdən də kimisi gündəlik tuturdu, kimisi şer yazırdı. Bir gün sinif yoldaşlarımdan Ceyran mənə bir şer yazılmış dəftər göstərdi. Şerlərdən birində sətirlərin baş hərflərindən mənim adım alınırdı. Xəttindən dəftərin sahibini müəyyən eləmişdim, bu Səlimin dəftəri idi. Əslində mən çoxdan Səlimin mənə biganə olmadığını hiss eləmişdim, amma

onun belə bir məşğuliyyəti olduğunu ağlıma gətirməmişdim. Onun bu cəsarəti məni özümdən çıxartdı, onsuz da onun məni daim təqib eləyən oğrun baxışları məni çox əsəbləşdiridi. Əvvəla mən hələki sevgidən çox uzaq idim, ikincisi də Səlim nə görünüşcə, nə də xasiyyətcə mənim xəyalımdakı qəhrəmana bənzəmirdi. Odur ki, düşmüş bu fursətdən istifadə edib, ona dərs vermək qərarına gəldim. Boş yerə ümid bəsləməsin deyə, dəftəri parça-parça edib lap elə onun gözünün önündə zibil vedrəsinə atdım.

--Səlim, daha artıq gözümdən düşmək istəmirsənsə, əvvəla bu fikirləri başından at, sonra da bu şit hərəkətlərinə son qoy!--dedim, və o gündən onu bir daha dindirmədim. Səlim o gündən sonra çox dəyişdi, özünü çox ciddi aparmağa başladı. Görünür dərdini içinə atmişdı, amma bu daha məni maraqlandırmadı. Səməngül məni qınadı, "qəddarsan ha... dostum,"--dedi. Mən də ona zarafatla cavab verdim:"Sən ki həkim olacaqsan, bəzən sağlamlıq naminə ağrılı yeri kəsib atmaq lazımdır. " Mənim bu sözümə Səməngül gülümsəməklə cavab verdi.

Sinifimizdə hər hərəkəti ilə məni əsəbləşdirən ikinci adam Almaz adlı qız idi. Onu gördüyüm ilk gündən sevməmişdim. Boyca balaca, görkəmi kötük kimi, gözləri qurbağa gözü kimi domba, əlləri kündə kimi, barmaqları qısa--daha bu qızda olmayan eyib yox idi. Özü çirkin olmaqla yetməmişdi, bir də xasiyyətcə çox iyrənc qız idi. Riyakarlıq, yalançılıq, yaltaqlıq--bir sözlə mənfiyə doğru böyük bir zənginlik vardı bu qızda. O vaxtlar "simsiz teleqraf" ifadəsi var idi, yəni hər şeyə burnunu soxan, hər kəs barədə məlumat toplayan, lazım oldu, olmadı bu məlumatı yayan--bir sözlə, dedi-qoduçu. Bu ifadə elə bil Almazın boyuna biçilmişdi. Onun hər hərəkəti məni hövsələdən çıxardırdı. Görünür mən hər halda çox səbirsiz idim, çünki mənim bacılığım Almazı o qədər də pis qız hesab eləmirdi, ürəyinin genişliyindən, hətta belə bir insanı da normal qəbul edir, ünsiyyət saxlamasa da, mənim kimi dava da salmırdı. Dava salmırdını ona görə deyirəm ki, günlərin bir günü mən Almaza bir yağlı şillə çəkməli oldum. Bunun üçün o özü səbəb verdi. İdman dərsinə girəcəkdik, əynimizi dəyişmək üçün soyunma otağına girmişdik. Oğlanlarla

qızların soyunma otağı üz-üzə olduğu üçün hər qapı açılanda ehtiyat edirdik ki, o tərəfdən bizi soyunmuş halda görən olmasın. Almaz idman dərsini heç sevmirdi ki, bu da təbii idi. İdman bildiyimiz kimi sağlamlıq deməkdir, və xəstə ruhda sağlam bədən mümkün olan şey deyil. Hər kəs idman dərsini səbirsizliklə gözlədiyi halda, Almaz tez-tez yalançı bəhanələr gətirib idman dərsinə girmirdi, çünki sağlamlıq onun xarakterinə uyğun gəlmirdi. Dərsə girmirdi dediyim, yəni əynini dəyişmirdi, skamyada oturub dərsə tamaşa eləyirdi. Bu dəfə də Almaz xanım dərsə girməyəcəyinə görə əynini dəyişmirdi. Qızların demək olar ki, hamısı üst paltarını soyunmuş, idman formasını isə hələ geyinməmişdi. Həmin bu an, oğlanların otağının qapısı açıldı, oğlanların hay-küyü eşidildi. Almaz elə bil bunu gözləyirmiş kimi, bir qəfil qapını taybatay açdı, qızların qışqırıq səsləri aləmi başına götürəndə, Almaz yenidən qapını örtdü. Hamımız onun üstünə hücum çəkdik:

--Bu nə biabırçılıq idi sən elədin?-deyə mən soruşdum.

Almaz gülməkdən uğunub gedirdi, sanki burda elə bir gülməli hadisə baş vermişdi ki, Almaz da belə reaksiya verirdi. Mən özümü güclə saxlayırdım ki, Mirvari irəli cixib soruşdu:

--Nəyə gülürsən? Burda gülməli nə var?Cavab ver görək niyə belə elədin? İndi biz oğlanların üzünə necə baxacağıq?

Almaz hələ də gülə-gülə :

--Bahoo... Hay-küyə bir baxın... Birincisi, mən bunu bilə-bilə eləmədim, çaşıb açdım, ikncisi, dünya dağılmadı ki, üçüncüsüdəki, bəlkə də hamınızın ürəyindən oldu ki, oğlanlar sizi soyunmuş halda gördülər. Minnətiniz olsun!-dedi və böyük bir igidlik eləmiş kimi burnunu yuxarı qaldırıb keçmək istədi. Bu zaman mən onun qolundan tutub özümə sarı çevirdim və üzünə yağlı bir şillə çəkdim. Nə Almaz, nə də qızlar bunu gözləmirdilər. Hamı bir anlıq donub qaldı. Sükutu Lalə pozdu:

--Aldın payını?Azdır sənə, bundan sonra hərəkətlərinə diqqət edərsən!- dedi və məni ordan uzaqlaşdırdı.

O hadisədən sonra neçə müddət oğlanların üzünə dik baxa bilmədik, bizi necə görmüşdülər, ya heç görməmişdilər, onu da

bilmədik. Amma o gündən mən Almaz adlı qızı bir daha dindirmədim. Elə bil ürəyimə dammışdı ki, bu mənfur qız irəlidə bizlərdən kiminsə həyatını alt-üst edəcək. Ürəyimin bu narahat fikirlərini bir gün Səməngülə deyəndə, az qaldı bir-birimizdən inciyək. Mən ona deyəndə ki, bu qızdan nə desən gözləmək olar, Səməngül cavabında:-Sən də şişirtmə canım, insandır da. Qəlbini geniş elə, bu qədər dərinə getmə. -dedi.

Bu söz qəlbimə toxundu, incidiyimi gizlətməyə çalışaraq:

--Lap məətəl qalmışam sənə, Səməngül. Axır vaxtlar sənin liberallığın lap biganəliyə bənzəyir. Pisə pis, yaxşıya yaxşı demək nə vaxtdan qəbahət olub?Birdə ki, mənim qəlbim stadion-zaddır bəyəm, ağına-bozuna baxmadan kim gəldi yığım ora?-hiss elədim ki, çox sərt dedim bu sözləri. Ürəyimdən bir sızıltı keçdi. Bu nədir, mən ən yaxın rəfiqəmlə dil tapa bilmirəm yoxsa?Biz kimə görə mübahisə edirik?Niyə son zamanlar əvvəllərdə olduğu kimi həmfikir deyildik?Bu sualları özüm-özümə verirdim, cavabını da özüm bilirdim:biz böyüyürdük, biz dəyişirdik. Boyüməyimiz məni nə qədər sevindirirdisə, dəyişməyimiz bir o qədər qorxudurdu. Mən ən yaxın rəfiqəmi itirmək, ondan ayrılmaq istəmirdim. Nə qədər qəribə səslənsə də, o artıq mənim ürəyimin bir parçasına çevrilmişdi.

Aradan bir xeyli vaxt keçmişdi ki, Almaz yeni bir iyrənc hərəkəti ilə özünü ifşa etdi. Kimin ağlına gələrdi ki, günlərin bir günü Almaz Lalənin anasına rast gələcək, və Lalə ilə Rasimin məhəbbət macərasını eybəcərləşdirmiş formada ona danışacaq. Beləcə Lalənin də, Rasimin də evdə günü qara oldu. Xeyli vaxt Lalə dərsə gəlmədi, Rasim dəliyə döndü. Nəhayət, müəllimlərimiz bu işə qarışmağı qərara aldılar, onlar hər iki anamı məktəbə çağırdılar. Müəllimlər otağında nələr danışıldı, biz bilmədik, amma ertəsi gün Lalə dərsə gəldi və əvvəlki kimi Rasimin yanında oturdu. Sonra o bizə hər şeyi danışdı. Rasim bu işlərin Almazdan keçdiyini biləndə az qaldı onu öldürsün, yoldaşlarımız mane oldu. Rasim ona ağzından çıxanı deyəndə mənim ürəyimdən tikan çıxdı. Lalə bizə danışdı ki, onun anası qız anası olduğu üçün heç nə danışmayıb, üstəlik qorxub ki, Rasımın anası nəsə

xoşagəlməz sözlər danışar. Xoşbəxtlikdən, hər şey tam tərsinə olub. Rasimin anası deyib ki, "balalarımızın hisslərinə hörmətlə yanaşaq, gələcəkdə nə qismətsə, o da olacaq. Onlar da ağıllı olsunlar, hərəkətlərinə fikir versinlər, ədəb çərçivəsindən çıxmasınlar. Məktəbi bitirsinlər, ondan sonra bu məsələni muzakirə edərik. "Eşitdiklərimə çox sevindim, nə qədər alicənab, nə qədər mədəni bir insan imiş Rasimin anası! Lalə ilə Rasimin məhəbbəti növbəti sınaqdan qalib çıxdı, yamanlıq Almaza qaldı. Onu da deyim ki, bu hadisədən sonra Səməngül mənim Almaza olan nifrətimə haqq qazandırdı. Beləcə bizim də dostluğumuz növbəti sınaqdan çıxmış oldu...

3. O ili, Bakida elə istilər düşdü ki, dərs ili bitər birməz, köçümüzü götürüb bağa getdik.

Bağ evlərimiz də Buzovnanin Vişnyovka sahəsində üz-üzə idi. Darvazalarımız bir birinə baxırdı. Orda da qonşü- qonşü oynayan üşaqlar kimi, gah Səməngülgil bizə gəlirdi, gah da biz onlara keçirdik. Axı, hər kəs öz həyətində oturub nə edəcəkdi?Bağda təklik adamın bağrını yarar. Bağ həyatının ləzzəti ondadır ki, bir yerdə biş-düş edəsən, süfrə açasan, samovar qaynadıb çay dəsgahı qurasan. Yeyib içəndən sonra da ya loto, ya domino, ya da nərd oynayasan. Dənizə çimməyə gedəndə də adam nə qədər çox olsaydı, o qədər şən və maraqli olurdu. Bağda keçirdiyimiz günlərin xatirələri o biri ilin yay tətilinə qədər bəs eləyirdi. Zeynəb Xanlarovanın şən nəğmələri, üzüm, əncir, yemiş-qarpız qoxusu, xoruz səsi--bağ həyatını xatırladan ən birinci əlamətlər idi. Bir də dənizin uğultusu... Uşaqlıqdan dənizi çox sevirəm. Bir vaxtlar dənizdən uzaq düşmüşdüm, dənizi görmürdüm, amma onu unutmurdum, hər zaman səsi qulağımda idi. Bəlkə sahil şəhərində doğulduğum üçün, bəlkə uşaglığımı dəniz sahilində keçirdiyim üçün, dənizə bu qədər vurğun idim. Bu səbəbdəndir ki, bağ xatirələrim ömür kitabımın ən mənalı səhifələrindəndir. İndiki kimi yadımdadır, axşamin sakitliyində hələ soyumamış qumun üstündə uzanıb radioya qulag asırdıq... Əminə Yusifqı-

zının hamımıza doğma olan səsində Müşfiqin "Yenə o bağ olaydı" şeri oxunurdu. . O yandan da, ay işığında yorğun-yorğun yırğalanan dənizin sahilə sığal çəkən ləpələrinin güclə eşidilən pıçıltısı, sanki bizə layla çalırdı. Yarıyuxulu, yarıoyaq biz də, bağ qonşusu olmuş iki gəncin məhəbbət dolu arzularının, gizli əhd-peymanlarının şahidi olurduq, sanki... .

Bağ mövsümünü həmişə qonaqlı, qaralı xatırlayıram. Bu doğurdan da belə idi. Vacib işləri üzündən şəhərdə ilişib qalanlar, başqa bağda yaşayanlar, ya da bağı olmayanlar tez-tez bizə qonaq gəlirdilər. Günün hər saatında kimsə gələ bilirdi, və biz artıq buna alışmışdıq. Ara günlərdə qonaq gəlməyə bilərdi, amma şənbə və ya bazar günü mütləq kimsə gəlirdi. Bazar günü idi. Anamgil tezdən qalxib bazara getmisdilər. Ən yaxşı bazar elə bazar gunu olurdu. Digər tərəfdən də bazar gunu olduğu uçun evdə hər şey olsa yaxşı idi ki, bir qəfil gələn olsa, üzümüz utanmasın. Anam həmişə belə deyirdi. Bu dəfə də baxmayaraq ki, hava çox isti idi, Allah qonağının qarşısına əliboş çıxmamag xatirinə anamla atam bazara getmişdilər. Onlar birlikdə bazara getməyi, yüz ölçüb bir biçə-biçə alış veriş eləməyi, bazar meydanındakı dükanların hamısını gəzib dolaşmağı çox sevirdilər, odur ki, evə axşam sərinlik düşəndə gəlib çıxırdılar. Saat on olardı, amma artıq çox isti idi. Əsil dəniz havası idi. Qardaşım Rəşad məni çağırıb dedi:

--Həyat, nə gədər ki, hələ heç kəs gəlməyib, çağır Səməngülü də, gedək bir az dənizdə çimək.

Mənim ürəyim gedirdi çimməkdən ötrü, ona görə sevincək dedim:

--Düz deyirsən, yenə Allah bilir kimlər gəlib çıxacaq, bütün planlarımızı pozacaq. Qoy çağırım, gedək.

Bunu deyib Səməngülgilə qaçdım, elə darvazadan içəri girmişdim ki, həyətdə yad adamları görüb özümü itirdim. Sona xala dadima çatdı:

--Həyat, qızım, Səməndül içəridədir, keç içəri,-dedi. Mən də qonaqlara yavaşca salam verib içəri keçdim. Sona xala ilə Mahmud əminin gərgin olduğu da gözümdən qaçmadı. İçəridə Səməngülü divanda qollarını sinəsində çarpazlayıb oturmuş gördüm. Üzünün

ifadəsi nə isə xoşa gəlməyən bir hadisənin baş verdiyindən xəbər verirdi. İlk dəfə onu bu cür görürdüm, qız sanki daş heykəl idi. Üzümə də baxmırdı. Ona yaxınlaşıb qarşısında diz çökdüm, əllərimi onun dizləri üstə qoyub yavaşca soruşdum:

--Nə olub, Səməngül?

O elə bil məni indicə gördü. Üzümə diqqətlə baxdı, sonra güclə eşidiləcək səslə:

--Mənə elçi gəlib,-dedi.

--Nəə... ?-ancaq bunu deyə bildim, və pəncərəyə yaxınlaşıb həyətə baxdım. İndi fikir verdim ki, Sona xala qonaqlara həmişə olduğu kimi adina layiq çay süfrəsi açmışdı. Amma deyəsən süfrədəki təm-təraqla masa arxasında oturanların əhvalı bir-birinə uyğun gəlmirdi. Hər kəs çox ciddi idi. Nə isə bir gərginlik də var idi. Mən müşahidələrimi yarımçıq goyub rəfiqəmə döndüm:

--Gəlib gəlib də, daha bu qaşqabağ nədir?Elçi gəlmək xeyir işdir, faciə deyil ki. Yaxşısı budur de görək kimdir, nəçidir, hardan gəliblər?Qərarın nədir?

--Kimdir, nəçidir, hardan gəliblər, məni heç maraqlandırmır, çunki qərarım qətiyyətlə -YOX!-dur. Anama da dedim, mən hələ məktəbi bitirəcəyəm, sonra ali məktəbə daxil olacağam, sonra həkim olacağam, sən ki bilirsən!

Az qalırdı ağlasın Səməngül. Hərçənd ki, mən Sona xalanı hər zaman qızının arzularını dəstəkləyən görmüşdüm, amma indi Səməngülün bu cür üsyankar danışmasından başa düşdüm ki, Sona xala az da olsa Səməngülə təzyiq edib. Görünür ailə çox uyğun bir ailə imiş.

O gün dənizə getmək planımız baş tutmadı . Mən rəfiqəmi belə çətin vaxtda tək qoymaq istəmədim, qonaqlar gedənə kimi onun yanında oldum. Qonaqlar gedən kimi, mən də getdim, fikirləşdim ki, ailə olaraq öz aralarında məsləhət edəcəklər bəlkə, mən mane olmayım. Həyətə girəndə, Rəşadın hələ də bizi gözlədiyini gördüm. O bizim sevimli kötüyümüzün üstündə oturub çubuğla qumda nəsə çəkirdi. Məni görüb ayağa qalxdı:

--Görəsən sizi nə qədər gözləmək olar?Yenə kimin qeybətini qırırdınız?Bayır axşam oldu ki,-Rəşad da mənim kimi hövsələsiz idi.

--Nə oldu, gəlmir Səməngül?

--Yox, gəlmir, vacib işi var. Birdəki özün dedin ki, gecdir daha, sabah gedərik.

Rəşad qayıdıb yenə kötüyün üstündə oturdu. Yenə nəsə cızacıza yavaşca soruşdu:

--Bir şey olmayıb ki, orda?Belə bir təhərsən ey...

--Elə bir şey olmayıb, sadəcə Səməngülə elçi gəlib,-dedim.

--Nəə...? -ucadan deyilmiş bu sualla Rəşad kəskin şəkildə mənə sarı döndü. Bu sualı bayaq mən də soruşmuşdum, amma mənim soruşmağımla Rəşadın soruşmağının arasında xeyli fərq var idi. Mən maraq və təəccüblə soruşmuşdum, Rəşadın sualında isə bir həyəcan, bir tələş var idi. Səməngüllə aramızda olan söhbəti danışa-danışa qardaşımın haldan-hala düşdüyünü görürdüm. Ürəyimə şübhələr doldu, yoxsa Rəşad onu sevirmiş? Amma mən bu günə kimi heç nə hiss eləməmişdim. Rəşad sanki üzümdən fikirlərimi oxudu, tez özünü ələ aldı. Araya bir söz atmaq naminə:

--Onda dənizə sabah gedərik,-deyərək qalxıb getdi. . Həyət-baca od tutub yanırdı. Otaqlar sərin olduğu üçün mən içəri keçdim. Yatağıma uzanıb bu günkü söhbətləri bir-bir yada salaraq götür-qoy elədim, necə yuxuya getmişəm, heç xəbərim olmayıb. Elə bil bir səs eşitdim, və bu səsə oyandım. Evin arxasından çox yavaş danışıq səsləri gəlirdi. Mənim otağımın pəncərəsi həm balaca idi, həm də çox yuxarıda idi, odur ki, nə evin arxasında duranlar məni görə bilməzdi, nə də mən onları. Divara yaxınlaşanda səsləri aydın eşitdim, daha doğrusu Səməngülün səsini eşitdim. O deyirdi:

--Belə şey ağlına necə gələ bilər?İncimə, amma mən səni özümə qardaş bilirəm. Biz bir yerdə böyümüşük, bir ailənin uşaqları kimi. Bu mümkün olan şey deyil. Biz yalnız dost ola bilərik.

Araya sükut çökdü, arabir şaqqıltı eşidilirdi, deyəsən Rəşad bayaqki çubuğu sındırırdı. Qardaşımın ümidsiz səsi ürəyimi göynətdi:

--Tez-tələsik könül qırmaq nə asandır sənincün, bəlkə bir fikirləşəydin, yəni mənim heç ümidim yoxdur?

Hiss edirdim ki, Səməngül də ürək ağrısı ilə deyir sözünü, sanki günahkarmış kimi.

--Dedim axı mən sənə, qardaşımsan sən mənim, burda fikirləşsəm nə olacaq, fikirləşməsəm nə?Niyə yalan deyim ki, sənə?Mən də Həyat kimi bacınam sənin, məndən incimə, kusmə, qoy bacın olaraq qalım. -bu sözlərdə bir yalvarış var idi. İkisinə də yazığım gəldi. Daha gerisinə qulag asmayıb otaqdan çıxdım.

Nə qardaşım, nə də rəfiqəm aralarında olmuş bu söhbəti mənə açmadılar, mən də özümü biruzə vermədim. Hər şey olduğu kimi, olduğu yerdəcə qaldı. Təkcə mənim ürəyimdə bir göynərti özünə yer elədi, və uzun zaman ağır yuk kimi sinəmdən asıldı. Bircə dəfə özüm-özümə etiraf elədim ki, əyər bu sevda baş tutsaydı, nə gözəl olardı! Bir yandan ikisi də sevdiyim insanlar idi, həm də bir-birinə çox yaraşırdı. Demək qismət deyilmiş. Özümə belə təskinlik verdim ki, qardaşım bu payız onsuz da əskər gedəcək, bəlkə də bu iki il ərzində o unudar Səməngülü. Bir müddət ikili fikirlərlə çarpışa-çarpışa çox əziyyət çəkdim. Bir tərəfdən qardaşımın cavabsız məhəbbətinə görə Səməngülə acığım tuturdu, o biri tərəfdən də başa düşürdüm ki, onun heç bir günahı yoxdur, o heç vaxt Rəşada ümid verməmişdi. İndi mən onu nə deyib qınayım?Zorla məhəbbət olarmı?

Bir neçə gün Səməngül bizə keçmədi, ola bilsin ki, Rəşadın gözünə görünmək istəmirdi. Mən də heç bilmirəm niyə, bir neçə gün gizləndim rəfiqəmdən. Bu bir neçə gün kifayət elədi ki, mən hər şeyi ölçüm-biçim, və Səməngüllə aramızdakı sərinliyi tezliklə bir kənara ataraq, dəfələrlə çətin sınaqlardan çıxmış dostluğumuzu qaldığı yerdən davam etdirim. Artıq məktəb alış verişinin vaxtı gəlib çatmışdı, odur ki, uzun illər olduğu kimi ikimiz də anamızdan pul alıb məktəb yarmarkasına yollandıq. Elə bil bu arada heç nə olmamışdı . İkimiz də yenə bir yerdə olduğumuza cox sevinirdik. Münasibətimiz əvvəlki şirinliyinə qayıtmışdı, amma mənim ürəyimdə bu şirinliyə hansısa ağrının acısı qatılırdı sanki. Bilmirəm bu nə vaxta qədər davam edəcəkdi?Bəlkə qardaşım onu unudana kimi, bəlkə mən bu söhbəti unudana kimi... Bilmirəm...

Bu yayı da beləcə başa vurduq...

4. Adını unutduğum bir mahnıda belə sözlər var dı:"Doğma məktəb qoynuna səsləyir bizi".

Doğurdan da tətil həyatımız nə gədər marağlı keçirdisə də, yenə ara-bir məktəb üçün darıxırdıq. Hər küncünə-bucağına bələd olduğumuz doğma məktəbimiz ata ocağı kimi bizi özünə çəkirdi. Günəşlə, mavi səma ilə, ilıg dəniz ilə dolu yay gunlərinin sonsuza qədər davam etməsini arzulasaq da, bir gözümüz təqvimdə olardı. Hər gün təqvimdən bir yarpaq qopararaq, həsrətin bitəcəyi o günə addım-addım yaxınlaşırdıq sanki...

Yaşadığımız Sovet dönəminin hər sahəyə aid bir şablonu var idi:məsələn, butun ölkədə dərs ili məhz sentyabr ayının birində başlardı. Növbəti dərs ilinin başladığı həmin o gun, bütün ölkə ərazisində "Bilik günü" kimi qeyd olunurdu. . Həmin o gün, məktəblə bir bağlantısı olan hər kəs üçün bayram demək idi. Yeni dərs ilinin ilk günü, doğma məktəbimiz tətil müddətində dünyanın hər yerinə səpələnmiş şagirdlərini öz cazibə qüvvəsi ilə yenə də başına toplamışdı. Bu mənzərəni dəfələrlə görmüşdük, bu həyəcanı dəfələrlə yaşamışdıq, amma yenə hər şey sanki ilk dəfə baş verirdi. Yenə də məktəbin həyəti gül-çiçəyə bürünmüş izdihamla dolu idi. Bu görüntüdə bir təntənə var idi. Birinci sinifdən onuncu sinfə kimi hər sinifin şagirdləri onlar üçün ayrılmış bölmədə sıraya düzülüb, açılış mitinqinə tamaşa edirdi. Direktorumuz şagird və valideynləri yeni dərs ilinin başlanması münasibəti ilə təbrik elədi, sonra sözü digər müəllimlərə verdi. Onlar da ürək sözlərini söylədilər. Söylənilən xoş sözlərin sehrindən elə bil ürəklərimiz quş olub uçmaq istəyirdi. Mən sevinclə ətrafa nəzər saldım, hamı yepyeni ağ-qara məktəbli formasında çox gözəl idi, hamı yenidən doğma məktəbə döndüyünə görə çox xoşbəxt idi. Nəhayət rəsmi mitinq bitdi, və hamı öz sinfinə üz tutdu. Məktəbimiz təmirdən yeni çıxmışdı, hər tərəf hələ də boya qoxusu verirdi. Üzərində 9A yazılmış sinif otağımızın qapıları taybatay açılıb bizi gözləyirdi. Biz içəri girib hər kəslə görüşdük, sonra keçib həmişəki yerimizdə oturduq. Çalınan ilk zənglə yeni dərs ili başladı... .

O vaxt səkkizinci sinif buraxılış sinfi olduğu üçün, yoldaşlarımızdan bəzisi texnikuma, bəzisi də texniki peşə məktəbinə daxil

olub sinfimizi tərk eləmişdi. Onların arasında Səlim də var idi. O, dənizçilik məktəbinə daxil olmuşdu. Düzü onun gedişinə ürəyimdə sevindim, çünki nə qədər onu görməməyə çalışsam da, onun səssiz-səmirsiz duruşu, məzlum baxışı nə mənim, nə də başqalarının gözündən qaçmırdı. Kiminsə mənim ucbatımdan belə əzab çəkməsinə ürəyim ağrayırdı, amma nə edə bilərdim, belə olmasını mən də istəmirdim. Nə yaxşı ki, Səlim özü getməyə qərar vermişdi. Mən də hamı kimi onun dənizə vurğun olduğunu, lap uşaqlığdan dənizçi olmaq arzusunu bilirdim, odur ki, çox rahat oldum. Bu həm onun üçün, həm də mənim üçün çox yaxşı oldu. Sinfimizə beş nəfər yeni şagird gəlmişdi. Dördü oğlan, biri qız. Oğlanlardan biri yeni ünvana köçdüyü üçün bizim sinfə gəlmişdi, biri rayondan Bakıya köçmüşdü, ikisi də başqa məktəbdən bizə dəyişilmişdi. Qız isə ailəsi ilə birlikdə İrandan qaçıb burda siyasi sığınacaq almışdı. Çox maraqlı qız idi. Adı da nadir ad idi-Pərvin. Mən bu adı ilk dəfə eşidirdim. Bizdən çox fərqlənirdi. Saçı oğlansayağı çox qısa vurulmuşdu. O vaxtlar bizdə hələ o qədər də çox şalvar geyən yox idi. Cəmiyyət hələ qadınların əynində şalvarı qəbul etmirdi. Amma Pərvin bizə şalvarla gəldi, və bundan sonra da onun əynində gördüyümüz geyim cürbəcür şalvar kostyumları oldu. Bu bizim hələ alışmadığımız geyim idi. Pərvin bizim Naxçıvan əhlinin ləhcəsinə bənzəyən, amma daha yumşaq səslənən bir ləhcə ilə danişirdi. Çox mədəni qız idi Pərvin, bilinirdi ki, ziyalı ailəsində tərbiyə alıb. O bizim qızlara çox tez isinişdi, hər tənəffüsdə qızlar onun başına yığışırdı, onu sorğu-suala tuturdu, öz bildiklərini də onunla paylaşırdılar. Pərvin bizə öz ölkəsindən maraqlı şeylər danışırdı, bizə evlərinin, ailə üzvlərinin, İranda qoyub gəldikləri qohum-əqrəbasının fotoşəkillərini göstərirdi. Şah rejimində yaşayan İranin mənzərəsi də, yaşayış tərzi də bizim üçün çox maraqlı idi. Səməngül də Pərvini çox sevdi. Mənə elə gəlirdi ki, onların çox oxşar cəhətləri var. Mən sinfimizə daha bir gözəl insanın gəldiyinə çox sevinirdim. Mənim fikrimcə ətrafımızda nə qədər yaxşı yoldaşımız olsaydı, bir o qədər yaxşı olardı. Təki Almaz kimilər az olaydı. Doğrusu, yay tətilinə gedərkən ürəyimdən belə

bir arzu keçdi-"Keşkə Almaz hansısa texnikuma daxil olub sinfimizdən gedəydi. "Təəssüf ki, mənim arzum elə arzu olaraq qaldı. Bu səhər məktəbə yaxınlaşanda, hələ uzaqdan o qədər adamın içində, lap ön cərgədə Almazı gördüm, o saat qanım qaraldı. Demək onunla daha iki il bir sinifdə oxumaq məcburiyyətində olacağıq. Bu yerdə özümə Allahdan səbir dilədim.

Almaz bu sabah quzğun kimi Pərvinin başının üstünü kəsdirib, onu öz yanına çəkmişdi. Buna nə vaxt macal tapmışdı bilmirəm, ancaq sinif rəhbərimiz Hökumə müəllimə yeni şagirdləri bizə təqdim edəndə gördük ki, Pərvin Almazla bir parta arxasında oturub. Almaz həmişə olduğu kimi, ən arxa partada oturmuşdu. Kənardan baxmaqla bilinirdi ki, bu iki şəxsin bir yerdə heç bir işi ola bilməz, odur ki, tənəffüs olan kimi sınıfkomumuz Nigar açıq-aşkar Pərvinin qolundan tutub gətirdi, öz yanında, ikinci partada oturtdu. Nigarın bu hərəkətindən hamı, xüsusən də mən çox məmnun qaldıq.

Sentyabr ayı büsbütün təşkilati məsələlərə həsr olundu:dərs cədvəli, sinifdən kənar məşğələlərin qrafiki, dil kurslarına ayrılmış günlər, illik bayram tədbirlərinin siyahısı-bütün bunların hamısı sentyabr ayında tərtib olundu, bizə paylandı. Başımız elə qarışdı ki, bir ay necə keçdi, bilmədik.

***

Oktyabr ayının əvvəlləri idi. Payızın nəfəsi hər yerdə hiss olunurdu. Xəzan yelinin qoparıb yerə tökdüyü saralmış yarpaqlar, tez-tez əsən soyuq küləklər, narın-narın yağan yağışlar payızın gəlişindən xəbər verirdi. Həftənin birinci günü, ayın doqquzu idi. İlk qoşa saat ədəbiyyat dərsi idi, və biz bu qoşa saatda inşa yazacaqdığ. On illiyi bitirməyimizə bir şey qalmamışdı deyə, tez-tez bizə gələcəyimizi müəyyənləşdirməyə yönləndirici mövzularda inşalar yazdırırdılar. Bu günkü inşa, doqquzuncu sinifdə ilk inşamız idi. Ədəbiyyat müəlliməmiz Çimnaz müəllimə öz gözəl xətti ilə artıq lövhədə ayın tarixini də, mövzunu da, mövzunun planını da yazmışdı. "Mənim seçəcəyim ixtisas. " Bu

inşada biz, lap uşaq yaşlarından urəyimizdə bəslədiyimiz ən şirin arzumuzdan söz açmalı, seçəcəyimiz ixtisasın gözəlliyini, romantikasını, həyati vacibliyini bacardığımız kimi şərh etməli idik. Biz Səməngüllə bu gecə gec yatıb inşanın qaralamasını neçə dəfə yazıb pozmuşduq. Hərçənd ki, biz hələ neçə il əvvəl damda yatdığımız o gecə, bir-birimizə böyüyəndə kim olacağımızı demişdik, indi isə biz inşanı elə gözəl yazmalı idik ki, oxuyan hər kəs bizim seçəcəyimiz peşənin özəlliyini anlasın, və bizim bu işin öhdəsindən gələcəyimizə inansın. Çimnaz müəllimə mövzunu bir-neçə kəlmə ilə şərh elədi, sonra üstündə məktəbimizin möhürü olan qoşa vərəqləri paylamağa başladı. Elə bu vaxt qapı döyüldü. Dərs hissə müdürümüz Sərxan müəllim, ardınca da uca boy bir oğlan sinfə girdilər. Sərxan müəllim dərsi pozduğuna görə uzr istədi, yanına salıb gətirdiyi yeni şagirdi bizə təqdim elədi:

--Tanış olun uşaqlar, bu sizin yeni sinif yoldaşınız Firuzdur. Onun atası bizim mikrorayondan ev alıb, odur ki, Firuz bundan sonra sizinlə bir sinifdə oxuyacaq--dedi. . Çimnaz müəllimə də Firuza xoşgəldin elədi. Sərxan müəllim bir də üzr istəyib çıxan anda biz Almazın:--Firuz, Firuz, gəl yanımda otur,--dediyini gördük. Firuz da tanış adam görmüş kimi Almaza əl elədi, sonra Çimnaz müəllimədən icazə istəyib keçib Almazın yanında oturdu. Hamı bir-birinə baxdı. Hər kəs çox güman ki, mən fikirləşəni fikirləşdi:"Almaz hara, bu yaraşıqlı oğlan hara?"Oğlan doğurdan da yaraşıqlı idi, lakin buna baxmayaraq heç özümə də izah edə bilmədiyim səbəbdən mən bu adamı lap ilk baxışdan sevmədim. Bilmirəm Almazla tanış olduğuna görəmi, ya üzündəki özündən razı ifadəyə görəmi, hər nə isə bu oğlan mənim xoşuma gəlmədi. İçimdəki MƏN həyəcan siqnalı çaldı və bu yaraşıqlı görünüşə aldanmamağa, həmişə bu oğlandan uzaq durmağa çağırdı. Mən içimdən gələn siqnallara çox həssas yanaşırdım, bir qayda olaraq inanırdım. Onu da deyim ki, özümdə olan bir xasiyyətimdən özümün də xoşum gəlirdi. Mən təsadüfi tanışlığı heç sevməzdim, çevrəmizə yeni gatılmış insanı uzaqdan müşahidə etməyə, onunla tez-tələsik münasibət qurmamağa çalışardım. Müşahidələrimin sonunda bir qərar verərdim, və bu qərar da həmişə doğru qərar

olurdu. Bu xasiyyət Səməngüldə də var idi. O da hər şeyi yüz ölçüb bir biçərdi. Bu da bizi bir-birimizə bağlayan cəhətlərdən biri idi. Mən bu düşüncələrimdə əmin olmaq üçün Səməngülə tərəf əyildim:--Yaman lovğa oğlana oxşayır,--dedim. Səməngül də cavabında:--Hə... ,var bir az,--dedi.

Bu iki kəlmə elə bil ürəyimə su səpdi. "Demək o da hiss eləyibmiş".

Bundan sonraki iki saatı biz öz aləmimizə qapılıb, ən ümdə arzumuzdan bəzən yüksək pafosla, bəzən çox kövrək hisslərlə inşamızı yazır, sanki bu inşanı oxuyacaq hər kəsə ürəyimizi açırdıq.

Bundan sonra bu inşanı oxuyan hər kəs biləcəkdi ki, mənim arzum, günlərin bir günü, on il şagird kimi girdiyim sinifə müəllim kimi girməkdir. O zaman mən qarşımda oturmuş fidan-balalara vətəni mənim kimi sevməyi, boyüklərə mənim kimi hörmət eləməyi, kiçiklərə mənim kimi yardım eləməyi, gözəlliyə mənim kimi qiymət verməyi öyrədəcəyəm. Səməngülün inşasını oxuyan hər kəs biləcəkdi ki, Səməngülün arzusu həkim olmaq, günlərin bir günü ağ xalatda xəstəxana otağına girib ona ehtiyacı olan xəstələrə şəfqət paylamaq, dərdlərinə əlac eləmək, bu həyata ümidini itirmiş insanlara həyat eşqi verməkdir. Səməngül çalışacaq ki, hər kəs həyati onun kimi sevsin, həyata onun kimi bağlansın...

4. İnşa yazdığımız gündən bir həftə keçmişdi, yenə ədəbiyyat dərsində idik.

Çimnaz müəllimə Firuzu dərsdən azad edib başqa sinfə göndərdi. Sən demə, biz inşa yazdığımız gün Firuz yenicə gəldiyi üçün, nə yeni şəraitə alışma bilmiş, nə də fikirlərini cəmləyə bilmişdi. Odur ki, inşanı da yazmamışdı. İndi o ayrıca bir otaqda tək oturub həmın inşanı yazmalı idi. Çimnaz müəllimə hələ inşaların hamısını yoxlayıb bitirə bilmədiyini, lakin yoxladığı inşaların çoxundan razı qaldığını söylədi. O, bir də onu dedi ki, iki həftədən sonra yoxlamanın nəticələrini elan edəndə, bizdən icazə almaq şərtilə, bəzi inşaları hamı dinləsin deyə, ucadan

oxutduracaq. Çimnaz müəllimə əvvəllər də tez-tez belə edərdi. Biz dərsin bu hissəsini çox sevər, həmin günü səbirsizliklə gözləyərdik. Belə oxu saatlarında biz bir-birimizin daxili aləmində yeni kəşflər edər, günün çox hissəsini bir yerdə keçirdiyimiz sinif yoldaşlarımıza daha yaxından bələd olardıq.

Həmin gün evə dönərkən, yolda Səməngüllə aramızda qəribə bir söhbətimiz oldu. Səməngül məndən soruşdu:

--Həyat, əyər Çimnaz müəllimə sənin inşanı oxutdurmaq istəsə, icazə verəcəksən?

Səməngülün bu sualı məni təəccübləndirdi, çünki bundan əvvəl də bizim inşalarımız oxunan inşaların arasında olurdu, və biz bundan hətta qürur duyurduq. Bizim gözəl inşa yazmaq qabiliyyətimizi artıq hamı bilirdi. Mən hətta əmin idim ki, bu dəfə də oxunacaq inşalardan ikisi bizim inşalarımız olacaq. Ona görə də mən təəccübümü gizlətmədən soruşdum:

--Niyə də verməyim, məyər sən icazə verməyəcəksən?Bir də axı nə dəyişdi ki, sən bu sualı verdin?Əvvəllər necə idi, indi də qoy elə olsun, mənim gizlədəcək bir sözüm yoxdur. Yoxsa sən icazə verməyəcəksən?

--Nə bilim, istəyirəm deyim ki, mənim yazımı oxumasınlar, bir az utanıram ey... Yrəyimizin sözünü hər kəs biməsə olmaz?

--Vallah məətəl galmışam sənə, kimdən utanırsan, yoldaşlarımız ilk dəfəmi bizim ürək sözlərimizi eşidirlər?Biz artıq bir ailə kimi deyilikmi?Bəyəm sinfimizdə kənar adam var?

Səməngül bir az dayandı, sonra dedi:

--Əslində sən haqlısan, ətrafimizdakılar bizim sinif yoldaşlarımızdır, amma yenə də hərdən mənə elə gəlir ki, sinfimizdə yad adam var. Özümü bir təhər hiss edirəm, heç bilmirəm səni necə başa salım, sankı kimsə bizim səmimi hisslərimizə gülə bilər, rişxənd edə bilər, odur ki, sıxılıram.

Həə... Söz mənə çatdı. Onun ağlından keçən, bəlkə hələ onun özü üçün də dəqiqləşməmiş bir fikri, mən apaydın gördüm. Uşaqlıqdan bir yerdə böyüməyimiz, uzun illər dost olmağımız, bir-birimizi sözün yarısında, hələ deyiləcək fikir tamamlanmamış olsa belə, anlamaqda bizə kömək edirdi. Mən Səməngülün dediyi

ən qəliz, ən dolanbac cümləsini də ikinci kəlməsində başa düşürdüm. Bəzən onun deməkdə çətinlik çəkdiyi fikri ondan qabaq söyləyirdim, və bu qabiliyyət çoxdan bizim üçün adi hal olmuşdu. Bu dəfə də onun nə demək istədiyini başa düşdüm, söhbət Firuzdan gedirdi. O Firuzdan ki, doğurdan da hələ ki, bizim böyük ailəmizə qaynayıb-qarışmağa macal tapmamışdı, ona görə də bir növ yad idi. O Firuzdan ki, sinfimizin simsiz teleqrafı olan Almaz, əl-ayağa düşərək, onun haqqında hamının həsəd apara biləcəyi maraqlı məlumatlar yaymaqda idi. Sən demə Firuz bizdən iki yaş böyük imiş. Həmyaşıdları ilə bir sinfə düşməməsinin səbəbi də o imiş ki, Firuz ailəsi ilə birlikdə beş il Kubada yaşayıbmış. Təhsil ganununda da belə bir sey var imiş ki, xarici ölkədən gəlmiş məktəbli təhsilini mütləq iki sinif aşağıdan davam etdirə bilərmiş. Bu iki ildə fərqli ölkələrin təhsil sistemlərindəki fərq aradan götürülürmüş. Almazın dediyinə görə, Firuz ingilis və ispan dillərini mükəmməl bilirmiş. Atası neft üzrə mütəxəssis olduğuna görə, onları beş illiyinə Kubaya ezamiyyətə göndəriblərmiş. Bu il həmin o beş illik kontraktın vaxtı tamam olduğuna görə onlar vətənə dönüblər, və məhz Almazgilin binasından ev aldıqlarına görə Almazın uçmağa qanadı yox idi. Almaz deyirdi ki, Firuzgil çox imkanlı ailədirlər. Firuzun atası Almazgilin binasının doqquzuncu mərtəbəsini büsbütün alaraq, orada bir aləm yaradıb ki, gəl görəsən. Almaz Firuzgilin toplamda on otaqdan ibarət olan dörd mənzillərindən, onların çox bahalı təmirindən, bahali mebellərdən, qiymətli antik vazlardan ağzı sulana-sulana danışırdı. Firuzun xarici dillər institutunda oxuyan böyük qardaşını, çox zövqlə geyinən ziyalı xanım-xatın anasını tərifləyərək, az qala göylərə qaldırmışdı. Firuzun sinfimizə gəldiyi bu bir həftədə Almaz yerə, göyə sığmırdı. Çünki o, ilk dəfə maraqlı bir şey danışaraq, bütün sinfi başına toplaya bilmişdi. Almazın bu söhbətləri Firuzu çoxlarının gözündə az qala bir əfsanəvi qəhrəmana çevirmişdi. Sözün düzü, bu söhbətlər mənim diqqətimi heç çəkmirdi. Əvvəla ona görə ki, Firuzun görünüşündən bir lovğalıq yağırdı, mən də lovğa adamları heç sevməzdim, ikincisi də, mən həmişə eşitdiyimə

deyil, gördüyümə inanmağı üstün tuturdum. Mənim üçün Firuz hələki bağlı kitab idi, özü var idi, amma içində nə yazılmışdı, heç kəs bilmirdi. Zaman keçdikcə biz bu kitabı oxuyacağdıq, Firuzun necə adam olduğunu öyrənəcəkdik. O vaxta qədər, bu sinifdə Firuz vardımı, yoxdumu, mənim üçün heç bir fərqi yox idi. Bəs niyə Səməngül onun sinifdə olmasına bu qədər əhəmiyyət verirdi?Niyə Firuzun varlığı onu bu qədər sıxırdı?Ürəyimə bir xal düşdü. Olmaya... ?Yox, yox, bu ola bilməz, olmamalıdır -deyə bu fikirləri özümdən qovdum, ancaq Səməngülə heç nə demədim...

***

O axşam anam düşpərə kəsmişdi. Mən də, Səməngül də düşpərəni çox sevirdik, hansı gün anam, yaxud Sona xala düşpərə kəsərdisə, o gün bizə bayram kimi gələrdi. İki ailədən kim varsa, mütləq bir yerə yığılardıq, düşpərəni bir yerdə yeyərdik. İndi də anam una bulaşmış süfrəni yığışdıra-yığışdıra mənə sarı döndü:

--Həyat, mən süfrəni düzəldənə kimi keç Sonagilə, kim varsa çağır, yubanmadan gəlsinlər, artıq düşpərənin suyu qaynayır, mən indi düşpərəni tökürəm, tez gəlsinlər ki, soyutmadan yeyək.

--Bu saat,-dedim və Sona xalagilə qaçdım. Mən həyətə girəndə Sona xala paltar sərirdi. Mən anamın dediklərini ona deyib Səməngülün divar boyunca əkdiyi gülləri qoxlaya-qoxlaya evə girdim. Mahmud əmi divanda oturub qəzet oxuyurdu. Mahmud əmi neft daşlarında neftçi işləyirdi, on beş gün dənizdə, on beş gün evdə olurdu. İndi də onun evdə, ailəsi ilə keçirdiyi günlərdən biri idi. Çox sevirdim Mahmud əmini, onun ağırtəbiət, zabitəli görünüşünün arxasında onu yaxından tanıyanlar üçün çox təmkinli, səbirli, mehriban bir insan vardı. Mən Mahmud əmi ilə hal-əhval edib Səməngülün otağına keçdim. Səməngül arxası mənə pəncərənin önündə oturmuşdu. Heç özüm də bilmirəm niyə, səsimi çixartmadan bir xeyli beləcə dayanıb rəfiqəmə tamaşa elədim. Səməngülün gəlişimdən xəbəri yox idi, səsimi də eşitməmişdi. O bu dəqiqə ümumiyyətlə burda deyildi, bəs harda idi görəsən???... .

Ayağımın ucunda ona yaxınlaşdım. Əyilib üzünə baxdım, o doğurdan da xəyala dalıb, Allah bilir harda idi. Birdən mənim nəfəsimi duyub diksindi:

--Off... Qorxutdun məni... Niyə belə baxirsan?

--Baxaram da... Gözəlim, sənə nə olub? Haralarda idin?Bilirsən nə vaxtdır gəlmişəm?-dedim.

--Heç, elə-belə... Nə bilim, gözüm yol çəkirdi... Nə olub ki?

--Heç nə olmayıb, anam bizə düşpərə bişirib, indi yəqin sirkə-sarımsaq düzəldir, dur gedək.

"Heç nə olmayıb"--dedim, amma ürəyimdə yerini bərkidən şübhələr mənə başqa şey deyirdi. Nələrsə ən azı olmağa başlayırdı, və içimdəki MƏN yenə də həyəcan təbili çalırdı...

5. Oktyabr ayının ortalarına doğru payız öz üzünü daha çox göstərirdi.

Hava get-gedə soyuyurdu, göyün üzü öz maviliyini itirir, topa-topa qara buludlar qaşqabaq sallayıb sanki, hər kəsi yağışla hədələyirdi. Biz də yavaş-yavaş yay paltarlarımızı yığışdırıb, onların əvəzinə paltar dolabından çoxdan alıb hazırladığımız, sadəcə zamanını gözləyən isti geyimlərimizi, yeni gödəkçələrimizi asırdıq. Bu səhər içi isti gödəkçələrimizi ilk dəfə geyindik. Biri ağ, biri sarı gödəkçələrimiz eyni modeldə olub ikimizə də çox yaraşirdi. Ağ gödəkçədən Səməngülün çöhrəsi bir az da işıqlandı, sari gödəkçə də mənim rəngimi bir az açdı. Ömrümüzün qayğısız illəri idi, geydiyimiz yeni paltar da bizə xoş əhval-ruhiyə verə bilirdi. Ən böyük qayğılarımız təhsilimizlə bağlı idi. Biliklərimiz mükəmməl olsun, qiymətlərimiz yüksək olsun ki, ali məktəbə gedən yolu bu başdan açıq tutaq. Yeniyetmə psixologiyamızda qəribə şeylər baş verə bilirdi: məsələn, o gün yeni gödəkçələrimizi ilk dəfə geydiyimiz üçün çox sıxılırdıq, görəsən sinif yoldaşlarımız bizi necə qarşılayacaq, zövqümüzü bəyənəcəklərmi?Üzdə, yaxud ürəyində bizə gülən olmayacaq ki?Bu bir həyəcan, o biri yandan da bu gün inşalarımızın nəticələri elan olunacaqdı. Sonra da kimlərinsə inşası ucadan oxunacaqdı. Əvvəlcədən də bilirdik ki, bizimkilər mütləq

oxunacaq. Məktəbə gedə-gedə bunları öz aramızda danışırdıq. Birdən Səməngül dayanıb əllərimdən tutdu:

--Off... Həyat, bir gündə bu gədər həyəcan olarmı? Ayaqlarım getmir.

Mən onu sakit eləməyə çalışdım:

--Sakit ol, gəl hər şeyi götür-qoy edək, mən də həyəcanlıyam, amma panik üçün bir səbəb görmürəm. Əvvəla gödəkçələrimiz bizə çox yaraşır, bunu sən də bilirsən, kim bunun əksini desə, deməli o bizim paxıllığımızı çəkir. Sonra gələk yazilara, mən əminəm ki, ikimiz də beş almışıq, bax görərsən. O ki qaldı inşaların oxunmasına, bunun da çarəsi var, deyərsən sənin yazını oxumasınlar.

--Bəs sənin yazını, deyəcəksən oxusunlar? -onun bu aciz duruşu, yalvarışa bənzər sualı, heç bilmirəm niyə, məni lap hövsələdən çıxartdı.

--Canım, oxusunlar da,burda nə var, hərbi sirr deyil ki! O cür gözəl yazmışıq. Sən deyildin deyən ki, çox duzlu qələmimiz var?İndi nədən ehtiyat edirsən?Vallah səni bilmirəm, amma mənim arzularıma rişxənd eləyəni dişimlə didərəm, bildin ?!

Səməngül elə bil nədənsə qorxdu, qolumdan çəkib:

--Yaxşı, yaxşı, gecikərik, gedək,-dedi və yoluna davam etdi. Mən bir müddət onun dalınca baxdım, qoca qarılar kimi başımı buladım sonra qaçıb ona çatdım.

Dərs yenicə başlamışdı. Hamı intizarda idi. Çimnaz müəllimənin üzü gülürdü. Demək ki, yazilarımız onu qane eləmişdi. İndi biz iki dərs boyunca yazdıqlarımızı təhlil edəcəkdik, səhvlərimiz varsa, onları düzəldəcəkdik, vaxtımız qalsa bir az da arzularımızdan danışacaqdıq.

Çimnaz müəllimə əvvəlcə qiymətləri oxudu, ikimiz də beş almışdıq. Sonra yoldaşlarımız öz istəkləri ilə yazılarından bəzi bölümləri oxudular. Firuz yenə Almazla bir parta arxasında oturmuşdu. Yoldaşlarım ürəklərindən gələn ən saf arzularını böyük bir həyəcanla oxuyurdular. Arabir cərgələrin arasından əyilib arxaya baxırdım, deyəsən Səməngül artıq mənim ürəyimə qurd salmışdı, yoxsa arxaya baxmaq ağlıma da gəlməzdi. Almazın üzündə yaltaq

bir ifadə var idi, hər dəqiqə dönüb Firuza baxır, sanki oxunanlara onun reaksiyasını yoxlayırdı. Firuzun üzündə isə... Firuzun üzündə çox qəribə bir ifadə var idi. O qaşlarını qaldırmış, burnunu dik tutmuş, bir yanağına dartılmış təbəssümü onun üzünə elə ifadə vermişdi ki, sanki hamıya yuxarıdan aşağı baxırdı. Sanki qarşısında baş verənlərlə Firuzun arasında yerlə göy qədər üzaqlıq var idi. Yazıq Səməngül haqlı imiş, sinifdə yad adam vardı. Ancaq mən Səməngül kimi qorxub çəkinmədim, əksinə əlimi qaldırıb inşamı oxumaq istədiyimi bildirdim. Oxudum da. Elə avazla, elə ifadə ilə oxudum ki, yoldaşlarım hətta əl çaldılar. Bir tək Almazla Firuz heykəl kimi hərəkətsiz oturub qalmışdılar. Mənim ürəyim soyumurdu, icazə alıb bir-iki kəlmə də özumdən əlavə elədim.

--Biz bu gün kağıza tökdüyümüz bu arzulardan hələ çox uzağıq, kim bilir irəlidə bizi nələr gözləyir. Amma biz sabahımıza inanmalı, ömür yolumuzu düzgün çizib, irəlidə qarşımıza nə qədər maneələr çıxsa da, onları dəf edib o yolu getməliyik. Bu gün bizim arzularımız kimlərəsə primitiv görünə bilər, təbəssüm doğurar, amma biz çox düzgün tərbiyə almışıq, və bilirik ki, gələcək həyatının arzusunu qurmaq birinin haqqısa, bu arzuya hörmətlə yanaşmaq digərlərinin borcudur.

Araya sükut çökdu, hamı bir müddət yerə, sonra bir-birinə, daha sonra ətrafa baxdı. Söz hədəfə çatmişdı. O da ciddiləşib çaşqın-çaşqın ətrafa baxdı. Lovğaların lovğası deyəsən özünü itirmişdi. Bu mənim qələbəm idi. Qürurla Səməngülə sarı döndüm. Səməngülün onsuz da bəyaz olan rəngi bir az da qaçmışdı. Tələşlə üzümə baxdı, sonra başını aşağı saldı. Ürəyimdə --Buna nə oldu? --soruşdum, amma cavab tapmağa vaxt tapmadım. Çimnaz müəllimə məni təbrik elədi, son sözlərim üçün təşəkkürünü bildirdi və əyləşməyimi rica etdi. Mən keçib yerimdə oturdum, elə istəyirdim ki, Səməngüldən soruşum, niyə bu hala düşdü, açılan söhbət diqqətimi çəkdi. Çimnaz müəllimə üzünü Firuza tutub sözə başladı:

--Oğlum, Firuz, mən sənin üçün şərait yaratdım ki, sən də bu inşanı yazasan, bəs nə oldu, niyə yazmadın?Bir çətinliyin varsa söylə, mən sənə kömək edərəm.

Biz öyrəşmişdik ki, müəllim bizə müraciət edəndə, biz o saat ayağa qalxar, müəllimlə ayaq üstə danışardıq. Hətta söhbət bitsə də, müəllim "əyləş" deməyincə oturmazdıq. İndi gördüyümüz mənzərə bizə pis təsir elədi, ürəyimizi bulandırdı. Firuz nəinki ayağa qalxmadı, əksinə arxaya yayxanıb oturduğu yerdən cavab verdi:

--Sağ olun, mənim köməyə ehtiyacım yoxdur, heç bir çətinliyim də yoxdur. Sadəcə yazmaq istəmədim, yazmadım.

Yazıq Çimnaz müəllimə, yəqin ki bu yaşa gəlmişdi, amma belə söz eşitməmişdi. Odur ki, əvvəl mat-mat baxdı, sonra çox astadan dedi:

--Bu nə sözdür oğlum, məyər biz bura vaxt öldürməyə gəlmişik?Sən yəqinki bilirsən, məktəbin şagirdlərə ünvanlanmış bir sıra tələbləri var. Sizin də borcunuz bu tələbləri yerinə yetirməkdir, istəyirəm, istəmirəm nə deməkdir?

Firuz bu dəfə özünü irəli verdi, bir növ özünü yığışdırdı, amma yenə əda ilə dedi:

--Dediklərinizlə razıyam, amma bir şeyi unudursunuz ki, mənim arzularım mənim şəxsi həyatıma aid bir şeydir, və mən əyər şəxsi həyatımı heç kimə danışmaq istəməsəm, bu mənim haqqımdır.

Hamı hiss elədi ki, Çimnaz müəllimə məsələnin belə şəkil alacağını gözləmirdi. Qadın elə bil bir anlıq özünü itirdi, dəftərləri götürdü, səliqəyə salıb yenə də yerinə qoydu. Sonra bir-iki addım irəli gəlib üzünü Firuza tutdu:

--Bax oğlum, sən əlbəttə haqlısan, sənin şəxsi həyatına müdaxilə etməyə heç kimin ixtiyarı yoxdur, amma burada söhbət sənin şəxsi həyatından getmir ki, burada məqsəd bizim şagirdlərimizin məktəbi bitirəndən sonra hansı ali məktəbə daxil olmaq istəklərindən gedir. Bizim istədiyimiz odur ki, sizin arzularınızla əməlləriniz üst-üstə düşsün. Bu mövzu da təsadüfü seçilməmişdir, məqsəd indidən sizin həyat yolunuzu müəyyənləşdirməkdir. İrəlidə hələ iki il var, bu müddətdə biz müəllimlər sizi seçdiyiniz ixtisas üzrə əməlli-başlı hazırlaşdıra bilərik. Başa düşdün?

Firuz gülümsünə-gülümsünə sözə başladı:

--Siz çox gözəl izah elədiniz, başa düşməmək mümkün deyil, çox sağ olun, indi icazə verin mən də öz fikrimi bildirim.

Çimnaz müəllimə artıq anlamışdı ki, daş qayaya rast gəlib, odur ki, o da gülümsəyib, --Buyur-dedi.

--Siz hər halda bu inşanı nə olursa olsun mənə yazdırmaq istəyirsiniz. İnanın ki, mən belə səpkili məşğələlərdən çox uzağam, ola bilsin ki, yaşım keçib. O ki qaldı ixtisas seçməyə, həyat yolunu müəyyənləşdirməyə, bu məsələdə hər şey öz qaydasındadır. Mən həyat yolumu inşalarla deyil, müəllim yanına gedib ali məktəb imtahanlarına hazırlaşmaqla açıram. Xahiş edirəm, məni düzgün başa düşün, mən indidən seçəcəyim ixtisas barədə heç kimə məlumat vermək istəmirəm. Mən heç kimin xatirinə dəymək istəmirəm, sadəcə bu mənim xarakterimdir.

Çimnaz müəllimə çarəsiz qalıb, təslim oldu:

--Belə çixir ki, biz sənin xarakterinlə hesablaşmalı olacağıq?-deyə yarı zarafat, yarı ciddi soruşdu. O da cavabında eyni tonla:

--Çox gözəl olardı,-dedi. Hamı gördü ki, bu dialoqda üstünlük Firuzun xeyrinə oldu. Mən dönüb Səməngülə baxanda onun gözlərində bir sevinc gördüm. O bu cevinci gizlətməyə çalışırdı, amma gözlərinin dərinliyində bir qığılcım parlayırdı. Bu gün müəmmalarla dolu bir gün oldu, hələ cavabini çox axtaracağım bir sürü sual yarandı beynimdə. Bu günki gərginlik məni elə yormuşdu ki, heç nə fikirləşmək istəmirdim. Tək istəyim, tez evə gedib dincəlmək idi. Evə qayıdanda heç birimiz danışmadıq, bütün yolu lal-dinməz gəldik, evə çatanda yavaşca xudahafizləşib ayrıldıq.

6. Günlər bir-birini qova-qova gedirdi.

Dərslərimiz çox maraqlı keçdiyi üçün, vaxtın su kimi axıb getdiyini hiss eləmirdik. Tədris proqramı çox ağır idi, ona görə də bir gündə ard-arda yeddi, səkkiz dərsimiz olduğu günlər olurdu. Beləliklə də günümüzün böyük bir hissəsini məktəbdə, sinif yoldaşlarımızla bir yerdə keçirirdik. Çox mehriban bir kollektiv əmələ gəlmişdi. Tənəffüslərdə hamılıqla bufetdə böyük bir

masanın arxasında oturub yemək yeməkdən, birlikdə gəzintiyə çixmaqdan, hər hansı bir mövzu ətrafındasa diskusiya etməkdən böyük zövq alırdıq. Müəllimlər bizimlə hörmətlə davranırdı, biz də bir birimizlə. Firuz bizə çox qaynayıb qarışmasa da, heç bir tədbirdən də kənarda qalmırdı. Bu qədər çətin dərslərin, məşğələlərin, yoxlama yazıların ağırlığından əzilsək də, bir-birimizin ad gününə getməyə də macal tapırdıq. Bu həftənin üçüncü günü Pərvinin ad günü idi. Pərvin ad gününü həftənin sonuna dəyişdiklərini söylədi, və bizi şənbə gününə evlərinə dəvət elədi. Arada üç gün var idi, biz Pərvindən gizlin ona nə isə gözəl bir hədiyyə almalı idik. Sözləşib adambaşına üç manatdan pul yığırdıq ki, Firuz yaxinlaşıb ortaya bir qırmızı onluq atdı,---"bu da məndən,"-dedi. Onun bu hərəkəti hamını pərt elədisə də, heç kim ona baş qoşub qanını qaraltmaq istəmədi. Məsləhətləşib Pərvinə bir dəstə qızılgül, bir divar saatı, bir də üstündə "Pərvin ad günün mübarək" yazılmış tort aldıq. O axşam oğlanlar da, qızlar da xüsusi məsuliyyətlə geyinib-kecinmişdilər. Nə də olsa, ilk dəfə başqa ölkədən gəlmiş bir ailəyə qonaq gedirdik. Bir yerdə oxuduğumuz müddətdə başqa yoldaşlarımızın evində dəfələrlə olmuşduq, valideynlərimiz də artıq hər kəsi yaxşı tanıyırdı. Pərvinin valideynlərini isə bu axşam ilk dəfə görəcəkdik. Yəqin ki, hər kəs özü haqda xoş təəssürat yaratmaq istəyirdi. Hamı gözəl görünürdü, amma Səməngül öz yaşıl paltarında nağıllardan gəlmiş sirli bir gözələ bənzəyirdi. Bu paltarı ona Mahmud əmi limanda, xaricə gedib-gələn dənizçilərdən almışdı. Mən də anamın gülməxmərdən olan köhnə dəbdə tikilmiş bir paltarını dərzi qonşumuza düzəltdirib, ona yeni görkəm vermişdim. Səməngül bu paltarı çox bəyənmişdi. Saat beş oldu, hamı toplaşmışdı, təkcə Firuz yox idi. Biz hədiyyələrimizi götürüb Pərvingilə yollandıq. Pərvingilin evi hələ Xruşşov dövründə tikilmiş kibrit qutusuna bənzər binalardan birində idi. Qapını döyüb içəri girəndə unutduq ki, bu mənzil həmin evlərdən birindədir. Üç otaqdan ibarət olan mənzil çox böyük zövqlə təmir olunmuşdu. Görünürdü ki, bu təmirə ev sahibləri həm ürəklərini qoymuşdular, həm də böyük miqdarda pullarını. Pərvinin gülərüz

ata-anası bizi qonaq otağına dəvət elədi. Baş-başa birləşdirilmiş masaların üstündə gözəl süfrə açılmışdı. Hamı keçib ona göstərilən yerdə oturdu. Pərvin özü yuxarı başda oturdu, boş yer qalmadı. Mirvari nigaran-nigaran ətrafa baxib soruşdu:

--Pərvin, bəs anangil oturmayacaq?

Pərvin öz qəribə danışıq tərzi ilə cavab verdi:

--Anam və atam gözləyəcaxlar hər kəs otura, və gəlib sizə eliyə bilə salam deyəcaxlar ki, siz xoş gəlibsiniz, və sonra xalamgilə gedəcaxlar ki, hər kəs sərbəst ola, və sabah gələcaxlar.

Çox əziyyət çəkirdi yazıq qız, həmi sözləri güclə tapırdı, həm də düzəltdiyi cümlələri "və" bağlayıcısı ilə bir-birinə bağlaya-bağlaya uzun bir yol gəlirdi. Amma hamı artıq onun bu cür danışmağına alışmışdı. Əsas odur ki, fikrini çatdıra bilirdi.

Pərvinin sözlərindən sonra hamı gözünü qapıya dikdi, Pərvinin valideynləri gələcəkdi. Bu vaxt qapı açildı və Firuz əlində böyük bir bağlama içəri girdi. O, üzündə xoş təbəssüm, hamıya müraciətlə:

--Başda Pərvin olmaqla haminizdan çox-çox üzr istəyirəm, gecikməyimin səbəbi mənim üçün vacib olmasaydı, inanın ki, mən hamınızdan əvvəl burda olardım. --dedi.

Rasim yerindən söz atdı:--Biz heç, bizə xoşdur, amma bax dediklərinə inanmaq, və səni bağışlamaq Pərvinə qaldı.

Pərvin gülə-gülə üzünü Rasimə tutdu:

--Yəxçi yoldaş ola bilə gecikəə... mən onu anlaram və baxışlaram. Buyurun.

O yaxınında ehtiyatda dayanmış stulu öz yanına çəkib Firuza yanında yer göstərdi. Firuz hamını arxadan itələyə-itələyə masanın düz o başına keçməli oldu. O keçə-keçə hamıya --"sori, sori, ekskyüz mi,"-deyirdi. O başa catanda Pərvin gülümsəyərək:--Hau waar you, Feruz?--deyə şoruşdu. Firuz da cavabında:--qud, qud, veri qud,---dedi. Hamı mat-mat bu maraqlı dialoqa qulaq asırdı. Firuz da bunu hiss eləmişdi, odur ki, dedi:

--Vallah sizi bilmirəm, mən bundan sonra Pərvinlə ingiliscə danışacağam. Pərvin, sən ki ingiliscə bilirsən, daha niyə o əziyyəti çəkirdin, barı mənimlə ingiliscə daniş, yaxşı?

--Eliyə biləm, hər kəslə ingilisi danışaam, ancax sizdə ingilisi bilən azdı. --dedi Pərvin.

--Söz ver ki, mənimlə ingiliscə danışacaqsan,--dedi Firuz.

--Okey!--deyə Pərvin cavab verdi.

Mən bu mənzərədən gözümü çəkəndə, gözüm Almaza sataşdı. Bunu görmək lazım idi. Elə bil qurbağanı ilan çalmışdı, gurbağa həm şişmişdi, həm göyərə-göyərə gedirdi. Axı Almaza görə, Firuz burda da onun yanında oturmalı idi. Deyəsən Almaz nəyisə düz hesablamamışdı. Mən ürəyimdə Almazin bu halına gülürdüm ki, üzərimdə sanki məni kəsib keçən baxişları hiss elədim. Dönüb o cərəyan gələn tərəfə baxdım. Doğru hiss eləmişdim, Firuzun baxişları idi kəsib keçən, ancaq məni deyil, Səməngülü! Fikirlərimin dolaşıq düşdüyü bu yerdə, Pərvinin valideyinləri içəri girdilər. Onlar gülər üzlə bizə xoşgəldin elədilər, Pərvinin təklifini qəbul eləyib gəldiyimiz üçün bizə öz minnətdarlıqlarını bildirdilər, sonra da bizə xoş əyləncələr arzulayıb getdilər. Haminin elə bil dili birdən açıldı. Hər kəs öz arasında söhbət eləməyə başladı. Səməngül mənə bir dürtmə vurub Almaza işarə elədi. Mən də əyilib onun qulağına dedim:

--Mən onu çoxdan görmuşəm, qonaqlığın sonuna qalmaz, çatlar. Bir də dönüb masanın o başına baxanda Firuz aldığı hədiyyəni Pərvin üçün açırdı. Hamının diqqətini cəlb eləmək üçün ucadan dedi:

--Mədəni adamlar hədiyyəni alan kimi açib baxırlar. Odur ki, happy birthday, Pərvin xanım!

Firuz bağlamadan antik bir yapon fiquru çıxartdı. Fiqur az qala yeni doğulmuş uşaq boyda idi. Əynində qirmizi xalat, əlində yelpik olan bu şişman fiqur həm də pul yığmaq üçün daxıl idi. Düzü, cox gözəl hədiyyə idi, amma bir şey vardı ki, bu qədər adamın aldığı ucuz hədiyyənin qarşısında tək öz adından belə bahalı hədiyyə almaq, ən azı namərdlik idi. Bu hərəkətləri ilə o imkanlı olduğunu bizim gözümüzə soxurdu. Üç manat yığdığımız halda on manat verməklə, bizdən ayrı bahalı hədiyyə bağışlamaqla o, özünü bizdən çox-çox yüksək tuturdu. Hiss edirdim ki, mənim mənfi enerji daxılım da dola-dola gedir...

O gün biz çox gözəl vaxt keçirdik, arada maqnitafonda musiqi çaldırıb rəqs də elədik. İki nəfər heç rəqs eləmədi. Səməngül utandığı üçün, Firuzsa özünü hamıdan ağır taxtalı saydığı üçün rəqs eləmirdi. Bir ara Ceyran, Mirvari, Lalə, Rasim, Sevda, Nailə və mən Zeynəb Xanlarovanın ifasında "Ceyran" mahnısına rəqs eləyirdik. Ceyran müğənniyə qoşulub mahnını həm də oxuyurdu:

Araqçının məndədir, ceyran,
Sərmişəm, çəməndədir, ceyran,
Aləm gözələ dönsə, ceyran,
Mənim gözüm səndədir, ceyran!

Bu mahnı o vaxtlar çox dəbdə idi. Ümumiyyətlə o vaxtlar Zeynəb Xanlarovanın ifası çox dəbdə idi , onun şöhrətinin göylərə ucaldığı bur dövr idi. Biz böyük bir coşqu ilə rəqs edirdik, çünki gənc idik, çünki qayğısız idik, çünki azad idik. Ürəyimiz xoş arzularla dolu idi, çünki gələcəyə, nurlu sabaha çox inanırdıq!!!

Mən arxam oturanlara oynayırdım, sonra oynaya-oynaya yerimizi dəyişdik və bu vaxt mənim diqqətimi bir şey cəlb elədi, Firuz nə vaxtsa yerini dəyişib keçib Səməngülün yanında oturmuşdu, üstəlik əyilib Səməngülə yavaşca nəsə deyirdi. Səməngül başını aşağı salıb əlindəki əl yaylığını didişdirirdi. Offf!! Deyəsən ürəyimə gələn başıma gəlirdi. Əhvalim tamamən pozuldu. Gəlib yerimdə, Səməngülün yanında oturdum. Firuz o saat qalxıb öz yerinə qayıtdı. Mən dönüb Səməngülün üzünə baxdım, o günahkarmış kimi qırqırmızı qızarmışdı. Ani olaraq baxışlarımız toqquşdu, sonra o gözlərini məndən qaçırdıb başını aşağı saldı. Səməngül ilk dəfə oğurluq edib oğurluqda yaxalanmış adama bənzəyirdi. O ani baxışlarda xəcalət, qorxu, tələş bir - birinə qarışmışdı. Bütün bunların səbəbini başa düşmək üçün bir az vaxt lazım idi, ona görə də mən indi ona heç nə demədim, özümü heç nə olmamış kimi apardım. Saat on birə qalmışdı, mən Pərvindən evə getmək üçün icazə istəyəndə hər kəs bunu gözləyirmiş kimi ayağa qalxdı. Beləcə qonaqlığımız bitdi və hər

kəs Pərvinlə xudahafizləşib küçəyə çıxdı. Biz evin qabağında gəzişən Rəşadı görəndə çox sevindik, o bizi aparmağa gəlmişdi.

***

Aradan bir xeyli vaxt keçdi. Bu vaxt ərzində mən nəinki beynimi yoran suallara cavab tapmadım, əksinə o sualların içində dolaşıb qaldım. Bir yandan Firuzun Səməngülə olan marağını hiss edirdim, digər tərəfdən də ad günündən sonra Firuzla Pərvini hər yerdə qoşa gəzən görürdüm. Onlar şərtləşdikləri kimi bütün günü öz aralarında ingiliscə danışırdılar. Bir ara fikirləşdim ki, deyəsən düz başa düşməmişəm, Firuzun hədəfi Səməngül deyil, Pərvindir, hətta Allaha yalvarırdım ki, bu belə olsun.

İçimdəki MƏN xəbərdarlıq edirdi:Firuz təhlükəli adamdır, ehtiyatlı ol! Mən özümə görə narahat deyildim, çünki özümə güvənirdim, içimdə bu qədər şübhə olduğu halda, Firuz kimi adamı mən heç vaxt sevə bilməzdim. Nigarançılığım Səməngüllə bağlı idi. Dərs vaxtı Almazın yanında oturub, onunla çox mehriban münasibət saxlayan Firuz, bütün qalan vaxtları Pərvinin ətrafında dolaşırdı. Di gəl ki, haçan dönüb baxirdimsa, onu oğrun-oğrun Səməngülü süzən görürdüm. Almaz barədə hər şey aydin idi, onunla yəqin ki, bir qonşu kimi dostluq münasibəti saxlayırdı. Yalnız Almaz bunu başa düşmürdü, o başa düşmürdü ki, Firuz kimi yaraşıqlı, savadlı, imkanlı bir oğlan heç vaxt Almaz kimi çirkin, savadsız və adi bir fəhlə ailəsinin qızına meyil salmaz. Amma bunun əksi də ola bilərdi. Bəlkə də Almaz bunları bildiyi üçün Firuzun, heç olmasa dostu olaraq qalmaq istəyirdi. Yəqin bu səbəbdən Firuzun Pərvinlə gəzib dolaşmasına sakit yanaşır, yeri gələndə hətta onlara vasitəçilik də edirdi. O, Firuzun sözünü Pərvinə, Pərvinin sözünü isə Firuza yetirirdi. Almaz Firuzla danışanda, üzündə həmişə yaltaq bir təbəssüm olurdu. Pərvin üçün də narahat idim, çünki Pərvin yaxşı qız idi, Almazın tayı deyildi. Əyər günlərin bir günü Firuz Pərvini aldadıb atsaydı, bu onun kimi saf bir insan üçün fəlakət olardı. Hərdən fikirləşirdim ki, görəsən mən ürəyimdəki bu narahatçılıqları Pərvinə

desəm, o mənə inanarmı?Bəs birdən inanmasa?Sinfimizin bütün qızları Firuzu görən kimi özlərini itirir, onun baxişlarının altında qar kimi əridikləri halda, Firuz yalnız Pərvinə açıq-aşkar maraq göstərirdi. Belə olan halda, Pərvin məni qınamaz ki, məni paxıllıqda günahlandırmaz ki? Başa düşürdüm ki, qarışmağa haqqım yoxdur, odur ki, hər şeyi öz axarına buraxmağı qərara aldım.

Artıq təkcə bizim sinif deyil, bütün məktəb Firuzla Pərvindən danışırdı. Onlar doğurdan da kənardan bir cüt sevgiliyə bənzəyirdilər. Məsələ bu şəkil alınca, mən xeyli sakitləşdim və fikirləşdim ki, yəqin şübhələrimdə yanılmışam.

Noyabr ayı əskərliyə çağırış ayı idi. Mən bilirdim ki, bu payız qardaşım əskər gedəcək. O qün gəlib çatdı. Axşam qohum-qardaş, dost-tanış gəlib Rəşadla görüşdü. Ayın dördü həm biz, həm də Səməngülgil Biləcəri stansiyasina toplaşmışdıq.

Rəşadı yola salırdıq. Rəşad anamla, atamla, Sona xala ilə, Mahmud əmi ilə görüşdü, sonra bizi kənara cəkib dedi:

--Qızlar, mən gələnə kimi özünüzdən muğayat olun, ağıllı olun, elə eləyin ki, mən sizdən arxayın olum, yaxşı?Əyər gözlənilməz bir şey baş versə, mənə yazin, qaçıb gələrəm, oldumu?

İkimiz də Rəşadın nə dediyini başa düşürdük. Səməngül macal tapmamış mən cavab verdim:

--Sən bizdən arxayın ol, görərsən, hər şey yaxşı olacaq. Biz sənə tez-tez məktub yazacağıq.

Mən bu sözləri deyənə kimi Səməngül özünü ələ alıb dedi:

--Rəşad, mən həmişə dua eliyəcəyəm ki, sənin bütün işlərin yaxşı olsun, tezliklə sağ-salamat evə dönəsən. Özündən muğayat ol, biz sənə tez-tez yazacağıq.

Beləcə opüşüb-görüşüb Rəşadı yola saldıq. Rəşadın gedişi ilə həm evimizdə, həm də ürəyimdə bir boşluq yarandı. Qardaşımla ayrılığa uzun müddət alişa bilmədim. Bu həsrətli günlərimdə Səməngülə daha çox ehtiyacım var idi. O isə bu aralar içinə çəkilib çox sakit, çox fikirli olmuşdu. Hamı onun bu halını qardaşı kimi sevdiyi Rəşadın gedişi ilə əlaqələndirirdi. Təkcə mən bilirdim ki, bu belə deyil...

8. Noyabrın ortalari idi. Rəşaddan ilk məktub gəldi.

Yazırdı ki, Demokratik Almaniyadakı hərbi hissələrdən birinə düşüb. Əslində biz elə zərfdən başa düşmüşdük ki, məktub xaricdən gəlib. Rəşad hər şeydən çox razılıq edirdi, alman dəqiqliyindən, alman təmizkarlığından, alman qayda-qanunundan yazıb ondan nigaran qalmamağı tövsiyə edirdi. Mən oxuduqlarıma çox sevindim. Fikirləşdim ki, Rəşad düşdüyü bu yeni şəraitə alışa-alışa başı qarışar, Səməngülü də unudar. Hələlik unutmamışdı, bizi necəsiniz deyə soruşduğu halda, Səməngülü ayrıca soruşurdu. Tapşırırdı ki, dərslərimizə fikir verək, alı məktəbə daxil ola bilmək üçün fikrimizi ancaq oxumağa verək. Yazıq qardaşımın elə bil ürəyinə dammışdı ki, məhz bu il nigaran qaldığı adamın başına nələrsə gələcək. Məktubun sonunda ünvanını göstərirdi, və tezliklə bizdən ətraflı cavab gözlədiyini yazırdı. Mən yubanmadan Rəşada çox fərəhləndirici bir cavab yazdım ki, qardaşım o qərib yerdə heç nədən nigaran qalmasın. Səməngülün adını bilə-bilə ayrıca çəkdim. Yazdım ki, o da yaxşıdır, sənə salam göndərir, indi dərslərimiz çox ağırdır, boş vaxtı olan kimi o da sənə məktub yazacaq. Düzü mən Rəşadın salamını Səməngülə yetirəndə onun soyuqluğu qəlbimə dəydi, o sanki zorla gülümsünüb ancaq:"sağ olsun, necədir?"-dedi. Halbuki, biz üçümüz necə dost idik, ömrümüz bir yerdə keçmişdi. Mən məktubun məzmununu danışırdım, o da başımın üstündən harasa baxa-baxa eşitdiklərini başını tərpətməklə təsdiqləyirdi. Birdən mənə elə gəldi ki, o heç məni eşitmir. Axır vaxtlar Səməngül çox dəyişmişdi, özündə-sözündə deyildi. Neçə dəfə istəmişdim ki, onunla açıq söhbət edim, o bu söhbətdən qaçmışdı. Səməngül yaxasını ələ vermirdi, mən də bundan artıq onun üstünə gedə bilmirdim. Odur ki, gözləməyi qərara aldım, əvvəl-axır Səməngülün içinə çəkilməyinin, fikirli gəzib-dolanmağının, hətta ikimizin arasına sirr pərdəsi çəkməyinin səbəbi üzə çıxacaqdı.

***

Noyabrın sonuna doğru məktəbimizə praktika keçməyə çoxlu tələbələr gəlmişdi. Bu tələbələr müxtəlif pedoqoji institutların

tələbələri idi. Hər ul bu vaxtlar onlar bütün məktəblərə ezam edilib bir ay müddətində muxtəlif siniflərdə hərə öz ixtisası üzrə praktika keçirdi, yəni dərs deyirdi. Bizim sinfin payına düşən tələbələr səkkiz nəfər riyaziyyatçılar idi. Gələnlər əsasən üçüncü kurs tələbələri idi. Onlarla bizim aramızda yaş fərqi çox deyildi. Biz orta məktəbi bitirmək üzrə idik, onlar da institutu, biz özümüzü onlara göstərirdik, onlar da bizə. Elə buna görədir ki, hər il məktəbə praktikant gələndə min bir macəra baş verirdi. Bu il də istisna olmadı. Yalnız bu ilki macəra bəzi məsələlərə aydınlıq gətirdi, bəzi məsələləri isə şişirdib böyük bir qalmaqala çevirdi. Bu qalmaqal bir neçə adamın talehində dərin, unudulmaz izlər buraxdı. Mənim ürəyimdə əmələ gəlmiş şübhələr də həmin andan cücərməyə başladı...

Hər şey ondan başladi ki, gələn tələbələrdən biri-Kamal adında bir oğlan mənim başı bəlalı rəfiqəmə çox güman ki, aşiq oldu və lazım olduğundan artıq diqqət yetirməyə başladı. Oğlan Zakatala rayonundan idi. O tərəf adamları da bir az sarışın olurlar, odur ki, o da sarışın, hündürboy, yaraşıqlı bir gənc idi. Əyər göydə onların ulduzları barışsaydı, yerdə bir-birinə çox yaraşan bir cütlük yaranardı. Di gəl ki, talehin işinə kim qarışa bilib ki... . Mən Kamalı qınamıram, Səməngül həm gözəl idi, həm ağıllı idi, həm də çox yaxşı oxuyurdu, fənlərin çoxundan beş alırdı. Kamal müəllim də dərs vaxtı sorğu-sualın çoxunu ona ünvanlandırırdı. Əslində burada elə bir böyük qəbahət yox idi. Neqativ hal sayılsa da, müəllimlərin çoxu sinifdə əsasən çalışqan uşaqlarla işləməyi sevir. Qəbahət onda idi ki, Kamal müəllim əməlli-başlı qızı gözü ilə yeyirdi. Hətta qrup yoldaşları da bunu hiss eləmiş, neçə dəfə ona ehtiyatlı olmağı, özünü kontrol eləməyi tövsiyə eləmişdilər. Biz bunun dəfələrlə şahidi olmuşduq. Kamalın qızı dərsdə bezdirdiyi bəs deyildi, üstəlik tənəffüsdə də yanından əl çəkmirdi. Elə hey nəsə deyirdi, bununla da qızı qeybətçilərin ağzına salırdı. Tələbə qızlardan Sevinc adlı praktikant çox meriban qız idi, bizimlə özünü həmyaş kimi aparırdı. Sevinc qrup nümayəndəsi idi və tələbələrin özlərini aparmaqlarına, praktikanın davamiyyətinə cavabdeh idi.

Sevinc bir növ tələbələrin həm bizim müəllimlərlə, həm də biz şagirdlərlə nörmal münasibət saxlamasını tənzimləyirdi. Bir gün mən ona yaxınlaşıb Kamalın hərəkətlərindən xəbəri olduğunu öyrənmək məqsədi ilə soruşdum:

--Sevinc müəllimə, sizcə Kamal müəllim etika həddini aşmır ki?

Sevinc əvvəl özünü bilməməzliyə vurmaq istədi:

--Anlamadım, nə barədə?

--Nə barədə, Səməngül barədə, görmürsünüz məyər?Bir az da belə getsə Səməngül dərsə gəlməyəcək!-deyə əsəbi cavab verdim. Sevinc hər halda olanları görməməzlikdən gəlmək istəyirdi, ona görə də məni uşaq bilib belə dedi:

--Həyat, səni nə narahat eləyir? Kamal savadlı tələbədir, odur ki, çox böyük həvəslə dərs keçir. Səməngül də dərslərə həmişə hazırlıqlı gələn şagirdlərdəndir. Biz hamımız onu daha çox qaldırırıq. Bu həmişə belə olub, tələbələr dərs canlı keçsin deyə, əsasən yaxşı oxuyan sagirdlərlə işləyirlər. Məqsəd yalnız praktikadan yaxşı qiymət almaqdır. Məncə sən boş yerə narahat olursan.

Sevincin sözləri məni özümdən çıxardırdı, çünki mən bilirdim ki, söhbətin nədən getdiyini o gözəl bilirdi. Mən düz onun gözünün içinə baxıb dedim:

--Sevinc müəllimə, siz unudursunuz ki, biz də artıq gənclərik, uşaq deyilik. Gözümüzlə gördüklərimizi də, hiss elədiklərimizi də düzgün qiymətləndirə bilirik. Nələr baş verdiyini siz də gözəl bilirsiniz, Səməngül Kamal müəllim tərəfindən təqiblərə məruz qalır, Kamal müəllim artıq kontrolu itirir, hamı da bunu hiss eləyir. Bunun axırı pis ola bilər. Nə qədər gec deyil, müdaxilə edin.

Sevinc deyəsən məsələnin ciddiyətini nəhayət ki, anladı, ona görə də dedi:

--Onda gəl açıq danışaq, biz hamımız bu günlərdə Kamalla bu barədə ciddi söhbət elədik, sənin dediklərini biz də dedik, o isə cavabında nə desə yaxşıdır?

--Nə dedi?

--Dedi ki, mənim niyyətim ciddidir, praktika bitən kimi evimizə gedib anamı onlara elçi göndərəcəyəm. Bax belə, buna sözün nədir?

Doğrusu belə cavabı mən ağlıma da gətirməmişdim. Amma yenə öz dediyimdə durdum:

--Ona deyin ki, hələ nə o elçi gəldi, nə də biz qızımızı verdik, özünü düz aparsın!

Bu sözümə Sevinc ürəkdən güldü, sonra soruşdu:

--Həyat, sənə kimsə tapşırıb ki, Səməngüldən muğayat olasan?Niyə o özü bu məsələni yoluna qoymur?

Sualın qoyuluşu ürəyimdən olmasa da cavab verməyi özümə borc bildim:

--Bilirsiniz, mənə heç kim heç nə tapşırmayıb, sadəcə biz bacı kimiyik. Əyər söhbət məndən getsəydi, indi sizinlə Səməngül danışacaqdı. Bir də, məyər görmürsünüz o necə utancaqdır?

Sevinc mənim cavabımdan məmnun qaldı və dedi:

--Sən hamısını düz deyirsən, mən Kamalla bir də söhbət edərəm. Səndənsə bir ricam var, hələlik bu söhbət aramızda qalsım, yaxşımı? Əyər sizin, ya da bizim müəllimlər bundan xəbər tutsalar, Kamal üçün çox pis olar.

Mən də bunu bildiyim üçün dedim:

--Mən də bilirəm, ona görə də əvvəl sizinlə danışmağı lazım bildim də, əmin ola bilərsiniz, söhbət aramızda qalacaq.

Öz-özümə isə fikirləşdim ki, bu mövzuda söhbətlər nə qədər olmuşdu, hələ nə qədər də olacaqdı...

Hərdən Səməngülə yazığım gəlirdi, hələ ömrümüzün demək olar ki, başlanğıcında idik, amma artıq onun öz gözəlliyi üzündən başı az ağramırdı. Bəs görəsən uzun ömrü boyu yazıq qız hələ nələr yaşayacaqdı? Neçə dəfə aramızda bu mövzuda söhbət olmuşdu, hər dəfə də Səməngül doluxsunub öz gözəlliyini lənətləyirdi. Deyirdi ki, kaş çirkin olaydım, gözüm çaş, ayağim da axsaq olaydı, təki heç kəs mən tərəfə baxmayaydı.

Gözəllik də bir dərd olarmış...

Günlər keçirdi, bu mövzu ətrafındakı gərginlik get-gedə artırdı. Hiss olunurdu ki, Səməngül Kamalın bu qır-saqqız hərəkətindən bezir, yaxa qurtarmaq istəyir, Kamalsa əksinə elə bil qızın razılığını artıq almışdı, özünü daha da cəsarətli aparırdı. Kamal unudurdu ki, Səməngülün hər hərəkətini izləyən, onunla

bağlı hər şeyə nəzarət edən başqa oğlanlar da vardı.

Bir gün tənəffüs vaxtı bütün qızlar hamımız bir yerdə dayanıb söhbət edirdik. Birdən koridorun o başında Kamal göründü. O bizə sarı gəlirdi, üzündə qəribə bir təbəssüm vardı, elə bil kiməsə şad xəbər deyəcəkdi. O bizə yaxınlaşıb Səməngülə müraciət elədi:

--Səməngül, səni bir dəqiqə olar?

Səməngül yenə özünü itirdi, çox ciddi ifadə ilə:

--Buyurun,-dedi.

Kamal da ciddiləşdi:

--Mən səninlə təklikdə danışmaq istəyirəm, vacib sözüm var,--dedi.

Səməngül yerindən tərpənmədən:

--Burda deyin, mənim sizinlə danışılacaq heç bir sözüm yoxdur!--dedi. Keşkə söhbət burda bitəydi! Keşkə Kamal Səməngülün bu acı cavabından anlayaydı ki, onun ürəyindən kecənlər baş tutan sevda deyil! Ancaq Kamal bunu ya anlamadı, ya da anlamaq istəmədi, Səməngülün qolundan tutub dartdı:

--Xahiş edirəm, gedək, bu çox vacibdir. -dedi, həmin anda da Firuz nə vaxt macal tapıb bizə yaxınlaşmışdısa, sanki göydən düşdü, qəfil Kamalın o biri qolunu burub onunla lap burun-buruna dayandı:

--Burax qızın qolunu!!!--dedi.

Firuzun sifətinin bütün əzaları gərilmişdi. Kamal Səməngülün qolunu buraxdı, öz qolunu da Firuzun əlindən çəkmək istədi, amma çəkə bilmədi. Firuz çox bərk yapışmışdı.

--Qolumu burax!--dedi Kamal.

Firuz hələ də onun qolunu burulmuş halda saxlaya-saxlaya düz gözünün içinə baxıb:

--Nə vaxt özüm istəsəm onda da buraxacağam!--dedi.

--Qolumu burax, küçük!-- Kamal elə bunu demişdi ki, Firuz onun qolunu buraxıb çənəsının altına bir yumruq ilişdirdi. Kamal bunu gözləmədiyi üçün müvazinətini itirib kökundən qopmuş ağac kimi yerə sərildi. Məktəbə bir hay düşdü ki, gəl görəsən. Kamal qalxıb Firuzun üstünə şığıdı, amma tələbə yoldaşları onu

vaxtında tutdular. Kamalın gözlərindən sanki qan damırdı, o dişlərini qıcayıb bütün qəzəbi ilə:

--Sən bunun cavabını artıqlaması ilə yeyəcəksən,-dedi. Firuz irəli dartınanda bizim oğlanlar onu tutdular. Firuz Kamala cavab qaytardı:

--Yox aaa... Yeyən sən olacaqsan, özün də bilirsən nə, həm də bugün!

--Ağzını topla, tərbiyəsiz, burda qızlar var. Küçə söhbətini küçədə eləyərlər. Bəlkə çıxaq?

--Mütləq çıxaq, mən tərbiyəsiz sənə tərbiyə verəcəyəm.

Sevinc tez Kamala yaxınlaşdı:

--Kamal ,özünü ələ al, o sənin şagirdindir, sonra peşiman olarsan, nə qədər gec deyil, gedək burdan.

Söhbət elə yerə dirənmişdi ki, Kamal geri dura bilməyəcəkdi, bunu hamımız anladıq. Hər ikisi yaraşıqlı, hər ikisi eyni boy-buxunda, hər iksi çox qürurlu olan bu oğlanlar məsələni məhz elə bu gün çürüdüb axırına çıxacaqdılar.

Məktəbin direktoru, dərs hissə müdürümüz, müəllimlər koridorun o başında görünəndə Kamalla Firuz artıq qaçıb aradan çıxmışdılar. Onların ardınca gedənləri ikisi də geri qaytarmış, və tapşırmışdılar ki, heç kəs qarışmasın.

Direktor oğlanları müxtəlif istiqamətlərə qaçırtdı ki, Kamalla Firuzu tapıb gətirsinlər. Gedənlər xeyli vaxtdan sonra geri gəldilər, və heç kimi tapa bilmədiklərini söylədilər. Bayaq Rasim də getmişdi Firuzla Kamalın ardınca, ancaq Rasim hələ gəlib cıxmamışdı. Aləm bir-birinə qarışmışdı. Birinci növbənin müəllim və şagirdləri evə getmək əvəzinə məktəbin həyətində toplaşıb durmuş, yəqin ki, bu məsələnin nə ilə bitəcəyini gözləyirdilər. İkinci növbəyə gələnlər də bu toplantının nə münasibətlə olduğunu öyrənər-öyrənməz onlar da siniflərə dağılışmağa tələsmirdilər. Bu olanlar başımı elə qatmışdı ki, Səməngül lap yadımdan çıxmışdı. Gözüm onu gəzdi, qizlardan onu soruşdum, amma gördüm deyən olmadı. Gümanım gələn hər yerə baxdım, tapa bilmədim. Gün günortadan xeyli keçmişdi, nəhayət direktor mikrofon gətirdib ucadan toplaşanlara müraciətlə dedi:

--Yoldaş müəllimlər, şagirdlər! İki kənc bir-birini düzgün anlamayıb, olan şeydir, xahiş edirəm məsələni böyütməyəsiniz. Onlar indi yəqin ki, evdədirlər, siz də evə gedin, lazım gələrsə bu söhbətə bir də qayıdarıq. İndilik arada heç nə olmaya-olmaya məktəbimizi dilə-dişə salmayın. Xahiş edirəm, dağılışın. Sağ olun!

Bu müraciətdən sonra doğurdan da şagirdlərin bir qismi evə, bir qismi də siniflərə dağılışdı. Mən nigaran-nigaran sinif otaqlarını gəzirdim ki, xadiməmiz Növrəstə xala az qala pıçıltı ilə məni çağirdi:

--Həyat, Həyat, gizim bura gəl.

Mən səsi güclə eşitdim, odur ki, hardan gəldiyini müəyyən eləyə bilmədim, mən də hər ehtimala qarşı yavaşca soruşdum:

--Növrəstə xala, hardasan?

--Burdayam, burda, qizların ayaqyolunda...

O vaxt tualetə tualet demək ayıb sayılardı, ona görə də tualetə bir qayda olaraq ayaqyolu deyirdilər.

Mən onun dediyi yerə gəldim, Növrəstə xala ayaqyolunun qapısından boylanıb əli ilə "gəl" işarəsi elədi. Gəldim. Növrəstə xala mənim qolumdan tutub içəri, bölmələr olan hissəyə apardı. Ürəyimdə fikirləşdim:"Bu arvada nə olub görəsən, ayaqyolunda mənə nə göstərəcək?"Bu vaxt biz son bölməyə çatdıq və mən orda ağlamaqdan az qala bayılmış Səməngülü gördüm. Sən demə bayaq qarma-qarışıqlıq düşəndə o ya qorxudan, ya da xəcalətdən, onu hələ bilmirdim, qaçıb burda gizlənibmiş. Mən də deyirdim, bu qız göyə uçdu nədir, burda olacağı heç ağlıma gəlməmişdi. Yazıq qız nə hala düşmüşdü, ağlamaqdan üz-gözü şişmişdi, dodaqları uçuqlamışdı. O qədər ağlamışdı ki, indi daha halşız düşüb qalmışdı. Gözləri də yumulu idi. Mən qorxudan əsə-əsə əyilib lap yavaşca onu çağırdım:

--Səməngül, ay Səməngül, məni eşidirsən?Səməngül gözlərini aç da, nə olar. Eşidirsən?

O yavaş-yavaş gözlərini açdı, məni görən kimi yenə də hönkür-hönkür ağlamağa başladı. Mən onu qucaqladım, o da mənim boynuma sarıldı.

Biz ayaqyolundan çıxanda Lalə ilə uz-uzə gəldik. O bizi gördüyünə çox sevindi:

--Çox şükür, ay qızlar, sizə qurban olum, bayaqdan harday-dınız? Bilirsiniz sizi nə qədər axtarmışam?

--Heç soruşma, əvvəlcə fikirləş gör biz harda gözdən uzaq bir yer tapa bilərik? --dedim.

Lalə bir az fikirləşib dedi:

--Məncə pioner otağına gedək, ora girib-çıxan çox az olur,-dedi.

--Düz deyirsən, ora gedək,-dedim, ikimiz də hər iki tərəfdən Səməngülün qoluna girib pioner otağına doğru getdik. Bu an istədiyimiz tək şey "kaş bizi heç kəs görməyəydi"--fikri idi.

Pioner baş dəstə rəhbəri Simuzər adlı gənc qadın idi. Hamı onu yoldaş Sima çağırırdı. Yoldaş Sima əsasən pionerlərlə işləsə də, yuxarı sinif şagirdləri ilə də həmişə səmimi münasibətdə olur, hər nə ücün ona müraciət olunardısa, əlindən gələni əsirgəmirdi. Biz otağa girəndə içəridə heç kəs yox idi. Səməngülü divana oturtduq, Lalə qaçıb bir stəkan su gətirdi, suyun yarısını Səməngülə içirtdik, yarısını da üz-gözünə vurdug. Elə bu vaxt yoldaş Sima gəldi. Onun üzündə bir tələş var idi. Bizi görər-görməz qapını içəridən açarla bağladı, sonra gəlib Səməngülün yanında oturdu. O meriban bir bacı kimi Səməngülün əlini əlinə aldı:

--Sakit ol, Səməngül, hamısı keçib gedəcək, hər şey yaxşı olacaq, bax görərsən,-dedi.

Yoldaş Simanım dili bizə bunu deyirdisə, üzündəki həyəcan başqa şey deyirdi. Lalə də nəsə hiss elədi, odur ki, soruşdu:

--Yoldaş Sima, oğlanlardan nə xəbər var?

--Xəbərlər sevindirici deyil, Rasim bir az var gəldi, indi Hökümə muəllimənin otağındadır. Bayaqdan biz hamımız direktorun yanında idik. Firuzla o oğlan bir az burdan aralı garajların yanında bir-birini al qana qatıblar, Rasim özünü çatdirib, ancaq ayıra biməyib. Yoldan keçən kimsə milis çağırıb, onların üçünü də şöbəyə aparıblar. İzahat alıblar, Rasimi buraxıblar, amma onları saxlayıblar. Miliş bölməsindən direktora zəng vurub məlumat veriblər. Milis işçisi deyib ki, oğlanlar ikisi də ciddi xəsarət alıb, əvvəlcə həkim müayinəsindən keçiriləcəklər, sonra istintaq açılacaq.

Onsuz da halı olmayan Səməngül, eşitdiklərindən daha da kövrəldi, başını aşağı salıb sakit-sakit ağladı. Məsələ döğurdan da çox ciddi şəkil alırdı, və kimsə bunun hesabını ödəməli olacaqdı. Hamımız donub qalmışdıq, gaşınmayan yerdən qan çıxartmaq buna deyərlər. Araya çökən sükutu yenə də yoldaş Sima pozdu:

--Qızlar, olan oldu artıq, gəlin bundan faciə yaratmayaq. Birincisi, iki gənc xoruz kimi döyüşüb, indi də versinlər cavabını, ikincisi də bütün bu olanların Səməngülə heç bir aidiyyatı yoxdur. Düz demirəm?

Lalə də, mən də bir ağızdan dedik:

--Vallah düz deyirsən.

Lalə elə cəsarətlənmişdi ki, səsini də qaldırıb üzünü Səməngülə tutdu:

--Bura bax, ay qız, sən niyə özünü belə yeyib tökürsən?Burda sənin nə günahın var?Özünü bu hala salmaqla "qarğa məndə qoz var" deyirsən. Qalx, qalx ayağa, gedək əl-üzünü yu, özünü səliqəyə sal, Rasimi də çağırım gedək evə. İndi evdə də valideyinlərimiz nigaran qalıblar yəqin. Şəxsən mənim anam bir azdan özünü şatdırar bura, gedək!

Lalənin fikrini biz də dəstəklədik:

--Tamamilə doğrudur, kim aləmi bir-birinə qatıbsa o da cavab versin!

Biz yoldaş Sima ilə xudahafizləşib Hökümə müəllimənin otağına doğru gedirdik ki, qarşı tərəfdən Rasimin gəldiyini gördük.

Rasim bizə sual verməyə imkan verməyib özü bizi qabaqladı:

--Gedək,gedək, yolda danışaram,-dedi.

Yolda Rasim hər şeyi təfsilatı ilə danışdı. Rasim dedi ki, özünü onlara çatdıranda ikisinin də üzü al qanin içində imiş. Rasim çox çalışıb ki, onları ayırsın, ancaq gücü çatmayıb. Yazıq Rasim neyləsin, boyu güdək olduğu üçün ancaq oğlanların belindən tutub kənara ata bilirmiş. Onlar da ayağa qalxıb yenidən bir-birini yumruqlayırmış. Bizim kefimizi açmaq üçün Rasim bu olanları bir az da gülməli danışırdı, odur ki, butun keçirdiyimiz gərginlikdən sonra sinirlərimiz o qədər boşalmışdı ki, özümüzü

gülməkdən saxlaya bilmədik. Beləcə gülüşə-gülüşə yol ayrıcına catdıq. Rasimlə Lalə sağa, beşmərtəbəli evlərdən ibarət olan şəhərciklərinə, bizsə sola, həyət evlərindən ibarət olan məhləmizə üz tutduq. Rasimlə Lalənin yaşadığı mikrorayonla bizim yaşadığımız məhlənin arasi çox da uzaq deyildi. Ayaqla gedilsə yarım saatlıq yol, avtobusla isə iki qısa dayanacaq olurdu. Əyər səhərlər məktəbə gedəndə bir qayda olaraq avtobusa minirdiksə, evə dönəndə bəzən bu yolu piyada getməyi üstün tuturduq. Bu ya hava gözəl olanda olurdu, ya da uryimizdə bir narahatçılıq olanda, hansısa bir fikri götür-qoy eləmək istəyəndə. Bu gün də araşdırmalı fikirlərimiz var idi, odur ki evə piyada gedirdik. Yolda bir xeyli susduq. Əslində mən ürəyimdə Səməngüllə danışırdım, düşündüklərimi ona demək üçün düzgün cümlələr qururdum. Mən həmişə sözün güzünü deyən olmuşdum, ona görə də mənim kəlmələrim bəzən kiməsə ağır gələ bilirdi. İndi də mən istəmirdim ki, deyəcəyim sözlər bu qədər həyəcan kecirmiş bacılığıma toxunsun, onu incitsin. Odur ki, mən yavaş-yavaş sözə başladım:

--Səməngül, sən bilirsən ki, mən hər şeyi axıra qədər araşdirmağı sevirəm. Əyər nəyisə başa düşmürəmsə, onu mütləq bilən adamdan soruşub aydınlaşdırıram. Mən bunu ona görə edirəm ki, əyər mənə qaranlıq qalan məsələni aydılaşdırmasam, o məni narahat edəcək, mənə əziyyət verəcək. Sən bunları bilirsən, çünki biz çox yaxın rəfiqəyik. Mən bunu sənin yadına ona görə salıram ki, soruşacağım suala səndən goğru cavab istəyəcəyəm.

Mən aramla danışırdım, rəfiqəmin necə titrədiyini hiss edirdim, az qala onun ürək döyüntülərini də eşidirdim. Hətta bir an fikirləşdim ki, bəlkə heç bu söhbəti başlamamalı idim?Amma artıq gec idi, ox yayından çıxmışdı. Odur ki, sözümə davam elədim:

--Məncə sən bu oğlanlardan hansınasa biganə deyilsən ki, bu gün bu hala düşdün, özünü günahkar kimi apardın. Sən onlardan hansınısa sevirsən?

Çox açıq sual oldu, amma başqa yolum yox idi, ən doğru yol bu idi. Səməngül əlləri ilə üzünü qapayıb ağlamağa başladı. Mən

başa düşdüm ki, bu belə olmayacaq, odur ki, onun qolundan tutub yol üstündəki skamyalardan birində oturtdum. Özüm də yanında oturub onu sakitləşdirməyə çalışdım:

--Səməngül, sakit ol! Bilirsən ki, bu yoldan bizi tanıyanlar gəlib-gedir, görən olar, söz-söhbət başlar.

Elə bil bu sözə bənd imiş kimi Səməngül əllərini üzündən götürüb hələ də ağlaya-ağlaya dedi:

--Onsuz da söz-söhbət olacaq, mən də ona görə bu hala düşmüşəm də, axı mənim nə günahım var? Sabah hər yana yayılacaq ki, dava kimin üstündə olub?Səməngülün. Niyə?Eşq məsələsi. Yəqin məni hələ milisə də çağıracaqlar, ondan sonra da hamı məni barmaqla göstərəcək. Sən də başlamısan ki, hansını sevirsən, heç dəxli var?

Dəxli əlbəttə ki, var idi, lakin Səməngülün dediklərində də məntiq var idi deyə, mən daha dərinə getmədim. Daha doğrusu, gedə bilmədim.

--Qalx gedək, hələ evdə də bu qədər yubanmağımızın səbəbini deməliyik, burda yalansız mümkün olmayacaq deyəsən,--dedim.

Səməngül yenə həyəcanlandı:

--Həyat, qurban olum, özün bunu yoluna qoy, nə uydursan uydur. Mən bacarmaram, evdə də çaxnaşma başlasa dəli olacağam. Kömək elə, məni sorğu-sualdan qurtar. --dedi.

Mən onu sakitləşdirdim:

--Yaxşı, yaxşı, sakit ol. Bir şey fikirləşərik. Əsas odur ki, mən nə desəm onu yadında saxla, sonra yalanımız çıxmasın.

O elə bil sevindi, tez:

--Yaxşı. --dedi.

Biz yolumuza davam elədik.

9. Biz evdəkilərə kitabxanada yubandığımızı, imtahana hazırlıq suallarını yazdığımızı deyib valideyinlərimizi inandırdıq.

Onları heç vaxt aldatmadığımıza görə bizə şəksiz inandılar. Elə yenicə ürəyimdə "Allah, sənə çox şükür, bunu da beləcə yoluna qoyduq,"--deyib arxayınlaşmışdım ki, axşam Sona xala

tələşlə bizə gəldi, Səməngülün qızdırma içində yandığını dedi, məndən də soruşdu ki, ona nə olub?Mən cavab vermədən Səməngülün yanına qaçdım. Səməngül doğurdan da atəşdə yanırdı. Özümü bir anlıq itirdim, nə deyəcəyimi bilmədim. Doğru deyirlərmiş ki, yalan yalan gətirər. Məcbur qalıb bir yalan da uydurdum. Dedim ki, Səməngül elə sabahdan üşüyürdü, yəqin soyuqlayıb. Sona xala mənə qulaq asacaq halda deyildi, o Səməngülün qızdırmasını salmaq üçün çarə axtarırdı. Köməkli Səməngülə qızdırma salan dərman içirtdik, o yuxuya gedənə kimi mən onun yanında oturdum. Səməngül tezliklə yuxuya getdi, mən də evə gəldim. O gecə ilan vuran yatdı, mən yata bilmədim. Hər səhər özüm hamıdan erkən qalxdığım halda, bu səhər məni anam oyatdı. Yerimdən güclə qalxdım, dərsə getmək olmasaydı, bütün günü yatardım. Yadıma Səməngül düşdü, tez ona baş çəkdim, görüm necədir. Səməngülün qızdırması düşmüşdü, ancaq nə özü məktəbə getmək istədi, nə də Sona xala buna razı olmadı. Dedi ki, qoy bir-iki gün evdə qalsın, görək nə olub bu qıza. Mən də daha bir söz demədim, bir neçə gün dərsə tək getməli oldum.

Səməngülün xəstə yatdığı bu bir neçə gündə çox şeylər baş verdi. Firuzla Kamalın davası üzrə istintaq işi açılmadı, amma Firuzun atası öz oğlunu milisdən zamına götürdü, əvəzində şikayət ərizəsi ilə Kamalın cəzalanmasını tələb elədi. Bu məsələ Kamalın oxuduğu instituta da bildirildi, işi xətm eləmək üçün Kamalı institutdan xaric elədilər. Kamal Firuzun atasına minnətçi göndəribmiş ki, Firuzun atası ərizəsini geri götürsün, bəlkə onu yenudən instituta bərpa edərlər, amma Firuzun atası onları qapıdan qovub. Deyib ki, "Nə qədər ki, qanun məcəlləsinin filan-filan bəndinə görə mövqeyindən sui-istifadə edib həm qız şagirdinə sataşmaq istədiyinə görə, həm də oğlan şagirdini vəhşicəsinə döydüyünə görə ona iş açdırmamışam, gedin burdan. Ona da deyin, oğlumdan uzaq dursun. Onun pedoqoji institutda yeri yoxdur, getsin asvalt bassın, onda ağlı başına gələr. "

Firuz dərsə gələndə biz başa düşdük ki, bunlar necə cani-dildən vuruşublarmış. Firuzda ağız, burun, qulaq qalmamışdı, hamısı partlamışdı. Gözlərinin altı həm şişmişdi, həm də, bu

yerdə göyərmişdi demək azdır, lap bənövsəyi rəngdə idi. Bu qədər xəsarət almasına baxmayaraq, Firuz məktəbdə qəhrəman kimi gəzirdi. Bir yandan sinif yoldaşlarımızın suallarına cavab verirdi, bir yandan da gözü elə hey kimisə axtarırdı. Mən onun kimi axtardığını bilsəm də, özümü görməməzliyə vurdum. Onun bizim sinifə gəldiyi bu müddətdə onunla heç iki kəlmə də danışmamışdım. O da yəqin ki, bilirdi ki, mənim ondan xoşum gəlmir, odur ki, o da ehtiyac olmadan mənimlə danışmamağa çalışırdı. Bəlkə hələ Səməngülə ağıl verdiyimi hiss elədiyi üçün məndən zəhləsi də gedirdi, kim bilir... Yazıq Pərvin az qalırdı Firuzun bu halına ağlasın. Yanından əl çəkmirdi, elə hey onun yerinə ufuldayırdı. Almazın da özünə məxsus reaksiyası vardı, o elə hey Kamalın dalınca qarğış tökürdü:

--Sənin bura gəldiyin günə daş düşəydi, sənin Firuzu vuran yerdə əlin sınaydı, səni görüm heç məktəb üzü görməyəsən... .

Firuz daha artıq dözə bilməyib dedi:

--Ay Almaz, bəsdir qoca qarılar kimi qarğış tökdün, qarğışın iki başı var haaa... Ehtiyatlı ol! Bir də Kamal cəzasına çatdı, daha sənin qarğışlarına ehtiyac yoxdur.

Bu sözlərdən sonra o gülmək istədi, amma ağzının-burnunun ağrısı buna mane oldu. Firuz ufuldadı, onunla bərabər Pərvin də, Almaz da ufuldadılar. Mən bu mənzərəni ikrahla izləyirdim ki, Firuzun gözü mənə sataşdı. O, rəfiqələrindən aralanıb mənə yaxınlaşdı:

--Səməngül dərsə gəlməyib?--deyə soruşdu. Adımı çəkməməsi məni bir az da əsbləşdirdi. Bilə-bilə ona acı cavab verdim:

--Xeyir ola?Bu sualı mənə niyə verirsən?Məyər mən sorğu bürosuyam?

--Mən bilirəm sən sorğu bürosu deyilsən, sən Səməngülün cangüdənisən,--dedi Firuz, və bununla da, onsuz da heç vaxt yaranmayacaq münasibətimizdə son nöqtəni qoydu:

--Bilirsən nə düşünürəm?--deyə bir qəfil ona sarı döndüm. O da maraqla mənə baxdı, üzündə təbəssümə bənzər bir şey də əmələ gəldi:

--Nə düşünürsən?

--Düşünürəm ki, o Kamal vardı haa... o səni az döyüb, indiki institutdan da qovulacaqdı, gərək səni əməlli-başlı əzişdirib muma döndərəydi!--dedim və dönüb getdim, o da qaldı baxa-baxa.

***

Bu hadisədən bir neçə gün keçmişdi. Ara sakitləşmişdi, tələbələrin praktikası davam edirdi, təkcə Kamal onların arasında yox idi. Səməngül sağalıb dərsə gəlmişdi, amma hələ də günahkarmış kimi lal-dinməz gəzir, gözlərini hamıdan, xüsusən də praktikantlardan gizlədirdi. Mən nə qədər ona "özünü ələ al, qaşqabağ sallama, ölən-itən olmayıb",--desəm də, bunun xeyri olmurdu. Mən ona başa sala bilmirdim ki, çox adam heç bilmədi ki, iki gənc nəyə görə dava elədi. İndi Səməngül də özünü belə aparmaqla, yox yerdən diqqəti öz üzərinə çəkirdi. Sən demə mən onun qəmli dolaşmağının səbəbini heç bilmirəmmiş, ona görə də özüm deyib özüm eşidirəmmiş. Sən demə, bu gün bir neçə adam üçün yadda qalan bir gün olacaqmış, çünki tezliklə bilmədiyimiz bir çox şeyləri təsadüfən eşidəcəkdik. Belə oldu ki, dördüncü saat dərsimiz boş keçdi. Məlum olmuşdu ki, fizika müəllimimiz bu gün dərsə gəlməyib, onu əvəz edəcək başqa adam da yoxdur. Sərxan müəllim gəlib bizə iki variant təklif elədi:ya sinifdə oturub dərs çalişirsınız, ya da hamılıqla gedib təmiz havada gəzirsiniz. Hamımız gəzintini seçdik. Sərxan muəllim məktəbdən səssizcə çıxmağı tövsiyə edib getdi. Hamı iki-bir, üç-bir sinifdən çıxırdı. Mən Səməngülün yerindən tərpənmədiyini görüb ona sarı döndüm:

--Nə oldu, Səməngül, gedək də... --dedim.

Səməngül büzüşüb dedi:

--Həyat, mən getmək istəmirəm, özümü yaxşı hiss eləmirəm, sən get.

--Onda mən də getmirəm, sən burda tək oturub nə eləyəcəksən?

--Yox-yox, sən get, mən də oturub dərsləri təkrarlayacağam, buraxdığım dərsləri. Səm narahat olma, get gəz,--dedi.

Mənə nədənsə elə gəldi ki, o mənim getməyimi çox istəyir, ona görə də :

--Yaxşı tək darıxma, mən də bir az gəzib gəlirəm,--dedim və qızlara qoşulub getdim.

Yayda məktəbimizin həyəti yaşıllıqlarla örtülü olardi, indi o yaşıllıq saralıb tökülür, sarı-qırmızı xəzəldən əmələ gəlmiş xalı biz yeridikcə ayağımızın altında xışım-xışım xışıldayırdı. Çox romantik bir görünüş yaranmışdı, payızın nəfəsi hər kəsi şair təbiətli eləmişdi. Kimsə təbiətin əhvalına üyğun şer oxuyurdu, kimsə də hansısa lirik mahnını dodağının altında zümzümə edirdi.

O vaxtlar televiziya bu günkü kimi həyatımıza girməmişdi, bu günkü kimi populyar deyildi. O vaxtlar hamı mütaliəni sevirdi, ona görə də biz öz aramızda filmdən deyil, hansısa romandan söhbət edər, yenicə çapdan çıxmış kitabları təhlil edərdik. Maraqlı romanlar satışdan tez yoxa çıxar, sonra da əl-əl gəzərdi. Belə kitablardan biri də Cəmşid Əmirovun "Qara volqa"romanı idi. İlk Azərbaycan detektiv romanı olmaqla, bu roman respublikada demək olar ki, sensasiya yaratmışdı. Hamı ondan danışırdı. İnsafən çox maraqlı yazılmışdı. O vaxtki gənclər bu romana qədər həyatı yalnız musbət tərəfindən tanıyırdılar. Bizə məlum olan problemlər yalnız üzdə olan uğursuz məhəbbət macəraları idi. Kimsə kimisə sevdi, amma o başqasına qismət oldu, yaxud gənc ailə filan problem üzündən boşandı:yəni çox primitiv problemlər idi tanıdıqlarımız. Bir ucu çox dərinlərə gedən cinayətlərdən, lap elə yaşadığımız Bakımızda hamı şirin yuxuda ikən qaynaşmağa başlayan kriminal elementlərin gecə həyatından, evlərdə fəaliyyət göstərən fahişə yuvalarından, oğurluqdan, soyğunçuluqdan, narkotik maddələrin gənclər arasında yayılmasından xəbərimiz yox idi. Bu roman sanki bizim gözümüzü açdı, gözümüzdən pərdəni götürməklə həyatın o biri üzünü bizə göstərdi. Hələ bərkə-boşa düşmədiyimiz üçün bu romanda təsvir olunmuş hadisələrdən xoflanmış, üzün müddət oxuduqlarımızın təsirindən qurtara bilməmişdik. Hər kəs onu təsirləndirən epizodu yada salır, təhlil edirdi. Söhbət yaman qızışmışdı. Birdən fikir verib gördüm ki, Firuz aramızda yoxdur.

Bir az əvvəl o bir tərəfində Pərvin, bir tərəfində də Almaz bizdən bir az irəlidə gəzişirdi, indi birdən gözüm sataşdı, gördüm ki, qızlar ikisi qol-qola gedir. Bəs Firuz necə oldu?! Hansısa bir hiss məni içəri, sınıfə çəkirdi. Bu an Pərvinlə Almaz da sanki nədənsə şübhələndilər və mənim dalımca məktəbə döndülər. Biz koridoru dinməzcə keçirdik, amma mən ürəyimin döyüntüsünü eşidirdim. Bu həyəcan mənə nəyisə xəbər verirdi. Biz sinif otağımızın qapısına çatdıq . Qapının bir tayı açıq idi. Qapıya yaxin olan birinci cərgənin ikinci partasının üstündə Firuz arxası qapıya oturmuşdu. Biz yalnız onun kürəyini görürdük. Üçüncü parta bizim yerimiz idi. Orda Səməngül başını aşağı salıb oturmuşdu. Firuz lap onun başının üstünə əyilmişdi. Hər ikisi görünür çox həyəcanlı idi ki, bizim gəlişimizdən, orda dayanmağımızdan xəbərləri olmadı. Biz qızlar, bir birimizi tamamən unutmuşduq, hər birimiz nəfəsimizi belə çəkmədən içəridə danışılanları eşıtməyə çalışırdıq. İlk eşitdiyimiz Firuzun bu sözləri oldu:

--həəə... Səməngül? Niyə cavab vermirsən, kimdən qorxursan? Mən sənin xətrinə dəymək istəyən hər kəsi al qanına bulaşdıraram, bilirsən?

Görunur Səməngül həyəcandan tir-tir əsirdi, odur ki, Firuz davam edirdi:

--Niyə titrəyirsən? Məndən də qorxursan? Axı mən səni sevirəm, ilk gördüyüm andan sevirəm, dəlicəsinə sevirəm, eşidirsən?

Bu yerdə Firuz lap Səməngülün üzünə toxuna biləcək qədər əyildi. Biz, yerimizdə donub qaldığımız halda, bir-birimizə baxdıq.

Mən and içə bilərəm ki, bu an hər üçümüzün ürəyi qısqanclıqdan od tutub yandı. Pərvinlə Almaz Firuzu, mənsə Səməngülü qısqandım. Onlar sevdikləri oğlanı, mən də ən yaxın rəfiqəmi itirməkdən qorxurdum. Nə yaxşı ki, içəri birinci Pərvin girdi. O özunu ələ ala bilməyib əsəbindən dili dolaşa-dolaşa üzünü Firuza tutdu:

--Sən nəmənə adamsan, Feruz? Demax mənə dedixlərin yalan idi? Ola ki, mən sənin bu dedixlərivi eşitməyəydim, sən mənim könlümü xərab eliyəcaxdun? Niyə bə, Feruz?

Firuz artıq partanın üstündən düşmüşdü, Səməngül də otaqdan çıxmaqla canını bu söhbətdən qurtarmaq istəyirdi ki, qapının arxasında dayanan bizi gördü. Almaz onu acıqlı süzüb içəri keçdi, mənsə eşitdiklərimdən də, gördüklərimdən də, Səməngüldən də utandığım üçün gözlərimi yerə dikib durmuşdum. Səməngül özunu elə itirmişdi ki, bilmirdi neyləsin. Mən başımı qaldırmadığım üçün, o da daha yanımda durmağın mənasız olduğunu anlayıb çölə çıxdı. Mən divara söykənib qalmışdım. İçəridən Firuzun səsi gəldi:

--Pərvin, sakit ol, biz sənlə dostuq, sən məni düz başa düşməmisən. Almaza bax, əsil dostdur deyə, gör heç inciyər?

Almaz bayaqdan ürəyini boşaltmaq üçün növbə gözləyirdi, amma Firuzun sözlərini eşidən kimi xomeleonsayağı mövqeyini tezcə dəyişdi:

--Döğru deyir də, Pərvin, Firuz heç sənə belə sözlər demişdi? Sən özün ona başqa gözlə baxmısan, o yazıq neyləsin, indi də elə ona görə qısqandın, özünü ifşa elədin. Halbuki, Firuz bizim dostumuzdur. Sən dostluqla sevgini hələ də ayird edə bilmirsən? Sakit ol, ağlama. Nə qədər heç kəs yoxdur, bu mövzunu burdaca qapa.

Mən Almazın bu cür yaltaq, riyakar davranışına görə ona bir daha nifrət elədim. Mən nə qədər fikirləşirdimsə, onun mövqeyini başa düşə bilmirdim. Başa düşə bilmirdim ki, onun Firuzun ətrafında dolaşmağından qazancı nə idi. Anlamaq olmurdu, o Firuzun dostudurmu, dayəsidirmi, yaxud buyruq quludurmu? Hərdən mənə elə gəlirdi ki, Firuz ona "öl" desə, ölər, "qal" desə , qalar. Bu itaətkarlığın kökündə nə dururdu, bax bunu mən anlaya bilmirdim. İndi də hamının nə vaxtdan bəri Firuzla Pərvini sevgili kimi tanıdığı halda, Almaz canfəşanlıqla dostunu bu vəziyyətdən çıxartmağa çalışırdı.

Firuz da, bu sözlərdən bir az da ürəklənib Pərvinə yaxınlaşdı:

--Sakit ol, Pərvin, sən yaxşı qızsan, mən səni özümə dost bilirəm, və istəyirəm ki, biz dost olaraq qalaq.

Pərvin göz yaşını silib sakitləşdi, sonra üzünü Firuza tutdu, o çox ciddi idi:

--Sənin kimi bir dosti nə gəyirəm Feruz, sən namərdsən, sənə hər kim ki, güvənə, sən onun bəxtini qərə elərsən. Xub, mən səndən gen gəzərəm, belə yaxçidi.

Mən daha orda dayanmayıb bayıra çıxdım. Özümdən asılı olmayaraq, gözüm yenə də Səməngülü axtarırdı. Məktəbin bağçasında ikimizin sevdiyimiz bir yer var idi, salxım söyüd ağacının altında bir skamya... Səməngül həmən yerdə idi, tək oturmuşdu. Mən də gəlib onun yanında oturdum. İkimiz də susurduq. Mən ona görə susurdum ki, məni çoxdan narahat eləyən suallara bu gün cavab almışdım. Səməngül ona görə susrdu ki, Firuza aşiq olduğunu hələ də danırdı. Halbuki, Firuzun ona bu qədər yaxin durmasının başqa heç bir izahatı ola bilməzdi. Səməngülün Firuzu bu qədər yaxına buraxması, onun qabağında tir-tir əsməsi bircə şeyi göstərirdi:Səməngül də Firuzu sevirdi.

Son iki dərsi hər kəs öz aləmində keçirtdi. Firuz sevgisini dilinə gətirdiyinə görə bir az da ürəklənmişdi, o indi daha tez-tez Səməngül tərəfə baxırdı. Almaz hər şeyi bildiyi halda yenə də onu vurğun-vurğun süzürdü. Pərvin pərt halda oturub, gözünü qırpmadan lövhədə bir nöqtəyə baxırdı. Mən də Firuzdan gələn, məni köndələn kəsib keçən cərəyanı kürəyimdə hiss eləyərək, özümü bu iki sevgilinin arasında artıq hesab eləyirdim. Axirinci dərs bitəndə, bəlkə də hər birimiz dərindən nəfəs aldıq. Son zamanlarda artıq neçənci dəfə idi ki, biz evə dinib-danışmadan dönürdük...

10. Noyabr ayı arxada qalmışdı.

İllərin ayrıcı olan dekabr ayı başlamışdı. Havalar şaxtalı keçirdi. Hələki qar yağmamışdı, amma tez-tez yağan yağışlardan sonra bərbad yolların çala-çuxurunda gölməçələr əmələ gəlirdi. Axşam şaxta vurub bu gölməçələri dondururdu, səhərlər işə, dərsə gedənlər də bu buzanağın üstü ilə, yıxılmaqdan ehtiyat edərək, qorxa-qorxa yeriməli olurdular. Avtobuslar da bu durumdan əziyyət çəkib yollarda yubanırdılar. Odur ki, yeddi ilə səkkiz arası avtobuslar ağzına kimi dolu olurdu. Bu səbəbdən həm dərsə getmək, həm də vaxtında yetişmək bir az çətin

olmuşdu. Bu azmş kimi, məhz bu mövsümdə qriplər tüğyan edər, qripin amansız virusu, əsasən böyük kollektivlərdə sürətlə yayılardı. Mən, adətən, özümü xəstəliklərə daha dayanıqlı hesab edirdim, ancaq özümə nə qədər güvənsəm də, qrip bu dəfə məndən yan keçmədi, və mən xəstələndim. Xəstəlik məktəbdə başladı. Baş ağrısı ilə üşütmə məni elə halsızlaşdırdı ki, daha dərsdə otura bilmədim, icazə alıb çıxdım. Səməngül də özünü mənə çatdırdı, qoluma girdi:

--Həyat, həkimə gedəkmi?-deyə soruşdu.

Mən ayaq üstə güclə dururdum, tək istəyim özümü evə çatdırmaq idi.

--Səməngül, mən ancaq evə istəyirəm, Hökümə müəlliməni tap, mənim üçün izin al. Evə gedəcəyəm. -dedim. Özüm də qapının ağzındakı oturacağa sərildim. Qapıçımız Gülsüm xala özünü mənə yetirdi, məni dikəldib qucaqladı, Səməngülə dedi:

--A qızım, nə durmusan, qaç həkimi çağır!

Mən tamam haldan düşüb ət kimi olmuşdum, dünya başıma fırlanırdı, ürəyim də bulandığı üçün hər tərəf gözümdə sarı rəngdə idi. Bir azdan Səməngül məktəb həkimimiz Aidə xanımla gəldi. Onlar köməkləşib məni həkim otağına apardılar, orada müayinə yatağına uzandırdılar. Aidə xanım mənə qizdırmamı salmaq üçün dərman içirtdi, sonra bir az bu halda üzanmağı tapşırdı. Aidə xanımla Gülsüm xala öz aralarında pıçıltı ilə nəsə danışırdılar. Yavaş-yavaş bu pıçıltı canki məndən üzaqlaşmağa başladı, mən yuxuya getdim. Koridordan gələn səs-küyə gözümü açdım, Səməngül yanımda oturmuşdu, Aidə xanım yaxinlaşıb qızdırmamı ölçdü, sonra dedi:

--37,2--nə qədər ki, qızdırman yenidən yüksəlməyib, özünü evə çatdırmalısan.

Mənim danışacaq halım yox idi, Səməngül məni qabaqlayıb soruşdu:

--Məyər yenə qalxa bilər?

--Mütləq qalxacaq, çünki xəstəliyin inkubasiya dövrü hələ bu gün başlayır, bir--iki gün qızdırma olacaq. Sən onu yaxşıca geyindir, mən bir taksi çağırım.

Bu vaxt Hökümə müəllimə də gəldi. O içəri girərkən onun başı üzərindən içəri boylanan sinif uşaqlarımızı gördüm. Firuz onlardan aralı dayanmışdı. Hökümə müəllimə qayğıkeş ana kimi əlini alnıma qoydu, sonra geyinməyimə kömək elədi, Səməngülə də tapşırdı ki, mənimlə evə qədər getsin. Bizi taksiyə mindirəndə, Firuz yaxınlaşıb sürücüyə pul verdi, Səməngülə isə "yaxşı yol" dedi. Səməngül cavab vermədən yanımda əyləşdi. Mən başımı onun çiyninə söykəyib yuxuya getdim...

***

Mən düz bir həftə xəstə yatdım. Bu bir həftədə üç gün qızdırmadan özümü, sözümü bilmədim. Dördüncü gün qızdırmam düşdü, bir az özümə gəldim. Anam dedi ki, Səməngül hər gün dərsdən gələn kimi əvvəl mənə baş çəkirmiş.

Bu gün Sona xala düşpərə bişirib gətirmişdi. Axşam da Mahmud əmi məni ziyarətə gəldi, hal-əhval tutandan sonra atamla nərd də oynadılar. Hər şey elə bil əvvəllərdə olduğu kimi idi. Səməngülün son günlərdəki süstlüyü də harasa yoxa çıxmışdı. Mən buna çox sevindim, əvvəla rəfiqəmin mənim sağalmağıma bu qədər sevinməyi məni kövrəltdi, sonrası da ki, nə vaxt idi onun bu şuxluğu üçün darıxmışdım.

Səməngül dedi ki, ev tapşırıqlarını bir yerdə hazırlayaq ki, mən dərslərdən geri qalmayım. İlin sonu həm də ikinci rübün sonu idi, rubluk qiymətlərimiz yüksək olsun deyə, daha ciddi çalışmağa, dərs buraxmamağa çalışmalı idik. Saat on bir olardı. Mahmud əmi ayağa qalxıb mənə yaxınlaşdı, əyilib alnımdan öpdü və dedi:

--Artıq gecdir, biz gedək, Həyat balam da dincəlsin. Tez sağal qızım, sənə xəstələnmək yaraşmır.

Sona xala da qalxdı, görüşüb Səməngülü səslədi:

--Gəl qızım, səhər tezdən qalxacaqsan. Sizin də gecəniz xeyrə qalsın.

Səməngül çantasından tarix dəftərini çıxardıb mənə verdi:

--Al, bu konspekti oxu, imtahana düşən suallardan biri də budur,-dedi.

Onlar getdilər, anam da isti süd gətirib yanıma qoydu və dedi:

--Həyat, südü soyutmamış iç, sinən yumşalsın. Biz atanla televizora baxırıq, bir şey lazım olsa cağır, yaxşı?

--Yaxşı,-dedim.

Anam otaqdan çıxdı, mən süddən bir iki qurtum alıb, stəkanı yerinə qoyacaqdım ki, bir az ara verib yenə də içim. Qızdırma məni çox zəiflətmişdi, odur ki, əlim əsirdi. Stəkanı qoyanda əlim əsdi və Səməngülün verdiyi dəftər kiçik masadan yerə düşdü. Əyilib dəftəri götürəndə arasından dörd qatlanmış bir vərəq düşdü. O an ağlıma heç nə gəlmədi. Vərəqi götürüb açdım. Birdən bunun məktub olduğunu anladım, əvvəl istədim qatlayıb yerinə qoyum. Bizi düzgün tərbiyə eləmişdilər, bilirdik ki, başqasının məktubunu oxumaq olmaz. Amma diqqətimi bir şey çəkdi, xətt mənə tanış deyildi. Maraq mənə üstün gəldi, və mən məktubu oxudum. Yalnız bundan sonra bildim ki, məktubu Firuz yazıb, onun xəttini mən tanımırdım. Firuz bu məktubu deyəsən bizim sinfə gəldiyi ilk günlərdə yazıbmış. O yazırdı:

"Səməngül! Biz xaricdən qayıdanda mən gəlmək istəmirdim, xaricdə qalıb təhsilimi orada davam etdirmək istəyirdim. Atam-anam məni orda tək qoyub gəlmək istəmədilər, odur ki, mən də məcbur olub qayıtdım. Bu gün mən sevindiyimdən anamı-atamı bağrıma basıb doyunca öpmək istəyirəm. Çünki onlar məni bura gətirdilər, mən də sənə rast gəldim. Mənim qayıtmağım bəlkə də Allahın işi imiş, sən demə vətəndə məni adı özündən gözəl, özü adından gözəl bir qız gözləyirmiş. Allah da məni onun yanına qaytarırmış. Səməngül, mən çox xoşbəxtəm, çünki səni gördüyüm gündən sevirəm, ürəyim mənə deyir ki, sən mənim qismətimsən. Sən mənim xəyalımda özüm üçün arzuladığım ən gözəl qizsan. Sən əvvəl-axır mənim olacaqsan, odur ki, məhəbbətimə cavab ver, qoy mən səni hər kəsdən, hər şeydən qoruyum. Mən hər kəsin sənə necə baxdığını görür, qısqanclıqdan ölürəm. Ürəyini mənə verməklə, sən məni bu əzabdan qurtara bilərsən. Qurtar məni bu əzabdan, sevgilim!

Səməngül, mən bu sözləri sənin özünə demək istəyirdim, ancaq o yoldaşlıq elədiyin qız bir dəqiqə də olsun yanından əl

çəkmir, ona görə də sözümü sənə məktubla çatdırıram. Səndən cavab gözləyirəm.

İyirmi dörd saat səni düşünən Firuz. "

Oxuduqlarım məni sarsıtdı. Bu sarsıntının iki səbəbi var idi. Əvvəla, indicə öyrəndim ki, Səməngül Firuzun niyyətini nə vaxtdır bilirmiş, amma bunu məndən məharətlə gizlədirmiş, ikincisi, "o qız yanından bir dəqiqə də olsun əl çəkmir" ifadəsi mənə təhqir kimi gəldi, əyər Səməngül həmin Səməngül idisə, bu ifadə onun ürəyini göynətməli idi. Göynətmişdimi, görəsən?Mən bunu bilmirdim. Amma o gün dərsimiz boş keçəndə, Səməngülün sinifdə tək qalmaq istəməsi, məni israrla gəzməyə göndərməsi yadıma düşəndə, anladım ki, mən artıq ona mane oluram. Səməngülün artıq məndən gizlin bir dünyası var, orda nələrsə baş verir, və Səməngül məni ora buraxmaq istəmir. Bəlkə də buna səbəb mənim Firuz barədə dediklərim idi, bəlkə mən Firuz barədəki fikirlərimdə obyektif deyildim?Bəs Firuzun eyni vaxtda Pərvinlə gəzib dolaşmasına nə ad verək?Səməngül bunu özü üçün necə izah edirdi?Bəs Firuzun özünü hamıdan yüksək hesab eləməsi?Səməngül də mənim kimi özündən müştəbeh adamları sevməzdi, indi bəs nə oldu?Rəfiqəmi günahkar çıxartmağa ürəyim gəlmədi, belə qərara gəldim ki, əyər Səməngül mənim gördüyüm nöqsanları görmürsə, deməli Firuzu sevir. Axı deyirlər ki, məhəbbətin gözü kor olur.

Bu dolaşıq fikirlər məni lap yordu, məktubu dəftərin arasına qoyub işığı söndürdüm...

***

Ertəsi gün günorta yenə gözüm qapıda idi. Səməngülün gəlişini gözləyirdim. Bu qədər olanlardan sonra butun gecə düşünüb-daşınmış, özümü onun görüşünə hazirlamışdım. Qərara gəlmişdim ki, heç nəyi biruza verməyim, nəyisə mənə demək istəmirsə, deməsin. Yəqin ki, vaxtı çatanda özü hər şeyi mənə danışar. Axı onun məndən yaxın rəfiqəsi yox idi. Bununla mən əslində özümü sakitləşdirirdim. Hər necəsə, o mənim can yoldaşım idi, və onun kimisə sevməsi mənim ürəyimi kövrəldirdi. Ürəyimdə bu cür çalın-

çarpaz fikirlər Səməngülü gözləyirdim, indilərdə gəlməli idi. Anam bir az əvvəl mağazaya mənim üçün süd almağa getmişdi. Qapı açılanda özümü saxlaya bilməyib çağırdım:

--Sənsən, Səməngül, gəl. -dedim.

Sən demə gələn anam imiş, qapının ağzından cavab verdi:

--Səməngül deyil, mənəm qızım. Səməngül bir az gec gələcək, yanında qonağı vardı.

Anamın sözləri məni təəccübləndirdi:

--Qonaq? Nə qonaq?Sən hardan bilirsən?

Anam süd qızdıra-qızdıra mənum suallarıma cavab verdi:

--Bir qız idi, sizin sinifdən, bayaq gələndə gördüm. Adını da dedi, amma mən unutdum.

Məni maraq götürdü, görəsən kim imiş Səməngülə qonaq gələn?Bəs bizə niyə gəlmədi?Burada ziyarət olunacaq biri vardısa, o da mən idim. Bunları fikirləşirdim ki, anam südü gətirdi və masaya qoya-qoya dedi:-

--Həə... qızın adı yadıma düşdü, Almaz, həə... Almaz idi.

--Nəə??? --görünür bunu çox pis dedim, anam hətta qorxdu. Təəccüblə üzümə baxib:

--Sənə nə oldu, ay bala ? Mən nə dedim ki?--deyə soruşdu.

Mən tez özümü ələ alıb:

--Heç, heç... --dedim.

Ürəyimdə elə bil fırtına qopdu, Səməngülün bu hərəkətini heç cür anlaya bilmirdim.

"Vallah bu qız başdan-ayağa tapmacadır!--deyə düşünürdüm. --- O hara, Almaz hara? Almaz niyə bunlara qonaq gəlsin?" Heç nə başa düşmürdüm. Gözləməkdən başqa çarəm qalmamışdı. Tərs kimi Sona xala da gəlmirdi ki, bir şey öyrənim. Amma yox, gələ bilməzdi, onlara bu cür qonaq gəlib axı, ana-bala gərək onu yüksək səviyyədə qəbul eləsinlər.

Vaxt keçmək bilmirdi, mənsə həm əsəbdən, həm də nigarançılıqdan özümə yer tapa bilmirdim.

Axşam saat altı olardı, Səməngül gəldi, onun əhvalı göylərdə idi. Üz-gözümdən öpüb əhvalımı soruşdu. Mən onun suallarına tələsik cavab verib keçdim mətləbə:

--Anam deyirdi qonağın var imiş, kim idi?

--Həə... Almaz idi. --dedi, və gözünü gözümdən qaçıdrtdı. Bu mənim onda ən çox sevmədiyim bir hərəkət idi, özü də bu hərəkət onda son zamanlar əmələ gəlmişdi. Əvvəllər Səməngül mənim gözümün içinə düz baxardı, çünki məndən gizlədəcək bir şeyi yox idi. Son zamanlarsa, çox tez-tez gözünü məndən qaçırdırdı, elə bilirdi ki, mən onun gözünün içindən nələrisə oxuyaram, daha demirdi ki, gözünü gözümdən qaçırmaqla o özünü daha çox ifşa edirdi.

--Xeyir ola, o hara, sən hara?Gəlişi xeyir idimi barı?--deyə mümkün qədər yumşaq soruşmağa çalışdım. Səməngül yenə də gözünü gözümdən qaçıraraq bir az incimiş kimi:

--Niyə elə deyirsən?Almaz o qədər də pis qız deyil, sən dərsə gəlməyən gündən məni taa... bizim avtobus dayanacağına qədər ötürüb ki, yolu tək gəlməyim. Bu gün mən fikirləşdim ki, yaxşı deyil, onu bir evə dəvət eləyim, o da gəldi. Bu qədər.

Səməngül məni yaxşı tanıyırdı, bilirdi ki, mən belə səthi cavablarla ondan əl çəkən deyiləm. Onun "bu qədər" deməsi də onun acizanə ümidi idi ki, bəlkə mən bununla kifayətlənəm, və daha dərinə getməyəm. Mən bu açıq-aşkar yalanı yemək istəmədim, ona görə də soruşdum:

--Bəs Almazı geri gedəndə kim ötürürdü?Almaz qız deyil məyər?Onun tək gəlib-getməkdən qorxusu yoxdur? Yoxsa xəbərimiz yox imiş, Almaz karate üzrə qara kəmərin sahibi imiş?

Səməngül mənim bu sözlərimdən həyəcanlandı:

--Ay Həyat, indi nə var Almaz it ilində bir səhv eləyib, sən onu ölənəcən bağışlamayacaqsan? Yazıq qız nə qədər səmimiyyət göstərir, deyim ki, get burdan?

Mən bir xeyli susdum, sonra aramla dedim:

--Səməngül, mən ona görə Almazı çevrəmdən silməmişəm ki, o nə vaxtsa bir səhv eləyib, mən ona görə onu yanımda görmək istəmirəm ki, o çox yaltaq, riyakar, mənfur insandır, onunla yoldaş olmaq üçün onun tayı olmaq lazımdır, bunu sən də bilirsən, daha doğrusu bundan əvvəl bilirdin. İndi nəyə görəsə rəyin dəyişibsə, bu sənin səxsi işindir, bu heç vaxt mənə aid ola

bilməz! Yeri gəlmişkən, bir şeyi də deyim, ancaq incimə, bundan sonra nə zaman Almaz sənin yanında olacaqsa, o vaxt mən sənin yanında olmayacağam, bağışla!

Səməngül qıpqırmızı qızardı, amma cavab vermədi. Mən bu sözləri deyəndə dirsəklənib oturmuşdum, indi başımı yastığa qoyub tavana baxırdım. Səməngül yanımdakı stulda necə oturmuşdusa, eləcə də oturub başını aşağı salmışdı, həmişə əlində olan yaylığını didişdirirdi. Bir xeyli beləcə oturduq, mən arabir onun burnunu çəkdiyini eşidirdim, o yenə kövrəlmişdi. Elə təzəcə istəyirdim ki, onun könlünü alım, o məni qabaqlayıb:

--Sən bazar ertəsi artıq dərsə gedəcəksən, eləmi?-deyə soruşdu. Səməngül yenə araya söz qatıb, açıq söhbətdən qaçdı. Mən ona cavab olaraq, qısaca:--Hə... . -dedim. İlk dəfə ona yazığım gəlmədi...

11. Hərdən fikirləşirəm ki, qışın bəm-bəyaz, arabir maviyə çalan gözəlliyini görməyən insanlar, demək ki, heç bir gözəlliyi görmürlər.

Çünki, təbiətin bütün gözəllikləri məhz bu bəyaz gözəllikdən sonra gəlir. Bu tərtəmiz ağ örtük əriyib torpağa hopandan sonra, təbiətin yaşıl, sarı, qırmızı, mavi, qara, boz və sair min bir rəngi oyanmağa, dünyamızı bəzəməyə başlayır. Mən təbiətin bütün fəsillərini, qızmar günəşli yayını da, sarı-qırmızı xəzəlli qızıl payızını da, ağ örtüklü qışını da, yamyaşıl baharını da eyni cür sevir, bu bol-bol nemətlərlə dolu fəsilləri bizə nəsib elədiyi üçün Allaha həmişə şükür eləyirəm. Mənə indi də elə gəlir ki, göylərdə bir müdrük oturub, o dünyanın sahibidir, o hər şeyə nəzarət eləyir, onun özünün iş qrafiki var, nəyi nə vaxt eləyəcəyini özü yaxşı bilir. Bax indi də, dekabr ayının çox hissəsi yağıntısız keçsə də, ayın sonuna doğru o uca varlıq həmişə olduğu kimi yenə də insanları qar yağışı ilə sevindirdi. İnsanlarda belə bir inam var ki, gedən ilin sonunda qar yağarsa, gələn il bol ruzulu olar. Bəlkə də elə bu inamı yaşatmaq üçün indi lopa-lopa qar yağırdı. Axşamdan yağan qar elə bil təbiətin arzusu ilə, insanların yaratdığı zibilliklərin də, törətdiyi pis əməllərin də üstünə ağ

örtük çəkməklə, sanki yer kürəsinin bakirəliyini yenidən özünə qaytarmaq istəyirdi.

Məktəbdə bir canlanma var idi. Hamı yeni il şənliyinə hazirliqdan, yeni il axşamını harda, kiminlə keçirəcəyindən danışırdı. Məktəbdə hər il olduğu kimi ümumi, böyük bir yeni il şənliyi keçiriləcəkdi. Yoldaş Sima başına topladığı məktəblilərlə, deyəsən çox ciddi hazırlıq görürdü. Məktəbin girişində artıq böyük bir yolka qurulmuşdu. Akt zalından da bu günlər musiqi sədası kəsilmirdi

Mən buraxdığım dərsləri əlavə tapşırıqlar almaqla, mövzuları iki-iki öyrənməklə yoluna qoyub, nəhayət ki, yoldaşlarıma yetişdim. Hər şey demək olar ki, yoluna düşürdü. Təkcə Səməngüllə mənim münasibətimdə bir soyuqluq əmələ gəlmiş, davranışlarımızda bəzi dəyişikliklər olmuşdu. Mən belə olacağını gözləmirdim, bu vəziyyət mənim ürəyimdən deyildi, hətta buna görə mənəvi sarsıntı da keçirirdim, amma araya Almaz girmişdi, deməli bu belə olmalı idi. Qəribə də olsa, Səməngül yaranmış vəziyyətdən məmnun kimi görünürdü. Mənə də ən çox yer eləyən onun bu halı idi.

Həftənin birinci günü mən xəstəlikdən sonra ilk dəfə dərsə gəldim. Yoldaşlarım başıma toplaşdı, hər kəs mənimlə hal-əhval edincə zəng vuruldu. Biz hamımız sinfə girdik. Qızlarla danışa-danışa öz yerimdə oturmaq istəyirdim ki, donub qaldım:Almaz mənim yerimdə oturmuşdu, qalxmağa da niyyəti yox idi. Almaz utanmaz-utanmaz güz gözümün içinə baxdığı halda, Səməngül yenə də başını aşağı salmışdı, guya heç nə görmürdü. Mən pərt oldum və başa düşdüm ki, bu qərar onların ikisinin arasında razılaşdırılıb. Nə edəcəyimi bilmədən lövhəyə döğru getdim, orada Mirvari lövhədə ayin tarixini yazırdı. O bu mənzərəni görmüşdü deyə, gəlib qolumdan tutdu, heç nə demədən aparıb öz yanında oturtdu. Məni indiyə kimi heç kəs bu qədər alçaltmamışdı. Yüz illik rəfiqəm məni belə alçaltdı... Utandığımdan başımı qaldırıb heç kimin üzünə baxa bilmirdim. Baxsaydım gözlərimdəki yaşı görəcəkdilər. Biz doqquz il idi ki, bir yerdə otururduq, buna artıq hamının gözü oyrəşmişdi. Bu an

Səməngüllə Almazın hərəkətlərini təhlil edəcək halda olmasam da, bir şey yaxşı yadımda idi ki, Səməngül iki gün əvvəl məndən soruşmuşdu və bilirdi ki, mən bu gün dərsə gələcəyəm. Barı məni xəbərdar edəydi... Başımı aşağı salıb oturdum, özümü ələ almağa çalışdım, aldım da... Mənim iradəmi qırmaq asan məsələ deyildi. Birazdan heç nə olmamış kimi başımı qaldırıb ətrafa göz gəzdirdim. Hamı öz işində idi, iki nəfərdən başqa. Biri Firuz idi ki, hamıdan ucaboy olduğu halda boynunu qaz boynu kimi uzadıb, qaşlarini yuxarı dartmış, burnunu da dik tutmuşdu. Bu şəkildə qırıcı quş kimi sinfi gözdən keçirirdi. O biri də Səməngül idi ki, Almazın arxasında gizlənməkdən ötrü partanın üstünə yayxanmışdı, amma bir gözünün ucu ilə Almazın düz qulağının dibindən mənə baxırdı. Bu baxışlar bir daha sübut edirdi ki, dostluğumuza xəyanət etdiyindən Səməngülün özünün də xəbəri var idi. Bu xəyanətə səbəb nə idi, və o hər nə idisə, onun uğuruna bir evdə, bir ailədə, ekiz bacılar kimi böyüməyimizi, illər uzunu cürbəcür sınaqlardan çıxmış səmimi dostluğumuzu heçə sayıb, o dostluğa bu cür xəyanət eləməyə dəyərdimi?. .

Əslində, mən artıq məsələni özüm üçün aydınlaşdırmışdım. Almaz Səməngülün məndən ayrı qalmasını nə vaxtdır həsrətlə gözləyirmiş, odur ki, mən xəstələnən kimi Səməngülün tək qalmasından istifadə eləyib, tez onun başının üstünü kəsdiribmiş. Almaz Səməngülə boş yerə yaxınlaşmamışdı, bu hansısa mənfur bir planın başlanğıcı olmalı idi. Mən nə olursa olsun, Səməngülü Almazın təsirinə düşməyə qoymamalı idim, onun gözünü açmalı idim. Bunu necə edəcəkdim, ümumiyyətlə edə biləcəkdimmi, bunu hələ bilmirdim.

Son vaxtlar Səməngüldə baş vermiş dəyişikliklər mənim ümidimi azaldırdı, amma mən özümə söz verdim: əlimdən nə gəlsə, eləyəcəyəm, Səməngülü Almazın, bəlkə də əslində Firuzun toruna düşməyə qöymayacağam! Mənim fikrimcə Firuz nə eşq dəlisi Məcnuna, nə sevgilisi üçün qayaları yaran Fərhada, nə də eşq oduna yanıb kül olan Kərəmə bənzəmirdi. O, hər gecəyə bir qız gətirdib səhər üzü onun boynunu vurduran qəddar şah Şəhriyara daha çox bənzəyirdi.

O gün tənəffüsdə Səməngül mənə yaxınlaşıb utana-utana dedi:

--Həyat, gəl yerində otur, Almaz bilmirdi ki, sən bu gün gələcəksən. İndi ona deyərəm qayıdar öz yerinə.

--Yox, yox, lazım deyil, nə fərqi var kim harda oturur, narahat olma, bura lap yaxşıdır, mən burda oturacağam,-dedim.

Səməngül israr eləmədi, yalnız bunları dedi :

--İncimirsən ki, Həyat? Doğurdan bura yaxşıdır? Düz deyirsən, yerin nə fərqi var, onsuz da bir sinifdəyik də...

Onun belə bülbül kimi ötməsi, mənim yerimə qayıtmamağıma aşkarcasına sevinməsi ox kimi ürəyimə sancıldı, amma mən bunu büruza vermədim.

Hər gün birinci növbə dərsdən çixanda, məktəbdən dörd bir tərəfə böyük izdiham axırdı. Eyni küçədə yaşayan məktəblilər dəstə-dəstə öz evlərinə sarı bir -birinə yol yoldaşı olur, yol boyu maraqlı söhbətlər edirdilər. Bizim avtobusun dayanacağına doğru da böyük izdiham gedirdi. Mən məktəbimizdən olan tanış qızla söhbət edə-edə irəlidə gedirdim, arxamca müxtəlif yaşdan olan qonşu uşaqlar gəlirdi, lap arxada Səməngüllə Almaz qol-qola gəlirdilər. Onlardan arxada gələnləri mən görmürdüm. Mən Səməngüllə Almazı məktəbdən çıxanda görmüşdüm, elə o andan da qabağa düşüb gedirdim, arxada daha kimlərin olduğundan xəbərim yox idi. Biz dayanacağa çatan kimi avtobus gəldi, mən tez avtobusa mindim, dalımca başqa uşaqlar mindilər, mən Səməngülə görə narahat oldum, dönüb baxdım ki, görüm o da minə bildimi? Səməngül Almazla dayanıb artıq hərəkətə gəlmiş avtobusa, daha doğrusu mənə baxırdılar, onlarin arxasında Firuz dayanmışdı...

***

O gündən sonra bir qayda olaraq mən evə avtobusla gəlirdim, Səməngülsə Almazla Firuzun müşaiəti ilə ayaqla gəzə-qəzə gəlirdi. Almazla Firuz Səməngülü ötürüb geri qayıdırdılar. İndi anladım ki, mən xəstə olanda da bunlar belə edirlərmiş. Mən Səməngüllə bu barədə heç nə danışmasam da, bu üçlükdəki hər kəsin mövqeyi artıq nəinki mənə, hamıya aydın idi. Almaz

hamının gözündən pərdə asmaq üçün lazım idi, əslində Səməngüllə Firuz yaxınlaşmağa başlamışdı. Mən hiss edirdim ki, deyəsən nəsə eləməyə gecikirəm. Fikirləşdim ki, artıq Səməngüllə açıq danışmağın vaxtı çatıb. Görəsən o bu dəfə nə geyəcək? Bəlkə deyəcək ki, Firuzla Almaz bir-birini sevir, mən yalnız yanlarınca gəzirəm. Yox, bu qədər də olmaz!

Çox çəkmədi ki, bizim aramızdakı soyuqluğu yavaş-yavaş ətrafımızdakı adamlar hiss eləməyə başladı. Ən birinci bu barədə anam söz açdı. Öz otağımda dərs hazırlayırdım, anam içəri girdi:

--Həyat, muştuluğa nə verərəsən?

--Nə istəsən!-dedim.

--Onda sabah dərsdən gələndə mənə çayla içmək üçün xurma alarsan, yaxşı?

--Alaram, de görüm, nəyə sevinim?

Anam arxasında gizlətdiyi məktubu göstərdi:

--Rəşadın məktubuna, budur bax,--anam zərfi açmaq üçün mənə uzatdı. Mən əvvəl qalxıb anamın boynuna sarıldım,Rəşad üçün o qədər darıxmışdım ki... Sonra zərfi açıb məktubu ucadan oxudum. Rəşad xidmətindən çox razılıq edirdi. Elə hey bizi soruşurdu, siz necəsiniz, sizin dərsləriniz necə gedir, və mən bilirdim ki, bu "siz"-də Səməngül də var idi. Rəşadın məktubunu bir-neçə dəfə oxuduq, hər sözünü, hər kəlməsini təhlil elədik, birdən anam soruşdu:

--Qızım, siz Səməngüllə küsülüsünüz?

--Bu hardan çıxdı?Ay ana, Məşədi İbad demişkən "heç hənanın yeridir?"--sözü zarafata çevirmək istədim. Mənim anam ağıllı qadın idi, sözünün yerini də bilirdi, vaxtını da. İndi də tam vaxtında söhbəti açmışdı, yalnız mən hazır deyildim, bilmirdim nə cavab verim.

--Özün də bilirsən ki, hənanın yeridir də, hələ bir az vaxtı da keçib. Mən dünyada nəyə desən inanardım, amma sənin lə Səməngülün bir gün bir-birinizdən küsəcəyinizə yox! Belə bir şeyin baş verməsi üçün çox ciddi səbəb olmalıdır, eləmi, Həyat?Sən əvvəllərdə olduğu kimi mənə güvənirsənsə, de görüm nə olub?--görünür anam aramızdakı bu soyuqluqdan çox narahat idi.

Mən onu sakitləşdirmək üçün ürəyimdəkilərin ən önəmsiz hissəsini dedim:

--Bilirsənmi ana, biz küsülü-zad deyilik, sadəcə mənim xəstə olduğum müddətdə Səməngül mənim ən acığım gələn qızla dostluq eləməyə başlayıb, mən də o qızı görmək belə istəmirəm. İndi Səməngül özü ondan bezənə kimi məcburuq dərsə ayrı-ayrı gedib gələk. Narahat olma ana, bizi hər xirda şey küsdürə bilməz.

Anam bir az fikirləşdi, sonra soruşdu:

--Yoxsa dediyin qız həmin o Almazdır?

--Hə... odur, dünyanın ən mənfur insanı. .

--Ay qizim, bəlkə onun haqqında yanılırsan, həə?Bəlkə o heç o qədər də pis qız deyil, yəni əyər belə olsaydı, bəs Səməngül niyə onunla yoldaşlıq edir, o görməzmi bu qızın yaxşı yoldaş olmadığını?--anam hər şeyi əvvəlki vəziyyətə qaytarmaq naminə öz sadə fikirlərini söyləyirdi, heyif ki, işin əsli bu sadəlikdən çox uzaq idi.

Günlər keçirdi, bizi tanıyanlar ayrı-ayrı gedib gəlməyimizi görür, kimi sual dolu baxışlarla baxır, kimi də birbaşa nə olduğunu, niyə bir-birimizdən uzaq gəzdiyimizi soruşurdu. Mən artıq Səməngüllə danişmağın vaxtı çatdığını anladım. Dərsdə Səməngül Almazla otururdu, tənəffüsdə isə Firuz onların yanından əl çəkmirdi, hər yerə üçlükdə gedirdilər, ona görə də mən Səməngüllə rahat söhbət eləmək üçün axşamı gözləməyi qərara aldım.

Axşam Mahmud əmi ilə Sona xala bizə gəldilər. Onlar arabir bizimlə bir yerdə çay içməyə, söhbət eləməyə, Rəşaddan xəbər tutmağa bizə gəlirdilər. Mən Sona xaladan Səməngülün niyə gəlmədiyini soruşdum. Sona xala dedi ki, Səməngül dərs çalışırdı, ona görə də gəlmədi. Mən bu fürsəti buraxmamaq üçün "Səməngülə sözüm var"-- deyib çıxdım. Səməngül gəlişimə əvvəllərdə olduğu kimi sevinmədi deyəsən, amma bunu biruza verməməyə çalışdı. Elə bil nəsə hiss eləmişdi, çox həyəcanlı idi. Salam-kəlamdan sonra mən birbaşa mətləbə keçdim:

--Səməngül, hamı bizim küsülü olduğumuzu zənn eləyir, bu səni narahat eləmir ki?

--Canım bacım, məndən üzaq gəzən sən deyilsənmi, niyə bu sualı mənə verirsən?Mən əvvəlki Səməngüləm, ancaq sən çox dəyişmisən, özündən xəbərin yoxdur.

Səməngülün məsələni belə qoyması məni o qədər sarsıtdı ki, elə bidim yer ayağımın altından qaçdı.

--Sən nə danışırsan?Mənəm dəyişən?Bəlkə yolumu da, yoldaşımı da mən dəyişmişəm?İnana bilmirəm ey dediklərinə. Hər addımını yüz dəfə ölçüb-biçən Səməngül bəs hara getdi? Əyər sən dəyişməmisənsə, haqqında yaranan dedi-qodudan xəbərin varmı? Bəs niyə narahat olmursan?Kimin özündən xəbəri yoxdür, sənin, yoxsa mənim?Sən bunları necə deyə bilirsən, Səməngül?! Bu gün, sabah Sona xala məndən izahat istəyəcək, mən bilmirəm nə cavab verəcəyəm. Yenə də bir yalan uydurmalı olacağam, həəə?--mənim haqsızlıqdan az qalırdı ürəyim partlasın.

O sanki mənim bu vəziyyətimdən qorxdu, səsini lap alçaldıb mehriban bir avazla dedi:

--Sakit ol, Həyat, niyə belə əsəbləşirsən?Nə baş verib ki?Heç nə olmadan bu qədər tələş nəyə lazımdır?Özün bilirsən ki, hardasa bir ildən sonra biz məktəbi bitiririk, sonra hərə bir tərəfə dağılışacaq, buna görə də kollektivimiz get-gedə daha da mehriban, daha səmimi olur. Dostlarımız nə qədər çox olsa, o qədər yaxşıdır, bunu sən demişdin ki... İndi niyə bizə səmimi olan dostların səmimiyyətini rədd edək?

Mən ona qulaq asa-asa fikirləşirdim ki, Səməngül doğurdan da çox dəyişib, adətən həmişə az danışan Səməngül indi həm özünə sərf eləyən mövqeyi müdafiə eləmək üçün, həm də mənim fikrimi başqa səmtə yönəltmək üçün gör bir nələr danışırdı, ən əsası da odur ki, yenə də səmimi olmaq istəmirdi, yenə məni aldatmaq istəyirdi. Halbuki, mən ona kömək eləmək istəyirdim. Başqa yolum qalmamışdı, mən hücüma keçdim:

--Belə çıxır ki, sınfimizdə Almazla Firuzdan başqa dost olası adam yoxdur? Sən məni nə hesab eləyirsən, Səməngül? Niyə açığını demirsən ki, o aradüzəldən Almaz sənin lə Firuzun arasını düzəldir? Niyə demirsən ki, Firuzun yağlı dili sənin ağlını başından alıb? Niyə demirsən ki, bu dəqiqə gözün heç kəsi görmür, hamıya arxa çevirib iri addımlarla Firuzun qazdığı quyuya doğru gedirsən?

Deyəsən o bu qədər açıq söhbət gözləmirdi, çaşıb qalmışdı, rəngi də qaçmışdı. Bir qəfil üzünü qapayıb ağladı. Mən deyəsən beton

divarı yıxa bilmişdım, bu idi mənim tanıdığım Səməngül, mən də onunla əvvəlki kimi ürəyim yana-yana danışmağa başladım:

--Səməngül, canım bacım, əziz rəfiqəm, mən səni çox sevirəm, sənə canim yanır, istəmirəm ki, irəlidə başına xoşagəlməz hadisə gəlsin. Mən sənə doğru gələn təhlükəni görürəm, sən görmürsən. Bax sonra gec olar, gözünü aç yaxsı bax, Almazdan sənə nə xeyir gələr? O dünyanın bütün qızlarını ləkələməyə hazirdir, təki sonda Firuz çarəsiz qalıb onu seçsin. Və yaxud Firuz kimi bir insanın səmimiyyətinə necə inana bilərsən? Onun üzündə yazılıb ki, sənə qədər də çox qızlar olub, səndən sonra da çox olacaq. Məyər sən bunları görmürsən?

Səməngül əllərini üzündən göturub yerdə məchul bir nöqtəyə uzun-uzadı baxdı. Mən də susdum, ona yaxşı-yaxşı fikirləşməyə vaxt lazım idi. Ayağa qalxdım ki, getmək istədiyimi bilsin. O yavaş-yavaş başını qaldırıb üzümə, düz gözümün içinə baxdı, onun bu gün məndən gizlədəcəyi bir şeyi qalmamışdı:

--Gedirsən?--deyə halsız-halsız soruşdu.

--Gedirəm, amma sən dediklərimi əməlli-başlı bir güşün. Mənim dediklərimdə yalnız mənim dediklərimi gör, başqa bir şey axtarma. Mənim bu gün sənə dediklərim nə vaxt idi ki, mənə əziyyət verirdi, bu gün mən hər şeyi sənə dedim, rahatlaşdım. Bundan sonrası sənə qaldı, ürəyin sənə təzyiq göstərəcək, amma sən çalış ağlının səsini dinlə. İrəlidə nə olursa olsun, mən sənin ən yaxın rəfiqən olaraq qalacağam, biləsən.

O yenə də kövrəldi, mən də kövrəlmişdim, əyilib onun üzündən öpdüm, və getdim...

12. Nə sirdirsə, yadıma gələn gənclik xatirələrimdə illər, aylar, həftələr uzun olmaqla bərabər, məncə fəsillər də öz təyinatında daha səliqəli, daha dəqiq idilər. Beləki, o illərin yazı bol yağışlı, yayı bol günəşli, payızı bol küləkli, qışı da bol qarlı olurdu.

Heç yadıma gəlmir ki, qışın ortasında günəş çıxaydı, torpağı qupquru qurudaydı, yaxud da yayda həftələrlə soyuq yağışlar yağaydı, insanları qış geyiminə keçməyə məcbur edəydi.

Xatirələrdən uzaqlaşıb bu günlərə yaxınlaşdıqca görürsən ki, zamanın axarı nə qədər dəyişib, sürəti nə qədər artıb. İndi illər aylar kimi, aylar həftələr kimi, həftələr də günlər kimi ötüb keçir. Fəsillər də iş qrafiklərini çaş-baş salıblar. Anomaliya halları çoxdan adiləşib. Yanvar ayında qızmar günəşin altında futbol oynayan uşaqlar, iyul ayında yağan qar, payızda yağan leysan yağışlar, yazda damı-daşı uçurdan, bağların gülünü-çiçəyini yolub tökən güclü küləklər daha heç kimi narahat eləmir. Kimsə bir az təəccüb edir, kimsə bir az qorxur, kimsə araşdırmalar aparır ki, bunların səbəbini öyrənsin. Kimsə də öz bəd əməlləri ilə təbiətin altını üstünə çevirə-çevirə dünyanın sonunu gətirir! Ən dəhşətlisi odur ki, Allahın işinə qarışan, onu qəzəbləndirən, güllü-gülüstan planetimizi cəhənnəmə döndərən bir ovuc insanın əməllərinə milyonlarla günahsız insanların həyatı qurban gedir. Beləcə, necə deyərlər, qurunun oduna yaş da yanır. Yırtıcı heyvandan daha yırtıcı olmağı ilə fərqlənən insan, öz mənfur məqsədinə çatmaq üçün yeni silah icad edir, bu yandan təbiətin axar çayları quruyur, nadir gülünün, çiçəyinin, heyvanının, quşunun kökü kəsilir. Ona görə də, yer var suyu quruyur, yer var sel yuyub aparır. Bizi təmiz dağ havası ilə təmin eləyən ucsuz-bucaqsız meşələr od tutub yanır, bu tonqalın istisindən başı göylərə çatan dağların qarı əriyib ümmanlara tökülür. Sel yağışları, çay daşqınları, torpaq sürüşmələri, sunamilər, tornadolar və digər təbii fəlakətlər bəlkə də yaradanın bizə göndərdiyi mesajlardır:"Əl saxlayın! Sonunuz gəlir!!!" Qışı qarlı şaxtalı çox ölkələr var ki, on illərdir qar üzünə həsrət qalıb, böyüməkdə olan yeni nəsil qarın nə olduğunu bilmir.

Bu yerdə o ilin qarı yadıma düşdü. O ilin qarı iyirmi beş ildən bir baş verən nadir təbii hadisə kimi tarixdə öz yerini tutdu. Səhər-səhər qapımızı açıb çölə çıxmaq istəyəndə, qapımız açılmadı. Atam, anam, bir də mən qapını var gücümüzlə itələdik, qapı açılmadı ki, açılmadı. Nə baş verdiyini anlamağa macal tapmamış, qapının arxasından qonşumuz Hüseyin əminin səsi gəldi:

--Süleyman kişi, bir az səbirli olun, biz qarı təmizləyək, belə qapı açılmayacaq.

Atamın inanmağı gəlmirdi:

--Nə danışırsan, Hüseyin, bu qardır belə?--deyə soruşdu.

Huseyin əmi başqa qonşularla qarı kürüyə-kürüyə:

--Qapı açılanda görəcəksən, gözlə,--dedi.

Bu arada mən pəncərəyə yaxinlaşıb bayırda nə baş vediyini öyrənmək istədim, amma heç nə görə bilmədim. Pəncərə başdan-başa qarla örtülü idi. Bir azdan qonşular qarı təmizləyib qurtardılar, qapı açıldı. Aman Allah, gözlərimizə inanmadıq. Qarı təmizləyən qonşularımız hər iki tərəfdən dağ boyda qalanmış qar divarlarının arasındakı dar cığırda dayanıb gülürdülər. Atam gördüklərinə hələ də inana bilmirdi:

--Ay Hüseyin, bu qar nə vaxt yağdı?Niyə biz heç nə hiss eləməmişik?

Hüseyin əmi gülə-gülə suala sualla cavab verdi:

--Necə hiss eləmədiniz? Bəs gecəki çovğun nə idi? Dam-daş uçurdu ki...

--Belə çovğun neçə dəfə olmuşdu, amma bu qədər qar yağmamışdı, axı...

--Həə... düz deyirsən, heç belə güclü yağmamışdı, ancaq heç olmasa ildə bir dəfə göylər gərək yükünü boşalda da, ay Süleyman. --deyə Hüseyin əmi cavab verdi.

--Doğru deyirsən, ay Hüseyin, qoy nə qədər yağır, yağsın. İndi yağan qar deyil ey, bir illik ruzu-bərəkətdir.

Atam qonşuları içəri çaya dəvət elədi, ancaq onlar daha bir neçə qonşunun qapısını basmış qarı təmizləməyə gedəcəklərini deyib, təklifdən boyun qaçırtdılar. Atam da kömək eləmək istədiyini bildirərək onlara qoşulub getdi. Səhərin erkən saatı olmasına baxmayaraq, kuçədə bir canlanma var idi ki, gəl görəsən. Uşaqlı, böyüklü hamı çöldə idi. Böyüklər qapıları basmış qarı təmizləyir, eyni zamanda da evlərdən evlərə, mağaza tərəfə, avtobus dayanacağı istiqamətində gediş-gəliş üçün cığırlar açırdılar. Küçəmizin bütün kişiləri qarı kürüməklə, yol açmaqla məşğul idi. Əməlli-başlı iməcilik idi. Uşaqlar da hay-küylə bir-birini qara basır, qar təpəsinə dırmaşıb ordan üzü aşağı sürüşürdülər. Mən gözlərim qamaşa-qamaşa bu mənzərəni bir az

seyr edib evə gəldim, anam səhər yeməyi üçün süfrə açmışdı. İkimiz birlikdə çayları soyutmadan çörəyimizi yeməyə başladıq. Soyuqdan gəldiyim üçün təzə dəmlənmiş pürrəngi çay lap yerinə düşmüşdü. Bu vaxt Səməngül artıq tam geyinmiş, çantası əlində qapıda göründü. Anam onun bu hazırlığını görüb soruşdu:

--A qızım, yoxsa belə havada sən məktəbə gemək istəyirsən? Sona nə əcəb sənə icazə verib?

Səməngül gözlərini geniş açıb dedi:

--Yasəmən xala, belə çox qar yağmağına baxma ey, hava çox yumşaq, çox gözəldir. Anam mənə icazə verdi, sən də icazə ver, biz gedək, dərsdən qalmayaq.

Mən Səməngülün sözünə qüvvət olaraq:

--Hə ana, hava çox gözəldir, istəyirsən, çıx bax. Bayaq mən küçədə olanda gördüm, lap balaca uşaqlar da dərsə gedirdi. Qoy biz də gedək. Bu gün yəqin daha hava dəyişməz.

Anam daha sözü uzatmadı, yalnız tapşırdı ki, isti geyinim, bir də yollarda ehtiyatlı olaq. Mən çayımı yarımçıq qoyub tez geyindim. Bu gün çətin ki, avtobuslar işləyəydi, ona görə də biz yəqin ki, dərsə ayaqla gedəcəkdik, evdən bir az tez çıxmalı idik. Bizim evdən avtobus dayanacağına kimi sanki, iki metrə hündürlükdə ağ divarların arası ilə gedirdik. Yol boyu qeri qayıdan iməcilik iştirakçılarını görürdük, onların arasında atam da, Mahmud əmi də var idi. Onlar bizə ehtiyatlı olmağı tapşırdılar, biz də onlara diqqətli olacağımıza söz verib yolumuza davam elədik. Bu cığırın sonunda traktor qarı təmizləyib yuk maşınlarına yükləyirdi. İki metrəlik divar da orda bitirdi. Yalnız divarın sonuna çatanda gördüm ki, qar təpəciyinin arxasında Firuzla Almaz dayanıb yəqin ki, Səməngülü gözləyirdilər. Mən onların yanından keçib yoluma davam elədim, bir az irəlidə dayanıb gözlədim, görüm Səməngül nə qərar verəcək:yol yoldaşı olaraq məni seçəcək, yoxsa onları?Mən dönüb baxanda Firuz bahalı dəridən olan sakvoyajını açdı, Səməngül də öz kiçik qoltuq qovluğunu sakvoyajın içinə atdı. Bununla da Səməngül öz seçimini elədi, mən də yoluma davam edərək ürəyimdə fikirləşdim ki, mənim dediklərimdən sonra o bu qərarı verdisə, mən daha heç nə edə bilmərəm.

***

Kənardan baxanda, həyatımız gündəlik ritminə qayıtmış kimi görünürdü, elə bil əhəmiyyətli heç nə baş vermirdi. Yalnız mən bilirdim ki, Səməngüllə Firuz mövzusu hamının dilində dolaşan, ən çox çeynənən mövzuya çevrilmişdi. Maraqlı burasıdır ki, Almazın əldən-ayaqdan gedib onların münasibətini ört-basdır eləmək cəhdləri də boşa çıxmışdı. Hamı işin əslini bilir, onu da danışırdı. Mən ordan-burdan təsadüfən eşitdiklərimdən başa düşürdüm ki, hamı Səməngülü qınayır, onu çox ağıllı qız hesab eləməkdə yanıldıqlarını deyirdilər. Mən hərdən öz-özümə soruşurdum ki, iki gəncin bir-birini sevməsi niyə belə pis qarşılanmalıdır ki?Biri elə mən özüm, niyə bu qədər özümü yeyib-tökürəm? Məyər Səməngülün sevməyə haqqı yoxdur? Onsuz da əvvəl-axır mən də, Səməngül də kimisə sevməli, sonunda da ailə həyatı qurmalı idik. Deyim ki, onlar bir-birinə yaraşmırdılar? Görünüşcə çox yaraşırdılar, ancaq yalnız görünüşcə! Firuza hələ çox az bələd olmuşdum, amma nə illah eləyirdimsə, bu sevginin sonunun xoşbəxt finalla bitəcəyinə inana bilmirdim ki, bilmirdim. Yəqin başqa yoldaşlarımız da mənim kimi düşünür, sonda Səməngülün aldana biləcəyindən narahat olurdular.

Bir gün tənəffüsdə Firuz, Almaz və Səməngül məktəbin həyətindən də çıxıb yol kənarındakı xiyabanla üzü aşağı gəzməyə getdilər. Böyük tənəffüs olmadığı üçün, tezliklə zəng vuruldu, dərs başladı, gəzintiyə gedənlərdən bir xəbər çıxmadı. Sonrakı iki dərs də onlarsız keçdi. Dərslər bitəndən sonra Lalə ilə Rasim mənə yaxınlaşdılar. Lalə həyəcanını gizlədə bilmirdi:

--Həyat, nə baş verir? Bunlar üç dərsdir hardadılar? Sən niyə özünü kənara çəkmisən? Niyə Səməngüllə danışmırsan, gözünü açmırsan?

Mən sakit-sakit onun üzünə bir xeyli baxdım, başımı aşağı saldım. Rasim qolumdan tutub yavaşca soruşdu:

--Həyat, sən Səməngüllə danışmırsan?Siz küsülüsünüz? Lazimdirsa biz onunla danışaq, hər şey bir yana, ilin-günün bu vaxtı dərsdən yayınmağa başlasalar, nəticəsi pis olar.

Mən yenə susurdum. Çünki, özüm də bilmirdim ki, hansı düzdür, hər şeyi öz axarına buraxım ki, bəlkə yanılıram, bəlkə də hər şey yaxşı olacaq, və bir gün Səməngül Firuzun evinə gəlin köçəcək, yaxud daha ciddi yollar axtarım, daha ciddi vasitələrlə hadisələrin gedişinə mane olum? Bilirdim ki, bu yolda qarşımı kəsən ən böyük maneə elə Səməngülün özü olacaq. Sona xalanı, Mahmud əmini bu işə qatmaq üçün ciddi səbəblər olmalı idi. Hal-hazırda elə bir səbəb yox idi, ortada bir-birini sevən iki gəncin bir yerdə gəzib dolaşmasından başqa bir şey yox idi. . Rasim bir az da coşub dedi:

--Bilirsiniz nə var, mən sabah Firuzu yaxşıca əzişdirəcəyəm. Gücüm çatmasa, uşaqları da köməyə çağıracağam.

Bu sözdən sonra Laləni də, məni də gülmək tutdu. Yəqin ikimizin də gözünün qabağına balaca boy Rasimlə, uca boy Firuzun dalaşması gəldi. Mən üzümü onlara tutub dedim:

--Ay uşaqlar, qarışmayın ey, mən Səməngüllə necə lazimdır, danışmışam. Səməngül uşaq deyil ki, yəqin nə elədiyini özü yaxşı bilir. Sizin qarışmağınız heç düzgün olmaz, çünki, siz də sevgililərsiniz,--deyə sözü zarafata saldım.

Rasim o saat ciddiləşdi:

--Həə... mən bunu heç düşünməmişdim, düz sözə nə deyəsən?

Bu söhbətdən sonra heç kəs olanlara qarışmağı lazım bilmədi, təhlil bununla da bitdi. Firuz, Almaz, Səməngül üçlüyü də daha sərbəst, daha aşkar gəzib-dolaşır, istədikləri vaxt dərsdən harasa yoxa çıxırdılar. İndi məni tək bir şey narahat eləyirdi:görəsən Sona xala nəsə bilirmi?Bir şey hiss eləmir ki?Bir gün məni bu barədə sorğu-suala tutsa mən ona düzünü deyim, yoxsa yenə bir yalan uydurum? Yadıma düşdü ki, son söhbətimizdə mənim bu sualımı da Səməngül cavabsız buraxdı, heç olmasa mənə bir yol da göstərmədi. Yox, yox, mən rəfiqəmi sata bilmərəm, bu düzgün olmaz, qoy Sona xala hər şeyi onun özündən öyrənsin.

Elə bil ürəyimə dammışdı ki, bu günlərdə Sona xala ilə söhbətimiz olacaq. Bu həftə bizə dram teatrına Şekspirin "Hamlet" əsərinə bilet vermişdilər. Hamlet surəti o vaxtki gənclər üçün bir ideal idi. Onun "Olum, ya ölüm, budur məsələ" monoloqu dillərdə

əzbər idi. Bu tamaşada dövrümüzün ən görkəmli aktyorlarından Əli Zeynalov, Səməndər Rzayev, Amalya Pənahova, Şəfiqə Məmmədova, iştirak edəcəkdilər. Tamaşa bazar günü axşamı olacaqdı, mən də qalmışdım fikirləşə-fikirləşə, gedim, ya getməyim. Bir yandan bu tamaşaya baxmağı çox istəyirdim, o biri tərəfdən də qışın günü axşam saat onda təkbaşına evə gəlməkdən qorxurdum, Səməngülün dəstəsi ilə də gəlmək istəmirdim. Şənbə günü idi, evdə tək oturmuşdum, Sona xala bizə gəldi. Mən o saat başa düşdüm ki, Sona xala məhz mənim gözlədiyim sohbəti açmağa gəlib. Sona xala sohbəti belə başladı:

--Necəsən, Həyat?

--Sağ ol, Sona xala, yaxşıyam. -dedim.

--Yasəmən evdə deyil?--deyə soruşdu, elə-belə soruşdu, əslində o bilirdi ki, anam Bəsti xalaya paltar tikdirməyə gedib. Elə anamın evdə olmadığını bildiyi üçün də gəlmişdi.

--Anam Bəsti xalagilə gedib, paltar tikdirməyə. --mən də sual cavabsız qalmasın deyə cavab verdim.

Sona xala çox ciddi idi, ona görə də uzatmadan onu narahat edən məsələyə keçdi:

--Bax qızım, özün bilirsəm ki, biz çox yaxın qonşular olmuşuq. Səməngüllə sən bir-birinizi gözünüzü açan gündən tanıyırsınız, siz bir evin uşaqlarısınız. Nə mən, nə də Yasəmən heç vaxt sizə fərq qoymamışıq, indi də qoymuruq. Sizin bir-birinizə bağlılığınız bizim ürəyimizə həmişə dayaq olub. Elə bilmə ki, hiss eləməmişəm, ancaq bilmirəm iki aydırmı, üç aydırmı, sizin aranızda bir soyuqluq var. Mən bunun səbəbini bilmək istəyirəm, yoxsa rahat ola bilməyəcəyəm. Həyat, demə ki, yanılıram, onsuz da inanmayacağam. Əvvəllər siz hələ harasa gedəcəyiniz günləri demirəm, hətta adi günlərdə də bir-birinizin evinə gündə yüz yol gedib gəlirdiniz, ancaq indi həftələrlə görüşmürsünüz. Bax, sabah teatra gedəcəksiniz, bu gün siz gərək sabahki günü planlaşdıraydınız, amma heç sizdən səs çıxmır. Məni başa sal görüm, sizin aranızda nə olub?

--Sona xala, sən niyə belə fikirləşirsən? Dərslərimiz ağırdır, axşamlar yorğun oluruq, bəlkə ona görə az görüşürük. Məyər biz

əvvəllər olduğu kimi bir gedib, bir gəlmirikmi? Səni nə narahat eləyir?

--Ay sənə qurban olum, məni elə o narahat eləyir ki, artıq nə vaxtdır ki, siz bir gedib gəlmirsiniz də... Bilmirəm Yasəmənin xəbəri var ya yox, amma mən çoxdan fikir verirəm, siz elə bil küsülüsünüz, bu belədir, Həyat?

Sona xala az qalırdı ağlasın, gör analarımız bizim dostluğumuza necə böyük əhəmiyyət verirlərmiş! Ax, ay Səməngül, gör məni nə vəziyyətdə qoymusan! Ürəyimdə belə dedim, dilimdə isə:

--Sona xala, bu yaxınlarda anam da məndən bunu soruşdu, mən ona da dedim, sənə də deyirəm, heç bir şey olmayıb, biz küsülü də deyilik. Sadəcə, Səməngül o Almazla dostluq eləməyə başlayandan, yolu da onunla gedib gələndən, mən tək gedib gəlirəm. Səbəbi də odur ki, mən həmin o Almazla danışmıram, onu heç sevmirəm, onunla yoldaş olmaq da istəmirəm. Bütün bunların Səməngülə heç bir aidiyyatı yoxdur, sadəcə o da bilir, nə qədər ki, o Almazla yoldaşlıq edəcək, mən tək gəzəcəyəm. Məsələ belədir. Buna görə mənə acığın tutsa, mən incimərəm, Sona xala, axı sən mənim xalamsan. --dedim.

Sona xala təəsirləndi:

--Yox qızım, niyə acığım tutsun? Sən mənim ağıllı balamsan, yəqin bildiyin bir şey var ki, o qızı sevmirsən. Səməngül də sən görənləri görəydi barı... bu sorğu-sualıma görə məndən incimədin ki?

--Niyə inciyirəm, Sona xala, bu söhbət olursa, deməli sən məni əvvəlki kimi sevirsən, mənimçün narahat olursan.

--Həyat, bu qız kimdir, nəçidir, hardan peyda oldu? Səməngül onda nə tapıb ey?

Mən fikirləşdim ki, diqqəti Almazın üstünə yönəldə bilsəydim, bəlkə Sona xala məsələnin əslini də öyrənərdi, qarşısını da alardı.

--Almaz əvvəldən bizimlə bir sinifdə oxuyur, sadəcə mən çoxdan onunla əlaqəni kəsmişəm. Səməngül də bu yaxınlardan onunla dostluq eləməyə başlayıb.

Sona xala yorğun-yorğun üzümə baxıb ah çəkdi:

--Ay qızım, ananın-atanın tək övladı olmaq da belədir də, bayaqdan ondan da soruşuram, bir əməlli cavab vermir ki, bir şey

başa düşək. Çox dərinə də gedə bilmirəm, bilirsən o saat içinə qapanır, ona görə də sənin yanına gəldim. Sağ ol, qızım, məni nigarançılıqdan qurtardın. Küsülü olmamağınız mənə yetər, qalanını özünüz yoluna qoyarsınız.

Sona xalanı yola sala-sala ürəyimdə fikirləşirdim ki, yazıq Sona xala, mənim əlimdən nə gəlir ki...

13. Mən nə teatra gedə bildim, nə də yeni il gecəsinə.

Teatra özüm getmədim, mənə yol yoldaşı olmadığından fikirləşdim ki, nə vaxt gündüz tamaşası olar, onda da gedərəm. Amma sinifkomumuz Nigara bir dəstə gızılgül alıb verdim ki, Əli Zeynalova versin. Mən bu aktyorun fanatı idim. Bazar ertəsi hamı tamaşanın çox gözəl oynanıldığını deyir, aktyorların məharətindən danışırdı. Nigar gülləri Əli Zeynalova vermişdi və demişdi ki, "Bu sizə müəyyən səbəblər üzündən tamaşaya gələ bilməyən Həyat adlı sinif yoldaşımızdandır. " Bu bircə dənə cümlə mənə elə xoş gəldi ki, bir anlıq elə bildim, mən də orda olmuşam, tamaşaya baxmışam, Əli Zeynalova da gülü özüm vermişəm.

Yeni il gecəsinə getmək də qismət deyilmiş mənə. İllərlə iş yerlərində, məktəblərdə və bütün digər müəssisələrdə sovet üsul-idarələrinin tələbi ilə bayramqabağı keçirilən məcburi iməciliklər o qədər həyatımızda özünə yer eləmişdi ki, hər kəs bu iməcilikləri könüllü olaraq evinə də daşımışdı. Odur ki, qarşıdan nə bayramı gəlir gəlsin, hamı ev tökürdü, təmizlik işləri, və yaxud da ev təmiri edirdi ki, bayrama təmiz ev-eşiklə, təzə əyin başla qədəm bassın. Əslində bizim milli adət-ənənələrimizdə bu daha geniş şəkildə olmaqda idi. Beləki əyər qarşıdan bayram gəlirdisə, daş-divar ağardılar, evin bütün künc-bucağı təmizlənər, xalça-palaz ən xırda parçaya kimi, yuyulub təmizlənərdi. Köhnəlib istifadəyə yaramayan hər nə varsa atılar, əvəzində yenisi alınardı. Bu çox gözəl adət idi, çünki bu təmizlikdə sanki insanın daxili aləmi də təmizlənir, yenicə alınmış təzə əyin-başın içində insanın sanki ruhu da təzələnirdi.

Mən də, bir gün, eləmə tənbəllik, evimizdə can-başla təmizliyə başladım. Sonralar anam mənim gördüyüm işlərə qiymət verib

demisdi:"Yaxşı deyiblər ki, dəliyə yel ver, əlinə bel ver". Bunu o boş yerə deməmişdi. Mən qışın oğlan çağında əhəng düzəldib evimizin divarlarını çöl tərəfdən ağartdım, bu azmış kimi, həyətin qarını təmizlədim, xalça-palazı həyətə sərib rezin borunu da su kranına qoşub onları yumağa başladım. Şaxtalı havada borudan axan soyuq su mənə ilıq kimi gəlirdi. Anam evdə yox idi, bilirdim ki, əyər evdə olsaydı bu işləri görməyə icazə verməyəcəkdi. O gələndə, mən artıq ayaq altina atılan balaca xalçanı da yuyub qurtarmışdım. Anam həyətə girəndə məni üstü-başı yaş, özümü də soyuqdan göyərmiş halda görəndə az qaldı ağlasın. Əlindəki şeyləri yerə atıb mənə sarı qaçdı:

--Ay bala, sən mənim evimi yıxmaq istəyirsən? Bu nə gündür özünü qoymusan? Görən də elə bilər mən tapşırmışam. Ay Həyat, mən səni ağıllı bir qız bilirdim. Hər şey bir tərəfə, axı sən qız xeylağısan, belə şey eləmək olar? İndi sən xəstələnsən, mən başıma haranın daşını töküm, hə?--o, bu sözləri deyə-deyə məni içəri apardı, əyin-başımı çıxardıb atdı, məni itələyib hamama saldı, özü də tapşırdı ki, qaynar su ilə çimim. Mən çimib çıxanda anam artıq yatağımı açmışdı, yatağın yanındakı balaca masanın üstünə də mürəbbə ilə təzədəm çay qoymuşdu. Mən başımı quruladım, mürəbbəli çaydan içdim, yerimə girdim və... . . xəstələndim. Yeni iləsə cəmi beş gün qalmışdı... .

Mən çox bərk xəstələndim, özümün yeni il gecəsindən qalmağım bəs deyildi, yazıq ana-atamın da bayramını heç elədim. Görunur çox möhkəm soyuqlamışdım, bir yandan da şağ əlimin orta barmağını əhəng yemişdi, nədir, barmağıma da dolama çıxmışdı. O mənə daha çox əziyyət verirdi. Bir yandan yüksək qızdırma, bir yandan da dolamanın sancısı... Dünya gözümdə olmadı, yeni il gecəsi üçün tikdirdiyim vişnə rəngli paltarım paltar dolabından asılı qaldı.

Yeni il gecəsi Sona xala bizə bişirdiyi plovdan pay gətirdi. Mahmud əmi dənizdə idi, odur ki, Sona xala bir xeyli bizimlə oturdu. Anam da bayram süfrəsi açmışdı. Çox nemətlərin içində mən anamın bişirdiyi aş-qaralı plovu sevdiyim üçün ondan bir az yedim, Sona xalanın təkidi ilə bir az da onun bişirdiyi cücə

plovdan yedim. Ürəyimdə dedim ki, dünyanın heç bir yerində bu çür ləzzətli yeməklər ola bilməz, və yəqin ki, yoxdur!

Sona xala dedi ki, Səməngül yeni il şənliyinə getmədən əvvəl gəlib mənə baş çəkəcəkmiş, yoldaşları onu aparmağa vaxtından bir az tez gəldikləri üçün vaxt tapıb gələ bilməyib. O daha sonra dedi ki, Səməngülü aparmağa gəlmiş bir qrup yoldaşlarımız sinfimizdən olan bir oğlanın maşını ilə gəliblərmiş. İçimdəki MƏN yenə təbil çaldı... .

Sona xala deyirdi ki, yeni il şənliyini həmin oğlangildə davam etdirmək fikri ürəyindən olmayıb, amma Səməngülü də yoldaşlarından ayırmaq istəməyib. Mən şənliyə gedə biməsəm də bilirdim ki, şənlik məktəbdə bitəndən sonra Firuzun təkidi ilə onlarda davam edəcəkdi. Firuzun ata-anası yeni ili Moskvada keçirəcəkmiş, qardaşı da dostları ilə restoranda. Odur ki, Firuz hamını evlərinə dəvət eləmişdi. Əyər mən xəstələnməsəydim, biz danışmışdıq, məktəbin şənliyi bitəndən sonra Rasimlə Lalə məni taksi ilə evə gətirəcəkdilər, çünki onlar da Firuzgilə getməyəcəkdilər. Sona xala qalxıb gedəndə üzümdən öpüb dedi:

--Ay səni, Həyat, heç belə gecədə də adam xəstə yatar? İndi həm sən də yoldaşlarının yanında olardın, həm də mən Səməngüldən arxayın olardım. Nə isə, yastığın yüngül olsun, tez sağal, yeni ilin də mübarək! Yüz belə illərə çıxasan!

Sona xala anamla, atamla bayramlaşdı, görüşüb getdi. Anamgil mənə divanda yer hazırlayıb, televizoru açdılar, bir azdan "Mavi işıq" adlı yeni il konserti başlayacaqdı. Mən öz aləmimdə fikrə dalıb Sona xalanın dediklərini götür-qoy edirdim. Güya Səməngül tələsdiyi üçün mənə baş çəkə bilməyib. Buna inanmaq üçün mən çox sadəlövh olmalı idim, çünki,Səməngül son vaxtlar mənimlə üz-üzə, göz-gözə gəlməkdən qorxurdu. Bilirdi ki, mən o axşam nə demişdimsə, hamısı döğru idi. Bilirdi ki, mənim dediklərimdən nəticə çıxartmayıb tam tərsini eləməyi heç doğru deyildi. Ancaq görünür Səməngülün özünə gücü çatmadı, ağlının deyil, ürəyinin sözünə baxdı.

Anam məni fikirdən ayırdı:

--Həə... deyəsən başlayır, Həyat, bax gör Nəsibə Zeynalovanı görürsən?Bax, mən İslam Rzayevi gördüm. Bu da Əlibaba Məmmədov. Əminə Dilbazi də burdadır, mən onun rəqsini çox sevirəm. Çox gözəl konsert olacaq. Ana qurban, sən də rahat uzan bax, yaxşı?

İlk dəfə anama da, atama da yazığım gəldi. Bir ömür yaşamışdılar, amma nə Kuba, nə Moskva, nə də heç Kislovodskini görmüşdülər. İmkanları çatan bir bu televiziya proqramı idi, onu da mən başlarına haram elədim, yoxsa həvəslə baxacaqdılar.

O vaxt yeni il proqramının ən baxımlı, ən duzlu-məzəli hissəsi Nəsibə Zeynalova, Bəşir Səfərov və Lütvəli Abdullayev üçlüyünün göstərdiyi səhnəciklər idi. Sonrakı illərdə Bəşir Səfərovla Lütvəli Abdullayev bir-birinin ardınca dünyasını dəyişdi, və onları uzun illər boyunca Hacıbaba Bağırov və Səyavuş Aslan əvəz elədi. Yadıma gələni, bayram konsertini həmişə Zeynəb Xanlarovanın çıxışı ilə bitirərdilər. Bu ənənə bu yaxınlara kimi də davam edirdi. Bu proqramdan ona görə ətraflı danışıram ki, xalqımın səksən faizinin həyatında onun xüsusi yeri var idi. Bir il boyu halal zəhməti və alnının təri ilə bir parça çörəyini qazanan sadə insanlar, ilin son gecəsi bircə dəfə də olsa, öz ailəsini başına toplayıb, evində Allahın yetirdiyi nemətlərlə bayram süfrəsi açar, məhz xalqın, imkanı çox məhdud olan bu kütləsinə ünvanlanmış, bu konsertə baxardı. Xalqın iyirmi faizini təşkil edən vəzifəli, rütbəli, arxalı müftəxorlarsa, həmin o kasıb zəhmətkeşin maaşından kəsdiklərini, ruzusundan oğurladıqlarını təkcə Bakının deyil, dünyanın ən bahalı restoranlarında xərcləyirdilər. Onların yeni il gecəsi fərqli yerdə, fərqli proqramlarla keçirilirdi. Məsələ ondadır ki, dünya yaranandan belə olub, belə də davam edir. Dünyada elə şeylər var ki, onun adı var, özü yoxdur. Onlardan biri də ədalətdir, bu dünyada onun ancaq adı var...

Yazıq atam, bədbin fikirlərdən üzümdə əmələ gəlmiş hüzünlü ifadəni canımın ağrısı kimi başa düşüb anama acıqlandı:

--Yasəmən, bayaqdan dil-boğaza qoymursan, bir qızın halına bax! Bəlkə öz otağında uzanmaq istəyir?

Barmağım doğurdan da bərk ağrayırdı, iltihab başlamışdı, barmağım çirk eləyirdi, ona görə də sancı gəlib gedirdi. Sancı artanda televizorun səsi də sinirlərimə toxunurdu, mən ağrıdan inildəyirdim. Atam da mənim bu halımı görüb halıma acıyırdı. Hər il səbirsizliklə gözlədiyi konsertə indi baxmaq belə istəmirdi. Düşünmədən elədiyim hərəkət ailəmin bayramını zay elədi.

Hələ dünən Rəşaddan aldıqları məktuba nə qədər sevinmişdilər. Rəşad vaxtı elə hesablamışdı ki, tam zamanında həmi bizi yeni il münasibəti ilə təbrik edirdi, həm də öz xidmətindən ürək açan şeylər yazırdı ki, ondan nigaran qalmayaq.

Hiss elədim ki, ağrıya daha dözə bilməyəcəyəm, odur ki, sərbəst inildəmək üçün öz otağıma keçdim. Əlimi göyə qaldıranda mənə elə gəlirdi ki, ağrı bir az azalır. Beləcə bir əlimlə sağ qolumu yuxarı qaldırıb elə də saxlayırdım, ağrı azalırdı, qolum yorulanda aşağı salırdım, o saat ağrı artırdı. Anam-atam gecədən xeyli keçmiş mənə baş çəkəndə bir anlıq yuxuya getmişdim, onlar da nəhayət ki, yuxuya getdiyimi düşünərək, məndən arxayın olub yatmağa getdilər. Bir azdan ağrı yenidən artdı, nə artdı, ancaq bunu daha anamgil bilmədilər. Səməngülün Firuzgildə olduğu o gecəni mən öz balaca otağımda, qetdikcə artan ağrıdan sabaha qədər ağlaya-ağlaya keçirtdim. Sabahı gözümlə açdım.

Bu ilki yeni il gecəsi çox fərqli bir qecə oldu. Fərqli olduğu üçün də bütün təfsilatı ilə yadımda qaldı. Çox sonralar mən o gecə Səməngülün Firuzgildə olması ilə mənim səhərə qədər ağrıdan olsa belə, ağlamağımda gözlə görünməyən bir bağlılıq gördüm. Eyni ilə ekiz bacıların arasında olan bağlılıq kimi...

***

Yeni ilin ilk günü idi. Gün günorta olmuşdu, ancaq hamı gecəni gec yatdığı üçün indi yatıb yuxusunu alırdı. Təkcə mən, ağrıdan xoruz banından oyanıb, öz zarıltılarımla atamı da anamı da oyatmışdım. Onlar özlərini ora-bura vurub mənə necəsə kömək eləmək, ağrılarımı az da olsa azaltmaq üçün nə isə bir şey

eləmək istəyirdilər. Anam xalq təbabətindən xatirladığı bir üsulla baş soğanı dəmirin üstündə bişirib ondan bir köynək ayirdı, onu elə isti-isti barmağıma doladı, üstündən də bintlə sarıdı. Axşamdan bəri içdiyim ağrıkəsici dərmanın son tabletini də mənə icirdib, yerimə üzanmağıma kömək elədi. Deyəsən bişmiş soğanın istisindən ağrı bir az azaldı, çox yorğun olduğum üçün o saat da məni yuxu apardı. Bu yatmaqla bir xeyli yatdım. Mən oyananda saat axşam altını göstərirdi. Yerimdə üzanıb bu neçə gündə məni əldən salan ağrının gəlməsini gözlədim, amma ağrı gəlmədi. Əvəzində barmağımdakı sarğının içində ilıq bir məhlul olduğunu hiss elədim, tez anamı çağırdım. Sən demə Sona xala da bizdə imiş, ikisi də gəlib sarğını açdılar. Bişmiş soğan öz işini görmüşdü, irin tuluğu yırtılmış, barmağımın başına yığılmış çirk bayıra axmışdı. O dəhşətli ağrı da, gedib-gələn sancı da birdəfəlik kəsilmişdi. Anamla Sona xala köməkli yaramı təmizlədilər, dərman qoyub sarıdılar, elə bil gözümə işıq gəldi. Anamın gətirdiyi mürəbbəli çayı içdim. Xəstə yatdığım bu neçə gündən sonra hələ indi real həyata qayıtdım və ilk olaraq Səməngülü soruşdum:

--Sona xala, Səməngül yeni il şənliyindən nə danışdı, yaxşı keçib?

Sona xala bu sözümü eşidən kimi ciddiləşdi:

--Ay bala, heç danışa bildi ki... Gələndən yerinə girib yatır. İndi də o xəstlənib deyəsən, orda soyuq olub ona, paltarı çox nazik idi axı...

--Necə yəni xəstələnib, qızdırması-zadı var? Elə gecə gələndən yatir?

--Gecə gəlməyib ki, səhər gəlib. Məyər belə danışmamışdınız? Səhər gələndə tir-tir əsirdi, qızdırması da var. Siz elə bil sözləşmisiniz ey, o yatır sən qalxırsan, sən yatırsan o qalxır. Canım, böyük sözü eşitmirsiniz ki... Neçə dəfə dedim ki, isti paltar tikdir, qışdır axı... Gördün, geyindi ipək paltarı, soyuq kəsib-keçdi, indi bayramı da gözündən gələcək. Yanına mürəbbəli çay qoymuşam, onu da içməyib. İndi gedib dərman içirdəcəyəm, görüm tezliklə ayağa qaldıra biləcəyəmmi?

Sona xala qalxıb gedəndə:

--Sona xala, Səməngülə məndən salam de, de ki, bir azdan gəlib ona baş çəkəcəyəm, qoy bir az özümə gəlim. --dedim. Sona xala getdi. Anam dovğa bişirmişdi, bir dolu boşqab dovğanı gətirib kiçik masanın üstünə qoydu:

--Ana qurban, isti-isti iç, mən də bir az ət qutabı eləyirəm, Səməngülə baş çəkməyə gedəndə onun da həm dovğa, həm də qutab payını apararsan. Yox, elə mən də gedərəm. --dedi.

Dovğanı böyuk iştahla içdim, indi yadıma düşdü ki, qizdirmada yananda ürəyim dovğa istəmişdi, ancaq bunu anama deməyə halım olmamışdı. Yavaş-yavaş halım üstümə qayıdırdı, odur ki, fikirləşə bilirdim. Bəlkə də yanılırdım, ancaq tədbir yeni il girəndən bir saat sonra bitməli idi. O da yadımdadır ki, Cəmilə adlı qız atasına tapşırmışdı ki, uzağı gecə saat birdə tədbir bitəcəyinə görə, onu aparmağa saat birin yarısı gəlsin. Mənum Firuzgilə getmək fikrim olmasa da danışılanları eşidirdim, danışıq da məhz belə olmuşdu. Ola bilsin ki, sonradan fikirlərini dəyişiblər, şənlik səhərə gədər davam edib. Görəsən Səməngülə harda soyuq olub?Bəlkə də tərli-tərli balkona çıxıblar. Bəlkə də bayıra, qartopu oynamağa çıxıblar... Nə isə... Yoruldum fikirləşməkdən, yaxşısı budur bir azdan gediim ona baş çəkim.

Mən özümə güvənib ayağa qalxanda, saat doqquza qalmışdı. Anam Səməngülün dovğa və qutab payını da götürdü, biz Sona xalagilə getdik. Biz içəri girəndə Sona xala divanda tək oturmuşdu, televizorun səsini də qısıb televizora baxırdı. Biz Səməngülü soruşanda o dedi:

--Balamın halı hal deyil,Yasəmən. İş günü başlasın, mütləq gərək həkim çağırım. Bütün günü dilinin altından su da keçməyib. Elə hey başını bürüyüb yatıb. Özü də od tutub yanır. Bir az əvvəl girib baxdım, yenə yatır. Bilmirəm, bu nə işdir? Dərman vermək istədim, onu da içmədi.

Anam Sona xalanı sakitləşdirdi:

--Ay Sona, özün bilirsən indi hamı qripdir, görəsən ona kimdən qrip keçib. Sabah bir az yaxşılaşar, dərman verərsən, yedirdib-içirdərsən, sağalar, qalxar ayağa. İndi çalış, qızdırmasını

sal. Aspirin ver, həm qızdırması düşər, həm də tərləyər. Sonrası asandır.

Sona xala yazıq-yazıq anama baxdı:

--Bəs mən də bayaqdan onu eləmək istəyirəm də... Deyir ki, belə dünya dağılsa da içmərəm, mən də bu inadı başa düşmürəm ki...

Biz beləcə Səməngülü görmədən, Sona xala ilə görüşüb evə döndük. Evdə anam sanki öz-özünə danışırmış kimi dedi:

--Qabaqlar elə bil bu qız bu qədər tərs deyildi axı...

Mən heç nə demədim.

Ertəsi gün səhər yeməyindən sonra birəlli də olsa, masanın üstünü yığışdırmaqda anama kömək elədim. Sonra Səməngülə baş çəkməyə getdim. Sona xalanın əlindəki dəm-dəsgahlı çay sinisindən başa düşdüm ki, içəridə, Səməngülün yanında kimsə var. Sona xalanın əhvali yaxşı idi, elə bil üzümdən sualımı oxudu:

--Hə... xoş gəlmisən Həyat, gəl, gəl, Almaz da burdadır. Allaha çox şükür, Səməngül bir az özünə gəlib deyəsən... .

Mən yerimdən tərpənməyincə, Sona xala deyəsən mənim Almaz barədə dediklərimi xatırladı. Yazıq-yazıq üzümə baxıb:

--Neyləyim ay qızım, qonağı qapıdan qovmaq olmaz axı... -- dedi.

Mənim ona yazığım gəldi, zorla da olsa gülümsədim.

--Yox, yox, bu nə sözdür, qonaq qonaqdır. Sadəcə mən sonra gələrəm, yaxşı Sona xala?Bir də sən mənim gəldiyimi deməyəsən ha...

--Yaxşı, deməərəm...

Sona xala çayları içəri apardı, mən də evə gəldim.

Mən Səməngülün yanına o gün getmədim. Axşam Sona xala bizə gəldi, sevindiyindən yerə-göyə sığmırdı. Səməngülün vəziyyəti düzəlirmiş, qızdırması düşüb, yeməyə də başlayıb. Anam mətbəxə çay dəmləməyə getdi, bu vaxt Sona xala üzünü mənə tutdu:

--Ay bala, Həyat, bu Almaz ey, elə dilli-dilavər qızdır ki... Bilirsən Səməngülü neçə yola gətirdi, hamama salıb çimizdirdi, əynini dəyişdirdi, yedirtdi, içirtdi. Vallah, məətəl qalmışam, bu qız elə bil əkə-bikə arvaddır, dili ilə ilanı yuvadan çıxardar ey...

Hər nə isə, balamın eyni bir az açıldı. Şükürlər olsun! Həyat, istəyirsən, elə indi get onun yanına, biz də burda Yasəmənlə bir az söhbət eləyək.

--Sona xala, qoy o bu gün dincəlsin, mən sabah gedib ona baş çəkərəm, bir az da yanında oturaram, indi daha gecdir,--dedim.

Sona xala israr eləmədi. Onlar oturub çay içə-içə söhbət edirdilər, mən də əlimə yenicə keçmiş Rəşad Nuri Güntəkinin "Dodaqdan qəlbə" romanını oxuyurdum. Bu romanı yazanda, muəllif yəqin ki, çox xeyirxah bir niyyətlə gənc qızları yalnış addımlardan, həyatlarını alt-üst edə biləcək səhvlərdən saxlamaq məqsədi güdürmüş. Rəşad Nuri Güntəkinin bütün əsərləri bir həyat məktəbi idi, nəyisə öyrədirdi, nədənsə xəbərdar edirdi. Onun romanlarında əksini tapmış hadisələr həyatda dəfələrlə baş vermiş, sonsuz sayda insanların həyatı eyni bu romanlarda yazıldığı kimi məhv olub getmişdi. Yazıçı bu romanları yazmaqla, barı onun kitablarını oxuyan kütlənin gözünü açmaq istəmişdi. Mən şübhə eləmirdim ki, bu kitablar doğurdan da kimlərinsə gözünü açа bilmişdi, daha ehtiyatlı olmağa kömək eləmişdi, amma həyatda hələ nə qədər eyni ssenari üzrə üçürüma gedən gənclər var idi ki, bu əsərlər onlardan yan keçib getdi... .

Söz verdiyim kimi, ertəsi gün Səməngülü ziyarətə getdim. Sona xala gəlişimə çox sevindi, məni içəri ötürüb özü çay qoymaq üçüm mətbəxə keçdi. Mən içəri girəndə, Səməngül əlindəki şəkillərə baxirdi, onları üzüüstə yanındakı masaya qoydu, güclə eşidiləcək səslə:

--Xoş gəlmisən,--dedi.

--Necəsən, Səməngül?--deyə soruşdum.

--Çox sağ ol, indi yaxşıyam,--dedi və yenə də gözünü gözümdən qaçırtdı. Mən ürəyimdə "Bu yenə nəsə gizlədir ki, yoxsa gözümün içinə düz baxardı. Allan xeyir eləsin!"--deyə fikirləşdim.

--Sən necəsən, barmağın sağalır?--deyə o soruşdu.

--Hə... . sağalır, özüm-özümə elədim, külü gözümə ələdim, bu yerdə deyiblər də...

--Eybi yoxdur, əsas odur ki, artıq sağalır,--dedi Səməngül.

--Hə, doğrudur,--dedim.

Düzü, söhbət heç yerimirdi, Sona xalanın xətrinə gətirdiyi çayı da içdim, sonra vacib işim olduğunu deyub ayağa qalxdım. Əyilib Səməngülün üzündən öpəndə, baxışlarımız toqquşdu, o yenə tez gözunu yerə dikdi. Mən bir daha əmin oldum ki, irəlidə hələ bilmədiyim çox şeylərin üstü açılacaq...

14. On iki günlük qış tətili sona çatdı.

Bu on iki gündə Almaz iki günün biri Səməngülə baş çəkməyə gəlirdi, neçə dəfə də Sona xaladan icazə alıb Səməngülü gəzməyə aparmışdı. Sona xala artıq Almazı az qala ailənin bir üzvü kimi qəbul edirdi, onu tərifləyəndə dili ağzına sığışmırdı. Dərs ilinin ikinci yarım ili başladı. Hamı dərsə yeni həvəslə girişmişdi. Mənə yaxın olan qızlar, xəstəlik üzündən yeni il şənliyindən qaldığım üçün təəssüfləndiklərini söylədilər. Söhbət əsnasında mən də məni narahat edən bir məsələni özüm üçüm aydınlaşdırmaq istədim. Suallarım şübhə doğurmasın deyə, elə adamla söhbət eləməli idim ki, o uşaq kimi sadəlövh olsun, hər şeyi də olduğu kimi danışsın. Belə adam Nigar idi. O çox saf qız idi, yalanla, qeybətlə heç arası yox idi. Mən ondan soruşanda ki, tədbir necə keçdi, nə vaxt bitdi, Nigar heç nədən şübhələnmədən, mənə ətraflı məlumat verdi. O dedi ki, tədbir çox şən keçib, Firuz çox zəngin bayram süfrəsi hazılayıbmış, yeyib-içiblər, çoxlu rəqs eləyiblər. Vaxt məsələsinə gəlincə, Nigar dedi ki, saat bir tamamda Cəmilənin atası qızını aparmağa gəlib, uşaqların çoxu Cəmiləgilə qonşu olduğu üçün, ya da bir az aralı yaşadıqları üçün, hamı saat birdə dağılışıb. Nigar daha sonra dedi ki, təkcə Səməngül qalmışdı, onu da Almazla Firuz maşınla aparacaqdı. Sonda Nigar heyfisləndi ki, mən orda olmadım. Mən artıq bunları eşitmirdim. Daxilimdəki həyəcan məni buralardan uzaqlaşdırdı. Hamı gecə saat birdə dağılışıb, Səməngülsə evə səhər gəlib. Ürəyimdə Allaha yalvarırdım ki, o gecə yalnış bir şey olmasın. Bu fikirlər məni əldən salanda, özümə belə təskinlik verdim ki, yəqin onlar üçlükdə səhərə qədər oturublar, bunda qorxulu heç nə yoxdur.

Səməngül yenə də Almazla otururdu, indi onlar daha mehriban, daha yaxın olmuşdular. Aradan keçən bu vaxtda Firuz da dəyişmişdi, elə bil bir az da ürəklənmişdi, hərəkətlərində daha qətiyyətli olmuşdu. Səməngülə aid olan hər şeyə qarışır, çox yerdə onun yerinə qərar verirdi. Bu əlbəttə heç kimin nəzərindən qaçmırdı, sadəcə ola bilsin ki, bu iki gəncin münasibətinin ciddi olduğunu düşünüb, heç kəs bu işə yersiz yerə qarışmaq istəmirdi. Beləcə hər şey və hər kəs gedəcəyi istiqamətə gedirdi. Mən daha Səməngülə heç nə ilə kömək edə bilməyəcəyimi anlamışdım. Məni öz rəfiqəm uğrunda mübarizədən döndərən elə rəfiqəm özü idi. O mənimlə soyuq rəftar eləməklə, könülsüz danışmaqla, Almaza daha yaxın olmaqla sanki, mənə açıqca deyirdi:"Mənim işimə qarışma, bu yolu özüm seçmişəm. "

Mənim heç şübhəm yox idi ki, Səməngülü idarə edən onun saf məhəbbəti idi. Səməngül Firuzu saf məhəbbətlə sevirdi və buna görə onu qınamaq olmazdı. Ancaq hamının ağlından keçən "Firuz da saf məhəbbətlə sevirmi?" fikri bir az da gərək Səməngülü düşündürəydi, Səməngülü narahat edəydi.

Firuz üçün mən sanki, yox idim. O hər şeyi istədiyi istiqamətə yönəltmişdi. Hətta Səməngülün evinə də Almazın vasitəsi ilə "əli" girirdi. O nə vaxt istəsə, Almaz Sona xaladan icazə alır, Səməngül də onlara qoşulub harasa gedirdi. Ən pisi o idi ki, Sona xala Almazdan o yana bir Firyzun olduğundan xəbərsiz idi.

Mən hələ də uşaqlıqdan bir yerdə böyüdüyümüz, bir evli kimi olduğumuz, bu yaxınlara qədər ən yaxın rəfiqəm olan Səməngül uğrunda son cəhdlərimi eləmək istədiyim halda, bir hadisə baş verdi və Səməngülü mənim həyatımdan silməsə də, məni Səməngülün həyatından sildi.

Nə vaxt idi ki, Səməngül, Almaz və Firuz üçlüyü bir qayda olaraq idman dərsinə qirmirdilər. Almaz onları da özünə tay eləmişdi. Əslində onlar bütün dərslərdən arabir yox olurdular, idman dərsindən isə, icazəsiz-filansız hər dəfə qaçırdılar.

Qızlardan ibarət qrupun idman rəhbəri Nailə müəllimə məni öz yanına çağırıb dedi:

--Həyat, sən Səməngülün anasını sabah məktəbə çağıra bilərsən?

Mən özümü bilməməzliyə qoyub soruşdum:

--Niyə, nə olub ki?

--Hələ heç nə olmayıb, amma belə getsə olacaq. Mən bilmirəm başqa dərslərə Səməngül necə davam edir, ancaq özün görürsən, mənim dərsimə daha heç gəlmir. Bunun axırı pis ola bilər, gərək dərsə gəlməyənlərin valideynləri ilə söhbət edim. Mən sizin sinif rəhbərinizin qarşısında da məsələ qaldırmışam, buna göz yummaq olmaz. Sən onun anasını çağır, sabah gəlsin.

--Yaxşı çağıraram. --dedim.

Əyər mən o gün heç bir hərəkət eləmədən evə gəlib Nailə müəllimənin sözünü Sona xalaya çatdırsaydım, görəsən Səməngülün talehi başqa cür olardımı? Mən bunu bilmədim, çünki həmin gün özüm mübarizəni davam elətdirməyi qərara aldım. Mən Nailə müəllimənin ağzında sözü bitən kimi, dərsdən çixib Səməngülü axtarmağa başladım. Məktəbin həyətini o baş, bu başa dolaşdım. Yox idilər. Elə məktəbə qayıtmaq istəyirdim ki, məktəbin yan divarının lap sonunda Almazı, paltosunun yaxasını burnuna qədər çəkib dayanmış gördüm. O arabir dönüb, dayandığı yerdən arxa tərəfə baxırdı. Məni görmürdü, fikri butünlüklə baxdığı yerdə idi. Almaz məni görməsin deyə, tez geri gəldim, məktəbin önündən keçib sağ tərəfindən arxaya doğru yeridim, orda baş verənləri bir azdan görəcəkdim. Mən yavaş-yavaş divarın sonuna yaxınlaşanda anlaşılmaz hənirtilər eşitdim, nə baş verdiyini bilmək üçün divarın küncündən başımı çıxardıb arxa tərəfə baxdım, gördüklərimdən ətim ürpəşdi. Məktəbin arxası xüsusən dərs vaxtı xəlvət bir yer olurdu, sıx bitmiş və adam boyu qalxmış bəzək kolları gözdən uzaq, qulaqdan da iraq bir yer əmələ gətirmişdi. Həmin gül kollarının arasında Firuzla Səməngül öpüşürdülər, həm də şəhvətlə öpüşürdülər. Səməngülün yaxa-başı açıq idi, Firuz onun sinəsini xışmaladıqca ikisinin də ehtirası daha da artırdı. Mən tez geri çəkildim, ilk dəfə belə açıq-saçıq mənzərə gördüyüm üçün, çox böyük bir sarsıntı keçirtdim, bütün dünyaya nifrət elədim, hər kəsdən iyrəndim. Bir yandan ürəyim bulanırdı, bir yandan da gözlərim yaşarmışdı, qəhər məni boğurdu.

İlk ağlıma gələn, ordan uzaqlaşmaq oldu, çunki hənirti hələ də gəlirdi. Məktəbin ön tərəfinə çatanda Almaz yadıma düşdü. Məktəbin sol tərəfinə keçdim, Almaz eyni yerdə dayanıb eyni maraqla həmin istiqamətə baxırdı. Onun hara baxdığını və nə gördüyünü mən artıq bilirdim. Keçirdiyim əsəb sanki məni qanadlandirdi, mən yerimədim, mən uçdum. Almaz heç bilmədi, mən nə vaxt onun bərabərində oldum. O üzünü çevirəndə, mən artıq onun yaxasından tutub sürükləyirdim:

--Əxlaqsız... sürtük... deməli sən belə yoldaşlıq eləyirsən? Aradüzəldən, ifritə... deməli sən belə qızları yoldan çıxardırsan? Qapı güdən alçaq!--ürəyim partlayirdi, amma lazımı sözləri tapa bilmirdim.

Almaz imkan tapan kimi qışqırdı:

--Aa... Nə olub ay qız, dəli olmusan?Yaxamı burax görüm!--o xasiyyətinə uyğun şəkildə şüvən salıb özünü mənim əlimdən qurtarmaq istəyirdi. Mən onun yaxasını buraxdım, Almaz yaxasını düzəltmək istəyirdi ki, mən ona var gücümlə elə bir şillə çəkdim ki, səsi uzağa getdi. Firuz özünü çatdıranda Almaz yerdə ağlaya-ağlaya ağzının-burnunun qanını silirdi. Firuz hirsindən əsirdi:

--Niyə vurdun onu?Həə?... Niyə vurdun onu ?Səninləyəm ey, ay erkək Tükəzban, niyə vurdun qızı? İstəyirsən deyim, niyə vurdun? Sən qız deyilsən ey, erkəksən... səni heç kəs almayacaq... ölürsən paxıllığından. Konvoy kimi Səməngülü güdürdün, göz verib işıq vermirdin, nə oldu? Biz sevişirik, sənin ciyərin yanır? Həə..?

Bu yerdə daha dözə bilmədim, heç özüm də bilməzdim ki, bu qədər güclüyəm, var gücümlə Firuza da bir şillə çəkdim, o hər halda bunu heç gözləmədiyindən zərbə ilə divara dəydi, başı əzildi. Firuz qəzəbindən kükrəyə-kükrəyə üstümə cumurdu ki, bayaqdan yəqin ki, yaxasını-başını səhmana salmaqla məşğul olan Səməngül özünü yetirdi:

--Firuz, dayan! Yalvarıram, dayan! Onunla işin olmasın. Mən özüm onunla danışaram.

Firuz qiymətli əlaltısı Almazı yerdən qaldirib ust başını təmizləyir, əl yaylığı ilə ağzının-burnunun qanını silirdi. O daha sonra Almazın qoluna girib gedə-gedə qəzəblə dedi:

--Danış onunla, Səməngül, yoxsa baxmaram ki, qızdır haaa... Danış, bizdən uzaq dursun, eşitdin? Bir də yolumuzun üstünə çıxmasın, yoxsa peşiman eliyərəm onu!

Mən gözlərimi qıyıb Səməngülə baxırdım, gözləyirdim, görüm mənə nə deyəcək. O isə baxışlarını yenə sürüşdürüb əlindəki yaylığa baxdı, onu didişdirə-didişdirə danışmağa başladı:

--Həyat, mən bilirəm ki, sən məni sevdiyin üçün özünü oda-közə vurursan. Sən Firuzun məni sevdiyinə inanmırsan, ona görə də məni qorumağa çalışırsan. Həyat, mən bütün bunları başa düşürəm, və boynuma alıram ki, sən indiyə kimi nə demisənsə, hamısı doğrudur. Sən bundan sonra da nə desən, həmişə haqlı olacaqsan. Ancaq sənin gücünü hələ bilmədiyin bir şey var, sevgi... Sən hələ sevginin gücünü bilmirsən. Sevgi butun həqiqətlərdən güclüdür. Mən indi sevirəm, bu sevgi məni çəkib aparır, və sənin deyəcəyin heç bir həqiqət məni saxlaya bilməyəcək. Mən sənə qıymıram, istəmirəm ki, sən bir də belə vəziyyətə düşəsən. Əyər mənə yaxşılıq eləmək istəyirsənsə, anamgilə heç nə bildirmə, qoy bu hələlik gizli qalsın. Məndən incimə, bir gün gələr, sən də sevərsən, onda məni başa düşərsən. Bacarırsansa, məni bağışla!

Onun bu sözlərindən elə təəsirlənmişdim ki, heç nə deyə bilmirdim, onun gözünün içinə baxirdım, gözümün yaşı sel kimi axırdı. Bu mənim can yoldaşım Səməngül idi, mən onun həzin səsini, axar bulaq kımı səslənən danışığını, çoxdandır görmədiyim səmimiyyətini tanıdım. Onun acı həqiqətini də bütün qəlbimlə başa düşdüm, onun bu halına ürəyim kövrəldi. Mənim başı bəlalı rəfiqəm özü hər şeyi hamıdan yaxşı bilirdi, ancaq bu yoldan geri durmağa özündə güc tapa bilmirdi. Bəlkə bu da onun qismətidir, bəlkə irəlidə hər necə olsa da bir xoşbəxt final olacaqdı? Buna özümü heç cür inandıra bilməsəm də, bu yolda da maneə olmaqdan çəkiləcəkdim. Artıq bu mübarizəni davam etdirməyin heç bir önəmi qalmırdı. Əyər bu sevgi yanar bir atəş idisə, Səməngül bilə-bilə özünü bu atəşə atırdı...

***

Tədris ili başa çatırdı, aradan keçən bu vaxt ərzində Firuzla Səməngül münasibəti o qədər aşkar olmuşdu ki, bu artıq hamı

üçün adiləşmişdi. Onların Firuzun maşını ilə birgə gəzintiləri, Firuzun hər yerdə Səməngülü bir nişanlı kimi müşaiət eləməsi hamıda belə bir fikir yaratmışdı ki, onlar yəqin məktəbi bitirər-bitirməz evlənəcəklər. Mən onlardan gen gəzir, onlara aid olan söhbətlərə qarışmamağa çalışırdım. Ürəyimdə bilirdim ki, Firuz bir gün Sənəngülün həyat yoldaşı olsa belə, mən onu bağışlamayacağam. Səməngül Firuza uyub dərsləri də boş buraxmışdı. Neçə fənlərdən aşağı qiymət almışdı, neçə fəndən də dərsə gəlmədiyi üçün kəsiri olacaqdı. Mən Sona xalaya heç nə deməmdim, Səməngül də min-bir yalanla hər dəfə vəziyyətdən çıxırdı.

İl sona çatdı, biz imtahanları verib qurtardıq. Mən hamısını uğurla verdiyim halda, həmişə məndən daha yüksək qiymətlər alan Səməngül bir necə fəndən iki alıb payız imtahanına saxlandı. O bunu da evdəkilərdən gizlədə bildi. Bu vəziyyət nədənsə Firuzu heç narahat eləmirdi. Firuz, Almaz, Səməngül üçlüyü həyatın dadını çıxardır, kinoya, gəzintiyə, qonaqlığa gedib əylənirdilər.

Bir azdan bağ mövsümü başlayırdı. Mən zəif bir ümidlə, Səməngül bəlkə bağ həyatında dəyişər, ağlını başına yığar, deyə düşünürdüm, amma bir gün Sona xala bizə gəlib Səməngülün qətiyyətlə bağa getməkdən imtina etdiyini söylədi. Məndən də xahiş elədi ki, onunla danışım, getmək istəməməsinin səbəbini öyrənim. Mən bir gün Sona xala ilə Mahmud əminin evdə olmadığı bir vaxtda onlara getdim. Səməngül həyətdə öz çıçəklərinə su verirdi, məni görüb gülümsədi:

--Gəl, Həyat, gəl. Bilsən sənin üçün necə darıxmışam!

--Mən də darıxmışam, gəldim ki, bir az söhbət edək.

Səməngül məni içəri apardı, onlara gəlmədiyim o qədər uzun zaman olmuşdu ki, hər şey mənə dəyişik gəlirdi. Biz bir az ordan-burdan danışdıq. Sonra mən bağa nə zaman köçəcəklərini soruşdum. Səməngül bir az dayandı, sonra dedi:

--Həyat, açığını bilmək istəsən, mən bağa getmək istəmirəm, bunun üçün nə lazımdırsa eləyəcəyəm. Bilirsənmi, niyə?Ona görə ki, biz bir-birimizdən ayrı bir gün də qala bilmirik, nə Firuz, nə də mən! Mən bağa getsəm, biz necə görüşə bilərik? Mən də həsrətdən ölərəm, o da!

Söhbət ki, bu yerə çatmışdı, Səməngül də daha məndən çəkinmirdi, mən çoxdan öyrənmək istədiyim bir şeyi nəhayət ki, soruşmağı qərara aldım:

--Səməngül, sirr deyilsə, Firuz sizin münasibətiniz barədə nə fikirdədir, yəni nə planlaşdırır?Bu barədə heç söhbətiniz olub?--deyə soruşdum.

Səməngül qizardı, həyəcandan dili dolaşdı, nəhayət özünü ələ alıb dedi:

--Firuz hər şeyi elə gözəl planlaşdırıb ki, məktəbi bitirən kimi, ən qısa zamanda həm nişan olacaq, həm də toy. Firuz deyir ki, mənə şahzadələrə layiq toy edəcək. Deyir ki, elə toy olacaq ki, hər kəs o toydan danışacaq.

--Bəs sən oxumayacaqsan?Bəs tibb institutu?--deyə şoruşdum.

--Əlbəttə oxuyacağam. Firuz deyir ki, hər şey toydan sonra olacaq. Toydan sonra instituta girəcəyəm, evli olduğum halda da oxuyacağam. Tibb istitutu səkkiz-doqquz ildir, sən ki, bilirsən?Bu qədər kim-kimi gözləyər?Mən onun dedikləri ilə razıyam, hər şeydən əvvəl evlənməliyik. Nə gizlədim, onu çox sevirəm, hamıya qısqanıram. Onu görmədiyim günləri ömrümdən saymıram. O da məni eyni cür sevir, mənsiz yaşaya bilmir. Həyat, sənə deyim, sevmək çox gözəl şeydir, sənə də qismət olsun, görərsən.

Bu sözlərə qulaq asırdım, söhbətin Səməngülə aid olan hissəsi məni nə qədər kövrəldirdisə, Firuza aid olan hissəsi heç bir duyğu oyatmırdı, ya da mənə elə gəlirdi ki, söhbət tamam başqa adamdan gedir. Rəfiqəmin könlünü qırmaq istəmədim, "könül sevən göyçək olar",--deyiblər. Bir xeyli söhbət edəndən sonra evə gəldim, Sona xalaya nə deyəcəkdim, bilmirdim...

15. O ilin yay tətili mənim üçün bir işkəncə oldu.

İndiyə qədər ən şirin xatirələrim bağ mövsümü ilə bağlı olardı, həyatımın ən duzlu-məzəli macəraları bağda baş verən macəralar, çıxartdığımız min-bir oyunlar olurdu. İki ailə həmişə uzun bir ilin sonunu ona görə həsrətlə gözləyirdik ki, o il nə qədər zəhmətli, nə qədər ağır keçirdisə-keçsin, sonda bizi, yayın tən ortasında, bitmək bilməyən bağ həyatı kimi bir mükafat gözləyirdi.

İndi ən yaxın bağ qonşumuz olmadan, ən yaxın rəfiqəm olmadan, mən bu iki ayı bağda nə edəcəkdim?Anamgil də çox darıxırdılar, zarafat deyil, gözümüzü açandan Mahmud əmigil həm şəhərdə, həm də bağda bizim qonşumuz olmuşdular. Onlarsız bir ilimiz olmamışdı. Əvvəllər, hətta eyni gündə bağa köçər, eyni gündə də şəhərə qayıdardıq. Sonralar bəzi səbəblər üzündən bizlərdən biri ya bağa, ya da şəhərə bir gün gec, bir gün tez köçərdisə, o bir gündə də təklikdən bağrımız çatlayardı.

Bağa köçdüyümüz ilk gün, başımız əşyalarımızı yerbəyer eləməyə qarışdı. Axşamın sərinliyində təmizlik işlərini də görüb qurtardıq. Bilə-bilə özümüzü yorub əldən saldıq ki, gecəni daş kimi yataq. Doğurdan da bərk yuxuya getmişdik, onsuz da qısa olan yay gecəsi bir an kimi keçdi. Səhər yuxudan balta səsinə oyandım. Hələ tam oyana bilməmişdim deyə, bir an harda olduğumu müəyyən eləyə bilmədim, sonra yadıma düşdü ki, biz bağdayıq. Hər il eyni cür oyanıb bağda olduğumuzu xatırlayan kimi sevinərdim, bu dəfə qəribsədim:yadıma düşdü ki, nə Rəşad gələcək, nə Səməngül, nə də Sona xala ilə Mahmud əmi. Dirsəklənib pəncərədən bayıra baxdım, atam odun doğrayırdı. Bu, atamın bağda ən çox sevdiyi məşğuliyyət idi. Bağda qaldığımız müddətdə hər gün samovar qaynadırdıq, tez-tez kabab çəkirdik, ona görə də atam ilk əvvəl odun doğrayıb yığırdı. Görəsən atam qonşularımızın gəlməyəcəyini unutmamışdı ki... .

Qalxıb həyətə çıxdım, anam da oyanıbmış. O həyətimizdəki ən böyük tut ağacının altında masa qurmuş, üstünə yeni aldığı süfrəni də salmışdı. Bu kölgəlik, kölgəlikdə qoyulmuş masa, masanın üstündəki ağ süfrə, ən nəhayət, anamın süfrəyə düzdüyü yağ, pendir, bal, cürbəcür mürəbbələr, yenicə alınmış isti təndir çörəyi adamın könlünü açır, bütün fikirlərini unutdururdu. Mən bu mənzərədən bir yüngüllük hiss elədim, əl-üzümü yumağa getdim.

Bir-iki gün başım, keçən ilki xatirələrimi yada salmaqla qarışdı. Hansısa bir kitabda oxumuşdum ki, insan gərək mümkün olduqca, ömrünün keçmişini yaşadığı yerlərə bir də dönməsin. Bəlkə də bir zamanlar ömrünün ən xoşbəxt günlərini keçirdiyi yerləri bir də görmək istər. Əyər insan keçmişinə dönərsə, orda

həmin o gözəl günlərinin xarabalıqlarından başqa bir şey görməyəcək. Gördükləri ona ancaq təəssüf və peşmançılıq yaşadacaq. Bu sözlər mənim indiki halıma tam uyğun olmasa da, nədənsə, məhz burda, mən lap çoxdan oxuduğum bu sözləri xatırladım. Onda mən hələ bilmirdim ki, irəlidə yaşanacaq acı hadisələr bizi, uşaqlığımızın ən bəxtəvər günlərini keçirdiyimiz bu bağdan da bir dəfəlik ayıracaq. Sən demə, mənim bu gəzintim, bağımızı son ziyarətim, əslində vidalaşmam imiş. Hələki bunları bilmirdim. Bağı-bağçanı yalnız darıxdığım üçün gəzib-dolaşır, ən əziz xatirələri yada salırdım.

...Bu gül kolunu Səməngül əkmişdi, gör nə boyda olub, gəlsəydi, görərdi. Bu yellənçəyi Rəşad düzəltmişdi, o qədər onda yellənmişdik ki... Rəşad həyətin ayağında balaca hovuz da düzəltmişdi, ora balıq buraxırdı. Səməngül də bu balıqlara tamaşa eləməkdən doymurdu. İndi başa düşürəm ki, Rəşad o hovuzu məhz ona görə düzəldibmiş ki, Səməngülün günü bizim həyətdə keçsin. Nə gözəl günlər idi...

Sona xala evlərinin açarını anama vermişdi ki, arabir gedib həyət-bacaya baş çəkək. Çoxdan baxılmayan, boş, kimsəsiz həyətə ilk dəfə girəndə ürəyim sıxıldı. Elə onda bir də inandım ki, dünyanın bəzəyi də insandır, bəlası da. İnsan var, onun yaşamadığı yerlər viran qalır, insan da var, onun yaşadığı yerlər viran qalır. Bu həyətin Mahmud əmigilsiz heç bir yaraşığı yox imiş. Sən demə, onlar bu bağın-bağçanın bəzəyi imişlər.

Darıxmağım lap dözülməz olanda, anamdan, atamdan və bütün sevdiklərimdən sonra mənim üçün xüsusi dəyəri olan mavi gözlü dənizin sahilinə gedirdim. Sahildə o baş-bu başa gəzirdim. Elə ki, dənizə çimməyə gəlmiş adamlar dağılışıb gedirdi, mən də sahildə oturub dənizlə söhbət edirdim. Dəniz mənim dediklərimə sakitcə qulaq asırdı, ləpələr də yırğalana-yırğalana gəlir, ətəyimi isladıb geri dönməklə mənimlə həmfikir olduqlarını bildirirdilər. Beləcə, mən və dəniz yorulmadan uzun-uzadı söhbət edirdik. Dəniz bizi lap uşaqliğimizdan tanıyırdı. Uzun illər boyu, hər yay bu vaxtlar, bizi qucağında o qədər atıb-tutmuşdu ki...

Mən ona yadıma düşən xatirələri danışırdım...

***

... Hər gün dənizə çimməyə gedirdik. Belə hesab edirdik ki, əyər dənizdə çimmiriksə, deməli istirahət də eləmirik. Vaxt olurdu ki, bir gündə iki dəfə dənizə gedirdik. Bir səhər günortaya qədər, bir də axşamın sərinində. Axşam dənizin suyu əməlli-başlı ılıq olurdu. Günəş yorulub ağır-ağır günbatana əyiləndə ətrafda bir dəniz olurdu, bir qumlu sahil, bir də biz...

Rəşad suya girən kimi, ikimiz də qaçıb onun belinə dırmaşırdıq, o yazıq da ikimizə gücü çatmadığından, bizi batıracağından qorxaraq, tez-tələsik qolumuzdan tutub, bizi də sürüyə-sürüyə sahilə çıxırdı. Bizə acıqlanırdı, bir də belə hərəkət eləməməyi tapşırırdı. Elə ki, yazıq uşaq dənizə çimməyə qayıdırdı, biz yenə qaçıb onun belinə tullanırdıq. Rəşad hirsindən göyərirdi, biz də gülməkdən...

Hər bağ mövsümünün arası bir il olduğuna görə, hər bağa gəlişimizdə yaşımızın üstünə bir yaş gəlirdi. Yaşımız artdıqca, yaşımıza uyğun marağımız da artırdı, hər şeyə diqqət yetirirdik. Rast gəldiyimiz qəribə nə olurdusa, o saat yaddaşımıza həkk olurdu. İl boyu məktəbdə beynimizə yüklənən standart informasiyaların yeknəsəkliyindən yorulduğumuz üçün, gözümüz hər yerdə bir yenilik, bir qəribəlik axtarırdı. O il sahildə ilk dəfə gördüyümüz o oğlan da öz qəribəliyi ilə yadımda qalmışdı.

... O çox qəribə oğlan idi. Deyəsən qəsəbədə yaşayırdı. Bizdən yaşda böyük olardı. Uzun yaraşıqlı oğlan idi. Bədəni günəşdən yanıb şokolad rəngi almışdı, elə bil tunc heykəl idi. Özü də o vaxt bizim çox sevdiyimiz, və təkrar-təkrar baxdığımız hind filmlərindəki oğlanlara bənzəyirdi. Bəlkə də üzgüçü idi, həm çiyinləri üzgüçü çiyni kimi asılqana bənzəyirdi, həm də çox yaxşı üzürdü. Biz ona şərti "balıqçı" adı vermişdik, ona görə ki, bu oğlan yaxşı üzməyi ilə bərabər, həm də üzə-üzə əli ilə balıq da tuturdu. Qəribəliyi də onda idi ki, tutduğu balıqları gətirib iki-iki, qumun üstündə uzanıb dincələn adamların yanına qoyurdu. Elə bil hamıya pay verirdi. Bir gün yenə oğlan tutduğu balıqlardan hamıya pay verirdi. Biz Səməngüllə böyük hamam dəsmalının

üstündə uzanıb günəş vannası qəbul edirdik. Rəşad isə evə qarpız gətirməyə getmişdi. Bağ evimiz lap dənizin yanında idi. Ona görə də qarpızı ancaq yemək istəyəndə gətirirdik, yoxsa qarpız qızmar günəşin altında qızıb, bişmiş balqabaq dadı verirdi. Rəşad qayıdan baş uzaqdan həmin oğlanın bizim yanımıza yaxınlaşıb aşağı əyildiyini görür, ağlına nə isə xoşagəlməz fikirlər gəlir. O özünü bizə çatdırıb qarpızı yerə qoyana kimi, oğlan Amfibiya adam kimi üzüb getdi. Rəşad hirsindən boğula-boğula:

--Yaxşı, əlbət sahilə çıxarsan, gör sənə neyləyərəm,--deyəndə, ikimiz də uzandığımız yerdən qalxıb oturduq. Mən Rəşaddan kimi hədələdiyini soruşdum:

--Rəşad, kimi asıb-kəsirsən?

--Odey, o idmançıdır, balıqçıdır, nədir, onu... bir dəqiqəliyə sizi tək qoydum, gələndə görürəm yanınızda dayanıb, bu azmış kimi, hələ əyilib üzünüzə də baxırdı, şərəfsiz!

Elə bu an əlim yanımda yaş bir şeyə dəydi, dönüb gördüm balıqdır. Rəşadı sakitləşdirdim:

--Hə... . Ay Rəşad, yaziq bizim üçün balıq qoyurmuş ey, budur bax...

Mən balıqları Rəşada göstərdim, amma o yenə də sakitləşmirdi. Bizdən bir az aralı iki yaşlı qadın oturmuşdu, onlar söhbəti eşidirlərmiş. Biri Rəşada müraciətlə dedi:

--Ay oğul, yəqin bilmirsiniz, bu oğlan hamıya balıq paylayır ey, bax gör, hamının yanında balıq var, olmayana da indi tutub gətirəcək. Ürəyinə pis şey gətirmə, bir gün biz də soruşduq ki, bu nə deməkdir, dedi ki, bu onun hobbisidir. Çox yaxşı üzür, dərinə gedir, ordan da yalın əli ilə balıq tutub gətirir. Burda hamı artıq buna alışıb.

Rəşad qulaq asa-asa dənizə, oğlanın suya girdiyi səmtə baxirdi. Sonra dönüb həmin qadından soruşdu:

--Kimdir, nəçidir, bilmirsiniz?

Qadın bir az fikirləşib cavab verdi:

--Buzovnadan deyil, bir xeyli söhbət eləmişik onunla, kiməsə qonaq gəlib. Özü də sualtı ekspedisiyada işləyir, bir növ dənizin dibini öyrənirlər.

Rəşad, boş yerə əsib-coşduğunu anlasa da, tərsliyini yerə qoymayıb:

--İşimiz var də... --dedi və balıqları həmin qadının yanına qoydu. Qadın onun bu hərəkətinə güldü...

Mən xatirələrimin izinə düşüb hər yeri gəzib dolaşdım, ancaq həsrətim artdı ki, azalmadı. Belə qərara gəldim ki, Rəşadla məktublaşmağa başlayım. Birinci məktubu mən yazım, sonra o cavab yazsın, beləcə səncirvari məktublaşaq. Onsuz da Rəşad həmişə məktublarımın yığcam olmasından şikayət edirdi. Mən Rəşada uzun bir məktub yazdım, bağda olduğumuzu, bəzi məzəli xatirələrimizi yazdım.

Bir neçə gündən sonra poçtalyon darvazanın qapısından boylanıb məni çağırdı, mənə məktub olduğunu söylədi. Məktubu əlimə alana kimi fikirləşdim ki, Rəşaddan nə tez məktub gəldi?Məktubu əlimə aldım, məktub Rəşaddan deyildi, Lalədən idi. Ürəyimdən bir pis fikir ötüb keçdi. "Xeyir ola, Lalə mənə niyə məktub yazsın?İndiyə kimi heç vaxt bir-birimizə məktub yazmamışdıq. Görəsən nə baş verib?" Məktubu cibimə qoyub öz otağıma keçdim, bütün bədənim həyəcandan əsirdi. Bir təhər zərfi açıb məktubu oxumağa başladım. Lalə yazırdı:

"Həyat, hər vaxtın xeyir! Bilirəm, sən orda darıxırsan, amma yaxşı ki, ordasan, yoxsa burda olub Səməngülün necə bir vəziyyətə düşdüyünü görərdin. O aradüzəldən Almaz ki var, bir gün Səməngülün anasından icazə alıb ki, guya gəzməyə gedirlər, əslində Səməngülü aparıb Firuzgilə. Onları orda tək qoyub, guya vacib işi varmış, gedib evə, sonra da, Allah bilir, bəlkə elə özü zəng vurub Firuzun anasına xəbər verib, onu dəqiq bilmirəm, özün də yaxşı bilirsən ki, ondan nə desən, gözləmək olar. Firuzun anası harda imişsə, gəlib çıxıb. Nə görsə yaxşıdır? Firuz evdə bir qızla tək... nə görüb, nə görməyib, Səməngülü ən pis söyüşlərlə doqquz mərtəbə üzü aşağı qovub. Səməngül bu biabırçılıqdan lap başını itirmişdi, yaxşı ki, ağlına gəlib ki, bizə gəlsin. Mən onu bir neçə saat yanımda saxladım, sakitləşdirdim. Bir az, əlbəttə, nə qədər haqqım çatırsa, öyüd-nəsihət verdim. Nə isə, sakitləşdirib yola saldım. Bir həftə ondan xəbərim olmadı. Axır çarəsiz qalıb

onlara getdim. Həyat, gedib nə görsəm yaxşıdır?Səməngül, yanında da Almaz... Səməngülə anası eşitməsin deyə, yavaşca deyirəm, ay qız, bu olanlar sənə dərs olmadı, bu yenə niyə burdadır?Deyir o Firuzdan mənə məktub gətirib. Deyirəm, nəyinə lazımdır Firuzun məktubu?Firuz Firuz olsaydı, anası o biabırçılığı edərdi?Mənə nə desə yaxşıdır?Deyir, Firuz yazıb ki, mən anama hər şeyi başa salmışam, demişəm ki, məktəbi bitirən kimi sənlə evlənəcəyəm, anam da deyib ki, yaxşı, onda qızla görüşməyə davam elə. Həyat, belə şeyə inana bilirsən?Mənim az qalır ağ yalandan ürəyim partlasın, Səməngül elə bil kardır, kordur, heç nə eşitmək istəmir, elə deyir ki, mən onu sevirəm, mən ona inanıram.

Həyat, bir istəyirəm Sona xalaya hər şeyi danışım, bu qızın başına bir iş gəlsə, bizi qınayan, günahkar hesab eləyən çox olacaq haaa... . Di gəl ki, bilirsən necə and verdirir?Dönə-dönə tapşırır ki, anam-atam bilməsin, vaxtı çatanda özüm deyəcəyəm. Almaz əvvəlki kimi onlara gəlib gedir, indi də deyəsən məktub daşıyır. Sona xalaya da Allah kömək olsun, elə bil ki, fil qulağında yatıb, ayılmır ki, ayılmır! Bir Almaz deyir, biri də ağzından tökülür. Vallah, qalmışam belə, nə eləyim, bilmirəm. Həyat, mənə cavab yaza bilsəydin, yaxşı olardı, bu qız indi də mənə dərd olub, özümə yer tapa bilmirəm. Səbirsizliklə cavabını gözləyəcəyəm, öpürəm, Lalə. "

Lalənin məktubu məni şox mütəəssir elədi. Neçə gün məktubu təkrar-təkrar oxudum, hər dəfə də eyni cür əsəbimdən az qalırdı boğulum, amma Səməngülün məktəbin yanında Almaza da, Firuza da şillə çəkdiyim o gün mənə dedikləri, yaxud, evlərindəki son söhbətimizdə mənə dediyi sözlər, mənə o haqqı vermirdi ki, mən indi gedib hər şeyi onun anasına deyim. Mən heç bilmirdim ki, Səməngül valideyinlərinə nə dedi, necə yola gətirdi ki, onlar bağa gələsi olmadılar. Mən ona söz vermişdim ki, bu sirr məndən çıxmayacaq, belə də olmalı idi. Laləyə elə belə də yazdım:

"Lalə, yazdıqlarını oxudum, çox pis oldum. İndi sənə nə deyəcəyimi bilmirəm. Mən Səməngülü bu yoldan döndərmək üçün çox çalışdım, amma faydası olmadı. Səməngül məni öz həyatından kənarlaşdırdı. Mənə anlatdı ki, heç nəyə qarışmayım,

hər şeyə o özü cavabdehdir, özü də cavab verəcək. Kim onu bu sevgidən uzaqlaşdırmaq istəsə, onu özünə düşmən biləcək, mən Səməngülə düşmən olmaq istəmirəm. Lalə, öz yerinə özün qərar ver, mən sənə nə deyim?Səməngül, əslində səni də, məni də, öz eşqi uğrunda Almaz kimi bir ilana dəyişdi, bizim kimi dostlar olan yerdə Almazı seçdi. Mən Səməngül üçün həmişə narahat olacağam. Amma indi əlimdən bir şey gəlməz. Tətil sona çatsın, birlikdə fikirləşərik, görək neyləmək olar?Hələlik bu qədər. Sağ ol, Həyat. "

Bundan sonrakı tətil müddətini, fikirdən dəli olmamaq üçün, kəndin kitabxanasına üzv oldum və o vaxtdan ancaq kitab oxumaqla məşğul oldum. Çox maraqlı, çox gözəl romanlar oxudum. İlyas Əfəndiyevin "Söyüdlü arx", "Körpüsalanlar", "Sən həmişə mənimləsən", Mayn Ridin "Başsız atlı", Konan Doylın "Şerlik Holms", Məmməd Səid Ordubadinin "Zəngəzur" romanlarını və bir çox başqa romanları oxuduqca, bu romanların baş qəhrəmanlarına qoşulub getdim, onlarla bir yerdə bütün baş verən hadisələrdən keçdim. Romandakı hadisələr sona çatanda, yay təitli də cona çatdı, biz də yığışıb şəhərə qayıtdıq... .

16. Şəhərdə istilər hələ də davam edirdi.

Bürküdən az qalırdı adamın nəfəsi kəsilsin. Maşın məhləmizə girəndə hər kəsdən əvvəl qarşımıza Sona xala çıxdı. Öpüşüb-görüşdük, Sona xala evimizin açarını da gətirdi, əşyalarımızı da içəri daşımağa kömək elədi. Mənim gözüm qapıda idi, deyirdim indi Səməngül səsimizi eşidib gələr. Anam oturub Sona xala ilə hal-əhval tutana kimi, mən əsas şeyləri yerbəyer elədim. Bayaqdan gözləyirdim ki, Sona xala Səməngüldən nəsə deyər, o heç nə demədiyinə görə mən soruşdum:

--Sona xala, Səməngül evdə deyil?

O elə bil diksindi. Ürəyimdə fikirləşdiyimdən, görünür sualı çox ucadan verdim. Sona xala gülümsədi, sonra dedi:

--Evdədir, qızım, harda olacaq?Gəldiyinizi bilmir axı... İndi gedib deyərəm, gələr.

Mən onun qolundan tutub qalxmağa qoymadım:

--Yox, yox, sən otur, mən özüm gedərəm, sürpriz olar,--dedim.

Sona xala anamla söhbətinə davam elədi, mən də onlara getdim. Səməngül divanda nazik örtüyə bürünüb yatmışdı. İki aylıq fasilədən sonra Səməngül gözümə çox dəyişik gəlirdi. Yadıma gəlir ki, uşaq vaxtı mən on günlüyünə rayonda dayımgildə qalmışdım. Evə gələndə anam gözümə dəyişik gəldi, o qədər ağladım ki... Elə bilirdim, anamı dəyişdiriblər, əvvəlki anamı geri istəyirdim. İndi Səməngülü də dəyişik görüb, əvvəlki Səməngül üçün darıxdım. O sanki üzünə dikilmiş baxışları hiss eləyib gözlərini açdı, bir xeyli yuxu görürmüş kimi baxdı, sonra birdən dikəldi:

--Hii... Həyat, sənsən?Ay Allah, elə bildim yuxu görürəm, bəs niyə səsini çıxartmırsan?Çoxdan gəlmisən?

Mən yaxınlaşıb onu qucaqladım, üz-gözündən öpüb yanında oturdum. Lap yaxından ona baxdım, doğurdan çox dəyişmişdi, elə bil sınıxmışdı. Lalənin yazdıqları yadıma düşdü, fikirləşdim ki, yəqin ürəyində dərd çəkir. Onun sual dolu baxışlarını görüb fikirdən ayıldım:

--Yenicə gəlmişik, heç şeyləri də yerbəyer eləməmişik, dedim, gəlim səninlə görüşüm. Necəsən, Səməngül?

--Necə olacağam, yaxşı. Sən necəsən, necə dincəldin?Bağımız, həyət-baca, dəniz, gözəl idimi?

--Çox gözəl idi, amma mən darıxırdım.

--Hə... tək olduğun üçün... danış da, danış, necə istirahət elədin?

Mən ondan məlumat almaq istədiyim halda, Səməngül mənə əhəmiyyətsiz suallar verirdi. Fikirləşdim ki, söhbəti ələ alıb özüm istədiyim tərəfə yönəltməsəm, belə mənasız sualların sonu gəlməyəcək. Odur ki, dedim:

--Nə danışım, Səməngül? Bağ elə bağdır, orda nə ola bilər ki, nə də danışım? Yaxşısı budur, sən danış görüm, şəhərdə qalmağına dəydimi?Firuzla münasibətin necədir? Görüşə bilirsinizmi?

Səməngülün rəngi qaçdı, elə bil çox xoşagəlməz bir şey yadına düşdü. Gözlərini gözümdən qaçırdıb dedi:

--Hər şey yaxşıdır,--və susdu.

Gözlərini gizlətməyindən yenə nəyisə mənə bildirmək istəmirdi. Daha demirdi ki, mən hər şeyi bilirəm. Əvvəllərdə

olduğu kimi bülbül kimi ötmürdü, hətta danışmaq istəmirdi. Deməli hər şey pisdir. Mən ona diqqətlə baxırdım, Səməngülün şuxluğundan, gözəlliyindən, təravətindən nəsə əskilmişdi. O elə bil... necə deyim... . bu yerdə nə "böyümüşdü" sözü uyğun gəlir, nə də "qocalmışdı" sözü. "Böyümüşdü" desəm, bu yaxşı anlama gəlir, "qocalmışdı" desəm, düz gəlmir, on altı yaşında da insan qocalar?Amma hər halda, onun bu dəyişikliyi yaxşılığa deyildi.

--Gözümə bir təhər dəyirsən, xəstə-zad deyilsən ki?--deyə son cəhdimi elədim.

--Yoox... xəstə deyiləm, yəqin yatmışdım, ona görə sənə elə gəlir,--dedi.

--Uşaqlardan heç kimi görüb eləmirsən?

--Tez-tez Almaz gəlir, bir-iki dəfə də Laləni görmüşəm, vəssalam!--dedi.

Ürəyimdə fikirləşdim:"O heç də... Almaz əlbəttə gələcək, səni axıra qədər məhv eləməmiş hara əl çəkir?" Bunu ona deməyin heç bir mənası olmayacaqdı deyə, ona heç nə demədim.

--Bəs Mahmud əmi hardadır?

--Atam dənizdədir, iki gündür gedib, sizi çox görmək istəyirdi, di gəl ki, getmək vaxtı idi. --dedi.

--Eybi yoxdur, gələr, görüşərik,--deyə cavab verdim.

Mən bir az da oturdum, biz ordan-burdan, havadan-sudan söhbət elədik. Sonra mən qalxıb evə gəldim. Ürəyimdə bir boşluqla bir ağırlıq bir-birini əvəz edirdi...

***

Yenə də dərs ilinin başlanmasına bir neçə gün qalmışdı, amma əvvəllər bizi hərəkətə gətirən həvəs elə bil harasa yoxa çıxmışdı. Səməngülün əhvalı məni də elə bil iflic eləmişdi, heç bir hazırlıq eləmək istəmirdim. Ancaq bir şey vardı ki, istəsəm də, istəməsəm də, məktəb üçün geyim tapmalı idim, çünki keçən ilki paltarım əynimə gəlmədi. Nə isə bir şey eləməli idim, tikdirməyə vaxt yox idi. O vaxtki mağazalarda isə geniş kütlənin tələbatına ünvanlanmış "Şirpotreb" adlanan keyfiyyətsiz mallardan başqa bir şey yox

idi. Yaxşı nə vardısa, əldə, alverçidə olurdu. Birdən Tufan xala yadıma düşdü. Yubanmadan onun yanına getdim, bu vaxtlar onda mütləq məktəb formasına uyğun nəsə olmalı idi. O bu vaxtlar məhz məktəbli forması satmaqla məşğul olurdu. Tufan xala məni görüb sevindi:

--Necəsən, Həyat, nə vaxtdır görünmürsən?

--Sağ ol Tufan xala, yaxşıyam, sən necəsən, nə var, nə yox?--deyə soruşdum.

Tufan xala məni divanda əyləşdirib o biri otağa keçdi, ordan nəyisə sürüyə-sürüyə cavab verdi:

--Sağ ol qızım, yaxşıyam. Gör sizin üçün necə paltarlar gətirmişəm?Yaxşı yadıma düşdü, siz niyə ayrı-ayrı gəlirsiniz, küsülüsünüz?

--Kimi deyirsən, Tufan xala?

--Kimi deyəcəyəm, Səməngülü, səni... Həmişə ikiniz bir gələrdiniz, indi ayrı-ayrı gəlirsiniz, bir şey olmayıb ki?

--Məyər Səməngül bura gəlmişdi?Nə vaxt?

--Elə bir az var, ancaq o tək deyildi, yanında bir qız da var idi, gödək, kök bir qız.

Mən başa düşdüm ki, Almazı deyir. Deməli Səməngül də paltar almağa gəlibmiş, özü də məsləhətçisi ilə.

--Tufan xala, onlar bir şey aldılar?

--Səməngül aldı, o qız dedi ki, o artıq paltar tikdirib özünə.

--Yaxşı, Səməngül nə aldı?Sən bir şey gətirmisən?

Tyfan xala danışa-danışa çemodanları açdı:

--Bax qızım, gəl bax, hansını bəyənsən, seç götür.

Mən hazır paltarlara bir-bir baxırdım, doğurdan da çox gözəl geyimlər idi. Yubkalı, sarafanlı, cürbəcür ağ koftalı dəstlər idi. Həmin o il sportiv geyimlər dəbdə idi, odur ki, yubkalar da, sarafanlar da, həm cins parçadan idi, həm də müdafiə rəngli xaki parçadan. Mən öz ölçümə uyğun gələn geyimləri geyib baxırdım, hamısı mənə çox yaraşırdı. Xaki parçanı elə o saat kənara qoydum. Heç bilmirəm hardan, Firuzun o vaxt dediyi "konvoy" sözü yadıma düşdü. O biri dəstlərdən birini seçmək üçün Səməngülün nə seçdiyini bilmək istədim:

--Tufan xala, Səməngül bunların hansından götürdü?Ona görə soruşuram ki, biz artıq uşaq deyilik, indi daha eyni cür geyinmək xoşumuza gəlmir. Nə dediyimi başa düşürsən, Tufan xala?

--Lap yaxşı başa düşürəm, niyə başa düşmürəm?Gəl sənlə belə danışaq, sən bəyəndiyini seç, görüm sizin zövqünüz əvvəlki kimi eynidirmi?Sonra mən sənə deyərəm, o nə seçdi, yaxşı?--deyə Tufan xala öz sözünə özü də güldü.

Mən çoxlu qayışı-qaytanı olan çox gözəl dəbdə tikilmiş yubka ilə yaxası, qollarının ağzı gipürlü-valanlı koftanı seçdim. Tufan xala əllərini bir-birinə vurub:

--Ay Allah, belə də təsadüf olar?Ay bala, siz gərək ekiz doğulaydınız, vallah!!! O da bunları ceçdi, bu yubkanın və bu koftanın eynisini götürüb getdi.

Bir müddət biz bir-birimizə baxdıq. Sonra Tufan xala ciddiləşdi:

--Burda başqa bəyəndiyin yoxdur ki?

--Tufan xala, bunlar hamısı gözəldir, ancaq mən xaki parçanı heç sevmirəm,--dedim.

Tufan xala heç nə demədən yan otağa keçdi. Bir azdan əlində bir bağlama gətirdi.

--Bax Həyat, bunu payızda satacaqdım, çünki indi kostyum vaxtı deyil, ancaq sən bunu bəyənsən, indi yubkasını ağ kofta ilə geyərsən, bir azdan payız girəndə də pencəyini də geyərsən. Bax gör xoşuna gəlir?Çox gözəl kostyumdur haaa... .

Biz birlikdə bağlamanı açdıq, doğurdan da bağlamadan çox bahalı parçadan ciddi stildə tikilmiş gözəl bir qara kostyum çıxdı. Ona yaraşan bir kofta da seçdim, geyindim. Tufan xala demişkən, elə bil mənim əynimə tikilmişdi. Bu tapıntıya çox sevindim,Tufan xalanı qucaqlayıb öpdüm. Tufan xala seçdiyim paltarları yenidən büküb qucağıma verdi:

--Götür qızım, sağlıqla geyin, mən özüm sonra ananla hesablaşaram. --dedi.

Yəqin ki, hələ də uşaq idim, çünki, mənə çox yaraşan bu paltarı tapdığıma elə sevinmişdim ki, uzun zaman keçirdiyim bu qədər gərginlikdən sonra ilk dəfə daş kimi yatdım.

***

Yeni dərs ili illərlə təkrarlanan bir ssenarı üzrə növbəti açılışını elədi. Forması dəyişsə də məzmunu dəyişməyən yüksək pafosla deyilmiş sözlər, saysız-hesabsız gül-çiçək, öz təzə geyimlərində mövsüm çiçəklərini xatırladan, üzündən nur tökülən mələk simalı məktəblilər... . Hər il eyni cür başlayıb eyni cür bitən bu mərasim bizi nəinki bezdirmirdi, əksinə, hər dəfə bir başqa təsir bağışlayır, ilbəil elə bil daha qiymətli, daha mənalı olurdu. Xüsusilə bu il bu açılış, bizim son açılışımız, bu il son ilimiz idi. Biz hər şeyə başqa gözlə baxırdıq. Gördüyümüz, yaşadığımız hər şeyə elə bil ayrılıq nəfəsi dəymişdi. Adımıza da 10a deyil, buraxılış sinfi deyildiyinə görə, hər dəfə bu sözü eşidəndə, xatırlayırdıq ki, biz yol üstəyik. Arzular coşqun, hisslər kövrək... Daxili aləmimiz bu qədər təzadlı olduğu halda, biz özümüzü daha ağır, daha təmkinli aparmağı bacarırdıq.

O səhər həmişəki kimi, dəstə-dəstə toplaşıb durmuşduq. Hamı uzun ayrılıqdan sonra bir-biri ilə görüşür, hal-əhval tuturdu. İki ay görüşmədiyimiz müddətdə hər kəs bir az da böyümüş, bir az da dəyişmişdi. Hər halda, yaşımızın uşaqlıq dövründən gənclik dövrünə keçidi öz işini görmüşdü. Məktəbə, əvvəllərdə olduğu kimi Səməngüllə ikimiz bir yerdə gəldik, buna özüm də təəccüb elədim. Bir yerdə gəlişimiz təsadüfi oldu, ikimiz də eyni vaxtda evdən çıxdıq və belə alındı ki, bir yerdə məktəbə gəldik. Yol boyu ordan, burdan bir-iki kəlmə danışdıq, amma ürəyimdən keçən "bəs Almaz nə əcəb gəlməyib?" sualını nədənsə, verə bilmədim. Biz məktəbə çatanda məlum oldu ki, Firuz da hələ gəlməyib. Səməngül çox nigaran idi. Heç nə soruşmasa da, heç nə deməsə də, nə ətrafda danışılanları eşidirdi, nə də gözünü yoldan çəkirdi. Səhər evdən çıxandan gözümə halsız görünürdü. Hətta aldığı o gözəl geyim də çöhrəsindəki solğunluğu, əhvalındakı bikefliyi ort-basdır eləyə bilməmişdi.

Hər il olduğu kimi, yeni tədris ilinin ilk dərsini, hər sinfin sinif rəhbəri öz dərsi ilə başlayırdı. Zəng vuruldu, Hökümə müəllimə gəldi, salamlaşdı-görüşdü, hal-əhval tutdu. Hökümə

müəllimə hamımızdan bir-bir harada və necə dincəldiyimizi soruşurdu ki, Almaz qaranəfəs içəri girdi. O salam verib keçib arxada əvvəllər oturduğu partada oturdu, onun Səməngülün yanındakı yeri boş qaldı. Ürəyimdə bir həyəcan saat kimi işləməyə başladı. Səməngülün onsuz da saralmış çöhrəsi bir az da saraldı. Səmimi söhbət bitdi və Hökümə müəlləmə sinfimizdən getmiş və sinfimizə yeni gəlmiş şagirdlər barədə məlumat verməyə başladı. Sinfimizə gələn olmamışdı, amma sinfimizdən iki nəfər getmişdi:biri Nadir adlı oğlan, başqa məktəbə keçmişdi, biri də... Firuz??? Hamı bu xəbəri uzun bir "aaa!!!???"--nidası ilə qarşıladı. Hökümə müəllimə izahat verməli oldu:

--Nə oldu, ay uşaqlar? Burda görünməmiş nə var?Firuz təhsilini Amerikada davam etdirəcək, buna yalnız sevinmək lazımdır.

--Amerikada?--arxadan zəif bir səs gəldi, bu Səməngül idi.

--Qızım, məyər sən bilmirdin?Bu necə ola bilər?O sənə heç nə deməyib?--Hökümə müəllimə doğurdan da çox həyəcanlandı. Firuzla Səməngülün münasibətini, nəinki məktəbdə, artıq bütün ətrafda bilməyən yox idi. Səməngül o qədər özünü itirmişdi ki, hamının içində elə bir söz dedi ki, əslində bu sözü bu qədər adamın içində deməməliydi:

--Mənə demişdi ki, Moskvaya dayısıgilə qonaq gedir, dedi məktəb açılana qayıdıb gələcək. Siz dəqiq bilirsiniz ki, o Amerikaya gedib, özü də oxumağa? --Səməngül yazıq bir görkəmlə Hökümə müəlliməyə baxırdı, elə bil Hökümə müəllimənin verəcəyi cavabdan onun həyatı asılı idi.

--Səməngül qızım, Firuzun dayısı elə Amerikada yaşayır. Bu yay Firuzun atası onun bütün sənədlərini direktordan alıb, yerinə Amerikadakı kollecdən dəvət məktubu qoyub, deyib ki, Firuz təhsilini Amerikada dayısıgildə davam etdirəcək. Niyə sənə düzünü deməyib, görəsən?

Görünürdü ki, qadın bir ana kimi Səməngülün halına acıyır. Səməngülün görünüşünə ürəyim elə ağrıdı ki, bilmədim bunun acığını kimdən çıxım. Birdən Almaz yadıma düşdü. Mən dönüb Almaza baxanda o gözlərini məndən gizlətdi. "Bilirmiş, hamısını bilirmiş!!!" Heç özüm də bilmirəm, nə vaxt özümü ona yetirdim,

ətrafdan məni çağıran səsləri, "Həyat, Həyat, dayan!" deyənləri eşitmədim, Almaza yetişib o vaxtki kimi yaxasından tutdum:

--Bilirdin?Sən hər şeyi bilirdin?Cavab ver, cavab ver!Sən bilirdin?--mən hirsimdən kükrəyirdim, Almazsa kətan kimi ağarmışdı.

--Mənə tapşırmışdı ki, deməyim, mən neyləyə bilərdim?

Mən vaxtı boş yerə itirməkdən qorxaraq, artıq üçüncü dəfə ona şillə çəkdim, elə şillə çəkdim ki, ağzının-burnunun qanı yeni ağ koftasının üstünə allı-güllü bəzək oldu. Yoldaşlarım məni tutmasaydı, bəlkə onu orda öldürərdim. Hökümə müəllimə məni çəkib apardı, sinifdən də çıxardıb çox yumşaq bir səslə öz kabinetinə göndərdi.

--Sakit ol, get kabinetdə məni gözlə, sənlə söhbətim var,--dedi.

Bir azdan Hökümə müəllimə gəldi. O bir xeyli üzümə baxdı, sonra aramla sözə başladı:

--Həyat, qızım, bu çılğınlığın sənin başına oyun açа bilər, bir az hisslərini cilovlamağı öyrən. Mənə de görüm, Səməngülü tərk edən Firuz olduğu halda, Almazın bura nə dəxli var?Onu niyə vurdun?

Mən hər şeyi əvvəldən axıra kimi Hökümə müəlliməyə danışdım. Bu əhvalatda Almazın rolunu xüsusi qeyd elədim. Mənim fikrimcə, Səməngül heç vaxt özünü belə qiymətsiz eləməzdi, arada Almaz kimi bir aradüzəldən-cadugər olmasaydı. O, Səməngülü başdan da çıxartdı, yoldan da. Səməngülün yarası nə qədər dərin idi, mən bilmirdim, ancaq onu bilirdim ki, bu ayrılıq, xüsusən də bu yalan, onun həm insanlara, ən əsas da bu həyata inamını sarsıdacaq. Mən Səməngülü çox yaxşı tanıyırdım, o belə bir xəyanəti tezliklə unuda bilməzdi. Biz Hökümə müəllimə ilə bir xeyli söhbət elədik, sonda o mənə tapşırdı ki, Səməngülü yalqız qoymayım, bu sarsıntı keçənə kimi onun yanında olum, ona bu günlər bir növ həyan olum. Mən sinfə qayıdanda qızlar Səməngülə sakitləşdirici dərman içirdirdilər. Sən demə, bayaq o bayılıbmış. Almaz yox idi, dedilər evə gedib, anasını gətirməyə. Mən yenidən Hökümə müəllimənin yanına qayıdıb onu xəbərdar elədim, o dedi ki, narahat olmayım, özü hər şeyi yoluna qoyacaq. Mən ondan ehtiyat edirdim ki, yaranan hay-

küy Səməngülü bir az da dilə-dişə salar. Çox çəkmədi ki, Almazla anası gəldilər. Hökümə müəllimə onları məktəbin girəcəyində gözləyirmiş. Elə Almazın anası yenicə eyni ilə qızı kimi şüvən salmaq istəyirdi ki, Hökümə müəllimə onun qolundan tutub nəzakətlə öz kabinetinə apardı. Onlar orda bir xeyli qaldılar. Nə danışdılar, nə danışmadılar, bilmədim, amma çıxıb evə gedəndə, Almazın anası məni gördü:

--Mən sənlə hələ varam, dayan!!!--dedi. Onlar arxalarınca gələn Hökümə müəlliməni görüb tez məktəbdən çıxıb getdilər. O gün mən ilk dəfə dərsdə zorla oturdum. Danışılanları eşitmədim, olanları görmədim. Elə bil məni aldatmışdılar, elə bil məni atıb getmişdilər. Səhər məni qorxudan həyəcan, sonra bir hikkəyə, bir qəzəbə dönmüşdü. İndi nə həyəcan vardı, nə də qəzəb, indi bir acı göynərti daş olub sinəmdən asılmışdı. Mən Səməngül tərəfə baxa da bilmirdim. Bilmirdim ona yaxınlaşsam, bunu həmişə ona dediklərimin bir təntənəsi kimi qəbul etməz ki?Lalə onun yanında oturmuşdu, ona yavaş-yavaş nəsə deyirdi, yəqin ki, təskinlik verirdi. Bəs mən necə hərəkət eləməli idim, bilmirdim.

Nəhayət ki, dərslər bitdi. Qızlar, başda Lalə, Mirvari olmaqla, hamımız, Səməngülü araya alıb məktəbimizdən aşağıdakı xiyabana apardıq. Orada skamyalarda oturub Səməngülə öz ürək sözlərimizi deməli, ona dəstək olmalı idik. Ən birinci Pərvin danışdı:

--Səməngül, Feruz çox bimürvət adam idi. Mən vəxta ki, onu özümnən izal elədim, gərəkdi ki, sən də irax tutaydun. Xub, indiki belə oldi, neynax, sən hələ cavansan, bu qəmxarəlik nəmənədi?Qəm eləmə, əlbət yaxçi günlər qabaxdadı.

Ceyran Səməngülün yanında oturdu:

--Səməngül, hamımız ürəyimizdə elə bil bilirdik ki, bu belə olacaq, ancaq kim dəqiq bilərdi ki... Sən özünü üzmə, Pərvin düz deyir, unut onu, getsin. Hər şey yaxşı olacaq, bax görərsən.

Bu minvalla Lalə də, Nigar da, Mirvari də, və daha bir neçə qız, hərə bir söz dedi, Səməngülə dəstək oldu. Təkcə mən danışmağa söz tapmadım. Evlərimizə dağılışanda Lalə dedi:

--Səməngül, özünü ələ al, əvvəllər olduğu kimi Həyatla get, Həyatla gəl. Onun kimi rəfiqənin qədrini bil. Əl-ələ verib

dərslərinizi oxuyun. Sənin bir-iki zəif qiymətin var, onları düzəldin, unutma ki, axırıncı ilimizdir. Fikrini tamamən dərslərə ver. Qalanı düzələr.

Qızlar ayrılıb getdilər, biz də evimizin yolunu tutduq. İkimiz də bir kəlmə danışmadan, dayanacaqdan ötüb yolu ayaqla getməyə başladıq. Yol üstündəki skamyalara çatanda, Səməngül birdən gedib skamyalardan birində oturdu və hönkür-hönkür ağlamağa başladı. Mən keçib yanında oturdum. Heç nə demədim, çünki sözə ehtuyac yox idi. Bir müddət beləcə oturduq. Səməngül hıçqırıqdan boğula-boğula ağlayırdı, mənsə gözümü qarşıda məchul bir nöqtəyə dikib fikirləşirdim. Nə fikirləşirdim, heç özüm də bilmirdim. Səməngül haçandan haçana sakitləşdi, bir xeyli sakit oturdu, sonra dedi:

--Həyat, sən indiyə kimi mənə ən yaxın rəfiqə kimi nə deməli idinsə, dedin, mən səni dinləmədim, olanlar oldu... . Səndən xahişim odur ki, birincisi, mənə daha heç nə demə, çünki mənası yoxdur, ikincisi, anamgilə heç nə demə, yaxşı?Mən Firuzun belə iş tutduğuna inana bilmirəm, uzun müddət də inana bilməyəcəyəm. Sən məni qınamaq istəsən, ürəyində qına. Əyər bir gün bu gün eşitdiklərimin həqiqət olduğuna inansam, sonra nə olacaq, mən bilmirəm. Sən istəyirsən, məndən üz döndər, uzaq gəz, bu sənin haqqındır, bildin?Bildin, Həyat, bildin?

O yenə ağlamağa başladı. Mən onsuz da onun dediyi bu dolaşıq sözlərdən heç nə başa düşə bilmirdim. İlk dəfə idi ki, mən onun nə demək istədiyini başa düşə bilmədim. Odur ki, onun əlindən tutub dedim:

--Səməngül, gedək evə.

Dedim və qalxdım. O altdan yuxari baxdı, baxdı, sonra qalxıb mənimlə getdi. Yolu dinib-danışmadan getdik, evə çatanda mən dedim:

--Deyərsən ki, üstü açıq yatıb xəstələnmisən, çatan kimi gir yerinə, yat.

--Yaxşı,--dedi Səməngül.

Evə çatanda üzünü mənə tutdu:

--Həyat, hər şey üçün çox sağ ol!

17. İnsanın həyat yolları onu həmişə irəli aparmır.

Bu yollarda o qədər irəli-geri gedişlər olur ki, heç özün də bilmirsən ki, irəli gedişin çox oldu, yoxsa geri gedişin?O da doğrudur ki, insan ömrünün riyazi hesablamasını aparan "Qismət" deyilən sayqac ömrün illərini saya-saya gedir. Kimin qismətinə neçə il düşüb, onu yalnız qismət paylayan bilir. Atalar demişkən:,"Səksən, doxsan, bir gün yoxsan. " Yəni əlli il yaşayan da, yüz əlli il yaşayan da, bir gün bu dünya ilə haqq-hesabını kəsəcək. Odur ki, əsas məsələ "neçə" il yaşamaqdan getmir, "necə" il yaşamaqdan gedir. Əhəmiyyətli olan ömrün uzunu deyil, mənasıdır. Mən özümdən misal gətirib deyə bilərəm ki, insan, ona ayrılmış ömür payını elə etinasız xərcləyir ki, bir gün onun təhlilini edəndə, hesabını aparanda, mənasız yerə su kimi axıb getmiş illərə, o illərdə buraxdığı səhvlərə, elədiyi yalnışlara görə özünü çox tənbeh edir, çox da peşimançılıq çəkir. Ömrün qədrini onda bilməyə başlayırsan ki, artıq çoxu gedib, azı qalıb. Onda da artıq çox gec olur. Ömrün qədrini ancaq çox-çox geridə buraxandan sonra bilməksə, gedən qatarın dalınca baxmaq kimi bir şeydir. O qatar getdi, sən onu, nəinki qaytara bilməzsən, sən ona heç çata bilməzsən!!!

Bir də deyirlər ki, ömrün yolları enişli, yoxuşlu olur. Bu da doğrudur. Ömür yolunda asvalt yol yoxdur. Ən varlı adamlar da bu dərəli-təpəli yolla gedirlər, fərq ondadır ki, onlar öz imkanlarından istifadə etməklə dərədən daha tez çıxa bilirlər. Görəsən nədəndir ki, pis adamların enişi çökək, yoxuşu uca dağ olduğu halda, yaxşı adamların enişi dərin dərə, yoxuşu isə təpəcik olur? Bir ömür yaşadım, bunun cavabını tapa bilmədim ki, bilmədim...

Enişi dərin dərə olan insanlardan biri də mənim uşaqlıq dostum, ən yaxın rəfiqəm, bir ömür boyu özü yanımda olmayanda da xəyalı yanımda olan Səməngül oldu ki, onun başına gələnlər bütün gənc qızlara bir həyat məktəbi, bir ibrət dərsi ola bilər.

...Səməngül nəhayət başa düşdü ki, deyilənlər doğrudur, Firuz onu atıb gedib. O gündən o elə bil bütün dünyadan özünü təcrid

elədi, içinə qapandı. Gün-gündən əriyir, saralıb-solurdu. Günlərlə məktəbə gəlmirdi. Belə günlərdə müəllimlər məni onun yanına göndərirdilər. Tapşırırdılar ki, mən onu yola gətirim, dərsə gəlsin, normal həyatdan uzaqlaşmasın. Amma bütün bunların xeyri olmurdu. Səməngül mənə yalvarırdı ki, onu rahat buraxsınlar, məcbur ora-bura çəkməsinlər. Sona xala nə baş verdiyini heç cür anlaya bilmirdi. O, Səməngülü həkimə aparmaq istəsə də Səməngül yola gəlmirdi, həkimə getmirdi. Beləcə çəkişə-çəkişə, ara-sıra Səməngülü dərsə darta-darta, birinci rübü başa vurduq.

İkinci rub başladı. Noyabr ayı idi, havalar soyumağa başlamışdı. Hər il olduğu kimi, yenə də məktəbin istilik qurğularının təmirə ehtiyacı var idi. Ona görə də məktəb qızdırılmırdı. Hərdən bizə elə gəlirdi ki, bayır məktəbdən istidir. Hamı paltoda gəzirdi. Səməngül də dərsə gəlmişdi. O çox dəyişmişdi, xəstə görünüşü, paltoya bürünüb bir küncdə oturması daha heç kimi təəccübləndirmirdi. Səməngül heç kimlə danışmırdı. O ümumiyyətlə, danışmırdı. Mən, yaxud başqa qızlar, ona nəsə təklif edəndə, qətiyyətlə rədd edirdi. Belə olan halda adam bilmirdi, özünü onunla necə aparsın. Mən özlüyümdə belə fikirləşirdim ki, Firuzun hərəkəti onu depresiyaya salıb. Bəlkə də Səməngül müalicə olunsaydı, hər şey keçib gedərdi. Ancaq bu çür problemləri o vaxt yalnız ruhi xəstələri müalicə edən, xalq arasında "dəlixana " adlanan xəstəxanalarda "müalicə" edirdilər. Bunu da ağlı olan qəbul eləməzdi. Qalırdı gözləmək, vaxt keçdikcə, Səməngülü iflic halına salan o ağrı da azalardı, bəlkə hər şey yoluna düşərdi. Bu mənim məsum fikirlərim idi, çünki mən hələ məsələnin əslini bilmirdim.

Bir gün yenə dərsdə oturmuşduq. Qaratel müəllimə fizikadan yeni mövzunu izah edirdi. Birdən Səməngül ögüdü və qusub-batırdı. Mən tez onun yanına qaçdım, Lalə də gəldi, biz ona kömək eləyib sinifdən çıxartmaq istəyirdik ki, Səməngül bayılıb özündən getdi. Sinifə bir çaxnaşma düşdü. Hər kəs ona necəsə kömək eləmək istəyirdi. Kimsə Aida xanımı çağırdı. Aida xanım Səməngülün saralmış üzünü görən kimi, təcili yardım çağırmağa getdi. Mən paltomu büküb Səməngülün başının altına qoydum. Özüm də onun üzünü sığallaya-sığallaya çağırmağa başladım:

--Səməngül, Səməngül, məni eşidirsən?Səməngül, aç gözlərini, aç gözlərini.

Ondan bir səs-səmir çıxmırdı. Mirvari su gətirdi, yavaş-yavaş onun üzünü su ilə silməyə başladı. Qaratel müəllimə bir əli ilə Səməngülün əlini ovxalayırdı, bir əli ilə də gözünün yaşını silirdi. O çox ürəyi yuxa qadın idi. Beləcə, hər kəs bir yolla ona kömək eləmək istəsə də xeyri olmadı... Nəhayət, təcili yardım gəldi, Səməngülü xərəyə qoyub elə huşsuz halda xəstəxanaya apardılar. Hökümə müəllimə, mən, bir də Lalə bir taksi tutub Semaşko adına xəstəxanaya getdik. Orada çox gözləməli olduq. Bir azdan həkim çıxıb Hökümə müəlliməni içəri çağırdı. Lalə ilə mən nigaran-nigaran o baş bu başa gəzişirdik. Hər birimiz içimizi didən sualların cavabını axtarırdıq. Bu vaxt Hökümə müəllimə həkimin otağından çıxdı. Qarabuğdayı qadın olan Hökümə müəllimə dodaqlarına kimi ağarmışdı. Biz anladıq ki, xəbərlər yaxşı deyil. Daha dözə bilməyib nə baş verdiyini bilmək istədik:

--Müəllimə, axı nə olub, niyə bu hala düşmüsünüz? Nə olar, bizə də bir şey deyin, nigarançılıqdan bir təhər olduq ki... .

Hökümə müəllimə cavab əvəzinə çox ciddi dedi:

--Qızlar, tez bir taksi tutun, gedək Səməngülgilə, tez, tez!

Biz daha heç nə demədik, çıxıb taksi tutduq.

Hökümə müəllimə Səməngülgilə çatanda bizi qapıdan içəri buraxmadı. Biz qapıda qaldıq. O içəridə nə dedisə, birdən biz Sona xalanın qışqırtısını eşitdik. Bu bizi bir az da qorxutdu, görəsən Səməngülün xəstəliyi nə idi ki, Sona xala belə fəryad elədi?

Xeyli vaxtdan sonra, Hökümə müəllimə, ardınca da gözləri ağlamaqdan qan çanağına dönmüş Sona xala çıxdılar. Hökümə müəllimə bizə yenidən xəstəxanaya getməyə içazə vermədi. Mən Laləni avtobusa mindirib evə gəldim. Anam evdə idi, yemək bişirirdi. Məni necə gördüsə, əlindəki işini buraxıb yanıma gəldi:

--Həyat, bu nə rəng-rufdur? Qızım, yoxsa xəstələnmisən?

Mən gözümün yaşını zorla tuta-tuta hər şeyi olduğu kimi anama danışdım. Anam bu sözə bənd imiş kimi, əlindəki işləri buraxıb, tez geyinib evdən çıxdı, çıxarkən, xəstəxananı, palatanı

soruşdu. Mən bilirdim ki, anam Sona xalanı belə gündə tək qoymayacaq. Qalırdı bircə axşamı gözləmək. Xəbərlər ancaq o vaxt bilinəcəkdi. Mən belə fikirləşirdim.

Ancaq axşamı gözləməyə ehtiyac olmadı. Təxminən bir saatdan sonra Səməngül, Sona xala, bir də anam taksi ilə gəldilər.

Üçünün də üzündə bir kədər vardı. Mən Səməngülə yaxınlaşmaq istədim, anam ciddi bir tonla:

--Həyat, get evə, indi mən də gəlirəm,--dedi.

Bu məni bir az da təəccübləndirdi, yoxsa Səməngülün xəstəliyi pis olmaqla bərabər, həm də yoluxucudur?

***

O axşam anam özünü çox qəribə apardı. Elə hey mənə mənalı-mənalı baxdı, sanki nəsə soruşmaq istədi, ancaq soruşmadı. Axşam atam işdən gələndə də onu əvvəlki kimi şux zarafatlarla qarşılamadı. Mən bunun səbəbinin Səməngülün xəstəliyi olduğunu bilirdim, ancaq onu bilmirdim ki, anam niyə bu barədə heç nə danışmır, elə hey ah çəkir? Biz ikimiz dinib-danışmadan axşam naharı üçün süfrə açdıq. Yeməyə oturanda, fikirləşdim ki, fürsətdir, mən yenə soruşum, atam da maraqlansa, anam Səməngülün xəstəliyinin nə olduğunu, nəhayət deyər. Bilirdim ki, anam onsuz da bu gün olanları atama danışacaq. Atam qapıdan girəndən anamın halını hiss eləmişdi, odur ki, o məni qabaqladı:

--Nə olub, Yasəmən gəmilərin batıb?

Bu atamın sevdiyi söz idi. O həmişə bu sözü deyəndə mən fikirləşirdim ki, əcəb sözdür, guya dünyada gəmilərin batmasından savayı dərd yoxdur?Bu yerdə də yadıma düşdü ki, uşaqkən bu sözü eşidib atamdan soruşmuşdum:

--Ata, hansı gəmilər batıb, niyə batıb?

Atamın cavabı yadımda deyil, amma o yadımdadır ki, bir gün məktəbdən bizi bulvara gəzintiyə aparmışdılar. Mən oradakı limanda dayanan gəmiləri görüb gəlib atama demişdim:

--Ata, daha heç nəyin fikrini çəkmə, gəmilər batmayıb, hamısı yerindədir, mən bu gün özüm gördüm.

Mənim bu sözümə o qədər gülmüşdülər ki...

...Anam ya bilmirdi nədən başlasın, ya da... yoxsa, mənim yanımda demək istəmirdi?

--Ana, desənə, axı Səməngülə nə olub?--dedim.

Atam əlindəki qaşığı yerə qoydu:

--Səməngülə?Nə olub ki, Səməngülə? Yasəmən, eşitmirsən? Səməngülə nə olub?

Anam çox hüzünlü sifətlə başını qaldırmadan, yavaşca dedi:

--Bir az xəstələnib.

--Necə yəni bir az xəstələnib, xəstələnməyin də bir azı olur?--atam çox da hövsələli adam deyildi, anamın cavabı da onu qane eləməmişdi.

--Mən nə bilim, ay Süleyman, xəstəliyini hələ bilmirlər, hələ müayinə edəcəklər ki, görsünlər nədir.

Bu cavab deyəsən atama inandırıcı gəldi, o çox kədərli görkəm alıb dedi:

--Allah rəhm eləsin. Yazıq Mahmud, bircə balası olsun, o da belə. Gec deyilsə, bəlkə gedib bir baş çəkək uşağa.

Anam elə həyəcanlandı ki, elə bil atam onlara getsəydi, hər şey korlana bilərdi, tez dedi:

--Yox, olmaz, indi tez-tez ziyarət eləmək onu şübhəyə salar, bu da ki yaxşı deyil. . Gözləyək, görək axırı nə olur.

Atam daha israr eləmədi. O axşam Səməngülgilin evində yaşanan üzüntü bizim evi də bir ölü sükuta bürüdü.

Ertəsi gün mən dərsə yenidən tək getdim, Səməngülün xəstəliyi nə qədər sürəcəkdi, bilinmirdi. Məktəbdə hamı elə bil məni gözləyirdi. Sinif yoldaşlarım məni araya alıb, hərə bir sual verir, Səməngülü soruşurdular. Təkcə Almaz öz yerində oturub əlindəki almanı gəmirirdi. Mən özüm də dəqiq bir şey bilmədiyim üçün, cavab tapa bilmirdim. Axşam anam deyən sözləri onlara dedim:

--Hələ bilinmir, xəstəliyi nədir. Müayinə edəcəklər, görsünlər nə olub ona.

Bu vaxt Almaz arxadan rişxəndlə dedi:

--Müayinə edəcəklər? Ha-ha-ha... Nəyi müayinə edəcəklər? Hər şey məlum oldu daaa.... Burda deyiblər ey, suyun lal axanı,

insanın yerə baxanı. Gördünüz nə oyunlardan çıxdı?Mən də bunu bir ağıllı qız bilirdim, yoldaş olmaq istəyirdim. Yaziq anam, elə deyirdi ki, bu qızdan gözüm su içmir. Hamınız görürdünüz ki, necə asılmışdı yazıq Firuzun boynundan. Anası onu qapıdan qovurdu, bacadan girirdi. Axırı yazıq Firuz başını götürüb qaçdı dünyanın o başına.

Bütün sinif--hamımız onu dövrəyə aldıq.

--Sən nədən danışırsan, kimi deyirsən?--deyə soruşdum.

--Kimi deyəcəyəm, sinfimizin kraliçası Səməngülü!! Sən indi də ona vəkillik edərsən görüm, necə edəcəksən. Qorx ki, sənin özünü də onunla bir yerdə məktəbdən qovmasınlar.

--Nə çərənləyirsən?Kimi qovacaqlar?Niyə qovacaqlar?

--Kimi qovacaqlar? Səməngülü! Niyə qovacaqlar? Əxlaqsızlığa görə. Bu yaşında hər oyundan çıxdı, indi də hamilədir, özü də altı ayliq.

Bütün sinif bir nida çəkdi: --aaaa???!!!

Mən Almazın üstünə yeriyəndə yoldaşlarım məni tutdu. Almaz öz monoloqunu davam etdirməyə fürsət tapdı:

--Nədir, yenə məni vurmaq istəyirsən?Gücün elə mənə çatır?Mən hər şeyi öz ərizəmdə yazıb vermişəm. Sənin Səməngülə yardım eləməyindən, onun hər işini bildiyin halda, opt-basdır eləməyindən, Firuzu şantaj eləməyindən, hamısını yazmışam. Bacılığın kiminlə kefini sürübsə, xatasını Firuzun boynuna yıxmaq istəyirdi. Belə şeyləri sən yaxşı bilərsən, cikiniz də bir idi, bikiniz də.

İndi bu an mənə elə gəlirdi ki, pis yuxu görürəm. Mən hələ də Almazın dediklərinə inanmırdım:

--Sən nələr danışırsan? Nə yazmısan, hara yazmısan?

--Xəbərin yoxdur?Gələn altıncı gün pedoqoli şura olacaq. Orda hər şey açıqlanacaq. Səməngülü də məktəbdən qovurlar, yaxşı da eləyirlər. Hələ bəlkə səni də qovdular. Anam səndən şikayət ərizəsi yazıb.

Mən bu dərəcədə alçaqlığın, namərdliyin qarşısında ona görə Almaza heç nə eləmədim ki, onun indi dedikləri Almazın elə Almaz olduğunu sübut edən cəfəngiyyatdan başqa bir şey deyildi.

Məni sarsıdan, mənim beynimi saran, başqa heç nə barədə fikirləşməyə qoymayan, Səməngülün hamılə olması xəbəri idi. Bir anın içində Səməngülün yeni il gecəsi Firuzgildə qalması, sonra Lalənin mənə bağa yazdığı məktubdakı "Firuzun anası onları necə görübsə", ifadəsi, Almazın iki günün biri gəlib Səməngülü harasa aparması yadıma düşdü. Səməngülün başına gələnlərin hamısının içində Almaz var idi, onu o uçuruma Almaz sürükləmişdi. İndi bütün bəd əməlləri törədənlər Almazın deməyindən, ən "yaziq" adamlar imiş. İndi də həmin o "yazıqlar", başda Almaz olmaq şərtilə, birləşib Səməngülün məktəbdəm qovulmasına, el içində rüsvay olmasına, həyatının alt-üst olmasına hökm verirdilər. Bu haqsızlıqdan mənim ürəyim od tutub yanırdı. Beynimdəki qarmaqarışıq fikirlər məni elə yormuşdu ki, başıma gücüm çatmırdı. İrəlidə ola biləcəkləri bir anlığa təsəvvürümə gətirdim, bədənimdən soyuq bir üşütmə keçdi. O vaxtlar yaşadığımız cəmiyyət belə məsələlərdə günahkara qarşı çox sərt, çox amansız idi. İnsanlar, bəlkə də haqlı olaraq, belə səhvləri bağışlamırdılar. Hər kəs atdığı addımı yüz ölçüb bir biçsin, deyə başına bu cür iş gələnləri çox ciddi cəzalandırırdılar. O vaxtlar gənc qızın öz namusunu qorumaması, qeyri-qanuni uşaq dögması, ən böyük günahlardan biri sayılırdı. Hamı həmin insandan üz döndərirdi. Onun heç bir kolleltivdə yeri olmurdu. Hesab olunurdu ki, bu insanı ciddi cəzalandırmaq, o yaşda olan gənc qızlara ibrət dərsi vermək deməkdir. Belə bir ləkə ilə yaşamaqsa, dərin bir quyudan çıxmaq cəhdləri kimi bir şey idi ki, çox vaxt o quyudan çıxmaq mümkün olmurdu. Səməngülün bu günü nə qədər acınacaqlı idisə, sabahı məni daha çox qorxudurdu. Mən bir şeyi də başa düşdüm ki, məhəbbət hamıya xoşbəxtlik gətirmir, kimini Səadət sarayına, kimini də uçuruma aparır... .

Mən vaxtilə Səməngülə demişdim, bu Almazdan nə desən gözləmək olar. Mən ona demişdim ki, Firuz sevən adama bənzəmir, amma o məni eşitmədi.

Mən bu gün bütün dünyanı onun müdafiəsinə qaldırsaydım da, bunun köməyi olmayacaqdı. Çünki, ortada çox acı bir fakt var idi: Səməngül hamilə idi. Cəmiyyət bunu ona bağışlamayacaqdı... .

18. Pedaqoji şura Səməngülü məktəbdən çıxartdı.

Necə ki, müəllimlərin arasında, eləcə də şagirdlərin arasında fikirlər ikiyə bölündü. Kimi Səməngülə acıdı, kimi də onu qınadı. Düzünü deyim ki, qınayanlar daha çox oldu. Mən özüm hər iki fikri haqlı sayırdım. Bir tərəfdən, Səməngülün ağrı-acısı, bir bacı kimi mənim düz ürəyimin uçundən göynədə-göynədə keçirdi. O biri tərəfdən, Səməngül yaşadığı cəmiyyətə arxa çevirib, bu cəmiyyətin böyük günah saydığı bir işi tutmuş, özünü sevgidən çox ehtirasa bənzəyən bir hissin axarına buraxmışdı. Səməngül öz həyatını məhv eləməklə bərabər, başqalarına da pis bir nümunə göstərirdi. Həyatda sevib-sevilməkdən gözəl şey yoxdur. Ancaq bir şey var ki, bizim aid olduğumuz milli adət-ənənələrdə, sevgi saf, niyyət də düz olmalı, sonu da toy-düyünlə bitməlidir. Əks halda bu sevgi yox, heç bir qədir-diyməti olmayan yüngül əyləncədir. Onun da çox böyük həm fiziki, həm də mənəvi cəzası vardır.

Düzdür, bu gün cəmiyyətimiz o qədər dəyişib, o qədər yad təbliğatların təsirinə düşüb, o qədər öz kökündən uzaqlaşıb ki, bu gün bizim gəncliyimizdəki, insan əxlaqının təməlini təşkil edən dəyərlər çoxdandır öz qiymətini də, mənasını da itirib. Bir vaxtlar, hətta oğlan uşağını da muğənni, artist kimi yüngül sənətlərə yaxın braxmayan valideynlər, bu gün ailəsinin namusunu daşımalı olan qız balasının əlindən tutub, onu gecə klublarında çılpaq bədənlə rəqs eləməyə, səhnələrdə əndazədən çıxmış halda mahnı oxumağa, ən bahalı otellərdə xarici müsafirlərə xidmət eləməyə aparır. İndi atalar bu yolla qazanılmış pulla villalar tikdirir, xarici markalı lüks maşınlar alır, bahalı restoranlarda ad günləri, yubileylər keçirir, özünü də bütün kişilərdən artıq bilir. Onlarin çoxu sonradan bu yolla da olsa, illərlə aşağıdan yuxarı həsrətlə baxdıqları cəmiyyətin yuxarı təbəqəsinə yaxınlaşır, mayası da haramla yoğrulmuş "elita" adlanan o iyrənc toplumun içində özünə yer eləyir. Bundan sonra qalır, lazımi adamı tapıb o yolla qazanılmış puldan rüşvət vermək, ən yuxarı vəzifələrdən birini tutmaq, vəəə... yaşamaq!!!

Səməngül bu günkü cəmiyyətdə yaşasaydı, bəlkə talehi o qədər də acı olmazdı. Müasir cəmiyyətimiz öz keçmişindən o

qədər uzaqlaşıb ki, bu gün qızlar heç nədən ehtiyat eləmədən, təsadüfi tanışlıqda belə öz ismətini etinasızcasına xərcləyər, bundan nə bir xəcalət çəkər, nə də bir cəza. Bu cür hallar o qədər çoxalıb ki, millət tədricən buna alışır və, normal qəbul edir. Bu cox acınacaqlı haldır, və bu hal belə incə məsələlərdə insanların məsuliyyətini azaldıb heçə endirir. Halbuki əxlaq, insan cəmiyyətinin onurğa sütunudur. Onurğa sütunu sağlam olmasa, bədənin bütün orqanları tədricən xəstələnib siradan çıxacaq. Məncə, bu gün artıq həyəcan təbili çalmağın vaxtıdır...

Bizim vaxtımızda demərəm, hər şey ideal idi, amma bir ciddiyyət var idi. Elə səhvlər olurdu ki, onun cəzası bir ömrə bərabər olurdu. O vaxt hər şey başqa cür idi. Səməngülün məktəbdən qovulması, həm də, nəyə görə qovulması, bütün şəhər məktəblərinə yayıldı. Bu da o demək idi ki, Səməngülün nəinki gündüz məktəbinə, hətta gecələr fəaliyyət göstərən fəhlə-gənclər məktəbinə də yolu ən azı beş-altı illiyinə bağlandı. Hərçənd ki, Səməngül indi təhsili düşünmək hayında deyildi. Onun hamiləliyi elə dönəmdə idi ki, istəsə də, istəməsə də bu uşağı doğmalı idi. Mahmud əmi dənizdən gəlib bütün bunlardan xəbər tutanda, nələr olacaqdı? Səməngül millətin üzünə necə baxacaqdı? O günahsız körpənin talehi necə olacaqdı?

Bu suallar çox ağır suallar idi, ancaq onlara veriləcək cavablar daha ağır idi.

***

Almazın Səməngülün sirrini açdığı o gün mən dərsdən yarımçıq çıxıb evə, daha doğrusu, Səməngülgilə gəldim. Mən özümdə deyildim, yolu necə gəlmişdim, rastıma kimlər çıxmışdı, yadımda deyildi. Məqsədim mümkün qədər tez onlara gəlib, indiyə kimi məharətlə məndən gizlədilmiş həqiqəti öz gözümlə görmək idi. Mən həyətdən keçib birbaşa Səməngülün otağına girdim. Gördüyüm mənzərədən heykəl kimi donub qaldım. Səməngül öz yatağını səliqəyə salirmış, məni görüb dikəldi, günahkar-günahkar üzümə baxdı, sonra başını aşağı saldı. Qarşımda uca boylu, arığ bədənli bir hamilə qadın dayanmışdı.

Sən demə o buna görə paltoya bürünüb gəzirmiş, əks halda onun görünüşündəki bu dəyişikliyi hər kəs çoxdan görərdi. İkimiz də susurduq. Birdən mən yaxindakı stula oturub hönkür-hönkür ağlamağa başladım. Mən əllərimlə üzümü örtsəm də hiss edirdim ki, o elə durduğu yerdəcə hərəkətsiz durmuşdu. Mən ağladıqca, elə bil daha da coşurdum. İçimdə bir üsyan var idi. Haçandan-haçana sakitləşdim, əlimi üzümdən götürdüm, sən demə, Səməngül gəlib lap yanımda dayanıbmış, amma mənə toxunmağa, nəsə deməyə cəsarəti catmayıb. Elə heç nə demədən də yavaş addımlarla keçib yatağının kənarinda oturdu. O da ağlayırmış...

--Sən neylədin, Səməngül? Sən neylədin? --hıçqıra-hıçqıra ancaq bunu deyə bildim. Yenə susduq. Bur xeyli susduq.

--Firuz bilirdi? -bunun xeyri olacaqdı, ya yox, ancaq mən artıq hər şeyi bilmək istəyirdim.

--Hə.

--Deməli, bilən kimi də qaçdı,--dedim. O cavab vermədi, çünki bu belə idi.

--Almaza sən demişdin, yoxsa Firuz?

--Almaz hər şeyi bilirdi.

--Niyə?Yengəniz olmuşdu, ona görə?--hirsimi cilovlaya bilmirdim.

--Həyat, mən günahımın cəzasını çəkəcəyəm, özü də tək çəkəcəyəm. Sən bunu bilirsən, barı sən yaramı eşmə.

Düz deyirdi, mən onun bu halında məhkəmə qurmalı deyildim. Odur ki, yumşaldım:

--İndi necə olacaq?Nə fikirləşirsən?Neyləyəcəksən?Barı indi məndən heç nə gizlətmə...

--Gizlətməli nə qaldı ki?Mən də bilmirəm, nə olacaq, necə olacaq... . Nə olacaqsa, olacaq. Özüm-özümə elədim, külü gözümə ələdim.

--Deyəsən ağıllanmısan, axı... .

--Həyat!

--Yaxşı, yaxşı, daha demərəm. Əyər əvvəllərdə olduğu kimi səmimiyyətimə inanırsansa, bu olanlar məni necə yandırıb, yandırıb, yandırıb tökür, bilirsən?

--Bilirəm, mən hamını yandırıb yaxdım. Bacarırsansa, bağışla! Daha nə deyim? İstədim özümü öldürüm, onu da bacarmadım. Bir də ölsəm də heç nə dəyişməyəcək, üstümdəki ləkə olduğu kimi qalacaq.

Mən bu sözlərdən qorxdum:

--Səməngül, sən nə danışırsan? Ölmək nədir?Dəli olmamısan ki?Allah xətrinə, belə şeyləri ağlından çıxart.

--Həyat, sən də bilirsən, atam bu dərdə dözməyəcək. Axı onun ürəyi xəstədir. Bir-iki günə dənizdən gələcək, olanları biləndə nələr olacaq?--o yenə ağlamağa başladı.

--Allah özü kömək olsun! Allah bizə rəhm eləsin!--dedim.

Söhbətin bu yerində Sona xala gəldi, məni görüb elə qapının ağzındakı kətilə çökdü, üzünü əlləri ilə qapayaraq için-için ağladı. Mən ona yaxınlaşıb boynunu qucaqladım. Bundan Sona xala bir az da kövrəldi. Mən heç nə demədim, gözlədim ki, o sakitləşsin. O, nəhayət ki, bir az sakitləşdi, başını qaldırıb üzümə baxdı:

--Həyat, ağıllı balam, sən necə də haqlı imişsən, mən bunu başa düşmədim. Mənim qızımın Allah ağlını aldı, gözünü kor elədi, sənin gördüklərini görmədi, ilanla yoldaş oldu. Özünü də məhv elədi, bizi də. Bundan sonra necə yaşayacağıq? Millət bizi daş-qalaq edəcək. Sən də daha bizdən gen gəz qızım, səni də gözdən salarlar. --dedi.

Bu yerdə mən onun sözünü kəsdim:

--Sona xala, nə danışırsan?Səməngül mənim bacımdır, mən bacımdan üz döndərən deyiləm. Kim nə deyir, desin. Mən əvvəllərdə olduğu kimi gəlib gedəcəyəm, Səməngülü tək qoymayacağam. --dedim.

Sona xala bir az da kövrəldi:

--Sağ ol, qızım, çox sağ ol.

Mən onlarda bir az da oturub evə gəldim. Anamla da söhbət eləməyin vaxtı çatmışdı. Anam məni görən kimi üzümə sual dolu baxışlarla baxdı, elə bil məndən nəsə xəbər gözləyirdi.

--Ana, sən bu olanları məndən nə vaxta qədər gizlədəcəkdin?--deyə soruşdum.

Anam mənə çox diqqətlə baxırdı, sanki məni ilk dəfə görürdü:

--Necə yəni, deməli sən bütün bunları bilmirdin?

Baş verənlərdən xəbərin yox idi?Gözünün qabağında bu boyda macəra yaşanıb, sən görməmisən, hə?--anam get-gedə səsini qaldırırdı, elə bil məni nədəsə günahlandırırdı.

--Ana, sən nə demək istəyirsən? Görmürdün ki, Səməngül Almazla dostluq edəndən, mən ondan ayrı gəzirdim?Mən nəyi bilməli, nəyi görməli idim? Mənim bildiyimi, hamı bilirdi, Firuzla Səməngül bir-birini sevir. Burda nə vardı?Ana, unutma ey, Səməngül yanında Almazı gəzdirirdi, məni yox! Hər nə baş veribsə, Almaz bilir. Mənim günahım nədir ki, mənimlə belə danışırsan?--anamın məndən şübhələnməsi qəlbimə toxunurdu. Anam elə bil birdən anladı ki, mən doğru deyurəm, o saat səsini yumşaldıb tamam başqa tonla dedi:

--Bağışla qızım, neçə gündür elə bilirəm, özünü bilməməzliyə vurursan. Axı siz çox yaxın idiniz, bəs bu necə oldu?

--Ana, yadına sal, sən mənimlə söhbət elədin, elə bilirdin mən Səməngüllə küsülüyəm. Onda mən sənə hər şeyi olduğu kimi dedim. Araya o ilan Almaz girdi, mən nə qədər Səməngülü ondan ayırmağa çalışdımsa, bir şey çıxmadı. --dedim. Bundan sonra, anamda bu məsələ barədə heç bir şübhə qalmasın deyə, bütün olanları başdan-ayağa anama danışdım. Anam bir şeydə haqlı idi ki, mən gərək Səməngülün sözünə baxmayıb hər şeyi vaxtında Sona xalaya, ya da anama deyəydim. Nə isə... . olan olmuşdu, artıq.

Mahmud əmi dənizdən gələndə, Səməngül Sona xalanın sözü ilə yenə özünü xəstəliyə vurub yatağa girdi. Məsələni bilənlər, anam, mən, Sona xala, hamımız səksəkədə idik. Bu belə çox davam edə bilməyəcəkdi.

***

Bir gün Manmud əmi bizə gəlmişdi, atamla eyvanda oturub nərd oynayırdılar. Anam da onlara çay verirdi. Mən yuyulub qurumuş paltarları ütüləməklə məşğul idim. Atamgil bir xeyli nərd oynadılar, axırda Mahmud əmi qalxdı, getmək istədiyini bildirdi. Atam nə qədər təkid elədisə, Mahmud əmi fikrindən dönmədi, sağollaşıb getdi. Aradan bir az vaxt keçmişdi ki,

Mahmud əmigildən bir qışqırtı gəldi ki, gəl görəsən. Anamla mən bir-birimizə baxdıq, deyəsən, qorxduğumuz baş vermişdi. Atam qabaqda, dalınca anamla mən onlara qaçdıq. Sona xala yerdə uzanmış Mahmud əminin üstündə özünü çırpa-çırpa ağlayırdı. Sən demə, Səməngül Mahmud əmi bizdəykən hamamlanmaq istəyib, ançaq tərslikdən məhz Mahmud əmi içəri girəndə, Səməngül hamamdan çıxıb. Onlar üz-üzə gəliblər, və Mahmud əmi onun o halını görüb, hər şeyi başa düşüb. Yazıq kişi, elə "Sona, bu nədir?" deyib, ürəyini tutub yıxılıb. Atam Mahmud əminin bu vəziyyətə nədən düşdüyünü bilmirdi. O, Mahmud əmini yatağa uzadıb, tez təcili yardım çağırmağa getdi. Sona xala Mahmud əminin yanında, Səməngül öz otağında, anam da qapının ağzında durub ağlayırdı. Mən həyəcandan əsirdim. Qabaqda hələ atama məsələni bildirmək var idi. O gün elə ağır gün idi ki, bir anlıq ürəyimdən keçdi ki, kaş bu məsələlər yoluna düşənə kimi harasa yoxa çıxa biləydim. Sadəcə birdən-birə yox olaydım, hər şey olub keçəndən sonra qayıdaydım. Əlbəttə, bu mümkün deyildi, ona görə də biz yaşamalı olduğumuz hər şeyi yaşadıq.

Mahmud əmi infarkt keçirmişdi, həm də bu artıq geniş infarkt idi. Onun həyatı tükdən asılı idi. Bir sevinc də, bir həyəcan da, bir sarsıntı da onun ömrünün son nöqtəsini qoya bilərdi. Mahmud əmi iyirmi gün xəstəxanada yatdı, həkimlər onun ürəyinin ikiyə parçalandığını, müaliçənin daha heç bir xeyri olmayacağını deyib, onu evə yazdılar:"Qismətində neçə gün qalıbsa, o qədər yaşayacaq", --dedilər. Mahmud əmini evə gətirdilər, yerini düzəldib, rahatladılar. Mahmud əmi Səməngülü görmək istədiyini söylədi. Səməngülü çağırdılar, onun qarnı bir az da böyümüşdü. Atam onu görən kimi dönüb dəhşətlə anama baxdı, elə sarsılmışdı ki, elə bil gözləri hədəqəsindən şıxacaqdı. İndi nə söz soruşmaq vaxtıydı, nə də izahat vermək vaxtı, ona görə də hamı Mahmud əmiyə baxırdı. O Səməngülə baxıb, üzünü çevirdi və uşaq kimi ağlamağa başladı. Onu sakitləşdirəcək adam tapılmadı, çünki hamı ağlayırdı. Atam da hər şeyi başa düşmüşdü, o da ağlayırdı. Sonra atam hamını otaqdan çıxartdı,Mahmud əmini sakitləş-

dirməli idi. Bir azdan atam anamdan ürək dərmanı istədi. Anam da Sona xaladan lazımı dərmanı alıb aparıb verdi. Geri gələndə anam bizə dedi ki, Mahmud əmi bir az sakitləşib. O gecə, gecə yarısına kimi Səməngülgildə oturduq. Gecə saat ikidə evə gəldik. Mən yatmağa getdim, anamsa hələ atama olanları anlatmalı idi. Yazıq anam... .

O gecə, səhərə yaxın Mahmud əmi bu dünyadan köçdü. Bircə balasının başına gələn qaziyəni çəkə bilmədi. Onsuz da xəstə ürəyi dərddən ikiyə parçalandı. Məhləmizin camaatı hər şeydən xəbərsiz, uşaqlıqdan tanıdıqları, ağırtəbiət, əslində kövrək ürəkli bir insan olan Mahmud əmini el adətiylə son mənzilə yola saldılar. Sona xala birdən-birə elə bil on il qocaldı. Səməngül cəzasını otaqdan bayıra çıxmamaqla çəkirdi. Heç kəsin gözünə görünmədən elə öz otağında ağladı, atasını da son mənzilə kiçik pəncərədən baxa-baxa yola saldı.

Səməngülün atasının yasında ortaya çıxmaması tezliklə dedi-qodulara səbəb oldu. Bizimlə bir məktəbdə oxuyan uşaqlar Səməngülün hamilə olması barədə xəbəri bütün məhləyə yaydılar. Ağsaqqallar, ağbirçəklər gəlib Səməngülü öz gözləri ilə gördülər, Sona xalanın, Səməngülün üzünə tüpürüb, o gedən getdilər. Bundan sonra bu cəmiyyətdən mərhəmət gözləmək olmazdı. Hamı birdən onlardan üz döndərdi. Atam da onlara acıqlı idi. O bütün bu olanları, xüsusən də Mahmud əminin ölümünü onlara heç vaxt bağışlamayacağını deyirdi. Buna baxmayaraq, ən yaxın dostu, ən yaxın qonşusu olan Mahmud əminin xatirinə mollanın yanına gedib yas məclisini adəti uzrə davam etdirməyi tapşırdı. Molla onsuz da heç kimin gəlməyəcəyini bilirdi, odur ki, davam etdirməyi artıq bildi. Yazıq Mahmud əminin nə cümə axşamları keçirildi, nə də qırxı verildi. O qapıya daha kim gələrdi ki...

Qışın acısı həyatımızın acısına qarışmışdı. Məhlədə də, məktəbdə də qızlardan kim özünü bir az şux aparırdısa, o saat onu hədələyirdilər:"Özünü düz apar, yoxsa sən də Səməngülün gününə düşərsən!" Bu sözdən sonra hamı qulağını çəkirdi.

Qızlar qorxudan hər hərəkətlərinə fikir verir, özlərini daha ağır aparır, şit hərəkətlərdən çəkinirdilər. Lalə ilə Rasimin vəziyyəti

daha xoşagəlməz idi. Onlar ortalığa deyilən hər sözü özlərinə götürürdülər.

Bu arada məktəbə yenə Almazın sayəsində xəbər yayıldı ki, Sona xala Firuzgilə gedib, Firuzun anasına-atasına yalvarırmış ki, Firuzu geri çağırsınlar. Firuz gəlsin, bir günlük də olsa nigah bağlasın, Səməngülü düşdüyü vəziyyətdən çıxartsın, sonra yenə boşasın. O zalımlar da yazıq qadını gözü yaşlı qapıdan qovublar:"Get, adamını başqa yerdə axtar!"--deyiblər.

Axşam evə gəlib eşitdiklərimi anama danışdım. Anam o saat Sona xalagilə getdi, ordan bir az gec qayıtdı. Orda danışılanları mənə danışdı. Sona xala doğurdan da Firuzgilə gedibmiş. Yazıq qadın, çarəsizlikdən bilmirdi neyləsin. Firuzun valideyinlərinə yalvarıb ki, bir yolla kömək eləsinlər, Səməngül el qınağından qurtulsun. Onlarsa deyiblər ki, Firuzun bu məsələdən xəbəri yoxdur. Firuz başa düşəndə ki, Səməngül kimdənsə hamilədir tez ondan uzaqlaşıb. Deyiblər, bu qapını unudun, Firuzun adını da çəkməyin. Sona xalanın son ümidi də puça çıxıb, yazıq qadın suyu süzülə-süzülə evə gəlib. Ana-bala baş-başa verib o ki, var ağlayıblar. Səməngülün doğacağı günə də daha bir şey qalmamışdı...

***

Yenə də qabaqdan yeni il gəlirdi. Yenə lopa-lopa qar yağırdı. Nə Səməngülgildə hüzur var idi, nə də bizdə. Onların dərdi özlərinə yetirdi. Bizim də həyatımızın rəngləri solmuşdu. Üç adam, bir-birimizlə lazım olandan olana danışırdıq. Elə bil küsülü idik. Bu arada ən şad olduğumuz günlər Rəşaddan məktub gələn günlər idi. Yaxşı ki, heç olmasa, Rəşad çox gümrah məktublar yazırdı. Mən yazdığım cavab məktublarında çalışırdım ona heç nə bildirməyim. Fikirləşirdim ki, indi ona dərd çəkdirməyin nə mənası var?Sağ-salamat qayıdıb gəlsin, hər şeyi həm eşidər, həm də görər.

Yeni il girdi, qış tətili başladı. Mən, atam evdə olmayan vaxtlarda Səməngülün yanına gedirdim. Səməngül rəngi-rufu saralmış, lal-

dinməz bir varlığa dönmüşdü. Biz Sona xala ilə ordan burdan danışırdıq, o isə heç elə bil burda deyildi, heç bir reaksiya vermirdi. Sona xala ona baxırdı, baxırdı, sonra gözünün yaşını görən olmasın, deyə qalxıb bir bəhanə ilə yan otağa keçirdi.

Bir gün evdə oturub pəncərədən yağan qara baxırdım. Bir də gördüm, bizim müəllimlərdən üç-dörd nəfər küçənin başında göründülər. Mən tez anama xəbər verdim. İkimiz də mat qalmışdıq ki, bunlardan nə əcəb?Kimə gəliblər görəsən? Anam o saat dedi ki, yəqin Səməngülə baş çəkməyə gəliblər. Onlar doğurdan da Səməngülgilə döndülər. Biz nigaran-nagaran pəncərənin qabağında oturub qaldıq. Bir neçə saatdan sonra müəllimlər çıxıb getdilər. Sona xala atamın qorxusundan bizə gəlmirdi, ona görə də anam geyinib onlara getdi. Biz Səməngülgilə bir-bir gedirdik ki, işdir atam bir qəfil evə gəlsə, heç olmasa birimiz evdə olaq. Yoxsa, bizə çox acığı tutar, Sona xalagilə getməyi qadağan edərdi. Mən səbirsizliklə anamı gözləyirdim. Nəhayət, anam gəldi. Məsələ belə imiş ki, müəllimlər, başda Hökümə müəllimə olmaqla, qərara gəliblər ki, gedib Firuzun valideynləri ilə danışsınlar. Məqsəd daha bir cəhd göstərmək imiş. Əslində, əyər Səməngül məhkəməyə şikayət ərizəsi versəydi, həddi-buluğa çatmamış qıza təcavüz etdiyinə görə, Firuza on beş ilə qədər iş düşürdü. Müəllimlər bunu əldə əsas tutub bir daha Firuzun anasına, atasına başa salıblar ki, bu işi yaxşılıqla yoluna qoysunlar. Onlarsa, yenə də Firuzun bu məsələdən xəbəri olmadığını, onları rahat buraxmasalar, özləri şikayət edəcəklərini deyiblər. Müəllimlər ordan çıxıb birbaşa bura gəliblər ki, Səməngülə şikayət ərizəsi yazdırıb, məhkəmə işi açdırsınlar. Ancaq Səməngül buna heç vaxt razı olmayacağını deyib. Səməngül xahış edib ki, bir də heç kim Firuzgilə minnətə getməsin. Belə dediyinə görə mən Səməngülü qınadım, heç qürur vaxtı idimi? Firuz onu elə bir uçuruma yuvarlatmışdı ki, ona nə cəza kəsilsəydi azdı. Digər tərəfdəm, mən Səməngülü yaxşı tanıyırdım, o ən ağır cəzaya dözəcəkdi, həyatın ən amansız üzünü görəcəkdi, amma Firuzun əleyhinə heç bir pis hərəkət eləməyəcəkdi. Səməngül onsuz da o qapıdan heç bir kömək

ummurdu, Sona xala da beləcə son umidini itirdi. İndi irəlidə onları necə sınaqlar gözləyirdisə, gözləsin, onların özlərindən başqa güvənəcək kimsələri yox idi.

Son yay tətili necə cansıxıcı keçmişdisə, son qış tətili ondan da maraqsız, sönük keçdi. Üçüncü rüb başladı. Həyat necə olsa davam edirdi. Mən də, artıq Səməngüllə istədiyim vaxt görüşə bilmədiyim üçün, bütün fikrimi oxumağa vermişdim. Təkcə Almazı görəndə olanlar yenə yadıma düşür, ondan necəsə hayıf almaq istəyirdim. Almaz elə bil ürəyimdən keçənləri bilirdi. Özünü çox ehtiyatlı aparır, əvvəllər olduğu kimi dil-dil ötmürdü. Üzünə yeni "ağıllı, tərbiyəli qız" maskası taxsa da, heç kim onunla yoldaşlıq eləmirdi. Onun vasitəsi ilə Səməngülün başına gələnlər hamının yadında idi, heç vaxt da unudulmayacaqdı.

Bu mənə bir növ təskinlik verirdi.

O gün mən dərsdən çox yorğun gəlmişdim. Dərslərimiz doğurdan da şox ağır idi. Bir gündə yeddi-səkkiz saat dərsdən sonra evə gələndə, adamın heç çörək yeməyə halı olmurdu. Amma bu gün düşpərə olsaydı, mən məmnuniyyətlə yeyərdim. Hətta evə gələndə yol boyu fikirləşdim ki, çatan kimi anama deyim, mənə düşpərə bişirsin. İçəri girdim, anam qabağıma çıxmadı. Fikirləşdim ki, bəlkə evdə deyil, amma paltomu asanda gördüm paltosu asılqandan asılıb. Demək evdə idi. Ayağımı soyunub içəri keçdim. Anam divanda oturub sakit-sakit ağlayırdı. Mən çox qorxdum:

--Ana, nə olub, niyə ağlayırsan?--deyə soruşdum, özümün də ağlımdan yüz cür fikir keçdi.

Anam gözünün yaşını silib üzümə baxdı:

--Səməngülün oğlu oldu... .

--Doğurdan? Hər şey yaxşı oldu?Salamatçılıqdırmı?Bəs niyə ağlayırsan?Ana, qurban olum, düzünü de!--həyəcan məni elə qovurdu ki, hiss eləmirdim ki, birdən birə neçə sual vermişəm.

--Sakit ol qızım, hər şey yaxşıdır, şükür olsun. Ancaq adama elə ağır gəlir ki, bir gün bir oğul doğulsun, ancaq sevinən tapılmasın. O yazıq körpənin günahı nədir?--deyə anam yenə axan göz yaşlarını sildi.

--Ana, atama de, biz onları tək buraxmayaq. Yazıqdılar, bizdən başqa kimləri var?Özün deyirsən, o uşağın nə günahı var?Onsuz da onlar üçün çox ey, çox çətin olacaq. İkisi də heç bir sənəti olmayan evdar qadın. Bunlar nə yeyəcək, nə içəcək, ana?

Anam mənim dediklərimi başının hərəkəti ilə təsdiq edirdi.

--Bəs deyirsən, niyə ağlayırsan, elə bunları bildiyim üçün də ağlayıram da... Düzdür, onlar üçün çox çətin olacaq, ancaq fikirləşirəm ki, bu uşaq bəlkə də Səməngülün dərdlərini unutdurar, ürəyinə dayaq olar. Düz deyirsən, gərək onlara kömək edək, gərək atanı yola gətirim...

Anam doğurdan da atamı deyəsən yola gətirmişdi. Üzdə heç nə dəyişməsə də, altdan-altdan anama bir az pul da vermişdi ki, uşağa əyin-baş alaq. Bir həftədən sonra Sona xala, anam, bir də mən--üçümüz Səməngülü xəstəxanadan çıxardıb taksi ilə evə gətirirdik. Qonşular elə bil bizi güdürlərmiş, çıxıb küçədə bizə tamaşa edirdilər. Bu indiki vəziyyətdə ən arzu olunmaz bir vəziyyət idi. Məhləmizin ən dedi-qoduçu qadını Münəvvər xala dilini dinc qoymadı:

--Bay, zurna-balabansız gətirdiniz bicinizi?Hə... . yadıma düşdü, yasınız var axı... Gör nə bəla olacaqsa, atası kim imişsə atıb gedib, babası da öldü getdi. Məhlədə bir elə bu cür ulduz əskik idi...

Anam darvazanı açıb Sona xala ilə Səməngülü uşaqla birlikdə içəri buraxıb üzünü Münəvvərə tutdu:

--Yaxşı ki, özünü çatdırıb, paxırını tökdün, ay Münəvvər. Bu gecə daha ölməzsən. Ancaq əvvəl-axır bu məhlənin namusunu çəkə-çəkə öləcəksən. Sözünü dedin, indi itil get.

Sonra anam üzünü başqa qonşulara tutdu:

--Ay qonşular, yıxılana balta çalan çox olar. Bu yazıqların onsuz da dərdi başından aşır, bir də siz qınamağa tələsməyin, dağılışın evinizə.

Deyəsən anamın sözləri bir az təsir elədi. Qonşular pıçıltı ilə danışa-danışa dağılışdılar.

Mən Səməngülün oğlunu görəndə ilk-əvvəl ətim ürpəşdi, ağ mələfənin arasındakı körpə elə bil Firuzun çox kiçildilmiş

oyuncaq fiquru idi. İnsan da insana bu qədər bənzəyərmiş. Uşaq elə bil Firuzun, onun valideyinlərinin acığına atasına o qədər bənzəmişdi ki, heç kimin şübhəsi olmasın ki, o Firuzun oğludur. Bir həftədən sonra ya mənim gözüm öyrəşdi, ya da uşaq dəyişdi, onu bilmirəm, amma mən uşağa isinişdim. Səməngül əvvəlki ciddiyyətini saxlasa da, uşağı dindirməsə də, onun səliqə-səhmanına, vaxtlı-vaxtında sud yeməsinə diqqət edirdi. Mən onları tez-tez ziyarət eləyirdim. Bir gün çoxdan öyrənmək istədiyim bir sualı verdim:

--Səməngül, oğluna ad fikirləşmisən, adını nə qoyacaqsan?

Səməngül əlini saxlayıb, uşağa baxa-baxa dedi:

--Daha nəyini fikirləşim, qismətimiz belə imişsə, qoy adı elə Qismət olsun. Allahın ona yazığı gəlsin, qismətini uğurlu eləsin.

Bu sözlərdən qəhərləndim:

--Adıyla böyüsün, xoşbəxt olsun,--dedim.

Səməngülün oğlu olması xəbəri hər tərəfə tez yayıldı. Almaz bir söz deməyə ürək eləməsə də, bir-iki gün mənə çox maraqla baxdı. Yəqin ki, bu xəbəri Firuzgilə də çatdırmışdı. Arada fikirləşdim ki, görəsən bu xəbər Firuza da çatdımı?

Anamla yenə uşağın yanına getmişdik. Sona xala çox fikirli idi. Anam uşağı bir az qucağına aldı, bir az dindirdi, sonra beşiyinə qoyub üzünü Sona xalaya tutdu:

--Nə olub, ay Sona, yenə niyə bulud kimi dolmusan?Gör nə gözəl nəvən var?Arxanız, dayağınız olacaq, inşallh.

Sona xala ah çəkib dedi:

--Ax, ay Yasəmən, o böyüyüb bizə arxa-dayaq olana qədər bu məhlədə bizi daş-qalaq edərlər. Fikirləşmişəm, evi satıb bu məhlədən gedəcəyik.

--Allah, sən saxla, ay Sona, bu nə sözdür?Hara gedəcəksiniz?

--Hara olsa, təki bizi heç kəs tanımasın, sözümüzü heç kim danışmasın.

--Təkbaşına, köməyiniz olmadan necə baş çıxardarsınız, Sona?Sonra çox çətin olar.

--Bizim üçün daha heç yerdə asan olmayacaq, barı, dəyib-dolaşan olmaz. Dedi-qodu dərdi çəkməkdənsə, çörək dərdi

çəkərik. Təzə yerdə bir şey uydurub deyərik. Burda həm qonşular bizə gün verməyəcək, həm də hər Süleyman qardaşı görəndə utandığımdan ölüb-dirilirəm. Bu belə davam eləyə bilməz.

--Bəs nəylə dolanacaqsınız?Əlinizdə də körpə uşaq, çətin olacaq axı...

--Bir iş tapıb işləyərəm, hələlik Səməngül oturar uşaqla, sonra o iş tapar, mən uşağa baxaram. Daha neyləmək olar? Necəsə yaşamaq lazımdır...

Anam daha bir söz demədi, gözünün yaşını sildi. O axşam anam Sona xalanın dediklərini atama danışdı. Atam çox pis oldu, anamı da yanına alıb Mahmud əmi öləndən bəri ilk dəfə onlara getdi. Mən bilirdim ki, atam ürəyində dərd çəkir. Bir yandan nə Səməngülü, nə də Sona xalanı bağışlaya bilmirdi, o biri tərəfdən də dostunun başsız qalmış ailəsinə arxa çevirdiyinə görə vicdan əzabı çəkirdi. Anamla atam Sona xalanı fikrindən döndərə bilmədilər.

Həmişə sakit, evdar qadın kimi tanıdığım Sona xalaya elə bil hardansa cəsarət gəlmişdi. O bir dəqiqə də durmadan harasa gedib-gəlitrdi. Tez bir zamanda bağı da, evlərini də satdı. Əvəzində, qəsdən burdan çox uzaq olsun deyə, Əhmədlinin ən ucqar yerindən üç otaqlı ev aldı. Atam maşın tutub onların yeni ünvana köçməsinə kömək elədi.

Beləliklə də mən, gözümü açandan yanımda gördüyüm, bacı kimi sevdiyim ən yaxın rəfiqəmdən ayrı düşdüm. Biz hələ çox gənc idik. Ömrümüzün çox hissəsi hələ qabaqda idi. Həyatın dolanbac yollarında qarşımıza hələ çox şeylər çıxacaqdı. Aradakı bu uzaqlıq bizi bir-birimizdən soyudacaqdımı, yoxsa, doğulduğumuz gündən bizi bir-birimizə sarı çəkən cazibə qüvvəsi yenə bizi yaxınlaşdıracaqdı? Onu bilmirdim. Bildiyim o idi ki, elə bil köçən təkcə Səməngülgil deyildi, bütün dünya idi. Məhləmiz mənə bomboş, yad gəlirdi. Səməngül köçüb getməklə, mənim bütün uşaqlıq xatirələrimi də özüylə aparmışdı.

Dünyam bomboş idi, onu nəylə dolduracaqdım, bilmirdim. Pəncərədən son dəfə, Səməngülgilin evlərinə baxdım, hönkür-hönkür ağladım. Hər küncündə, bucağında xatirələrimiz qalan o evdə sabahdan tamam başqa adamlar yaşayacaqdı...

İKİNCİ HİSSƏ

... İnsanlar da ulduzlara bənzəyirlər. Bir çevrədə hərəkət edə-edə gah bir-birinə yaxınlaşırlar, gah uzaqlaşırlar. Biri çox parlaq, gur işıqlı... biri zəif, güclə sezilən... lakin hamısının aqibəti bəlli bir sonluqla bitən ulduzlar... İnsanlar da belədir, müxtəlif talehli, müxtəlif qismətli... Fəqət, insanların da sonu sönməkdir, ulduzlar kimi... N. G.

19. Aradan çox zaman keçdi, çox sular axdı...

Mən orta məktəbi bitirdim, elə həmin il də pedoqoji instituta daxil oldum. Əslində bu uğuruma çox sevinməli idim, çünki uzun illərin zəhmətindən sonra istədiyim ixtisasın dalınca getməyə imkan əldə eləmişdim. Bu imkan hər kəsə nəsib olmurdu. Sevinmək üçün bu çox böyük səbəb idi, amma mən sevinə bilmirdim. Çox illər əvvəl Səməngüllə damda uzanıb arzülarımızdan danışdığımız o aylı-ulduzlu gecə yadıma düşdü. Kövrəldim, bu gün Səməngülün yanımda olmaması mənə çox ağır gəldi. O da bu il tibb institutuna daxil olacaqdı. Olacaqdı, əyər özü öz həyatını məhv eləməsəydi. Gənc həmyaşıdlarımız deyə-gülə tələbəlik həyatına atılırkən, Səməngül təkbaşına, zillət çəkə-çəkə, bir qarın ac, bir qarın tox, atasız uşaq böyütməklə məşğul idi. Mən nə qədər Firuzu, Almazı lənətləsəm də, Allaha yalvarıb onlar üçün ən ağır cəzanı diləsəm də, onlara sonzuza qədər nifrət eləsəm də, sağlam şüur mənə deyirdi ki, bu hadisənin bir günahkarı vardısa, o da ancaq Səməngül özü idi. Doğrudur, Firuz onun həyatına bir təbii fəlakət kimi girdi. Qisa bir zamanda onu xarici görünüşü ilə, yüksək intellekti ilə, şirin dili ilə yoldan çıxartdı. Firuz özü artıq böyük həyat təcrübəsi keçib gəldiyi halda, həyata hələ heç bir tərəfdən bələd olmayan, romantik xəyallarla yaşayıb öz nağıl şahzadəsini gözləyən, təcrübəsiz,

məsum bir qızı qəfil gələn qasırğa kimi qamarladı. Bu mənada Səməngülə haqq qazandırmaq olardı, ancaq bir şey də var ki, Səməngül sanki özü də hiss edirdi ki, bunun axırı pis olacaq. Onun o vaxt, məktəbin yanında mənə dediyi "indi sən mənə nə desən də, mən bu yoldan dönən deyiləm," sözləri bütün günahları Səməngülün boynuna yükləyirdi. Ətrafdan ona nə qədər kömək eləmək istəyənlər var idi. Hələ mən özüm, bircə əlimdə qılınc onun uğrunda vuruşmağım qalmışdı. Nə var ki, bu yolda ən böyük maneə Səməngül özü oldu, mən onu qoruya bilmədim. Rəşad da əskərlikdən gələndən sonra məni günahkar çıxartmaq istəmişdi. Elə hey, "mən sənə güvənmişdim, mən sənə tapşırmışdım, niyə onu qorumadın?", kimi ittihamlarla məni o qədər qısnadı ki, axırda hər şeyi olduğu kimi ona da danışdım. Əslində özümə söz vermişdim ki, çox şeyi qardaşıma danışmayim, qoy elə sirr olaraq qalsın. Ancaq Rəşad məni elə qınadı ki, məcbur olub hər şeyi, hətta Firuzun mənə verdiyi "konvoy" rütbəsi barədə də danışdım. Bundan artıq mən nə edə bilərdim?

Rəşad gəldiyindən bir-neçə gün sonra gedib Səməngüllə görüşmüşdü. Əskəri xidmətini bitirib gəldiyi gün neçə şən, gümrah idisə, Səməngülü görüb gələndən onun gülər üzündən bir əsər-əlamət qalmadı. Rəşad birdən-birə tamam dəyişib qaraqabaq bir adam oldu. Mən bunun səbəbini təxmini də olsa bilirdim. Rəşad bu iki ildə bir gün də olsa, Səməngülü unutmamışdı. Mən bunu onun məktublarından hiss edirdim. Yəqin o, hər halda, Səməngülün məhəbbətinə ümid bəsləyirmiş. Gəlib baş verənləri eşidəndə də hələ o qədər təsəvvürünə gətirə bilməmişdi. Elə ki, hər şeyi gedib gözü ilə gördü, bütün ümidləri puç oldu. Mən bir şeyi yəqin bilirdim ki, Rəşadın bu sarsıntısı belə tez, belə asan keçməyəcəkdi.

Anamla ikimiz hər düşən fürsətdə, gedib Səməngülü, Sona xalanı, balaca Qisməti ziyarət edib gəlirdik. Hər dəfə Qismətə bir oyuncaq, ya da bir dəst paltar alıb aparırdıq. Anam zorla da olsa, Sona xalaya bir az pul da verirdi. Düzdür, bizim bu köməyimiz onları çox sıxırdı, xəcalət verirdi. Ancaq anam hər dəfə deyirdi ki,

sən mənim bacımsan, səni tək qoya bilmərəm. Bundan sonra Sona xala bir az sakit olurdu. Səməngül elə əvvəldən ağırtəbiət qız idi, bu olanlardan sonra daha da qaradinməz olmuşdu. Dindirən olmasa, dinib danışmırdı. Əvəzində balaca Qismət həyatından çox razı idi. Elə hey gülürdü. Mənim nifrət elədiyim Firuza çox oxşasa da, yaman göyçək uşaq idi. Əslində elə Firuza oxşadığına görə çox göyçək idi. Əyər Səməngülün öz körpəsi ilə davranışında böyük bir ana məhəbbəti hiss olunurdusa, onun oğlu ilə az qala pıçıltı ilə danışmasında bir sınıqlıq hiss olunurdu. Bu məni həmişə kövrəldirdi. Mən onları daha tez-tez görmək istəyirdim, ancaq nə aramızdakı uzaqlıq, nə də iş-güc buna imkan vermirdi. Sona xala yaşadıqları qəsəbədə özünə iş tapmışdı. O çörəkçi dükanında çörək satırdı. Daha doğrusu çörək satan qadına kömək edirdi. Əlbəttə maaşı çox az idi, amma bu, tamam pulsuz qalmaqdan yaxşı idi.

***

Həyat beləcə davam edirdi. Rəşad da öz həyatını necəsə qurmalı idi. O, politexniki institutun mexanika fakultəsinin qiyabi şöbəsinə qəbul olundu. Şəhərin gür yerində də, avtomobil təmiri üçün balaca bir sex açdı. Əskərlikdə avtomexanik işləmişdi, deyə əlindən maşına aid hər iş gəlirdi. Tezliklə, şəhərdə yaxşı usta kimi ad çıxartdi, özünə yetərincə müştəri yığdı. Onun qazancı artmağa başladı, artdıqca da evimizin dolanışığı büsbütün dəyişirdi. Rəşad bütün ailənin xərclərini boynuna çəkmişdi. Atamsa, yaşının bu vaxtında oğul əlinə baxmaq istəmədiyi üçün, öz işində çalışmağa davam edirdi. Anam, atam tez-tez Rəşada evlilik barədə söz atırdılar, amma Rəşad yaxasını ələ vermirdi. Məni bir məsələ çox narahat edirdi. Hər dəfə anamla mən Sona xalagilə gedəndə, Rəşad məni xəlvətə çəkib pul verirdi, deyirdi ki, bunu onlara verim, amma bilməsinlər ki, o verib. Bu oyun məni heç açmırdı. Amma hələlik heç nə demirdim, onun dediyini yerinə yetirirdim. Düzdür, pul çox olduğu üçün onu Sona xalaya vemək də çətin olurdu, amma hər dəfə bir yalanla pulu ona verə bilirdim. İçimdəki MƏN nədənsə narahat idi.

Mən artıq üçüncü kursda idim. Bu il biz də ilk dəfə məktəblərə praktika keçməyə yollandıq. Hər günüm keçmişin bir xatirəsini yadıma salırdı. Səməngülün üstündə Firuzla dava edib institutdan qovulan Kamal yadıma düşdü. Yazıq Kamal Səməngülü təmiz məhəbbətlə sevirdi. O hadisə olmasaydı, anasını elçi də göndərəcəkdi. Kaş Səməngül elə ona qismət olaydı. Belə olsaydı, Kamal onun arxasında dağ kimi durardı, onu bir ömrə bərabər məhəbbətlə sevərdi. Düz deyirlər ki, məhəbbətin gözü kordur.

Lalə ilə Rasim yadıma düşdü, bu yay nəhayət ki, onlar evləndilər. Həm vüsala yetdilər, həm də elin ağzından qurtardilar. Toya mən də getmişdim. Bütün sinif yoldaşlarım orda idi. Biz o vaxt çox populyar olan "Sevgilim" rəqsini çaldirib doyunca oynadıq. Hamı Səməngülü soruşurdu, hamı onun başına gələnlərə heyfislənirdi. Mən onlara Qismətdən çoxluca söhbət açdım. Onun necə göyçək, necə şirin bir oğlan olduğunu dedim. Firuzla Almazı heç kim heç yada da salmadı, elə bil onlar heç olmamışdılar. Həmin günün səhəri mən gəlib bütün toy təəssüratlarımı Səməngülə danışdım, toy şəkillərini göstərdim. O qulaq asdı, asdı, sonra bir ah çəkib yavaşca dedi:

--Allah onları xoşbəxt eləsin.

Mən qalxib onun boynunu qucaqladım:

--Canım bacım, bir gün sən də xoşbəxt olacaqsan, mənə inan,--dedim.

Nigar, Ceyran, Pərvin yadıma düşdü, onlarin da bu payız toyları oldu. Oğlanlardan da coxu evlənmişdi. Subay gəzən çox az idi ki, onlardan biri də mən idim. Biz qızlarla ara-sıra zəngləşirdik, hal-əhval tuturduq. Sinfimizdə Sevil adlı bir qız da var idi. O, Firuzla Almazın yaşadığı bina ilə üzbəüz binada yaşayırdı. Onunla o qədər yaxın deyildik, deyə bir gün o, bu qədər vaxtdan sonra mənə zəng vuranda, çox təəccübləndim. O zəng vuranda hələ yay idi. Çox uzaqdan başlayıb hal-əhval tutandan sonra o mənə dedi:

--Bilirsən sənə niyə zəng vurmuşam? Çox vacib bir məlumatım var, dedim sənin üçün maraqlı ola bilər.

--Çox sağ ol ki, zəng vurmusan. O nə məlumatdır elə?--deyə maraq göstərdim.

--Sən Səməngüllə bacı kimi idin, odur ki, sənə deyirəm, Firuz gəlib, burdadır.

Mənim bu xəbərdən nitqim qurudu. O başdan Sevil çağırırdı.

--Alo, alo, Həyat, eşidirsən?

--Hə eşidirəm, nə bildin gəlib, kim dedi?

--Özüm gördüm, dayanmışdı balkonda, qohum əqrəbası da başında idi. Yəqin görüşünə gəliblər. Çox dəyişib, elə bil kişiləşib, nədir. Amma mən o saat tanıdım.

--Sevil, sən onların telefonunu öyrənə bilərsən?

--Mən onların telefonunu bilirəm, hələ o vaxtdan. Deyim, yaz.

Sevil nömrəni dedi, mən də yazdım, amma fikirləşdim ki, o vaxtdan indiyə nömrə qalar?Bakıda nömrələr iki günün biri dəyişir. Sevillə söhbəti bitirib həmin nömrəni yığdım. Çox çağırdı, axırda bir qadın səsi cavab verdi:

--Alo, kim lazımdır?--bu cür telefondakı səsə də minnət edən yəqin ki, onun anası olmalı idi.

--Salam, Firuzu olar telefona?--dedim.

--Bir dəqiqə,--dedi. Nə demədi salam, nə demədi ki, kimsənnəçisən, beləcə saymazyana telefonu yerə qoyub harasa getdi, gedə-gedə də hələ bunları da dedi:

--Baxın, gəldiyini hələ heç kim bilmir, amma artıq başlandı. Bundan sonra belə olacaq, Firuz, gəl, saqqalın ağarsın, qızlardır...

Mən bu başda bu deyilənləri eşidib fikirləşirdim ki, Səməngülün indiki həyatı, belə adamlarla bir yerdə yaşamaqdan qat-qat yaxşıdır. Bir xeyli vaxt keçdi, deyəsən Firuz onuncu otaqdan gəlirdi:

--Allo, eşidirəm.

--Dedilər gəlmisən, dedim, görüm doğrudurmu?

Onun səsi də, nəfəsi də bir anlıq kəsildi. Susdu, yəqin xatırlamaq istəyirdi ki, onunla belə danışan kim ola bilər.

--Anlamadım, kimsiniz?

--Gör sənə nə deyirəm, yaxşı-yaxşı qulaq as, təkrar eləmiyəcəyəm. Mən Almazla sənə uzun, çox uzun ömür arzu eləyirəm, Allahdan da sizə elə bir cəza diləyirəm ki, o uzun ömrünüz boyu o cəzanı çəkə-çəkə yaşayasınız! Amin deyirəm, eşitdin, amin!!!

Özüm də bilmirəm niyə o dəqiqə telefonu qoymadım. Yəqin bilmək istəyirdim ki, o bildimi kim idi bu sözləri deyən. Onun tək günahı Səməngül deyildi, əlbət.

--Aaaa... bildim kimsən... "konvoy"... hələ də qulluğunu davam etdirirsən? Yəqin ərə də gedə bilmirsən, səni kim alar?Odur ki, Səməngülün macəralarını izləyirsən. Əlindən də bir şey gəlmir ki! Yəqin yenə də sən "konvoy"-luğunu edirsən, Səməngül də öz bildiyini. Düz deyirəm? "Konvoy", ordasan?

--Deməli bu illər ərzində heç vicdan əzabı çəkmədin?

--Mən niyə vicdan əzabı çəkməliyəm ki, bəlkə zor işlətmişdim, bəlkə məcbur eləmişdim? Qoy o vicdan əzabı çəksin ki, özünün çılğın məşuqəliyi ilə məndə bütün qızlara qarşı ikrah hissi oyatdı. Ağıllı qız da bu qədər tez, bu qədər asan təslim olardı? Onun üzündən mən daha heç bir qıza inanmıram. Bildin, "konvoy?" Eeey... . .

Mən telefonu qoydum. Çox ağır bir hiss yaşayırdım. Uşaq kimi elə bilirdim ki, o çoxdan peşiman olub, indi yalvaracaq, Səməngülün yerini soruşacaq, oğlunu görmək istəyəcək... Heyhat... Heyhat... Heyhat...

O vaxtki Firuz bunun yanında toya getməli imiş ki... İnsan nə qədər alçaq, nə qədər şərəfsiz olarmış! O cür qızı bədbəxt elədiyi bəs deyil, gör bu günü üçün nələr dedi. Allah cəzanı versin, Firuz!!!

Mən bu söhbəti Səməngülə demədim, bu onun üçün çox ağır olardı. Mən hələ həyatda çox şey görməmişdim, amma mənə elə gəlirdi ki, Səməngülün başına gələnlər dünyanın ən böyük haqsızlığı idi.

20. Bu yay bizim evin qabağında da mağar quruldu.

Mənim toyum idi. Mən romanlardakı kimi məhəbbət macərası yaşamadım. Sadəcə uzaq qohumlarımızdan biri məni hansısa toyda görübmüş. Elçi göndərdi, anam-atam varəcəyi cavabı götür-qoy edənə kimi biz Fərhadla bir- iki dəfə görüşüb söhbət elədik. Bu kifayət elədi ki, bir-birimizin təkcə xarici görünüşünü deyil, xasiyyətini də bəyənək. Qaynatam əvvəlcədən demişdi ki,

nişanla toyun arası çox çəkməyəcək. Doğurdan da qısa bir zaman içində nişanımız oldu. Yayda da toyumuz çalındı. Mən Fərhadin Yasamaldakı üç otaqlı evinə gəlin köçdüm. Ən yaxın rəfiqəm olan Səməngül nə nişanımda, nə də toyumda iştirak eləmədi. Anam da, mən də Sona xala ilə Səməngülü xüsusi olaraq dəvət eləmişdik, amma arada o qədər uzağa gedən səbəblər var idi ki, nə onlar gəldi, nə də biz incidik.

Səməngül bir müddət idi ki, toxuculuq kombinatında işə girmişdi. Sona xala Qismətlə otururdu. Son dəfə Rəşadla aralarındakı söhbətdən sonra Səməngül elə bil yaşam üğrunda mübarizəyə qalxdı. İndiyə kimi özünü ev düstağı eləmişdi. Heç yana çıxmır, heç bir işlə məşğul olmaq istəmirdi. O vaxta qədər ki, bir gün Rəşad ondan qəti cavab istədi. Mən bunları təsadüfən öyrənə bildim. Onda hələ heç nişanlı da deyildim. Bir gün anamdan icazə alıb Səməngülgilə getdim. Qismətə yeni oyuncaq, bir dəst də kostyum almışdım. Fikrim var idi ki, həm hədiyyələri aparım, həm də nə vaxt idi ki, Səməngülü görmürdüm, bir az dərdləşək onunla. Onların evinə çatanda binanın qabağında Rəşadın maşınını gördüm. Qardaşım artıq bir il idi ki, özünə maşın almışdı. İndi onun maşını burda nə gəzirdi?Çoxdan ürəyimi narahat eləyən fikirlər məndə bir şübhə oyatdı. Yenə də fikirləşdim ki, qalxım yuxarı, hər şeyi yerində öyrənim. Səməngülgil dördüncü mərtəbədə olurdular. Qalxıb qapının zəngini basdım. Bir azdan qapı açıldı, qardaşımla üz-üzə gəldik. O, əvvəl bir az özünü itirdi, sonra gülümsəyərək məni içəri dəvət elədi. Mən içəri girdim, çaşqın-çaşqın ətrafa baxdım. Qardaşım mənim fikrimi düz başa düşüb izahat verdi:

--Həyat, Səməngül məndən inciyib, içəridə gizlənib, get yanına, ona de ki, mən daha onu narahat eləmiyəcəyəm.

Mən bir xeyli qardaşımın üzünə baxdım, sonra soruşdum:

--Bəlkə əvvəlcə deyəsən, burda nə olub?

--Həyat, istintaq qurma, get onun yanına, bunları sonra danışarıq. --Rəşad o qədər pərt idi ki, mən anladım ki, indi doğurdan da söz soruşmaq vaxtı deyil.

Mən yataq otağına girəndə Qismət öz balaca yatağında

yatmışdı. Səməngülsə öz yatağının üstündə oturub, həmişəki kimi əlindəki əl yaylığını didişdirirdi. Səməngül məni görüb başını qaldırdı. Onun ağlamaqdan gözləri şişib kiçilmiş, içinə də elə bil qan dolmuşdu.

--Səməngül, bəlkə sən deyəsən, burda nə baş verib?--dedim.

--Həyat, mən gərək yaşamayaydım, mən hamıya dərd-sər gətirirəm.

--Rəşad səni incidib? Düzünü de, xətrinə dəyib?Mən hər şeyi bilmək istəyirəm. Səməngül, bax, o vaxtki kimi yenə hər şeyi məndən gizlətmə!--bu sözləri çox sərt dedim, amma bilirdim ki, haqlıyam.

Səməngül mənim son sözlərimi çox düzgün başa düşdü, ona görə də həyəcanlandı:

--Sən nə danışırsan, Həyat, ürəyinə nələr gəldi? Rəşad məni incitməyib, o heç məni incidər?O mənim qardaşımdır. Sadəcə mən onu başa salmaq istəyirəm ki, daha bura gəlməsin. Camaat başqa cür başa düşər, sən ki, bilirsən, mənim əskim tüstülüdür. Mənə yardım da eləməsin. Ondansa öz həyatını qursun, evlənsin. Bunları danışırdıq, mən də bir az kövrəldim.

Mən bilirdim ki, dedikləri düz idi, amma hamısı deyildi. Ancaq daha üzatmaq istəmədim. Mən qonaq otağına keçdim, dalımca Səməngül də çıxıb mətbəxə çay tədarükü görməyə getdi. Rəşad onun nəsə hazırladığını görüb dedi:

--Lazım deyil, çay qoyma, biz gedirik.

Səməngül otağa gəlib, gözlərini gizlədərək dedi:

--Niyə?Qoy çay hazırlayım, bir stəkan için də... .

Rəşad yerə baxa-baxa ciddi bir sifətlə dedi:

--Dedim lazım deyil, biz gedirik, qalx Həyat!

Səməngül daha heç nə demədi, mən onu qucaqlayıb öpdüm, yavaşca qulağına dedim:

--Sağ ol, indi gedim, Rəşad hirslənməsin, sonra gələrəm, danışarıq.

--Yaxşı,--deyə o cavab verdi.

Biz Rəşadla evə gedirdik. Bir yerdə o maşını saxlayıb ərzaq dükanına girdi. Çox keçmədən əlində dolu bir poket qayıtdı. Mən onu

əsəbləşdirməmək üçün hələlik heç nə danışmırdım. Bir xeyli gedəndən sonra başa düşdüm ki, biz evə deyil, harasa başqa yerə gedirik.

--Rəşad, biz hara gedirik?--deyə qorxa-qorxa soruşdum.

--Bağa,--dedi.

--Bağa?

--Bax Həyat, mən bağa gedirəm, sən də yanımda olduğuna görə, deməli sən də bu gün bağa getməli oldun. Bu gün buna dözəcəksən. Daha nə sual ver, nə də söz soruş, bildin?--deyə çox əsəbi cavab verdi.

--Bildim. --dedim və susdum.

Biz bağa çatanda hələ gün günorta idi. Buna baxmayaraq hava soyuq idi. Dənizin də rəngi bomboz idi. Hələ yaza xeyli vardı. Bu havada biz burda nə gəzirdik, anlamasam da, heç nə danışmırdım. Rəşad odun gətirib ocağı qaladı, bir azdan otaq isinməyə başladı. O bayaq ərzaq dükanından aldığı çörəyi, kolbasanı, pendiri çıxardıb masaya qoydu. Məni də süfrəyə dəvət elədi:

--Gəl bacı, gəl qardaşınla bir az çörək ye. --bu sözləri deyə-deyə poketdən bir araq şüşəsi də çıxardıb süfrəyə qoydu.

--Rəşad, axı maşın sürəcəksən, içmə,--dedim

--Bax, dərs vermə. Mən sənin şagirdlərindən biri deyiləm. Birincisi, mən sərxoş halda maşın sürmək üzrə çempionam, ikincisi, biz evə gec gedəcəyik, ona qədər arağın qazı qaçar, qorxma. Yeyirsən ye, yemirsən, mane olma.

Onunla söz güləşdirməyin mənasız olduğunu görüb, təmiz havada bir az gəzişməyi qərara aldım:

--Rəşad, sən çörəyini yeyincə mən bir az sahildə gəzim, yaxşı?

--Get gəz, ancaq çox üzağa getmə,--dedi.

Rəşadın dilxorçuluğu mənə də keçmişdi, amma mən bu gün lap elə bu səbəbdən də olsa, buraya gəldiyimizə sevindim. Mən çoxdandır qışda dənizin sahilinə gəlmirdim.

***

Sahildə gəzdikcə get-gedə bizdən daha da uzaqlaşan o bəxtəvər günlərimiz yenə yadıma düşdü. Həmişə üçümüz bir

yerdə olardıq. Rəşad da bizə böyüklük edərdi, iki bacının bir qardaşı kimi. O bizim qayğımıza qalırdı, bizi hər yerdə müdafiə edirdi, bir dəqiqə də olsa gözdən qoymurdu. Biz də elə öyrəşmişdik ki, onsuz heç yerə getmir, onsuz heç bir iş görmürdük. O vaxt aramızda yalnız bacı-qardaş məhəbbəti var idi. Rəşad nə vaxt Səməngülə başqa gözlə baxmağa başladı, bilmədim. Bu gün onlar hər ikisi, hərəsi bir cür nakam idi. Rəşad Səməngülü sevirdi, Səməngül də başqasını. Firuz Səməngülü bir oyuncaq kimi oynadıb atmışdı. Bu neçə ildə bir dəfə də olsun oğlu ilə maraqlanmamışdı. İnanmıram ki, o bir oğlu olduğunu bilməsin. Buna baxmayaraq, mən əminəm ki, Səməngül ürəyinin dərinliyində Firuzun günahlarını min bir vasitə ilə yuyub təmizləyir, onu ürəyindən keçdiyi kimi, xəyalında uydurduğu bir müsbət qəhrəman kimi yaşadır, və yəqin ki, hələ də sevirdi. Canımdan artıq sevdiyim iki əziz adamım, ikisi də əzab çəkirdi, və mən onlara heç cür kömək edə bilmirdim. Sona xala o vaxt bağı satandan sonra, biz bir daha bağa yaşamağa gəlmədik. Ancaq arabir bir neçə saatlığa gələr, həyət bacada bir az gəzib-dolaşır, tez də çıxıb gedirdik. Səməngülgilin bağını alanları da nə gördük, nə də tanıdıq. Bağımız bizə bir az yad olmuşdusa da, xatirələrimizi yaşatmaqda davam edirdi. İndi bu xatirələr mənə bir ağrı-acı veriridi. Bu səbəbdən də mən bəzən bu xatirələri unutmaq istəyirdim. Bir ara hətta fikirləşdim ki, gərək biz də bağımızı sataq. Gözümüzdən üzaq olsun, könlümüzdən də iraq. Belə fikirlər də ürəyimi ağrıdırdı, heç özüm də bilmirdim ki, nə istəyirəm.

Hələlik sahildə gəzişmək mənim üçün bir hədiyyə kimi qiymətli idi. Çox şeyləri götür-qoy elədim, Rəşadla da bu günkü məsələni aydınlaşdırmağı qərara aldım. Fikirlərin kəməndinə düşüb bağımızdan xeyli uzaqlaşmışdım. Yavaş-yavaş geri gəlirdim ki, sahildə kötüyün üstündə oturmuş Rəşadı gördüm. O görünür bir şüşə arağın hamısını içmişdi ki, soyuğu hiss eləmir, yalnız bir köynəklə oturub siqaret çəkə-çəkə üfüqdə, dənizlə səmanın birləşdiyi yerdə məchul bir nöqtəyə baxa-baxa nəsə fikirləşirdi.

O elə bil məni görmürdü. Mən yaxınlaşıb sakitcə onun yanında oturdum. Fikirlərinin səfini pozmaq istəmədim. Onun indi bu sakit sahildə nələr düşündüyünü təxmin edirdim. O da öz daxili dünyasında nələrisə səliqəyə salmalı, nələrisə götürüb atmalı idi. Belə vaxtlarda insan tək qalmaq istəyir. Mən də yavaşca qalxıb evə getmək istədim. Rəşad məni dayandırdı:

--Otur Həyat, hara gedirsən?--çox içmişdisə də, mən onda bir sərxoşluq əlaməti görmədim.

--Nə bilim, dedim, bəlkə mane oluram.

--Nəyə mane olacaqsan, ürəyimi köksümdən qoparıb atmağıma? Həyatımın bu günə qədər olan hissəsini silib atmağıma? Yoxsa, içimdə ölüb bir də təzədən doğulmağıma?Bunlara mane ola bilməzsən, bunlara heç kim mane ola bilməz. Bilirsən, niyə? Ona görə ki, bunlar məndən asılı olmayan şeylərdir. Onlar indi, bu gün, burda baş verir, və heç kim buna mane ola bilməz, bildin?Otur, qulaq as, sənə gözünün qabağında baş verən, ancaq heç vaxt ağlına belə gəlməyən bir sirr açım.

--O sirri mən altı ildir ki, bilirəm, --deyə onun sözünü kəsdim. Rəşad o vaxt olduğu kimi, eyni o cür, kəskin hərəkətlə dönüb geniş açılmış gözləri ilə mənə baxdı.

--Nə dedin, bilirdin?Kim demişdi, Səməngül?

--Yox, heç kim mənə heç nə deməmişdi, özüm eşitmişdim, təsadüfən. Siz evin arxasında söhbət edəndə mən içəridə uzanmışdım. İstəmədən eşitdim. O vaxt onun sənə dediklərini eşitdiyim üçün bu gün mən Səməngülün tərəfindəyəm. İstəyirsən buna görə məndən inci.

Mən həm qardaşımı incitmək istəmirdim, həm də onun yalnış iş tutduğunu ona başa salmalı idim.

--Deməli belə... Bu qədər vaxtı hər şeyi bilirdin, hə? Bəs niyə onun tərəfindəsən? Mənim sevməyə haqqım yoxdur?

--Ona görə onun tərəfindəyəm ki, o hələ o vaxt sənə demişdi, o səni özünə qardaş bilirdi. O sənə həmişə bacı oldu, amma sən ona qardaş ola bilmədin.

--Həyat, sən nə danışırsan? Məyər bu insanın özündən asılıdır?Mən günahkaram ki, onu bacı kimi deyil, sadəcə bir qız

kimi sevdim? Sən bunu başa düşə bilmirsən?

--Rəşad, bəlkə indi mənə çox acığın tutacaq, ancaq mən sənə haqq vermirəm. Bilirsən niyə? Ona görə ki, sənin dediyin məntiqə görə bir qardaşın bir bacıya aşiq olmasına da haqq qazandırmaq olar. Bu isə dünyanın ən böyük günahıdır. Bu günah sənin tərəfindən işlənib, onun yox. Sən şeytana uymamlı idin, sən bu hissi cücərməyə qoymamalı idin. Sən hər vasitə ilə onu unutmalı idin. Axı sən kişisən, buna gücün çatardı. O yazıq altı il bundan əvvəl də sənə qardaş demişdi, indi də qardaş deyir. Sənsə, onun dərdi az imiş kimi, gör onu nə hala salmısan?

--Həyat, Həyat, sən nələr dedin, sən məni yerlə yeksan elədin ki... --Rəşadın gözləri yaşardı.

--Mən səni çox sevirəm, istəyirəm ki, sən hər şeyi ağlının ixtiyarına buraxasan. Səməngül altı il əvvəl atasının evində sultan olanda sənə qardaş dedi, yəni səni heç vaxt sevə bilməyəcəyini söylədi. Bu gün o, səmalardan yerə gəlmiş qanadı qırıq bir quşdur. Sən istəyirsən ki, o bu vəziyyətində səni qardaşlıqdan silib bir kişi kimi qəbul eləsin?Bu mümkün olan şeydirmi?Sən nəyə arxayın olmuşdun, onun çarəsizliyinə?Rəşad, mən də bu həyatda azdan-çoxdan nəsə bilirəm, odur ki, sənə deyirəm, bəlkə də Səməngül günlərin bir günü çarəsizlikdən də olsa ərə gedəcək. Amma o adam sən olmayacaqsan, onu yəqin bil. Deyim niyə? Ona görə ki, qardaşdan ər olmaz! Bu dediklərimi yaxşı-yaxşı düşün, onu rahat burax. Rəşad, ətrafa nəzər sal, gör necə qızlar var, nə qədər gec deyil, evlən oğul-uşaq sahibi ol. Sən Səməngülə yaxşı bir qardaş ola bilərsən. Axı onların bizdən başqa kimi var?

Rəşad dizlərini qucaqladı, başını dizlərinin üstünə qoyub heç nə demədən, bir xeyli beləcə oturdu. Mən qalxib evə getdim, mənim dediklərimi həzm eləmək üçün ona vaxt vermək lazım idi.

21. Biz uşaqlığımızda baxçaya getməmişdik.

Yadıma gələni bütün günü bir yerə toplaşıb evimizdə, qonum-qonşuda gördüklərimizi təkrarlayar, böyüklərin tökdüklərini yığar, özümüzü onlara bənzətmək istərdik. Odur ki, "evcik-evcik" oynayan uşaqlara diqqət edən böyüklər, onların oyununda öz

ailələrinin kiçik modelini görə bilərdi. Bunu biz sonradan pedaqoqikadan da keçdik. Məndən soruşsalar ki, qız uşağının ən çox sevdiyi oyunlar hansılardır, mən deyərəm, "evcik-evcik", "qonşu-qonşu", "xala-bacı", "gəlin-gəlin". Ən çox oynadığımız oyunlar bunlar idi. O qədər "gəlin-gəlin" oynayanda Səməngüllə bir-birimizə sağdış, soldış olmuşuq ki... Hələ o vaxt bir-birimizə söz vermişdik ki, toyumuz olanda bir-birimizə ya sağdış, ya da soldış olaq. Elimizin adətləri bir-birindən gözəl olmaqla qalmır, hər biri özündə böyük bir fəlsəfə yaşadırdı. Beləki, gəlin gedən qızın bir tərəfində artıq ailə həyatı qurmuş, həmdə uğurlu ailə həyatı qurmuş gəlin sağdış olurdusa, o biri tərəfində hələ ərə getməmiş subay qız soldış olaraq, gəlini oğlan evinə kimi müşaiət edirdilər. Biri əlində güzgü tuturdu, yəni təzə gəlinin həyatı güzgü kimi təmiz olsun, biri də yanar şamlar tuturdu, yəni yolu işıqlı, nurlu olsun. Beləcə ailəli qadın təzə gəlinə, təzə gəlin də subay qıza örnək olurdu. Həm də bu iki nəfəri gəlin özü seçirdi. Onlar ən yaxın rəfiqələr olmalı idilər. Mənim toyumda Səməngül ən yaxın rəfiqə kimi ya sağımda olmalı idi, evli gəlin kimi, ya da solumda subay qız kimi. Nə qədər oyunlarımızda bu adəti yaşadıqsa da, həyatda hər şey tamam başqa cür oldu. Ona toy qismət olmadı ki, mən də yanında olum, mənim toyuma da o gəlmədi. Əslində mənim ürəyimdən keçirdi ki, Səməngül bir rəfiqə kimi bu əziz günümdə yanımda olsun, amma bir-çox səbəblər var idi ki, onu toyuma gəlməkdən saxladı. Səbəblərdən biri də o idi ki, Səməngül öz talehi ilə nə sağdış yerinə uyğun gəlirdi, nə də soldış yerinə. O nə subay qız idi, nə də uğurlu ailə həyatı qurmuş qadın...

Evliliyimizin ikinci ilində mən institutu bitirdim, şəhər məktəblərindən birinə təyin olundum. Elə ilk pedoqoji şurada Nigarı gördüm. Sən demə, o da bu məktəbə təyin olunubmuş. İndi mən bu məktəbdə rus dilindən, Nigar isə biologiyadan dərs deyəcəkdik. O dövrdə ali təhsil alan hər kəs institutu bitirəndən sonra mütləq üç il müddətinə ən ucqar rayonda dərs deməyə getməli idi. Bu bir növ dövlət proqramı idi. Əlbəttə, istisna hallar da var idi ki, əyər məzunun həyat yoldaşı Bakıda məsul bir

yerdə işləyirdisə, onun arvadını da Bakıda işlə təmin edirdilər. İndi Nigarla mən də həmin istisna qanununa uyğun gəlmişdik. Nigarın həyat yoldaşı Oktay Amerika səfirliyində işləyirdi. Fərhadsa Respublika Yol Nəqliyyatı Nazirliyində işləyirdi. Mən Nigarı gördüyümə, onunla bir yerdə çalışacağıma çox sevinirdim. İlk dəfə işə başlamağın öz çətinlikləri var idi. Özüm təcrübəsiz idim, yad bir kollektivdə baş çıxartmaq hər halda asan olmayacaqdı. İndi heç olmasa Nigarla ikimiz baş-başa verib bunların öhdəsindən gələrdik. Nigar çox yaxşı qız idi. Onun dünyanın min cür halına çox sadə, çox da məntiqli yanaşımı var idi. Hələ uşaq yaşlarından arzusunda olduğumuz müəllim ixtisasına nəhayət ki, sahib olduğumuza çox sevinir, işə böyuk həvəslə başlayırdıq. Hamının gözü bizdə idi, deyə çalışırdıq ki, boynumuza düşən vəzifənin öhdəsindən gələk. Çalışqanlığımıza görə kollektiv də yavaş-yavaş bizə isinişməyə başlamışdı. Boş pəncərələrimiz eyni vaxta düşəndə, biz yeməkxananın müəllimlər üçün ayrılmış bölməsində oturub çay içə-içə məktəb illərindən, Səməngülün başına gələnlərdən danışırdıq. Nigar doğru deyirdi ki, o vaxt Səməngül onu o yoldan döndərmək istəyən yoldaşlarının sözünü eşitsəydi, indi o da bizim kimi öz həkim yoldaşlarının arasında olardı. Nigar tez-tez Səməngülü, Qismәti soruşurdu. Mən də doğrusunu deyirdim ki, evlənəndən, xüsusən də, işə başlayandan sonra Səməngüllə az-az görüşürdüm. Fərhad mənim Səməngüllə görüşməyimə mane olmurdu. Mən hələ nişanlı olarkən Fərhada Səməngül barədə hər şeyi danışmışdım. Onu da demişdim ki, Səməngül mənim bacım sayılır. Onun talehi necə olursa-olsun, o mənim bacım olaraq qalacaq. Fərhad da mənə söz vermişdi ki, Səməngülü bir baldız kimi qəbul edəcək, ona nə kömək lazım olsa, əlindən gələni əsirgəməyəcək. İnsafən, Fərhad dediyinin üstündə durdu. Biz ayda bir dəfə də olsa, Qismətin görüşünə əli dolu gedirdik. Qismətin artıq altı yaşı vardı. Çox ağıllı, çox tərbiyəli uşaq idi. Görünüşcə eynilə atası olsa da, xasiyyətcə anasına oxşamışdı. Normal ailədə Qismət ən arzu edilən övlad olardı. Bəlkə də Firuzun həyatı boyu belə bir oğlu olmayacaqdı. Bu gün həyatda atasız damğası ilə mərd,

zehinli, tərbiyəli bir uşaq böyüyürdü, və Firuzun ondan xəbəri yox idi. Bir gün, əvvəl-axır bu əməllərin hesabı çəkiləcəkdi. Mən əminəm ki, o vaxt Firuz Qismətdən xəbərsiz, Qismətdən ayrı yaşadığı illəri ömründən saymayacaqdı!

***

Rəşad mənim son dəfə ona dediklərimdən sonra elə bil tamam dəyişdi. Daha Səməngülgilə getmirdi, anamla, yaxud da mənimlə ona pul göndərmirdi. Xasiyyəti də dəyişmişdi, əvvəlki gülərüz Rəşad olmuşdu. Hərdən öz-özümə deyirdim ki, gərək lap elə o vaxt evin arxasında edilən söhbəti eşidəndə, mən çıxıb qardaşıma həmin bu yaxınlarda bağda dediyim sözləri deyəydim. Yazıq uşaq bu neçə illəri də bu qədər əzab çəkməzdi. Bir yandan da, gec də olsa, sözlərimin belə nəticə verdiyinə sevinirdim. Bəlkə heç olmasa Rəşad həyatını məhv eləməz, nə qədər gec deyil, özünə bir gün ağlayar. Nədənsə, Rəşaddan arxayın idim. İçimdəki MƏN deyirdi ki, Rəşadın həyatında hər şey gözəl olacaq. Amma Səməngül üçün çox narahat idim, həmişə də narahat olacaqdım. Onunla tez-tez görüşə bilməsəm də, yəqin bilirdim ki, onun həyatı sakit, macərasız keçməyəcək. Çünki, Səməngül gənc idi, gözəl idi, bir də ən əsası, tək idi. Bütün zamanlarda bu üç cəhəti özündə birləşdirən qadınlar, şorgöz, yalaq, arvadbaz kişilər üçün hədəf olublar. Macəra onların başlarından əskik olmayıb, həmişə təqiblərə məruz qalıblar. Səməngül evdə oturanda mən ondan nigararan deyildim, amma elə ki, o işləməyi qərara aldı, mən hər gün nə isə xoşagəlməz bir söz eşidəcəyimdən qorxurdum. Hissiyyatım məni bu dəfə də aldatmadı. Uzun bir aradan sonra Səməngülgilə getdim. Qismәti bir xeyli böyümüş görüb sevindim. O bu il məktəbə gedəcəkdi. Sona xala əvvəlki kimi mehriban, istiqanlı idi, ancaq kefi heç yox idi. Mən səbəbini soruşdum. Səməngül anasına mane olmaq istədi:

--Ana, Həyat ayda-ildə bir dəfə qonaq gəlib, onu bizim bitib-tükənməyən poblemlərimizlə yorma...

Mən onun bu sözündən incidim:

--Nə danışırsan, Səməngül, mən bəyəm özgəyəm?Mən qonaq da deyiləm, mən sənin bacınam. Əyər problem varsa, onu yoluna qoymalıyıq. Sən deməsən mən hardan bilim?

--Narahat olma, artıq yoluna qoydum.

Sona xala məzəmmətlə qızına baxıb üzünü mənə tutdu:

--Əcəb yoluna qoydu. İşdən çıxmaqla bir parça çörəyimizdən də olduq.

Mən təəccüblə Səməngülə baxdım:

--İşdən çıxmısan, niyə?

O çox ciddi ifadə ilə:--Belə lazım idi. --dedi.

Hiss edirdim ki, Səməngül bu söhbətin açılmasını istəmir. Birazdan o, Qismәti çimizdirməyə aparadı. Sona xala da hər şeyi mənə danışdı. Sən demə, Səməngülün çalışdığı kombinatda bir sahə rəisi var imiş. O, Səməngülə göz verib işıq vermirmiş. Elə hey Səməngülə əxlaqsız təkliflər edirmiş. Bir gün gecə növbəsində Səməngül anbardan iplik gətirməyə gedəndə, həmin adam da onun dalınca gedib. Orda hər kəsdən xəbərsiz xəlvət bir yerdə Səməngülün yolunu kəsib, qıza təcavüz eləmək istəyib. Səməngül onunla əlbəyaxa savaşına çıxıb. Lap gücü tükənən anda, fürsət tapıb yerdən bir dəmir boru götürüb, onunla da o kişinin başına elə vurub ki, kişi bir müddət özünə gəlməyib. Səməngül canını bu yolla qurtarıb. Səhəri gün həmin kişi gəlib Səməngülə deyib ki, ya sən mənimlə yaxınlıq edəcəksən, ya da mən hamıya deyəcəyəm ki, sən həmişə anbara mənimlə yaxınlıq eləmək üçün gedirsən. Ora bizim görüş yerimizdir. Hamıya deyəcəyəm ki, sən mənim məşuqəmsən. Səməngül ona bir şillə çəkib, ərizəsini də yazıb qoyub, işdən çıxıb. İndi bir ay imiş ki, Səməngül işsiz imiş. Mən bu söhbətdən elə pis oldum ki... . Bu yazıq qızın başı bəladan əskik olmazmış?Dünyanın bütün şərəfsiz kişilərini bir anda oldürməyim gəldi. İndi bu yazıqlar nə ilə dolanmalı idilər. Mən onlardan ürəyimə ağır fikirlər yükləyib çıxdım. Səməngülə də dedim ki, mütləq ona bir iş tapmağa kömək edəcəyəm. Sona xalanı kənara çəkib bir az pul da verdim. Sona xala dedi ki, Səməngül bilsə, çox acığı tutacaq. Mən də bilirdim ki, bizim onlara ara-sıra da olsa, yardım etməyimiz,

Səməngülün qüruruna toxunurdu. Ancaq vəziyyət o qədər ağır idi ki, onları belə vaxtda tək qoymaq insafdan deyildi.

Bir neçə gündən sonra yenə Səməngülgilə getdim, istəyirdim onun üçün tapdığım bir neçə iş variantını ona təklif edim, o da uyğun gələnini seçsin. Sona xala Qismətlə evdə idi. Səməngül isə yeni tapdığı işinə getmişdi. Soruşdum, nə işdir, Sona xala dedi ki, qəsəbələrinin ərzaq mağazasında satıcı düzəlib. Bir-iki gun imiş işə çıxırmış. Sona xala dedi ki, Səməngül hələki razılıq edir, deyir müdür də yaxşı adama bənzəyir. Bir istədim gedim Səməngülü iş yerində görüm, ancaq vaxtım az idi, ona görə də Səməngüllə görüşməmiş qayıdıb gəldim. Səməngülün iş tapdığını Fərhada danışdım, o da dedi ki, bəlkə elə belə yaxşıdır. Beləcə bir xeyli onları yenə həyatın axarına buraxdıq. Mən artıq hamilə idim, işdə də yorulurdum, odur ki, Səməngüllə görüşməyim artıq gec-gec olurdu.

***

Aradan bir xeyli vaxt keçdi, mən artıq analıq məzuniyyətinə çıxmışdım. Boş vaxtımı kitab oxumaqla keçirirdim. Həftədə bir dəfə anamgilə gedirdik. Bir səfərində anam mənə şad xəbər dedi. Sən demə Rəşad yanında işləyən dostlarından birinin bacısına göz qoyub, bəyənibmiş. Gəlib anama da deyib ki, hazırlaş, tezliklə səni elçiliyə aparacağam. Mən buna çox sevindim, elə bil dünyanı mənə bağışladılar. Bu gözəl xəbərlə evə gəldim. Bir az keçmişdi ki, Nigar zəng vurdu. Nigar demək olar ki, hər gün zəng vurur, mənim halımı soruşur, nə işlə məşğul olduğumu xəbər alırdı. Özü də mənə hər gün məktəbdə olanlardan-bitənlərdən danışırdı. Beləcə məni darıxmağa qoymurdu. Mən elə bildim ki, o bu dəfə də mənə məktəbdən danışacaq. Ancaq bu dəfə Higar o qədər həyəcanlı idi ki, mən də çox qorxdum. O mütləq elə indicə mənimlə görüşmək istəyirdi:

--Həyat, elə indi, bu dəqiqə görüşməliyik,--dedi.

--Nigar, məni qorxutma, de görüm, nə olub?--mən bilmirdim ki, nə fikirləşim.

--Yox, qorxma, elə bir şey deyil, gözlə gəlim, danışaram,--dedi.

Mən də qaldım ürəyimin içini yeyə-yeyə. Nəhayət, yarım saat sonra Nigar gəldi. Mən onun həyəcanını gözümlə görəndən sonra başa düşdüm ki, nəsə çox ciddi bir şey baş verib. Nigar əli ayağını basa-basa keçib oturdu:

--Həyat, bilsən mən bu gecə nələr çəkmişəm, səhərə qədər gözümü yummamışam. Sonra işə getməli oldum, işdə də güclə səbrim çatdı o bir-iki saat dərsi keçməyə. Otur qulaq as, sənə elə bir xəbər deyəcəyəm ki, ancaq sən həyəcanlanma, sənə olmaz,--dedi.

Mən onun əlindən tutub gözünün içinə baxdım:

--Nigar, əyər məni ürəkgetməsinə salmaq istəmirsənsə, keç mətləbə, nə olub?

--Sənə demişdim axı, dünən bizi toya çağırmışdılar. Oktayın iş yoldaşlarından birinin toyu idi.

--Hə, demişdin, nə oldu, getmədiniz?--deyə soruşdum.

--Getdik, necə getmədik?Sən denən nə gördük orda?

--Nə gördünüz?Sən allah bircə tez de görüm nə gördünüz?

--Firuzu gördük, bildin, Firuzu!

--Hə, nə olsun, yəqin toya gəlibmiş də... Axı o da gərək ki, orda işləyirdi...

--Az yox ey, Firuzun toyu imiş, Firuz bəy idi, bəy!

Mənim təəccübdən ağzım açıla qaldı. Bir xeyli beləcə oturub Nigara baxdım. Nigar da dediklərinin effektlərini müşahidə eləyə-eləyə daha nələrsə deməyə hazırlaşırdı.

--Danış da, danış görüm bu sərəfsiz kimi alırdı, barı qız gözəl idimi?--bilmirdim Nigarı necə danışdırım.

--Həyat, sən elə bilirsən mən bilə-bilə sözü uzadıram, danışmaq istəmirəm? Elə deyil ey, mən dünəndən şokdan çıxa bilmirəm ey... Sən gərək hər şeyi öz gözlərinlə görəydin, baxardım sənin halına...

--Axı nə olub ey, evlənir, cəhənnəmə evlənsin, daha bunda bu qədər görünməmiş nə var?

--Deyim, nə var idi?Bax sən indicə soruşdun ki, qız gözəl idimi?Orda qız yox idi, ilan var idi, ilan!!!

--Nə???... Yoxsa... . ???Ola bilməz, inanmıram!--birdən birə beynimdə hər şey bir-birinə qarışdı. Ürəyimə gələni eşitmək

istəmirdim. Bilmirdim düşündüyüm doğru olsa, mən bunu necə qəbul edəcəyəm. Nigar hər şeyi sözsüz də başa düşürdü.

--Məncə sən artıq başa düşdün, doğrudur, Almaz!!! Almaz idi "gəlin"! Dünən bu iki sərəfsizlər evləndilər. Özü də necə evləndilər ey, sən bu toyu, toyun keçirildiyi şadlıq evini, o ifritə Almaza taxılmış qızıl-brilyantı görəydin! Həyat, mən bu cür toyu ilk dəfə görürdüm, özü də gör kimlərdir ey, bu cür evlənən--gürzə Firuzla qurbağa Almaz!!!. Oktayın yanında həyat yoldaşı kimi məni görəndə rəngləri dəyişdi. Belə sürpriz gözləmirdilər. İkisi də çox mənalı baxışdılar. Əvvəl istədim, Oktayı da dartım, yarımçıq çıxıb gedək, sonra hiss elədim ki, mənim burda olmağım onların kefinə soğan doğrayır, acıqca axıra kimi qaldım ki, hər dəfə biz tərəfə baxanda özlərini suya düşmüş kimi hiss eləsinlər. İndi de görüm, sözün var buna?!

Mənim beynimdə nələrsə qarışdı, yadıma nələrsə düşdü, gözümün qabağında lap çoxdan olmuş bir mənzərə canlandı. Səməngüllə ikimizin söhbəti... Mən deyəndə ki, Firuz gələcəyinizi necə planlaşdırır, off... yazıq Səməngül, onun dedikləri yadıma düşdü, ürəyim parçalandı. O, bu sualıma cavab verəndə sevindiyindən göyün yeddinci qatında idi. İndiki kimi yadımdadır, o deyirdi :"Firuz bizim gələcəyimizi çox gözəl planlaşdırıb. Məktəbi bitirən kimi toyumuz olacaq. Firuz deyir, sənə elə bir toy edəcəyəm ki, hamı bu toydan danışacaq. " Vicdansız, o cür qızı ləkələyib atdı, Almaz kimi ilanı almağı bəs deyilmiş kimi, gör bir necə də toy eləyib onun üçün. Tfuuu!!!...

Nigarla bir xeyli beləcə lal-dinməz oturduq. Yazıq qızın şoka düşməyinə təəccüblənmədim, özüm də hələ eşitdiklərimdən şokda idim, gəl görə bir görəydim... . Nigar elə bil yatmışdı, birdən ayıldı, yerindən atılıb dedi:

--Aa... tamam unutmuşdum, şəkillər var daa... Al bax, gör bunları tanıyacaqsanmı?

O cantasından bir topa şəkil çıxartdı, mənə verdi. Elə bildim əlimə köz aldım, sanki əllərim yanacaqdı. İstəmədən şəkillərə baxmalı oldum. Onlar idi. Firuz, bir az da yaraşıqlı, bir az da lovğa, eynilə bizim sinifə ilk gəlişində olduğu kimi burnunu dik tutub

oturmuş, düz gözümün içinə baxırdı. Almaz bir az dəyişmişdi, yəqin ki, makiyaj, bəzək-düzək, bahalı gəlinlik, bunlar hamısı öz işini görmüşdü. Amma yenə də gözləri onu ifşa edirdi. Bu həmin qurbağa timsallı Almaz idi. Mən bu izdivacın riyazi həllini anlaya bilmirdim:kiminlə kim evlənmişdi? Həmin Firuz ki, bir zaman Almazdan ancaq bir buyruq qulu kimi istifadə edirdi, onun vasitəsi ilə sevdiyi qızlara məktub göndərirdi?Firuz ondan nə utanırdı, nə çəkinirdi, sanki heç adam saymırdı. Onlar ikisi də eyni cür daxili çürük adamlar idi, amma görünüşcə bir-birinə heç yaxın da gəlmirdilər. Firuzun bir gün bu çirkinlikdə qızı alacağına, şəkilləri görməsəydim, inanmazdım. Yaxud da Almaz, bir vaxt Firuzla sevdiyi Səməngülün arasında poçtalyon, aradüzəldən, qapıgüdən, daha bilmirəm nə rolunda olduğu halda, indi necə həmin adama ərə gedə bilirdi?Bəs mənlik? Bəs qürur? Ancaq hə də... biz kimdən danışırıq bəyəm?Buna da Almaz deyərlər. O vaxt öz-özümdən soruşmaqdan yorulmuşdum ki, görəsən Almazın məqsədi nədir? Bu gün mən bu sualın cavabını tapdım. Məqsəd elə bu imiş--Firuzun gözündə bütün qızları ayağısürüşkən çıxartmaq, Firuzun etimadını qazanmaq, guya dünyada bundan vəfalı, bundan etibarlı qız yoxdur, sonda da ona ərə getmək! Almazın hələ o vaxt həyata keçirməyə başladığı əməliyyat uğurla başa çatmışdı. Almaz öz arzusuna çatmaq üçün Səməngülü qurban verdi. Bəlkə də bu illər ərzində bizim bilmədiyimiz neçə-neçə qızı da eyni cür qurban vermişdi. Kim bilir?...

Nigar hələ də mənə baxır, nə deyəcəyimi gözləyirdi. Mən başımı qaldırdım, onun üzünə baxdım, gözümün yaşı məni söz deməyə qoymadı. Nigar da kövrəldi, güclə özünü toplayıb soruşdu:

--Sən bunu Səməngülə deyəcəksən?

--Nə danışırsan Nigar, heç bunu ona demək olar?Firuz Səməngülü o vaxt məhv eləmədi ey, Firuz Səməngülü dünən məhv elədi, qoy bunu Səməngül bilməsin. Heç olmasa hələlik bilməsin... . O buna dözə bilməz... Yazıqdır...

Nigar da mənim kimi qəzəbindən bilmirdi nə eləsin. O şəkilləri cıra-cıra, parça-parça eləyə-eləyə deyirdi:

--Allah sizin cəzanızı versin! Allah sizin cəzanızı versin! Allan sizin cəzanızı versin!

22. Rəşad evlənmədən əvvəl bağı satdı.

Mən nə qədər buna məyus oldumsa da Rəşadın bu hərəkətinə doğrusu, haqq qazandırdım. Səməngülgilin bağı satılandan sonra bizim bağımız orda göz dağı kimi durmuşdu. Çox nadir halda da olsa hər ora gedəndə keçmişdə olanlar yaxşısı ilə, pisi ilə yadımıza düşüb ürəyimizi göynədirdi. Hələ Rəşad bağı satanda mən başa düşdüm ki, o tezliklə evlənəcək. Rəşad keçmişin ağır xatirələrindən azad olurdu ki, o xatirələr onun gələcək həyatına kölgə salmasın.

Rəşadın toyu çox təmtəraqlı oldu. Gəlinimiz Gülnar həm gözəl idi, həm də ağıllı. Mən qardaşımın seçimini hələ nişanda, Gülnarı ilk dəfə görəndə bəyəndim. İndi onlar qöşa göyərçin kimi nugah masasının arxasında oturmuşdular, və mənim bir baçı kimi sevincimin həddi-hüdudu yox idi. Mən iki aylıq oğlumu anamın qucağına verib Fərhadın nəfəsini kəsə-kəsə saatlarla ürəkdən oynamaqla, qardaş toyunda öz bacılıq borcumu yerinə yetirirdim. Mən bu günü illərlə gözləmişdim.

Rəşadın toyu da Sona xala ilə Səməngülsüz, Qismətsiz keçdi. Bir yandan onlar bizim ən yaxın qohumlarımızdan da yaxın adamlarımız idilər, buna görə də ən əziz günlərimizdə yanımızda olmalı idilər, o biri tərəfdən də düz eləyib gəlməmişdilər. Onların, bizləri lap çoxdan tanıyan, hər şeyi bilən köhnə tanışların içində görünməsi, köhnə yaraları təzələyə bilərdi. Bəzən insan öz keçmişindən nələrisə unutmaq, birdəfəlik yaddaşından silib atmaq istəyir.

Bizim ailənin Səməngülgillə birtərəfli ünsiyyəti iki ailənin münasibətini soyumağa qoymurdusa da, əvvəllərdə olduğu kimi qaynayıb-qarışmaq da alınmırdı. Doğrudur, biz bir aydan gec olmayaraq, onları ziyarət edirdik, başımız nə qədər qarışıq olsa da, necə məşğul olsaq da, onlara baş çəkməyi unutmurduq. Ancaq bir şey var idi ki, Səməngül çox-çox əvvəl məni necə öz həyatından kənarlaşdırdısa, aradan keçən bu illər ərzində nə qədər

çalışdıqsa, ömrümüzün başlanğıcında ailələrimizin arasında olan o yaxınlığı, o bağlılığı bir daha bərpa eləyə bilmədik ki, bilmədik...

Səməngül öz həyatını gücü çatdığı kimi, əlindən gələn qədər idarə edir, heç kimdən kömək gözləmir, yardım istəmirdi. Onun təkbaşına min bir əziyyətlə sürdürdüyü həyatında yəqin ki, çox şeylərdən kimsənin xəbəri olmayacaqdı. O vaxtlar, az maaşlı işlərdə çalışan insanların evini aldığı maaş deyil, o insanın "zirəngliyi" dolandırırdı. Beləki, hər kəs öz iş yerindən nəsə oğurlayıb gətirir, yeməlidirsə yeyir, yeməli deyilsə satıb pul eləyirdi. Zirəngliyi olmayan insanların yaşayışı demək olar ki, həyatın dibində idi. Ona görə də, heç bir zirəngliyi olmayan Səməngülün həyatını təsəvvür eləmək çətin deyildi. Sona xala yəqin ki, elə çətin yaşayış üzündən vaxtından çox tez qocalırdı. Axır vaxtlar haçan gedirdimsə, onu xəstə görürdüm. Qismət artıq böyük oğlan idi. On yaşı var idi, ancaq yaşına görə çox ciddi oğlan idi. Mən ailənin içindəki abı-havanı bilməsəm də, Qismət gözümə başqa həmyaşıdlarından çox fərqli görünürdü. Onun ağıllı gözlərinin lap dərinliyində güclə sezilən bir kədər gizlənmişdi. Mən bu kədəri görürdüm. Bu kədər mənim ürəyimi deşirdi, ancaq mən Qismətə elədiyimdən artıq kömək edə bilmirdim, çünki, bilirdim ki, Səməngül bundan sıxılır, hər şey onun qürurunu toxunur. Həm də Qismətin gözlərində özünə yer eləmiş kədərin səbəbi dünya malı deyildi, atasızlıq idi. Hamının atası var idi, ondan başqa. Atanı kimlə, yaxud nə ilə əvəz eləmək olardı? Heç kimlə, heç nəylə!Məsələ də elə bu idi. Qansız Firuzun, görəsən bunlardan xəbəri var idimi? Firuz elə əvvəlindən vicdansız bir məxluq idi, ancaq əyər, günlərin bir günü onun oğluna qarşı vicdanı oyanmaq istəsə, mən bilirdim ki, onun yolunu Almaz kimi bir ilan kəsəcəkdi.

Nigar danışırdı ki, Firuz öz qurbağasını yanına alıb günyanı gəzdirir, sonra da oralarda çəkilmiş şəkilləri gətirib işdə hamıya göstərir. Bunları eşidəndə elə qəzəblənirdim ki, istəyirdim, zəng vurub onların isti aşına necəsə bir soyuq su qatım. Ancaq Fərhaddan çəkinirdim. Fərhad buna icazə verməzdi.

***

Həyatsa davam edirdi. Bir gün Rəşadın da oğlu oldu. O günü anamla Gülnarı xəstəxanada ziyarət edib, ona lazım olan şeyləri də içəri göndərdik. Anam Gülnar üçün çaldığı quymaqdan Sona xala ilə Səməngül üçün də pay götürmüşdü. Bir az, tolkuçka adlanan qara bazardan mer-meyvə, Qismət üçün də geyim şeyləri alıb sevincimizi paylaşmaq üçün köhnə dostlarımız olan köhnə qonşularımıza qonaq getdik. Mən iki yaşlı oğlum Səmədi öz arabasına qoymuşdum deyə, biz əziyyət çəkmədən metroya minib, Əhmədliyə getdik. Fəthad işdən çıxıb dalımızca gələcəkdi. Gün hələ yenicə başlayırdı, və anamla fikirləşirdik ki, bu gün vaxtımız çox olacaq, rəfiqələrimizlə doyunca söhbət edərik. Biz qapının zəngini basdıq, Sona xala qapını açdı, bizi görüb kövrəldi, boynumuza sarılıb ağladı. Doğurdan da son gəlişimizdən xeyli vaxt keçmişdi, ona görə də Sona xalanın bu cür kövrəlməyə haqqı var idi. Biz içəri girdik, uzun fasilədən sonra onların evi gözümüzə çox kasıb, çox baxımsız göründü. Anamla biz baxışdıq. Sona xala dedi ki, Qismət məktəbdədir, bir azdan gələcək. Biz Səməngülü soruşduq, Söna xala yenə ağlamağa başladı. Başa düşdük ki, yenə də nəsə olub. Nəhayət, anam dözmədi:

--Ay Sona, sən Allah ürəyimizi üzmə, de görək nə olub? Hardadır Səməngül? --deyə soruşdu.

--Səməngül evdədir, dərman vermişəm, sakitləşdirici, bir az var yuxuya gedib. Yəqin bərk yatıb ki, gəlişinizi eşitmir.

--Dərman vermisən?Axı nə olub, Sona xala, de görüm, nə olub Səməngülə? --deyə bu dəfə mən soruşdum.

Sona xala Səmədi qucağına alıb öpdü, sonra da bizi sakitləşdirmək məqsədi ilə dedi:

--Ay başınıza dönüm, məyər bilmirsiniz ki, adamın yiyəsi-sahibi olmayanda onu çatan da əzmək istəyir, yetən də? O da ola mənim başı bəlalı yetimim? Qurban olum Allaha, denən bəxtini ki, vermiyəcəkdin, neyləyirdin bu gözəlliyi ona verirdin?Çox bəxtəvər gündəyik, üstəlik macərasız günümüz də yoxdur.

Yorulduq, usandıq mübarizə aparıb çarpışmaqdan, ay sizə qurban olum! Yazıq balam bir parça çörəyini elə bil odun-alovun içindən çəkib çıxardır. Belə də zülüm olar? İndi oyansın gəlsin, görün əlləri sınmışlar balamı nə günə qoyublar?

Belə deyəndə mən artıq dözə bilməyib Səməngülün yataq otağına girdim, gördüyüm mənzərədən tüklərim biz-biz oldu. Səməngulun üzündə islahat yox idi. Ağzı, burnu, qaşının üstü, hamısı yarılmışdı, bədəninin yorğandan görünən hissəsi də göm-göy idi. Onu bu hala kim salmışdı, niyə salmışdı, bunları bilmək üçün Sona xalanın yanına qayıtdım. Əsəbdən elə bil ürəyim beynimdə vururdu.

Mən hövsələsizlik edərək, Sona xalanın başının üstündə durdum:

--Danış, Sona xala, nə olubsa, hamısını bir-bir danış...

Sona xala məni bu halda görüb soruşdu:

--Gördün bala, gördün nə hala salıblar balamı? Buna insan dözər? Oyanmadı ki?

Mən keçib anamla Sona xalanın qarşısında oturdum. Anam sual dolu gözlərlə mənə baxırdı.

Mən bir xeyli susdum ki, nəfəsimi tənzimləyə bilim, sonra aramla sözə başladım:

--Ana, Səməngülü möhkəmcə döyüblər, qızda islahat qoymayıblar. İnsanı bu hala salmaq üçün çox ciddi səbəblər olmalıdır. Sona xala, başdan ayağa danış, görək nə olub?Onu o hala kim salıb, niyə salıb? Bax, heç nəyi gizlətmə, hamısını danış.

Sona xala dərindən bir ah çəkib sözə başladı:

--Ay bala, o vaxt Səməngül kombinatdan çıxdı haa... . ondan sonra bir neçə ay işsiz qaldı axı... Sonra bir gün bizim ərzaq dükanından alış-veriş edəndə görür ki, divara elan vurublar, satıcı axtarırlar. Gedir müdürün yanına deyir ki, mən iş axtarıram, ancaq heç vaxt satıcı işləməmişəm. O da görünür insan adam imiş, deyir ki, gəl başla işləməyə, işləyə-işləyə öyrənərsən. Nə başınızı ağrıdım, elə o vaxtdan da artıq uç ildir ki, orda işləyirdi. Həmişə də müdürdən razılıq edirdi ki, insan adamdır, həmisə pulumu vaxtlı-vaxtında verir, ərzaqla kömək edir. Həmişə də deyirmiş ki, nə

versəm, götür, həyat çox çətindir, sən də köməksizsən. Mən özüm neçə dəfə soruşmuşam ki, qızım birdən sənə başqa fikirlə kömək edər, bilməzsən haaa... Səməngül də cavbında deyib ki, nə danışırsan ana, onun gözəl ailəsi var, özü də gözü tox adamdır. Mən də inandım ki, bu belədir. Fikirləşdim ki, belə olmasaydı, Səməngül orda bir gün də işləməzdi. Nə başınızı ağrıdım, təxminən bir il bundan əvvəl həmin dükana yeni satıcı gəlir, pozğunun biri, başlayır müdürə qaş-göz oynatmağa. Kişi bir deyir özünü düz apar, iki deyir, axırda onu işdən qovur. Bu da eləmə tənbəllik, gedir müdürün evinə, oturub özündən düzəltdiyi rəvayəti bunlara danışmağa başlayır. Guya, bu işə düzələndən sonra fikir verib görür ki, bahooo... burda bir sevgi macərası yaşanır ki, gəl görəsən. Guya, dəfələrlə Səməngülə deyir ki, eyibdir əl çək evli kişidən, onun gül kimi ailəsi var. Guya, Səməngül bunun dediyini heç vecinə də almırmış. Guya bu bir dəfə də deyəndə, Səməngül buna deyib ki, bilirsənmi nə var, mən bu kişinin ikinci arvadıyam, burda sənlik bir iş yoxdur. Guya sonra Səməngül bu sohbəti müdürə xəbər verib, müdür də onu buna görə işdən qovub. Müdürün arvadı o gündən evdə əri ilə qırğına başlayır ki, bəs belə, deməli neçə ildir məni aldadırsan, deməli işdə də arvadın var imiş. Uzun sürən qalmaqaldan sonra arvad ərindən tələb edir ki, Səməngülü işdən çıxartsın. Kişi razı olmur, deyir ki, deyilənlər hamısı yalandır, böhtandır, ona görə də mən sənin dediyini eləmiyəcəyəm. Səməngül həm yaxşı işçidir, həm əli-ayağı düzdür, daha başqaları kimi dükanı çapıb talamır. Ər bir söz deyir, arvad başqa söz. Nəhayət günlərin bir günü qadın Səməngülə işə zəng vurub ağzından gələni deyir, onu ən pis söyüşlərlə söyüb, abırdan salır. Sözünün sonunda da ultimatum verir ki, bir-iki günün içində hesabını alıb işdən çıxmasan, sənin üçün çox pis olacaq. Səməngül deyir, müdürə nə qədər dedim ki, sən Allah, qoy çıxım gedim, başım həyatdan o ki var çəkib, bir də bu gəlməsin başıma. Deyir, müdür razı olmadı ki, elə şey ola bilməz, sən ona fikir vermə, işini işlə, qalanını mən həll edərəm. Bu da həll eləməyi, gözünə girsin. Dünən özü harasa gedibmiş, yəqin ki, evdə bilirlərmiş, axşam iş qurtaranda arvadı, baldızı, qaynanası, gəlirlər dükana, qapını

içəridən bağlayırlar, qızı o günə salıb gedirlər. Dünəndən nə illah edirəm, həkim çağırmağa da qoymur, deyir, həkim milisə məlumat verər, bir də gərək milislərə düşək, deyir mən ədalət axtaran deyiləm, bu dünyada ədalət yoxdur, olmayan şeyin nəyini axtarım? Səhər deyir, ana, səs salma, qoy yaralarım sağalsın, gedib özümə başqa bir iş axtararam. Oğluna da deyib ki, guya axşam işdən gələndə onu maşın burub, qaçıb. Bircə görəydiniz, yazıq uşaq nə hala düşmüşdü, güclə sakitləşdirmişik. Yazıq uşağı həm qeyrət boğur ki, anasını kimsə bu hala salıb, həm də əlindən bir şey gəlmədiyinə görə, çarəsizlikdən öz otağında qapını da bağlayıb, nə qədər ağlayıb.

Bu yerdə Sona xala yenə də ağlamağa başladı. Anam onu sakitləşdirirdi, mənsə fikirləşirdim ki, görüm bu vəziyyətdə nə eləmək olar?Ağlıma bircə şey gəldi, Fərhada zəng vurmaq. Mən zəng vurub Fərhada hər şeyi qısaca danışdım, Fərhad dedi ki, oturub gözləyək, bu saat gələcək. Mən bilirdim ki, Fərhad bir işə baş qoşdumu, axırına çıxmasa, əl çəkməyəcək.

Fərhadın gəlməyi saat yarım çəkdi. O gələndə artıq yanında milis işçiləri də var idi. Mən bunu heç gözləmirdim. Fərhad dedi ki, biz Səməngülü oyadıb buraya gətirək. Mən Səməngülü oyadanda o əvvəlcə elə bildi ki, yuxu görür, key-key üzümə baxırdı. Tam ayılandan sonra mən məsələni yavaş-yavaş ona başa saldım. O, həmişə olduğu kimi yenə də geri çəkilmək istəyirdi, mən ona necə təsir eləməyi, artıq bilirdim, odur ki, dedim:

--Səməngül, məni yaxşı dinlə, əyər indi sən sözünü deməsən, haqqını tələb eləməsən, səni döyənləri cəzalandırmasan, hamı elə biləcək ki, sənin müdürün arasında doğurdan da nəsə varmış, anladın?İndi qərar ver.

Səməngül çaşqın-çaşqın üzümə baxdı, sonra özünü səliqəyə salıb mənimlə yataq otağından çıxdı. Fərhad da, milis nəfəri də onun halını görəndə, bir də əmin oldular ki, bu işi belə qoymaq olmaz. Mən isə fikirləşirdim ki, görəsən Qismət anasının bu halını görübmü?Görübsə, yazıq uşaq görəsən nələr keçirib?

Fərhad bu işin başını buraxmadı. Səməngülü tibbi ekspertizaya apardı, bu faktla bağlı istintaq işi açdırdı. Səməngül nə qədər

zarıdısa ki, müdür yaxşı adamdır, Fərhad ona acıqlanıb dedi ki, yaxşı adam işin bu yerə gəlib çıxmasına imkan verməməli idi. Onun ailəsindən olan üç qadın törətdiyi əmələ görə cavab verməlidir. Səməngül bundan sonra susdu, ancaq Fərhadın dediklərinə əməl eləməyə başladı. Müstəntiq artıq hər şeyi hazırlayıb məhkəməyə verəcəkdi ki, bir gün Fərhad işdən gəlib məni oturtdu, özü də qarşı tərəfdə oturub dedi:

--Həyat, bilirsən, bu gün o Səməngülün müdürü yanıma gəlmişdi.

--Xeyir ola?--deyə soruşdum.

--Mənimlə danışmağa gəlmişdi, deyir ki, gəlin məsələni yaxşılıqla yoluna qoyaq. Mənim yoldaşım, qaynanam, baldızım həbsə düşsə, mən gərək başımı qaldırıb millətin üzünə baxmayım. Soruşdum ki, təklifin nədir, dedi ki, gəlin ondansa mən o ailəyə pulla cərimə ödəyim, onlara da kömək olar, Səməngül də öz şikayət ərizəsini geri götürsün. Deyir Səməngül bilir ki, mən onu bir bacı bilmişəm, əlimdən gələni eləmişəm, indi o da məndən nə istəyir, istəsin, təki bu iş məhkəməyə gedib çıxmasın.

Biz ikimiz də bir xeyli fikirləşdik, axırda Fərhad soruşdu:

--Həyat, bu söhbətdən ağlın bir şey kəsdimi?

--Fərhad, əyər sən məndən bunu soruşursansa, deməli sənin ağlın nəsə kəsir, düzdür?

--Doğrusu, mən də fikirləşirəm ki, o qadınları həbsə atmaq Səməngülə heç nə vermiyəcək. Ondansa, fikirləşib o adama elə məbləğ deyək ki, Səməngül həm bir az müalicə olunsun, həm də özünə yeni iş tapana kimi əllərində çörək pulları olsun, buna nə deyirsən, belə eləyəkmi?

--Vallah düz deyirsən, onsuz da Səməngül də özünü yeyib-tökür ki, o kişi yaxşı adamır. Elə isə onun üçün də yaxşı olsun, Səməngül üçün də.

--Səncə Səməngül buna razı olacaq?

--Sən desən, razı olacaq, səndən çəkinir.

--Onda, Səmədi də geyindir, özün də geyin, gedək onlara.

Məsələnin bu şəkil alması məni çox sevindirdi. Doğurdan da hər iki tərəfə sərfəli yol olduğu halda o məhkəmələr, o rüsvay-

çılıqlar nəyə lazım idi. Fərhad Səməngüllə danışdı, onu razı saldı. Bir neçə gündən sonra Fərhad müdürdən aldığı əlli min manatı Səməngülə verəndə, Səməngül təəccüblə Fərhada baxdı:

--Belə çox niyə, siz istədiniz?Bu çoxdur. --deyə həyəcandan bilmədi nə desin.

Fərhad onu sakitləşdirib dedi:

--Sakit ol, mən heç nə deməmişəm, özü bu qədər gətirib, deyir, o qıza yaxşılıq eləməyi fikirləşirdim, yamanlıq elədim, bunu götürsün ki, mən də rahat yaşaya bilim. Mən də dedim, bu çoxdur, o da dedi ki, bu çox pul deyil, çoxun üstündən verilən puldur, götürsün, halal xoşu olsun. Bir işinə yarasa, mən də rahat olaram. Məsələ belədir. Sən də uzatma, al bu pulu, sizin bu pula ehtiyacınız var. Bir azına evinizi təmir elətdirərik, bir az Qismətə xərcləyərsən, qalanı da lazım olacaq, bu o qədər də böyük pul deyil.

Səməngül pulu alıb üzünü mənə tutdu:

--Həyat, ikiniz də çox sağ olun, sizsiz mən neyləyərdim? Sizə bu əziyyəti çəkdirdiyimə görə elə xəcalət çəkirəm ki... Bir də çox sağ olun.

Sona xala məni qucaqladı:

--Sizə qurban olum, Həyat, balana da qurban olum, nə yaxşı ki siz varsınız, Allah köməyiniz olsun!

Beləcə yaxşılıqla bitən bir macəranın, heç olmasa belə bitməsinə sevinərək, onlardan ayrıldıq. Yolda Fərhad dedi ki, onları yalnız qoymaq olmaz, daha tez-tez gedib gəlmək lazımdır. Həyat yoldaşımın bu qədər anlayışlı olması məni çox sevindirdi. O maşını sürürdü, mən də arxadan onu qucaqlayıb üzündən öpdüm. Fərhad mənə gülümsəməklə cavab verdi... .

23. İnsan mənəviyyatının özülünü təşkil edən ən güclü hisslərdən biri də vətən məhəbbəti, vətənə bağlılıqdır.

İnsanın torpaqdan yaranması versiyasında yəqin ki, torpaq deyəndə hər bir insanın doğulduğu torpaq nəzərdə tutulur. Əbəs deyil ki, vətənə məhəbbət də ilahi məhəbbət, valideyin məhəbbəti, övlada məhəbbət, və iki unsanın bir-birinə məhəbbəti kimi ülvi duyğularla bir sırada durur, hətta ikinci yerdə gəlir.

İnsan dünyanın harasında yaşayır, yaşasın, günü nə qədər xoş keçir, keçsin, onun içində doğulduğu torpağa həsrətdən doğan bir göynərti, bir həzin inilti yaşayır, və o həsrət bitənə kimi davam edir. Vay o gündən ki, vətənə qayıda bilməyəsən, və vətən sənin üçün əlçatmaz bir arzuya çevrilə, onda həmin o göynərti sağalmaz yaraya çevrilib ömrünün axırına kimi dərinləşə, dərinləşə gedir. Bunu ancaq qəriblik çəkənlər bilir. Necə ki, hər şeyin qədrini itirəndən sonra bilirik, elə də vətənin də qiymətini ondan uzaq düşəndən sonra başa düşürük. Mən o vaxt hələ bilmirdim ki, qarşıda taleh mənim üçün necə sürprizlər hazırlayıb. Vətəndən uzaq düşəcəyimi, uzun sürən qəriblik həyatı yaşayacağımı hələ bilmirdim... .

Mən həyatım boyu bir iki dəfə vətənimdən uzaqlaşmışdım. Moskvada, Pribaltika ölkələrində, İstambulda olmuşdum. On-on beş gün davam edən bu turistik səfərlərdən dönəndə, getdiyim yerlərdə nə qədər gözəlliklər görmüş olsam da, təyyarədən enəndə az qalırdım dizlərimi yerə atıb doğma torpağı öpüm. Bu mənim doğulub boya-başa çatdığım doğma şəhərim idi. Mənim ömrümün əlli ilindən çoxu bu şəhərdə keçmişdi. Onun gur insan toplaşmış bazar meydanları, alış-veriş yerlərindəm bir az uzaq sakit küçələri, bəzi yerdə ucları baş-başa gələn hündür binaları, bəzi yerdə iki nəfərin yan-yana keçə bilmədiyi dar dalanları, mənim uzun illər boyu gəzib dolaşdığım, oxuduğum, işlədiyim, bir sözlə, yaşadığım şəhərim idi. Doğma Bakımızı, onun dənizkənarı bulvarını, sahilyanı küçələrini, dağüstü parkını çox sevirdim. Bu saydığım yerlər Bakı əhlinin ən çox sevdiyi gəzinti yerləri idi. İsti yay günlərində evdə havası çatmayan şəhər sakinləri şəhərin ən hündür yeri olan Yasamaldan da olsa, gəzə-gəzə gəlib dənizin gözəlliyini seyr eləməyə, havasını udmağa, axşamüstülər təşkil olunan canlı konsertlərə tamaşa eləməyə ərinmir, axın-axın gəlirdilər. Bu gəzintilər bayram günlərində kütləvi olurdu. İş yerlərindən, məktəblərdən, institutlardan qrup halında toplaşıb gələn insan axını nümayişə çıxar, dəstə-dəstə sahilyanı bulvara axışardı. . Bayram nümayişləri hər idarə və müəssisədə təşkil olunardu, və məcburi xarakter daşıyardı. Buna

baxmayaraq biz bu nümayişləri həstətlə gözləyər, ciddi hazırlaşar, böyük həvəslə gələrdik. Butun əmək kollektivləri, orta və ali məktəb müəllim və şagirdləri, fabrik və zavodların əmək kollektivləri, rəhbərindən tutmuş, fəhləsinə kimi hamı birlikdə, əllərində kommunizm şüarları, bayraqlar dalğalana-dalğalana, hökümət evinin qarşısından dövlət başçılarını salamlaya-salamlaya, keçib gedərdi. Kommunist ideologiyasına görə, bu akt, dövlət başçıları ilə xalqın bayramlaşması idi. Yalnız bundan şonra, hər kəs öz yaxınları ilə gəzintini istədiyi yerdə davam etdirərdi. Uzun illər boyu bu belə olmuşdu. Uzun illər boyu biz belə yaşamışdıq...

Belə bayram gəzintilərindən birinə, Nigarla sözü bir yerə qoyub, iş yoldaşlarımızdan əlavə Səməngüllə Qismәti də siralarımıza qoşmuşduq. Mən hələ o vaxt Səməngülün başına gələn o son hadisədən sonra Fərhadın məsləhətinə əməl edərək özümə söz verdim ki, həyatımızda nə kimi şənlik, yığıncaq olsa, Səməngülgili də oraya çəkəcəyəm. Onlar yalqız qalmamalı, özlərini də bu həyatdan təcrid etməməlidirlər. Son hadisədən sonra Fərhad ustaları töküb onların evlərini gözəl təmir elətdirdi. Mən Səməngülü də götürüb əyin-baş bazarlığına apardım, onun özünə də, Qismətə də, Sona xalaya da bol-bol əyin-baş aldırdım. Elə bil ki, evlərinin təmiri uzə güləndə, onların da qırışığı bir az açılmağa başladı. Səməngül həmişəki kimi tərslik eləmir, mənim sözümü eşidir, dediyimi edirdi. Bu görülən işlər həm də ona görə gözəl nəticələr verirdi ki, Səməngül bunları öz pullarına edirdi. Daha utanıb-çəkinməyin yeri yox idi.

Biz Fərhadla onları bir dəfə atamgilə də gətirdik, atamla barışdırdıq. Buna ən çox sevinən Sona xala ilə anam oldu. Atam özünü nə qədər tox tutmuşdusa da, kövrəldiyi göz qabağında idi. Onun da elə bil ürəyinin üstündən yuk götürüldü. Bundan Sonra Səməngülgilin ayağı bizlərə açıldı. Bir iki dəfə onları öz evimizə qonaq gətirdik. Bir dəfə də, doğrudur, çox çətinliklə də olsa, Rəşadın oğlunun ad gününə apardiq. Beləcə ailələrimiz arasında işinişmə başladı. Mən buna çox sevinirdim. Bu dəfə də yenə zorla yola gətirib onu bayram gəzintisinə gətirmişdim. Qismət

üçün bu çox böyük bir təəssürat idi. Yaziq uşaq harda olmuşdu ki, nə də görəydi.

Nigar da Səməngülü yola gətirib aramıza aldığımıza görə uşaq kimi sevinirdi. Nigar bu gun nümayişə əli dolu gəlmişdi. O, Qismətə qol saatı, bir də içi şirniyyatla, cürbəcür bulkalarla, peçenyalarla dolu, xalis dəridən bahalı məktəb çantası almışdı. Səməngül də, Qismət də əvvəlcə bu hədiyyələri almaq istəmədilər. Ancaq Nigar Qismətin boynunu qucaqlayıb dedi:

--Qismət, mən də Həyat kimi, sənin xalanam. Səni də çoxdandır görməmişəm. Odur ki, sözümü yerə salma, adam xalasının hədiyyəsini geri qaytarmaz. Götür, sağlığına qismət! Hələ səni bir gün evimizə də aparacağam, görəcəksən xalanin necə gözəl qızı var. Adı da Fatimə. Onun hələ bircə yaşı var, ancaq elə ağıllı qızdır ki, bax görəcəksən.

Biz Nigarın öz balaca Fatiməsini beləcə tərifləməsinə ürəkdən güldük. Yalnız bundan sonra Səməngül özü də təkid elədi ki, Qismət verilən hədiyyələri götürsün. Mən balaca Səmədimi anamın yanında qoymuşdum. Mən Səmədi anamgilə aparanda Rəşadla Gülnar da orda idi. Onlar da balaca Turalı gətirmişdilər. İndi mən hərdən narahat olurdum ki, anam ikisinə də baxa biləcəkmi?

Bu gün hər kəs nümayişdə olmalı idi, evdə yalnız işləməyənlər qala bilərdi. Ona görə də belə günlərdə bir də görürdün, qarşıdan yüz il görmədiyin tanışlar gəlir, yaxud, elə bir az bundan əvvəl ayrıldığın həyat yoldaşına rast gəlirsən. Bu gün belə gün idi.

Nümayiş artıq başa çatmışdı, biz də yolumuzu lap dənizin kənarına saldıq. Fikrimiz var idi, Qismәti ilk dəfə katerə də mindirək. Əvvəlcə köşklərdən birində oturub dondurma yedik. Sonra katerə minib taa... dənizin ortasına, Nargin adasının yaxınlığına kimi gedib, ordan geri qayıtdıq. Nigarla mən Qismətin hər şeyə neçə maraqla baxdığına fikir verirdik. Yaziq uşaq, özünün on dörd illik ömründə görünür ilk dəfə belə bir gəzintiyə çıxmışdı. Onun gördüklərinə reaksiyasından məlum olurdu ki, bu həqiqətən belədir. Bu görüntüyə ikimizin də ürəyimiz ağrıdı. Bu gün Səməngülün də, Qismətin də heç vaxt

olmadığı kimi üzləri gülürdü. Biz də bundan mənəvi zövq alırdıq.

Nigarla Səməngül bir-biri ilə bu neçə illərdə olub-keçənlərdən söhbət edirdilər. Mən də Qismətlə yanaşı gedir, ətrafda çalıb oxuyan, oynayan, milli geyimli gəncləri göstərib, onların hansı kollektivdən gəldiklərinə dair məlumat verirdim. Qismət çox dərrakəli uşaq idi, hər şeyi çox tez qavrayırdı. Onun zehninə, geniş dünya görüşünə, hər şeydən məlumatlı olmağına həsəd apardım. Mən bilirdim ki, Qismətin oxuması ilə, məlumatlanması ilə məşğul olmağa Səməngülün nə vaxtı var idi, nə də həvəsi. Yaşadıqları o ağır həyat şəraitində Səməngül yalnız çörək hayında olurdu. Səməngül özü deyirdi ki, Qismət əlinə düşən kitabları elə acgözlüklə oxuyur ki, elə bil həyatı bu məlumatlardan asılıdır. Deyirdi, hərdən mənə elə suallar verir ki, cavabını tapmaqda çətinlik çəkirəm. Bunları deyəndə, hiss olunurdu ki, Səməngül öz oğlu ilə qürur duyur. Halbuki, Qismət balaca olanda Səməngül ona sakit-sakit baxar, başqa analar kimi onu min-bir dillə dindirməzdi. Bir dəfə mən də dedim ki:

--Ay insafsız, bu cür balanı niyə şirin sözlərlə dindirmirsən? Niyə üzünə mat-mat baxırsan?

Səməngül cavabında ah çəkib dedi:

--Bilirsənmi Həyat, mən hər ona baxanda başa düşürəm ki, o mənim sevincimi də kədərimi də özündə yaşadan bir varlıqdır. Bunda onun heç bir günahı yoxdur, ancaq bu bir həqiqətdir. Onun atasına bu qədər oxşamasına bilsən necə əsəbləşirəm. Atasına oxşamaqla, ondan gördüyüm məhəbbəti də, ondan gördüyüm xəyanəti də yadıma salır, unutmağa qoymur.

Mən sevinirdim ki, Səməngülün oğluna münasibəti nəhayət ki, dəyişib. Qismət indi on görd yaşında anasından bir baş hündür idi. Üstəlik ağlı-kamalı da onun yalnız görünüşcə atasına bənzədiyini göstərirdi. Bu gün Səməngül oğlunun boy-buxununa, ağlına, kamalına da ancaq fəxrlə baxırdı. Qismət onun arxası, dirəyi idi. Mən Qismətlə irəlidə gedirdim, və bilirdim ki, Səməngül arxadan gələ-gələ oğluna baxır, baxdıqca da ürəyi dağa dönür.

İndi də beləcə qarşı-qarşıya gələn insan axınını yara-yara gedir, arabir dönüb geri baxırdıq ki, Səməngüllə Nigarı gözdən itirməyək. Bu boyda izdihamın içində bir-birimizi itirsəydik, tapmağımız qeyri-mümkün idi. Onda gərək hər kəs qayıdıb evinə gedəydi. Mən arada Qismətin əlindən də tuturdum.

Beləcə, xala-bala danışa-danışa gedirdik. Birdən hiss elədim ki, qarşıdan gələnlər düz üstümüzə gəlir, başımı qaldıranda qarşımda yerlərində donub qalmış bir qadınla bir kişini gördüm. Nigarla Səməngül də gəlib çatmışdılar. Onlar da söhbəti kəsib bizim yolumuzun üstündə hərəkətsiz dayanmış qadınla kişiyə baxırdılar. Təkcə Qismət başa düşmürdü ki, nə baş verib.

Qarşımızda dayanan Firuzla Almaz idi. Almaz xain baxışlarla bizi bir-bir başdan ayağa süzürdüsə, Firuz gözünü Qismətə dikib donub qalmışdı. Almaz birdən nəsə hiss edib ərinə, sonra da ərinin baxdığı yerə baxdı,... Qismәti gördü,... rəngi ölü rənginə döndü... Onlar yalnız bundan sonra dönüb Səməngülə baxdılar. İkisinin də çox şık, harınlamış görkəmindən elə bil qasırğa gəlib keçdi. Hər ikisi gözümüzün qabağında bərbad hala qaldılar. Mən birdən xatırladım ki, Səməngül onların evli olduğunu bilmirdi, dönüb Səməngülə baxdım. Səməngülün yaşla dolu gözləri sanki hədəqəsindən çıxacaqdı, Firuza baxırdı. Nigar da vəziyyəti başa düşüb tələsik dedi:

--Ooo... Kimləri görürük, məşhur cütlük, necəsiniz, hardasınız? Hələ Hollivud ulduzu olmamısınız ki? Əyər olmamısınızsa aktyorluq sənəti çox şey itirdi. Bağışlayın, tanışlıq vermədik. Əslində, tanışlığa heç gərək də yoxdur, siz bizi tanıyırsınız, biz də sizi. Tanımadığınız təkcə Qismətdir, onunla da buyurun tanış olun, Qismət-Səməngülün, həm də təkcə Səməngülün oğlu. Boy-buxununa fikir verməyin, atasına oxşayıb, əslində on dörd yaşı var. Atasının xəbəri son dəfə Amerikadan gəlmişdi. Yadıma düşmüşkən, onu siz də tanıyırsınız. Harda görsəniz bizdən salam deyin.

Bu yerdə, Səməngül Qismətin qolundan tutub apara-apara dedi:

--Nigar, mən icazə vermirəm, sus, danışma!

Nigar da sözünü belə bitirdi:

--Yaxşı, biz daha gedək, siz bizim üçün maraqlı olmadınız, bay-bay!

Bu baş verənlər neçə dəqiqə oldu, bilmirəm, ancaq onu bilirəm ki, bir belə vaxtı onların nitqi elə qurumuşdu ki, bir kəlmə, bir səs belə çıxarda bilmədilər. Nigarsa onların ürəyinin başına od qoydu. Nigardan eşitmişdim, bilirdim ki, evləndikləri dörd il olsa da, hələ də övladları yox idi. Afərin sənə, Nigar! İki daşın arasında o qədər sözü də hardan tapdı, bilmədik.

Bayram gəzintimiz yaxşı başlamışdı, heyif ki, belə bir təsadüflə bitdi. İndi-indi azacıq üzü gülməyə başlayan Səməngül yenə də içinə qapandı. Onun bu gün gördükləri onun üçün o qədər dəhşətli bir yenilik idi ki, Səməngülün əsəbləri hələ davam gətirmişdisə, şükür eləmək lazım idi. Doğurdan da, o iki insan adına layiq olmayan məxluq, əl-ələ verib Səməngülün həyatını birgə alt-üst eləmişdilər, sonra da həyat yolunu qoşa getmək üçün özlərindən daha şərəfsiz heç kimi tapmayıb, bir-biri ilə evlənmişdilər. Kimə desəydin, inanmazdı. Ancaq bu belə idi. Hələ bu gün gördüyünü və eşitdiyini heç cür başa düşməyən Qismət var idi ki, bayaqdan sual dolu baxışlarla bir-bir üzümüzə baxırdı. O bizdən izahat gözləyirdi, o yaşda da deyildi ki, başını bir yalanla aldadasan. Nigar təklif elədi ki, bir çayçıda oturaq, həm çay içək, həm də bir az söhbət edək. Mən bu təklifi bəyəndim, ancaq Səməngül yenə bizdən yaxasını qurtarmaq istəyirdi. Yəqin fikirləri ilə təkbətək qalmaq istəyirdi. Biz buna razı olmadıq. Bu dəfə nə olacaqdısa, nə olmalıydısa, biz hamısından xəbərdar olmalı, lazım gəlsə hamısında iştirak eləməli idik. Səməngül çarəsiz qalıb razılaşdı. Biz yaxın çayçıda oturduq, özümüzə çay və cürbəcür perojnalar sifariş elədik. Qismət çox fikirli idi, daha üzümüzə baxmırdı, başını aşağı salıb oturmuşdu. Mən onun bu hala düşməyinə görə Almazla Firuzu öldürərdim. Aydan-ildən bir dəfə uşaq gəzintiyə çıxmışdı, sevincindən uçurdu, namərdlər, qarşımıza çıxmağa vaxt tapdılar. İndi biz ona nə cavab verək, nə başa salaq?Yenə də Nigar daha ağıllı hərəkət elədi, Səməngülə üzünü tutub dedi:

--Səməngül, sən de, biz bayaqki adamları hardan tanıyırıq?

O, bu sözüylə qərar vermək hüququnu Səməngülə buraxdı, yəni özün nə deyəcəksən, de. Səməngül də Nigarın niyyətini güz başa düşüb, o saat bu hüquqdan istifadə eləməyi qərara alaraq dedi:

--Qismət, onlar sənin atanı tanıyırdılar. Ancaq onlar yaxşı adam deyillər. Bu gün sənə ancaq bu qədər deyə bilərəm. Daha mənə sual vermə, yaxşı?Zamanı gələndə özün hər şeyi öyrənəcəksən.

--Yaxşı,--deyə Qismət cavab verdi.

Mən də Nigar da Səməngülün verdiyi izahatdan razı qaldıq, indi Qismətə bundan artığını demək olmazdı. Vaxtı gələndə, əlbət ki, o hər şeyi sonuna qədər öyrənəcəkdi, ancaq hələ bunun vaxtı çatmamışdı.

Gəzintimizin sonu belə qəmli notlarla bitməsin deyə, yolumuzu bazardan salıb bir az bazarlıq elədik, və Sona xala ilə bayram keçirməyə getdik. Sona xala gəlişimizə uşaq kimi sevinəndə, başa düşdük ki, bura gəlməkdə düz iş görmüşük. Səməngül içində nə qədər bərbad idisə, üzdə heç nə bildirmədi, biz birlikdə, gözəl bayram süfrəsi açıb axşama qədər onlarla olduq, deyib-güldük. Saat on olardı ki, bir-birinin ardınca Oktayla, Fərhad gəldilər. Onlar da bizə qoşulub çay süfrəsinə qonaq oldular. Xeyli söhbətdən sonra Qismətlə Sona xalanı xoş əhval-ruhiyədə, Səməngülü isə öz fikirləri ilə baş-başa qoyub çıxdıq...

24. Biz öz dinimizə bağlı bir xalq olduğumuz üçün, həyatımız boyu başımıza nə gəlirsə, gəlsin, onun bir alın yazısı olduğuna, Allahın məsləhəti ilə başımıza gəldiyinə inanırıq.

Doğrudur, bız özümüzü çarəsiz aparıb əlimizi-əlimizin üstünə qoyub oturmuruq, yeri gələndə mübarizə aparır, yeri gələndə, əks tədbirlər də görürük. Ancaq heç vaxt "bu olmasaydı, bu da olmazdı", yaxud "belə olmasaydı, belə də olmazdı" demirik, olanları qəbul edib, barışır, "belə olacaqmış ki, belə də oldu" deyirik. Həyatda təsadüflərə inanan adamlar da az deyil. Ancaq o

təsadüflərin bu qədər dəqiq bir vaxtda, məhz hansı hadisələrisə dəyişə biləcəyi bir yerdə baş verməsi, məncə elə-belə deyil. Alın yazımızda yazılmışların düz üstümüzə cıxıb başımıza gəlməsində təsadüflərin rolu böyükdür. Bir də görürsən, kimsə öz talehindən qaçmaq istəyir, qaçır, qaçır, və hansısa bir təsadüf onu yenə də öz talehi ilə üz-üzə gətirir. Ona görə də ağıllı adamlar deyir ki, talehdən qaçmaq olmaz. Yaşadığımız ictimai quruluşun kommunist ideologiyası bizi belə öyrədirdi ki, hər şey insanın öz əlindədir. Hər kəs öz həyatının heykəltəraşıdır. Öz həyatını necə istəsə, elə də yapa bilər. Mən bu fikirlə qismən razıyam, insan həyatını urəyi istədiyi istiqamətə yönəltmək üçün, zəhmət çəkməli, mübarizə aparmalıdır. Ancaq bir şey də var ki, əyər alın yazında o istədiyin yoxdursa, nə qədər əlləşirsən, əlləş, yenə də əlin o şeyə çatmayacaq. Sən saydığını sayırsan, ancaq bilmirsən axı, fələk sənin üçün nə sayır?!...

Nigarla mənim Səməngülü özümüzlə nümayişə aparmağımız, orda Almazla Firuza rast gəlməyimiz, həmən o yuxarıda dediyim, hadisələrin istiqamətini dəyişə biləcək, təsadüflərdən oldu. Bu təsadüf olacaqmış ki, biz də Səməngülün həyatının bu dönüş nöqtəsində bilmədən öz rolumuzu oynadıq.

Günlərin bir günü Səməngül məni və Nigarı yanına çağırdı. Biz dərsdən çıxıb bir az da şirniyyat alıb onlara getdik. Sona xala xəstə idi, yataqda yatırdı. Qismət dərsdə idi. Səməngül bizi divanda əyləşdirdi, əvvəlcədən hazıladığı çay süfrəsinə təzə dəmlədiyi çaydan süzüb gətirdi. Özü də yanımızda əyləşdi. Görünürdü ki, o bizimlə hansısa bir məsələni məsləhət eləmək istəyir. Buz onun üzünə baxıb danışmasını gözləyirdik, o isə tələsmir, bizdən çayımızı soyutmamğı xahiş edirdi. Biz çayımızı içdik və mən dedim:

--Ay Səməngül, bu Sona xalaya nə olub belə, nə yaman tez-tez xəstələnir?

Səməngül öz stəkanını əlində o üz bu-üzə çevirə-çevirə dedi:

--Qızlar, sözün düzü, son günlər anam üçün çox narahatam. Onun qara ciyərində ciddi problem var, müalicə olunmaq da istəmir. Uşaq kimi tərslik eləyir. Bu gün sizi bura onun xahişi ilə

çağırmışam. Elə hey deyir ki, öləçəyəm, lap tək qalacaqsan. Nə qədər adını çəkən var, özünə bir gün ağla, həyatda köməyin olsun, evində bir kişi xeylağı olsun. Deyirəm ay ana, mənim bu boyda oğlum var, kişi deyilmi? Deyir, sözümü zarafata salma, hələ o yaşda deyilsən ki, oğlunu burnuna tutub oturasan. Sonra, elə oğluna da, ona arxa çıxacaq bir adam lazımdır. Nə başınızı ağrıdım, anam məni bu yaşdan sonra ərə vermək istəyir. Sizdən başqa heç kimim yoxdur, ona görə də istəyirəm sizin fikrinizi bilim, anam düz deyir, yoxsa bəlkə elə necə qulağı dinc oturmuşdum, elə də oturum yerimdə?

Buz Səməngülün ağzına baxa-baxa qaldıq. Onun dedikləri bizim üçün o qədər gözlənilməz idi ki, hələ eşitdiklərimizə inanmırdıq. Yazıq qızın vur-tut otuz yaşı vardı, amma biz onun ağır xasiyyətindən irəli gələn əkə-bikə davranışına elə alışmışdıq ki, elə bil rəfiqəmiz yaşlı-başlı bir qadın idi. İndi də bu yaşlı-başlı qadın bundan sonra hələ bir ərə getməkdən də danışarmış. Fikirlərimizdən özümüz də utandıq. Əlbəttə, Səməngül lap çoxdan belə bir fikri heç olmasa, götür-qoy eləməli idi. İndi ki, söhbət indi açılmışdı, demək, qismət bu günə imiş. Nigar maraqla Səməngülün üzünə baxaraq soruşdu:

--Səməngül, doğrusu, dediklərin bizim üçün çox gözlənilməz oldu. Ancaq bir şey var ki, sən bunu lap çoxdan eləməli idin. Anan da düz deyir, gənc qadın təkbaşına yaşamamalıdır. Bunu səndən yaxşı kim bilər, başın az bəla çəkmədi. Ancaq mən başqa şeyi bilmək istəyirəm, sənin fikrində tutduğun, tanıdığın elə bir adam var?Yəni söhbət kimdən gedir?

Səməngül bir az fikirləşdi, sonra dedi:

--Qızlar, Allahdan gizlin deyil, sizdən də gizlətməyəcəyəm, mən əslində həyatımda heç nəyi dəyişmək istəmirəm. Açığını desəm, bu yaxınlara qədər mənə öz dünyamdakı xəyallarım bəs edirdi. Ancaq o xəyallar da artıq puç oldu getdi. İndi mənim üçün heç bir şeyin fərqi yoxdur, əyər anam tək qalacağımdan qorxursa, əyər bizim evə də kişi xeylağı lazımdırsa, mən buna əməl edərəm, ancaq anamın xatirinə. Qaldı ki, o adamın kim olduğuna, onu anam daha yaxşı bilir, gedək yanına, ondan soruşun.

Biz Sona xalanın yataq otağına girəndə, ürəyimdə bir narahatçılıq əmələ gəldi. Sona xalanın gözlərini çox sönük gördüm, elə bil o gözlərdə həyat işığı tükənmişdi. Biz onun yanında oturduq, mən onun əlindən tutub dedim:

--Sona xala, sənə belə yatmaq yaraşmır, tez sağal, ayağa qalx. Səməngül dedi ki, bizə sözün var, söylə, biz səni eşidirik.

Sona xala zörla da olsa gülümsədi, əlimi yavaşca sıxıb sözə başladı:

--Həyat, bala, mən görürəm ki, rəhmətlik Mahmud əminin yanına getmək vaxtı yaxınlaşır.

Biz üçümüz də bir ağızdan:--Allah eləməsin, bu nə sözdür Sona xala?--dedik. Ancaq Sona xala əli ilə işarə elədi ki, sözünü kəsməyək. Biz susduq, o da sözünə davam elədi:

--İndi əsas məsələ mən deyiləm, Səməngüldür. O bu günə kimi necə yaşadı, başı nələr çəkdi, məndən yaxşı bilən olmaz. Mənim əlimdən heç nə gəlməsə də, həmişə onun dərdinə şərik olmaqla, məsləhət verməklə, səbirli olmağa çağırmaqla ona ana yox, yoldaş, sirdaş olmuşam. Bir gün mən olmasam o tək nə eləyəcək?

Mən Sona xalanın əlini öpüb dedim:

--Niyə elə deyirsən, Sona xala, bəs biz?Biz onu heç vaxt tək qoymarıq.

--Həyat, siz çox vəfalı yoldaşlarsınız, ancaq o gəncdir, ona həyat yoldaşı lazımdır, mən bunu deyirəm. Həmişə yanında olsun, onun həyatını təmin eləsin, onu hər kəsdən qorusun, bildin?Mən sizdən bu gün bu yardımı istəyirəm, mənim sözümə qüvvət verin, sizi eşidər. Ona başa salın ki, xəyalla yaşamaq olmaz, insanla yaşamaq lazımdır.

--Sona xala, məyər belə bir adam var?Söhbət kimdən gedir?--deyə Nigar soruşdu.

--Var bala, var, bizim binanın ikinci blokunda bir ailə yaşayır, ana, iki oğul. Oğlanlardan biri evlidir, biri subay. Anası daha qapının dabanını çıxardıb gəlib getməkdən. Səməngülü subay oğluna istəyir.

--Sona xala, oğlan nəçidir, nə işlə məşğul olur?--deyə mən soruşdum.

--Şoferdir, xozein maşını sürür. Deyilənə görə çox yaxşı oğlandır. Sakit, üzüyola, zəhmətkeş, daha nə deyim?

--Yaxşı, bu yaxşı oğlan niyə gedib özünə subay qız tapmır, niyə yanında o boyda oğlu olan Səməngülü istəyir?

Sona xala yazıq-yazıq üzümə baxdı:

--Bala, başına dönüm, istək nədir, bilmirsən?Anası deyir, qayıdıb gələn gündən Səməngülü görüb, gedib anasına deyib ki, o gəlini mənə al. Həm, ola bilsin gözü tutub, həm də hər kəs öz babını axtarır da...

Nigar soruşdu:

--Hardan qayıdıb ki?

--Türmədən. Neçə il bundan əvvəl qəza eləyib, maşınla adam vurubmuz. Qaziyədir də, hər adamın başına gələ bilər. İndi anası da mənim kimi nə qədər sağdır, istəyir oğlunun həyatını qursun. Deyir qardaş arvadının dığ-dığını eşitməkdənsə, gəlib burda bizimlə yaşayar, Səməngül də tək qalmaz.

Doğrusu, Sona xala, nə qədər çox məlumat verirdisə, biz bir o qədər narahat olurduq. Həbsdən yeni qayıtmış, yaşı keçmiş bir adam, hələ üstəlik evi də yox! Bunda cəlbedici heç nə tapa bilməsək də, Sona xalanın sözündə də haqq var idi. O deyirdi:

--Bilirəm, indi siz nələr fikirləşirsiniz. Evsiz, eşiksiz, özü də türmədən çıxma. Bunlar hamısı düzdür, ancaq bir şeyi də unutmayın da... Səməngül otuz yaşında, heç vaxt evlənməmiş, ancaq yanında atasız bir oğlu olan savadsız, işsiz-gücsüz bir qadındır. Onun qapısını başqa kim döyər? Şahzadə gözləmək vaxtı çox-çox geridə qaldı. Şahzadəni də hamımız gördük. Səməngülə sadə, etibarlı həyan lazımdır. Bunun üçün də o oğlan uyğun gəlir. Mən bu sözü nə vaxtdır, deyirəm, heç eşitmək istəmirdi. İndi bir-neçə gündür, deyəsən insafa gəlib, dediklərimə hələ bir cavab verməsə də, heç olmasa qulaq asır. İndi siz də fikrinizi deyin, bu işə necə baxırsınız?Pis olar?Evdə dərdini-sərini paylaşmağa bir adam olsun. Hamı da bilsin ki, əri var, daha indiki kimi hər görən tamah salmasın.

Sona xala hamısını düz deyirdi. Ancaq inanmağım gəlmirdi ki, hər şey Sona xalanın dediyi kimi asan olsun. Məni bir şey də

narahat edirdi, Qismət, o bu məsələyə necə baxacaqdı, bu onun üçün daha bir travma olmayacaqdı ki?

Ona görə də soruşdum:

--Bəs Qismətin necə, xəbəri var?O bu işlərə nə deyəcək? Artıq böyük oğlandır, ona bunu necə başa salacaqsınız?

Sona xala dedi:

--Ona qurban olum, həyatı o qədər dərindən başa düşür ki, hər şeyə bir təcrübəli adam kimi yanaşır. Mən onun qulağını yavaş-yavaş doldurmuşam. Neyləyim, ay qızlar, bu tifillərin də bir arxalandığı kimsə olmalıdır da... Neçə gün danışmadı, lal-dinməz gəzdi, ürəyində nələri götürdü, nələri qoydusa, bir gün özü mənə dedi ki, nənə, sən düz deyirsən, anam yazıqdır, təkbaşına əlləşib ailə saxlayır. Mənim ona köməyim dəymir, mən böyüyənə kimi də bilmirəm, nələr olar, odur ki, yaxşı bir adam varsa, qoy anam ərə getsin. Bax belə...

Biz Nigarla bir xeyli susduq. Sonra mən Sona xalanın üzündən öpüb dedim:

--Yaxşı, Sona xala, biz bir fikirləşək, ölçüb-biçək, görək Səməngül də nə deyəcək, yaxşı?

--Sizə qurban olum, məni düz başa düşün, onu tək qoyub gedə bilmərəm.

Biz Sona xalanın yataq otağından ürəyimizdə ağır fikirlərlə cıxdıq. Nigar Səməngülün qolundan tutub divanda yanına oturtdu. Çox ciddi bir ifadə ilə dedi:

--Səməngül, anan deyir, sən bu söhbəti heç eşitmək də istəmirsənmiş, birdən elə bil yola gəlmisən, bu nə deməkdir? Olmaya, sən Firuzla Almazı görəndən sonra yumşalmağa başlamısan?

--Bunun nə fərqi var ki?--deyə Səməngül cavabdan qacmaq istədi. Nigar əl çəkmədi:

--Yox, yox, araya söz qatma, cavab ver, belədir, ya yox?

--Mən bu suala cavab vermək istəmirəm. Sonra mənə gülərsiniz, ya da acığınız tutar. Bilmirəm, başa düşə biləcəkşinizmi?

Mən ona qınayıcı bir nəzər saldım:

---Afərin! Gör bir bizim haqqımızda nə gözəl fikirdəsən? Biz də səni başa düşməyəndən sonra, kim başa düşər? Biz bu

alçaqların evləndiklərini neçə ildir bilirik, sənə də ona görə demirdik ki, bilirdik, sən onu ürəyində yaşadırsan, hələ də sevirsən. Əslində gərək elə o vaxt deyəydik, sən də artıq özünə bir gün ağlayardın. Bizdən heç nə gizlətmə, biz səni özümüz kimi tanıyırıq, ananın dedikləri barədə nə fikirləşirsən?

Səməngül heykəl kimi oturmuşdu, gözünün yaşı yanağından süzülüb çənəsində toplanır, ordan da dizlərinin üstünə damırdı.

--Mən elə bilirdim, ürəyimin içindəkiləri özümdən başqa heç kim bilmir, sən demə siz bilirsinizmiş... Elə isə daha nə gizlədim, hamısını güz dedin, Nigar, bu aradan keçən on dörd ilin hər günü mən onu həsrətlə gözləmişəm, elə bilmişəm, bu saat qapıdan girəcək, oğlunu bağrına basacaq, ömrünün axırına kimi əlindən gələni eliyəcək ki, günahlarını yusun. Bu mənim xam xəyallarım imiş. O gün bu xəyallar çilik-çilik oldu. Həm də necə oldu, Firuz məhz Almazla evlənməklə məni öldürdü. İllər öncəsi yaralamışdı, o gün öldürdü. Mən artıq heç nə hiss eləmirəm, ürəyim ölüb. Ona görə də o adama ərə getməyə yəqin ki, razı olacağam, anam düz deyir, yaziq arvad, məni neçə dəfə özümə qəsd eləməkdən saxlayıb. Anam olmasa, bir gün bir dəlilik eləyərəm,Qismətim düzü-dünyada tək qalar. Onun xatirinə, bu addımı ataram. Anam da yazıqdır, mənim ucbatımdan bu dünyada bir gün görmədi, heç olmasa arxayın getsin, gedəndə... .

Bu sözlərdən sonra biz söz tapmadıq deməyə... Bu yerdə nə demək olardı ki?

***

Səməngülün belə bir qərar verməsi bizi çox kövrəltmişdi, o biri tərəfdən də onu bu fikirdən döndərməyə ürək eləmirdik. Vəziyyət o qədər mürəkkəb idi ki, bu işə qarışmaq xüsusi cəsarət tələb edirdi. Bu gün bu cəsarət bizdə yox idi. Ona görə də Nigarla eyni fikirdə olduğumuzu bildiyimdən Səməngülə son sözüm belə oldu:

--Səməngül, sən hamımızdan ağıllısan, həyat da sənin həyatındır, burda bizə söz düşmür, özün qərar verəcəksən. Təkcə onu demək istəyirəm ki, yüz ölç, bir biç. Həyatınla oynama, bir

az ciddi yanaş. Elə elə ki, onsuz da ağır olan həyatını bir az da ağırlaşdırmayasan. Qaldı ki, sən nə qərar verirsən ver, biz sənin ən yaxın rəfiqələrin olaraq qalacağıq, nə kömək lazim olsa, bil ki, biz varıq. Bildin?

Bundan sonra Sona xala ilə, Səməngüllə görüşüb ayrıldıq.

Aradan bir neçə gün keçmişdi ki, anam mənə zəng vurdu:

--Həyat, Sona atanla məni bazar günü evlərinə çağırır, məsləhət eləmək istəyirlər. Səməngülü istəyən var, deyəsən razılıq vermək istəyirlər. Səməngül sizin də gəlməyinizi istəyib. Gedəcəksiniz?

--Ana, Fərhad gəlsin, danışarıq, yəqin ki, gedərik, gəlib sizi də götürərik.

Bazar günü biz Səməngülgilə beşimiz getdik, atam, anam, mən, Fərhad bir də Səməd. Sona xala ayağa qalxmışdısa da, əslində qupquru bir ruha bənzəyirdi. Bir azdan qonşu arvad da öz oğulları ilə gələcəkdi, deyə atam məsələni yerli-yataqlı öyrəndi,Sona xalanın bu fikrini bəyəndi. Razılaşdı ki, Səməngül tək yaşamalı deyil, əyər oğlan deyildiyi kimi yaxşı adamdırsa, bu məsələni tezliklə həll eləmək lazımdır. Çox çəkmədi ki, qonşular gəldilər. İlkin tanışlıq pis keçmədi. Səməngülü istəyən Musa adlı adamı görməmişdən əvvəl oğlan adlandırırdıqsa, indi qarşımızda saçı ağarmış qırx-qırx beş yaşlarımda az danışan, qaradinməz bir adam durmuşdu. Musa görünüşcə yaraşıqlı olmasa da, pis də deyildi. Orta boylu, arıq bədənli bir adam idi. Qaraqabaq olması da yəqin ki, yaşadığı həyatın çətinliklərindən xəbər verirdi. Mən ürəyimdə dedim ki, dərdli dərdlini tapıb deyəsən. Fikirləşdim ki, bu cəhət bəlkə də onların bir-birini daha yaxşı anlamasına kömək edər, irəlidə.

Bir həftə sonra Səməngüllə Musanın nigahı bağlandı. Bunu yalnız anamla atamın, bir də o tərəfdən Musanın anası ilə qardaşının iştirakı ilə həll elədilər. Nə Səməngül, nə də Musa artıq səs-küy, təm-təraq olmasını istəmədilər. Bazar günü Səməngülgildə on-on beş nəfərdən ibarət çox sadə bir qonaqlıq verib onları bir damın altına yığdıq, desəm, yəqin ki, doğru olar. Biz nəhayət ki, Səməngülün belə bir şəkildə də olsa, ailə qurduğu

günü gördük. Səməngül çox, lap çox xoşbəxt olmalı qız idi. Ona görə də həyatının belə daşlı, kəsəkli yollardan keçməsi hamımızın ürəyini ağrıdırdı. Biz ona heç nə ilə kömək edə bilmirdik, çünki, öz həyatının ən vacib qərarlarını yenə də Səməngül özü verirdi. Düzmü verirdi, səhvmi verirdi, bunu da özü bilirdi. Ömrünün başlanğıcında heç kəsi eşitmədən təkbaşına verdiyi qərar onu bu günə qoydu. İndi də Nigarla biz nə qədər dediksə də bu qədər tələsik qərar verməsin, Musanı bir az tanımağa çalışsın, olmadı, Firuzun, Almazın acığına heç nəyi fikirləşmədən qərarını verdi. Bəlkə də Musa doğurdan da ona yaxşı yoldaş, vəfalı ər, ailəyə də dayaq olacaqdı. Amma bir şey vardı ki, Səməngül onunla heç maraqlanmadı, ürəyinin səsini dinləmədi, özü demiskən ölü bir ürəklə, heç nə hiss eləmədən bu qərarı verdi. Allah eləsin, irəlidə hər şey yaxşı olsun. Kaş ki, Musa öz xasiyyəti ilə, xoş münasibəti ilə bu ailədə uzun illər yeri boş qalmış bir insan ola biləydi, ailə başçısı adına layiq olub, bu adı doğruldaydı...

25. Nə vaxtsa bir filmə baxmışdım, orda bir müdrik kəlam eşitmişdim, yaddaşıma həkk olmuşdu.

O kəlamda deyilirdi ki, elədiklərini yaşamadan bu dünyadan getmək yoxdur. Yəni ki, bu həyatda kimə nə çəkdirmisənsə, birisi də onları sənə çəkdirəcək. Yalnız bundan sonra bu dünyadan gedə biləcəksən. Sonradan öyrəndim ki, sən demə bu kəlam əslində Qurandan gəlirmiş. Mən indi durub desəm ki, həmişə belə olur, bu yalan olar, ancaq onu deyə bilərən ki, çox zaman belə olur. Ən azı bunun doğurdan da belə olduğuna dəfələrlə özüm şahid olmuşam. O qədər ömrünün başlanğıcında ruzusu, hakimiyyəti, hökmü artıq düşənlər görmüşəm ki, ömrünün sonunda rəzil günə düşüb, bir zamanlar çəkdiyi keflər burnundan gəlib. Ömrün əvvəlində, gözü qızan vaxtlarda ayağını kimin boğazına qoyub, kimin nəfəsini kəsirdisə, ömrün sonunda həmin adama möhtac olub, həmin adamın qapısına düşüb, ondan kömək istəyib. Həyatda belə misallar çoxdur. Yaşadığımız mühitdə baş verənlərə bir az diqqətlə nəzər salsaq, həyat məktəbi insana çox şey öyrədər. Mən ömür yolumu öyrənə-öyrənə gəlmişəm, və bilirəm

ki, insanın ən ümidsiz bir vaxtında həmin o şahidi olduğu, ibrət götürüləcək hadisələr insana yenidən ümid verir, tərki-dünya olmaqdan saxlayır, həyatı davam elətdirməyə kömək edir. Onda inanırsan ki, bir gün Allah zalımı cəzalandıracaq, bir gün ədalət sənin də qapını döyəcək...

Mən eşidəndə ki, Firuz o nümayişdə Qisməti görəndən sonra günlərin bir günü axtarıb, tapıb, Qismətin məktəbinə gedib, ürəyim mənə dedi ki, Firuz artıq öz cəzasını çəkməyə başladı... Onun niyyətini, məqsədini bilməsəm də, hiss eləmişdim ki, Firuzu hərəkətə gətirən, Qisməti axtarmağa məcbur edən qüvvə ondan çox güclüdür, və bu qüvvə Firuzun həyatının sonuna qədər ona hakim kəsiləcək. Firuzun ürəyində nələr baş vermişdi, Qismətlə bağlı nələri dəyişmək fikri vardı, bilmədim, ancaq onu bildim ki, Firuz o qədər pis adam idi ki, onun atalıq hissi oyananda da, bu ailəyə bədbəxtlikdən başqa bir şey gətirmədi.

O gün ki, Firuz axtarıb Qisməti tapdı, onunla söhbət elədi, nə dedi, nə demədi, Səməngülün həyatında hər şey yenə də dolaşmağa, qarışmağa başladı. Əvvəla bir qəfil gəlib on dörd il atasını ölmüş bilən bir yeniyetməyə, yaşının da bu mürəkkəb vaxtında "mən sənin atanam", demək hansı insani normalara sığar, görəsən? Qismət o gün evə dəli kimi gəlib, anasını öz otağına çəkib, əməlli-başlı məhkəmə qurub. Səməngül bunu mənə telefonda deyəndə səsindən başa düşdüm ki, vəziyyət çox ciddidir. Səməngül deyirdi:

--Həyat, çox çətin bir vəziyyətə düşmüşəm, Qismət məni yalan deməkdə, onu bu qədər illəri aldatmaqda günahlandırır, bilmirəm onu necə sakitləşdirim, necə başa salım...

--Nə deyir axı?

--Deyir ki, mən bilsəydim ki, atam sağdır, sənin evə yad kişi gətirməyinə heç vaxt razı olmazdım. Mən atamla görüşərdim, danışardım, özüm bilərdim, o mənə lazımdır, ya yox... Həyat, Firuz deyəsən mənim qalan ömrümü də zay edəcək. Bu söhbətləri Musa eşitsə, o da necə reaksiya verəcək, bilmirəm. Onsuz da Qismətlə aralarında bir sərhəd var idi, indi bu söhbət açılsa gerisi necə olacaq, özüm də bu vəziyyətdə, açığı çox peşimanam,

Həyat, çox... Anam da daha heç yataqdan qalxmır, deyəsən bu dəfə vəziyyət həmişəkindən ağırdır. Bilmirəm neyləyim, lap başımı itirmişəm...

Mən ona qulaq asdıqca onun yerinə ürəyim sıxıldı, indi onun ən düzgün məsləhətə də çox böyük ehtiyacı var idi. Ancaq mən də bilmirdim, nə deyim. Ona görə də ancaq vəziyyətə aydınlıq gətirmək üçün soruşdum:

--Səməngül, dedin, özüm də bu vəziyyətdə, bu nə deməkdir, olmaya hamiləsən?

--Hə... Bu gün buna elə peşimanam ki, gedib götüzdürmək istəyirəm, düzdür, bir az gecdir ...

--Ay qız, sən nə danışırsan?Allaha da acıq gedər, qoy qalsın, bəlkə elə o uşağın gəlişi ilə evinizə istilik, məhəbbət, sevinc gələr. Sən Qismətlə əməlli-başlı söhbət elə, hər şeyi ona başa sal, o artıq böyük oğlandır, hər şeyi başa düşməlidir. Bir də öyrən, gör o şərəfsiz uşağa nələr deyib, bəlkə hər şeyi başqa cür danışıb, özünü təmizə çıxardıb, səni günahkar göstərib. Musa da yekə kişidir, bir az anlayışlı olsun da, başa düşmür nələr baş verir? Səməngül, mən sənə necə kömək edə bilərəm?Biz Nigarla gördük ki, Musanın bizi görəndə qaş-qabağı lap yerlə gedir, istəmədik bir də bizə görə evində söz-sov olsun, ona görə də ayağımızı kəsdik sizdən. Ancaq əyər biz bu işlərdə necəsə kömək edə bilərikсə, çəkinmə, de, biz nə lazımsa edərik.

--Elə məsələ də ondadır ki, heç özüm də bilmirəm, nə edim, bilmirəm neyləmək lazımdır. Musa çox ağır xasiyyət adam imiş, məni elə hey keçmişimə qısqanır, günahlarımı başıma sərki edir, indi mən durub o əclafa zəng vursam ki, bu uşağa nələr demisən, Musa buna da bir don geyindirəcək, günümü qara eləyəcək. Anam onsuz da evdə gedən söz-söhbətdən gün-gündən şam kimi əriyir. Mən hələlik ancaq Qisməti sakit eləmək istəyirəm, deyirəm, bəlkə Nigarla sən onunla bir söhbət edəsiniz. Bir yandan da xəcalət çəkirəm ki, oğlum mənim o vaxt necə ağılsız bir qız olduğumu biləcək, bəlkə də atasına haqq qazandıracaq. Baxırsan, necə eləyirəmsə, eləyim, yenə də ən böyük zərbə mənə dəyir. Bəs mən necə eləyim, ay Həyat?--bu sözləri deyib o yenə də ağladı.

--Sakit ol, sakit ol. Ağlamaqdan bir şey çıxmaz, yaxşısı budur, fikirləşək, görək, neyləmək olar? De görüm, Qismət anana inanar?Yəni Sona xala ona olanları elə olduğu kimi başdan ayağa danışsa, Qismət inanar?

--Həmişə inanırdı, ancaq indi bilmirəm, indi o hər sözə şübhəylə yanaşır. Ancaq sən düz deyirsən, nə qədər anamın başına bir iş gəlməyib, gərək Qismətlə bir danışsın. Əslində mən onu bu vəziyyətində belə bir ağır söhbətin altına çəkmək istəmirdim, amma baxıram ki, başqa çarə yoxdur.

--Məncə də doğrusu budur, qoy Sona xala hər şeyi ona danışsın, sonrasına baxarıq. Bəlkə elə bununla da söhbət bitəcək? Özünü də yeyib tökmə. Bir az səbirli ol, hər şeyi kontrolda saxla. Görək nə olur. Yaxşı?

--Yaxşı...

Bu söhbətdən bir müddət keçdi. Mən nə qədər istəsəm də zəng vurub bir xəbər bilim, Musanın hər dəfə çox acı tonla telefona cavab verməsi yadıma düşüb məni bu fikirdən daşındırdı. Hiss edirdim ki, çarəsi olsa Səməngülü bizimlə heç telefonla danışmağa da qoymaz. Səbəb nə idi bilmirdim. Bəlkə onun özü üçün bir səbəbi var idi, kim bilir... Ona görə də gözləməyi qərara aldım, fikirləşdim ki, Səməngül özü onun üçün əlverişli bir vaxtda yəqin ki, zəng vurar. Doğurdan da aradan bir xeyli vaxt keçmişdi ki, Səməngül zəng vurdu:

--Həyat, salam, necəsən?Yasəmən xala, Süleyman əmi, Fərhad, Səməd necədirlər?--o həmisə sohbəti belə başlayırdı.

--Hamı yaxşıdır, salamları var. Siz necəsiniz, nə yenilik var?

--Biz də yaxşıyıq. Ürəkaçan bir şey yoxdur. Vəziyyət mürəkkəb olaraq qalır. Ancaq anam Qismətlə danışdı. Sən düz deyirsənmiş, bu çox vacib imiş. Anam deyir, Firuz onun beynini necə yeyibmişsə, uşaq məndən, anamdan əməlli-başlı soyuyurmuş. Sənə deyim ki, soyuqluq hələ də var, ancaq heç olmasa həqiqəti bilsin, sonra nə qərar verər, özü bilər.

--Bəs evdə ümumi vəziyyət necədir?Musa səninlə, Qismətlə yola gedirmi? Elə-belə soruşmuram ey, sənin üçün çox narahatam. --dedim.

--Eh, ay Həyat, mənim üçün daha narahat olma. Başıma nə gəlsə, cəzamdır, çəkəcəyəm.

--Niyə elə deyirsən, Səməngül?

--Ona görə ki, onsuz da bəlalı başıma bir bəla da açdım, mənim ərə getmək nəyimə lazım idi. İndi də qalmışam oğlumla ərimin arasında. Bir-birinə elə bil qanlı kəsiliblər. Bayaqdan heç olmasa Qismət Musaya bir böyük kimi hörmət edirdi, çağıranda, cavab verirdi, indi Firuzla görüşəndən bəri deyir, iti görüm, qurdu görüm onu görməyim. Allahın salamını da vermir. Musa da deyir, ya mənimlə adam kimi rəftar edəcək, ya da ikimizdən birimiz bu evdən getməliyik. Deyirəm, amanın bir günüdür, oğlum eşidər, günlərin bir günü baş götürüb evdən gedər, elə demə. Deyir gedəndə atasının yanına gedəcək də, daha niyə narahat olursan. Deyirəm, o mənim oğluma sahib çıxsaydı, bu gün bizim sənin yanında nə işimiz var idi?O da nə desə yaxşıdır? Deyir, bilirəm, çağırsa, bu gün də ana-bala qaça-qaça gedərsiniz qapısına. O sizi bəyənmir, ona görə mənimləsiniz, mən də sizi bəyənib qəbul elədiyim üçün indi mənim çox sağ olumu verirsiniz də... Nə başını ağrıdım, Həyat, hal-hazırda vəziyyət belədir. Bir yandan da bu söhbətləri bəhanə eləyib, Musa içməyə də başlayıb. Əvvəllər də içərmiş, sonradan bilmişəm. Qəzanı da sərxoş olub törədibmiş. Uzun sözün qısası, mənim bu günkü günüm budur.

--Bəs uşaq nə vaxt olacaq?Çox qalıb vaxtına?

--Yox, daha lap az qalıb. Günlərimi sayıram.

--Sona xala necədir?Bir irəliləyiş var səhhətində?

--Nə irəliləyiş, ay qurban olum, anam şam kimi əriyə-əriyə gedir. Xəstəxanaya qoymuşduq axı... Analiz götürdülər, Həyat anamın dərdi o pis xəstəlikdəndir, axır günlərini yaşayır.

--Ay Səməngül, sən necə adamsan, bəs niyə deməmisən? Anam, atam səndən inciyəcəklər, vallah. Biz gəlib Sona xalaya baş çəkəcəyik, bildin?

--Gəlməyinə gəlin ey, ancaq vəziyyəti necə görsəniz də inciməyin, yaxşı?

--Bu nə sözdür, məyər biz başa düşmürük?Sadəcə adam çox da qarışmaq istəmir, necə olsa, ailəsiniz, bizim müdaxilə eləməyimiz

düz çıxmaz. Bəlkə hələ özünüz necəsə, hər şeyi öz aranızda həll edəcəksiniz.

Biz doğurdan da Sona xalaya baş çəkməyə getdik. Musa görünür bizim gələcəyimizi bildiyi üçün harasa getmişdi. Qismət qarşımıza kişi kimi çıxanda bizim ürəyimiz dağa döndü. Maşallah, boy-buxun, yaraşıq, ağıl-kamal, tərbiyə... Musa belə balanın nəyinə ağız büzürdü, nəyini bəyənmirdi, niyə yola getmirdi? Lap mat qalmışdıq.

Biz Sona xalanın doğurdan da quruca nəfəsi qalmış halını gördük. Hamımız qəhərləndik, xüsusən də anam öz gənclik rəfiqəsinin bu halını görüncə dözə bilməyib hönkür-hönkür ağladı. Atam bir qardaş kimi Sona xalanın alnından öpüb bu biri otağa keçdi. Mən bilirdim ki, o göz yaşlarını güclə saxlayır. Atam məni çağırıb dedi:

--Həyat, nə qədər Musa gəlib çıxmayıb, Qismәti bura çağır, ona bir-iki kəlmə sözüm var.

Mən Qismәti çağırdım. Qismət gəlib atamın ona göstərdiyi yerdə oturdu. Atam xeyli susduqdan sonra sözə başladı:

--Qismət, bala, sən məni çox az görsən də mən sənin baban sayılıram. Bilirsənmi, məni niyə az görmüsən?Ona görə ki, sənin anan çox gənc yaşlarında bir nəfəri sevdi, ona inandı, sənə hamilə qaldı. Atan olacaq o adamsa, ananı o vəziyyətdə atıb getdi. Hamı anandan üz döndərdi, hətta mən də. Bilirsənmi niyə mən də üz döndərdim?Ona görə ki, ananın bu halını biləndə mənim dünyada yeganə dostum olan sənin döğma Mahmud baban bu dərdə dözmədi, ürəyi partlayıb öldü. Siz üçünüz qaldınız, anan, nənən, bir də sən. Sənin anan Səməngül olub, atan Sona. Biri cörəyini qazanıb, biri də laylanı çalıb. Ağlayanda da, güləndə də yanında onları görmüsən. Atan ölkəmizin imkanlı adamlarından biri ola-ola, sən ana çörəyi ilə böyümüsən. Halbuki, sənin varlığını atan həmişə bilib, siz min bir zillət çəkəndə, o keflə dünyanı gəzirdi. Mən bunları elə-belə demirəm, biz onun həyat yolunu həmişə izləyirdik, sənə görə izləyirdik. Elə hey ümid edirdik ki, bir gün də yadına sən düşərsən, gələr səni tapar. Amma bu belə olmadı. Nəhayət, eşitdik ki, atan evlənib. Həm də, kimi alsa yaxşıdır?

Ananla atanın arasını düzəldən, onların məktubunu bir-birinə daşıyan həmin o qadınla evləndi. İndi bu yaxınlarda eşitdim ki, səni görüb, yanına gəlib, atan olduğunu iddia eləyib. Atan haqqında son qərarı əlbət ki, özün verəcəksən, ancaq istəyirəm bir şeyi də biləsən, atan nə vaxtdır evlidir, ancaq övladı yoxdur, bilmirəm niyə yoxdur. Məsələ bu deyil, məsələ ondadır ki, sən indi boy-buxunlu, yaraşıqlı, ağıllı-kamallı bir oğlansan, hər kəs də istəyər ki, sənin kimi bir oğlu olsun. O da ola, özünün bir kor qızı da olmayan qanı qanından olan atan. Onu da nəzərə al ki, bir təsadüf olmasaydı, atan səni axtarıb tapacaqdımı, bilmirəm... Yenə də deyirəm, o özü bu qədər vaxtı boynuna almasa da biz də bilirik ki, o sənin atandır. Atan barədə nə qərar verirsən ver, öz işindir, ancaq ananla, nənənin haqını itirmə. Sənə bir ağsaqqal kimi deyirəm, onların haqqını itirsən, xeyir tapmazsan. Sənə zəhmət çəkən, gecələri sənə görə yuxusuz qalan, gündüzləri bütün günü zəhmətini çəkən, sənə atanı əvəz eləyən nənən ölüm yatağındadır. Onun başının üstündən çəkilmə, ondan halallıq al. Bir üzü qız, bir üzü gəlin ananın zəhmətini yerə vurma. Onun həyatı onsuz da çox çətin olub. Çalış onu başa düşəsən. Allah sənə kömək olsun, dediklərimi də unutma. Nə qədər canımda can var, mənə görə nə işin olsa, gəl yanıma, çəkinmə.

Qismət bu qədər vaxtı lal-dinməz atamın dediklərinə diqqətlə qulaq asdı. Yalnız atam icazə verəndən sonra ayağa qalxıb balkona çıxdı, xəzri küləyi onun saçlarını qarışdırırdı. Ürəyimdə dedim ki, saçları qarışsa, eybi yoxdur, təki fikirləri qarışmasın...

O görüş bizim Sona xala ilə son görüşümüz oldu. İki gün sonra Sona xala rəhmətə getdi. Başda atam olmaqla biz ailəlikcə onun dəfnində iştirak elədik. Musanın qaş-qabağına fikir vermədən, əlimizdən gələni elədik ki, hamının çox mehriban, cəfakeş bir insan kimi tanıdığı Sona xalanın son məclisi layiqli keçsin. Səməngül hamiləliyinin son dönəmində olduğundan lap ağırlaşmışdı. Bu vəziyyətində yas məclisini yola vermək, əl-ayaq eləmək onun üçün çox çətin idi. Ona görə də Fərhada yalvarırdım ki, mənə icazə versin axşama kimi onlara kömək edim. Fərhad həmişə olduğu kimi yenə də anlayış göstərir, hər bir işə əl atırdı.

Qonşu qadınlar, Səməngülün qaynı arvadı, Nigar, mən köməkləşib Sona xalanın yeddisini də adına layiq yola verdik. İki gün sonra Səməngülün bir qızı oldu. Adını anasının xatirəsinə Sona qoydu... .

26. Vaxt, dünyada heç nə ilə hesablaşmayan, öz işinə çox ciddi və çox məsuliyyətli yanaşan, heç nəyə uyub yolundan yayınmayan bir yolçudur.

Bizim həyatımızda nə baş verirsə-versin, vaxt öz yolunu gedir, bir dəqiqəsindən də, bir anından da keçmir, heç kimin xətrinə də keçməz. Vaxtdan mərhəmət ummaq, möhlət istəmək, vaxtı yubatmaq mümkün deyil. Biz ömrümüzə ayrılmış vaxta qənaət eləmirik, vaxt da su kimi axıb gedir. Bu minvalla, bir də baxirsan ki, üç il də keçdi. Bu üç ildə elə şeylər baş verdi ki, sovet sistemində yaşadığımız yetmiş il ərzində belə hadisələri biz yalnız kinolarda görmüşdük. Ağlımıza da gəlməzdi ki, yetmiş il təbliğat maşınının beynimizə yeritdiyi guya ki, böyük bir ailənin üzvləri olan qardaş millətlər, ipi birlik ideologiyasından hazırlanmış bir boyunbağıya düzülmüş mirvarilər kimi, üzün illər boyu ucu düyünlənmiş bir halqada yaşamaq məcburiyyətində qalacaqmışlar. Günlərin bir günü millətlər öz müstəqilliklərini əldə etmək fikrinə düşüb bu ipi qırdıqda, eyni mərkəzdən gələn yeni əks-təbliğatla düşmən adlandırılıb bir-birinin üstünə salışdırılacaqlar, və bir az əvvəl bir-birini qardaş kimi tanıyan xalqların arasında qanlı savaşlar, qardaş qırğınları başlayacaq. Bunun üçün, sovetin ideoloji xaç atası olan KGB, 1988-ci ildə Sumqayıtda ermənilərlə azərbaycanlıların milli və etnik zəmində toqquşmasını təşkil elədi. Çox sayda insanlar qırıldı. İş elə ustalıqla təşkil olunmuşdu ki, qırğını salanların da, qırılanların da milli mənsubiyyəti bu gün də bir tapmaca olaraq qalır. Hər şey əvvəlcədən təşkil olunmuş bir ssenari üzrə getdiyinə görə, hadisələrin nədən başlandığını, nə səbəbə başlandığını xalqın bu oyunlardan bixəbər hissəsi başa düşmürdü. Xalq o vaxt hələ bilmirdi ki, onların həyatını böyük bir siyasi oyunda qumara qoyublar. Bilmirdilər ki, bu oyun pərdə-pərdə gözlərinin önündə baş verəcək, onlar da ovsunlanmış kimi bu oyunda, həmin o oyunu təşkil

edənlərin əlində bir oyunçu kimi vasitə olacaqlar. Şoka düşmüş xalq nə baş verdiyini anlamağa macal tapmamış, 1989-cu ildə Ermənistanda yaşayan bir milyondan artıq azərbaycanlıları ayağı yalın, başı açıq öz yurd-yuvasından qovub üstümüzə göndərdilər. Xalq küçələrə tökülüb etiraz aksiyası keçirməyə cəhd göstərdi, sadəcə cəhd göstərdi... və İyirmi yanvar hadisələri tarixə qanla yazıldı. Ruslu-ermənili, azərbaycan xalqının üzdə dost, arxada düşməni olan xüsusi təyinatlı bir ordu, öz evimizin içində bizi qırıb çatdı. Ağlım kəsəndən sevə-sevə gəzib dolaşdığım, xatirələrimin içində ən işıqlı, ən təntənəli günlərimin şahidi olmuş Dağüstü park vəhşicəsinə qırğına verilmiş vətən övladlarının məzarlığına çevrildi. 1990-cı ildə SSRİ dağıldı. Elə həmin il də Ermənistan həyasızcasına əlinə silah alıb üzərimizə müharibə ilə gəldi. Rus ordusunun dişinə kimi silahlanmış başkəsən qoşunlarının sayəsində, qanlar töküldü, gənc-gənc oğullar qırğına verildi, vətənin torpaqları zəbt olundu. Bu bir-iki cümləni deyib başa çıxana kimi ürəyimdən qara qanlar axır, çünki, bu bir-neçə cümlənin arxasında neçə-neçə kitablara sığa bilən çox şeylər oldu. Bu barədə nə qədər kitablar yazılıb, bilmirəm, amma onu bilirəm ki, bir gün düşmən ifşa olunsun deyə, onun mənfur niyyəti dünyaya ayan olsun deyə, üstümüzdən məğlubiyyət ləkəsi götürülsün deyə, hələ çox kitablar yazılmalı, aradan keçən bu illərin hər gününü, hər anını tarixin yaddaşına köçürməlidir. Bir gün dünya bilməlidir ki, xalqımızın şərəf və ləyaqəti, vətənimizin müqəddəs torpaqları, igid-igid oğulların nakam ömürləri, axan qanları hansı mənfur oyunun qurbanı oldu?Gözü yaşlı anaların, dul qalmış gəlinlərin, yetim qalmış uşaqların axıtdığı göz yaşları hansı bir qazancın bədəli imiş?O vaxtdan on yeddi il keçsə də, siyasi oyunların hesabına torpaqlarımız hələ də düşmənin ayağı altındadır. Qaçqınlarımız hələ də bir gün necə olsa geri qayıtmaq ümidi ilə, onlar üçün ayrılmış bölgələrdə qamışdan, palçıqdan yapılmış alaçıqlarda doğulurlar, yaşayırlar, ölürlər. Öz torpağımızda altı il qanlı-qadalı amansız müharibə gedirdi, bizi isə öz şərəfsiz dövlət başçılarımız nə danışmağa, nə dünyanı köməyə çağırmağa, nə haray salıb baş verən haqsızlıqlara diqqət çəkdirməyə qoymurdular. Xalqı hər vasitə ilə susdururdular, nə danışmağa imkan verirdilər, nə də

yazmağa. Dünya isə bizi cılız ürəkli, cılız mənəviyyatlı, bu savaşı özündən də cılız bir ölkəyə üdüzmüş bir millət kimi tanıdı. Bu əskikliyi daşımağa bu gün də məhkumuq, çünki, oyun hələ də davam edir. O vaxt heç nəyi olduğu kimi bilmirdik, baş verənlər tezliklə bitəcək bir pis yuxuya bənzəyirdi. Gözümüzlə gördüyümüzü ağlımız qəbul eləmirdi. Bir yandan da bu şərəfsiz oyunda xalqın qanı bahasına hakimiyyətə gəlmək istəyən vətən satqınları yalan vədlərlə sinəsi yaralı xalqın başını yastığa qoydu, mübarizə etmək həvəsindən saldı, hər cür şərəfsizliyə yavaş-yavaş alışdırmağa başladı. Ona görə də adi yaşayışımızda adi şeylər baş verirdi. Bu qarmaqarışıq vaxtda Rəşadın bir qızı, Nigarla mənim hərəmizim bir oğlu oldu. Sonanın üç yaşı, Qismətinsə on yeddi yaşı var idi. Qismət, düz anasının atasına rast gəldiyi yaşda idi. Bu il o son sinifdə oxuyurdu. Səməngül hərdən zəng vurub öz həyatından, xüsusən də Qismətdən danışırdı. Onun həyatında Qismətlə Sona kimi sevimli iki dünya var idisə, Musa kimi Allahın cəzası da var idi. Səməngül deyirdi ki, Musa hər gün içir, heç nədən evə dava-dalaş salır, nə qazanırsa, tən yarısını içkiyə verirdi. Qazancının qalan yarısı ilə də, təbii ki, bu boyda ailə çox çətinliklə dolanırdı. Musanın başlıca dərdi Qismət idi. Səbəb olsa da, olmasa da Qismətə ilişir, onunla kobud danışır, tez-tez də atasının adını çəkirdi. Qismət də bu yerə çatanda ona cavab qaytarırdı. Musa ağsaqqal yaşında Qismətı qəbul eləmirdi, Qismət isə, yeniyetmə yaşında Sonanı qəbul edir, onu bacı kimi tanıyır və sevirdi. Mən Firuzu soruşdum, o yenə harasa qeyb oldu yoxsa?Səməngül danışdı ki, Firuz Qismətdən əl çəkmir, ancaq deyəsən, Qismət yaxasını onun əlinə vermir. Qismət necə olsa, anasının çörəyi ilə böyümüşdü, naxələf deyildi.

***

Bir gün işdə yenə Nigarla boş saatımız idi. Bufetə gedib özümüzə çay sifariş elədik. Ordan-burdan, söz yenə gəlib Səməngülün yaşayışından düşdü. Birdən Nigar dedi:

--Lap yadımdan çıxmışdı, bir nəfəri uzunqulaq vurub salıb cənnətə, xəbərin var?

--Kimi deyirsən?--deyə soruşdum.

--Kimi deyəcəyəm? Firuzu. Xəbərin yoxdursa, olsun, onu ABŞ-a səfir təyin eləyiblər. Azərbaycanda ondan layiqli adamı hardan tapsınlar?Yoxdur axı...

--Belə de... Demək yenə aləmi qatıb-qatışdırıb qaçır, hə?Nigar, deyirəm, birdən Qismətı başdan çıxardıb özü ulə aparar ey...

--İnanmıram, Almaz heç belə bir şeyə razı olar?Dünyasında!Sən də onu yaxşı tanıyırsan, mən də. Bir yana baxanda, elə getsələr yaxşıdır, düz demirəm?

--Orası elədir, ancaq mən deyirəm, yenə də Səməngülə bu xəbəri demək lazımdır, bir az ayiq olsun. Qismət hələ uşaqdır, bilmək olmaz, bir də görərsən aldanar Firuzun şirin dilinə. Səməngülün xəbəri olsa yaxşıdır.

--Nə deyirəm, deyək, lap elə bu gün.

Axşam evdən Səməngülə zəng vurdum. Telefonu Qismət götürdü:

--Alo, salam Qismət, mənəm ey, Həyat xala, necəsən Qismət?

--Hə, Həyat xala, salam, yaxşıyam... siz necəsiniz?--səsində bir sevinc hiss elədim.

--Mən də yaxşıyam. De görüm anan necədir?Sona necədir?

--Yaxşıdırlar, bəs Səməd necədir?

--O da yaxşıdır. Qismət, ananla danışa bilərəm?Evdədirmi?

--Hə, buyurun, buyurun, bu saat--dedi və telefonu yerə qoydu.

Bir azdan Səməngül telefonu götürdü:

--Alo, Həyat, salam.

--Salam Səməngül. Çox gözlədim ki, səndən bir səs çıxsın, nəhayət ki, dözməyib yenə də zəng vurdum. Əlində işin yox idi ki, danışmağa imkanın varmı?Bax düzünü de ha... Lazımdırsa, başqa vaxt zəng vurum.

--Yox, yox, heç bir işim yoxdur, özümüz də evdə təkik, Musa ezamiyyətdədir, xozeini ilə rayona gedib. Necə də hissiyyatın var ey, indicə sənə zəng vuracaqdım. Nə var, nə yox?Yasəmən xala, Süleyman əmi, Fərhad qardaş, Səməd, balaca bala necədirlər?

--Hamısı yaxşıdır, sizə salamları var. Səməngül, bir az söhbət elə, görək nə var, nə yox?Sona qızımız necədir?

--Eh, ay Həyat, bu dəqiqə hər birimiz yaxşıyıq, ona görə ki, Musa evdə yoxdur. Qismət bayaqdan Sona ilə bir oyunlar çıxardırlar ki, gəl görəsən. Sona itin dilini bilir, bir sözlər danışır ki, elə bil əvvəllər qoca qarı olub. Qismət də onun bu şirin dillərini çox sevir. Göz dəyməsin, bacı-qardaş çox mehribandılar.

--Bəs Musa?

--Ondan danışma, o bir bəla imiş. Həyat, Allaha acıq getməsin, ancaq biz üçümüz onsuz daha xoşbəxtik. O evdə oldumu, günümüz olmur. Əvvəla hər gün sərxoş gəlir, hər xirda şeyi bəhanə eləyib evdə dava salır, vurur-qırır. Qismәti zörla saxlayıram ki, ona əl qaldırmasın. Onsuz da çox çətin olan yaşayışımıza bir də Musa zəhər qatır.

--Səməngül, bəyəm onun heç ayıq vaxtı olmur? Əyər ayıq vaxtı olursa, sən otur, onunla bir danış, gör dərdi nədir, niyə belə eləyir?

--Danışmışam, dərdini də bilirəm, ancaq o elə şey deyir ki, mən ölərəm, amma onun dediyini eləmərəm.

--Nə deyir ki?

--Deyir ki, bizimlə bir evdə yaşayan Qismət deyil ey, Firuzdur. Deyir mən ona baxıram, Firuzu görürəm. Deyir sənin bu coşqun məhəbbətin Qismətə olan məhəbbət deyil ey, Firuza olan məhəbbətdir. Gör bunda ağıl var?

--Deməli o hardasa Firuzu görüb, deməli o səni Firuza qısqanır. Nə qədər ki, bu belə olacaq, sənin də işin, yazıq bacım, çətin olacaq. Yaxşı indi o bu sözlərlə nə demək istəyir?

--Yenə də deyir ki, bu evdə ikimizdən birimiz qalmalıyıq.

--Heç bu da sözdürmü?Yaziq uşağı öz evindən didərgin salmaq istəyir?Belə də qəddarlıq olar?Bəs sən nə dedin?

--Mən də dedim ki, bir də bu cür şərt qoysan, özün bu evdən gedəcəksən. Dedim, səndən ayrılaram, oğlumdan yox!

--Səməngül, sənə bir söz deyəcəyəm, amma elə elə ki, Qismət başa düşməsin.

--Hii... Həyat, olmaya nə isə pis bir şey olub?

--Yox, qorxma, söhbət Firuzdan gedir. Onu Amerikaya səfir göndərirlər, dedim xəbərin olsun, birdən Qismәti yoldan çıxardar, özü ilə aparar.

Səməngül bir xeyli susdu, demək xəbəri yox imiş. Mən də susdum, ona fikirlərini çözmək üçün vaxt lazım idi. Handan-hana Səməngül xəttin o başında bir köks ötürüb dedi:

--Hə... . Deməli yenə Amerika... Neynək, Almaz xanım Azərbaycanda birinci ledi ola bilmədi, barı Amerikada Azərbaycanın birinci ledisi olsun, çox layiqdir axı... İnanırsan, Həyat, mənim heç sözüm yoxdur. Haqq-ədalət kəlmələrinin heç lüğğətimizdə də yeri yoxdur bundan sonra... Sən düz deyirsən, bu aralar gərək ayıq olum, mənə daha böyük zərbələr vurmasın bunlar. Yadıma düşmüşkən, sən bu məlumatları hardan bilirsən?

--Yadından çıxıb?Oktay onunla bir nazirlikdə işləyir axı... O danışıb.

--Həyat, bəlkə Nigara tapşırasan, Oktay vasitəsi ilə öyrənsin, görək, doğurdan da onun Qismət barədə bir planı yoxdur ki?Qismət mənə heç nə demir, neçə dəfə görüşüblər, amma ondan bir kəlmə söz çəkə bilməmişəm. Birdən doğurdan da uşağın beynini yeyər, aparar, sonra mən neyləyərəm?--o yenə doluxsundu.

--Sakit ol, mən Nigara tapşıraram, hamısını öyrənər.

Bir az da ordan-burdan danışıb ayrıldıq. Mən içimdə bir az arxayınlaşdım, ən azından, Səməngül indi daha diqqətli olar, Qismәti gözündən qoymazdı.

27. Firuz o ili öz təyinatı üzrə Amerikaya səfir getdi.

Qismətlə aralarında nə söhbət oldu, nələr danışıldı, onu biz bilmədik. Çünki, Qismət hər sözünü ortaya tökən oğlan deyildi, heç doğma anası da sonuna kimi bilmədi ki, o atası ilə neçə dəfə görüşdü, nələr danışdı. Burcə onu bildik ki, Qismət onunla getmədi. Əslində, Oktayın dediyinə görə, Firuzun belə bir planı var imiş, amma Qismət yola gəlməyib. Bəlkə də anasına yazığı gəlib. Əyər Səməngülün Musa ilə yaşayışı yaxşı olsa idi, bəlkə də uşaq atası ilə gedərdi.

Bu gün mən bir ana mövqeyindən fikirləşirəm ki, sən demə ən düzgün qərar elə Qismətin atası ilə getməsi olacaqmış ki, biz hamımız bilmədən əlbir olub buna mane olduq. Sonrakı hadisələr

də göstərdi ki, Səməngülün Qisməti hər vasitə ilə yanında saxlamaq istəməsi, onu gözündən üzaq buraxmaq istəməməsi heç də yaxşılığa deyilmiş.

Həmin o il, respublikanın Qarabağ bölgəsində, ermənilərlə qanlı döyüşlər gedirdi. Milli ordumuz mərdliklə vuruşurdu. Nəinki çağırışçılar, hətta adi vətəndaşlar da cəbhəyə can atır, könüllü ordu sıralarına yazılırdı. Buna baxmayaraq, hamı bir şeyə mat qalmışdı, üstünlük bizim tərəfdə olduğu halda, torpaqlar süni yolla boşaldılır, rayonlar bir-bir düşmənə təslim edilirdi. Bu münvalla respublikamızın torpaqlarının iyirmi faizindən çoxu düşmənin əlinə keçdi. Doğma od-ocaqlarından məcburi köçürülmüş qaçqınlarımız küçələrdə, meydanlarda xalqa başlarına gələnləri bir cür danışırdılar, mətbuat, televiziya tamam başqa şeylər deyirdi. Xalq çaş-baş qalmışdı, bilmirdi bunların hansına inansın. Ölkədə bir xaos hökm sürürdü. Mərdi namərddən, dostu düşməndən seçmək mümkün deyildi. Bir tərəfdən də, ölkədən gedən ermənilər bütün dünyaya səpələnib hadisələri tam tərsinə şərh edir, kitablar yazdırır, filmlər çəkdirir, az qala tarixi də silib yenidən yazdırırdılar. Hər yerdə, hər zaman bu dəsti-xətti ilə tanınan mənfur ermənilər, bu dəfə də, dünyanı yalan məlumatlarla yedirdib doyurdular. Onlar bizim susmağımızdan, baş verənlərə heç bir reaksiya verməməyimizdən istifadə edib, hətta xəritələri də saxta yolla dəyişdirdilər. Ona görə də bir gün biz bu yalanlara bir çarə tapmaq istəsək, öz gecikmiş həqiqətlərimizi cahana bəyan eləmək istəsək, unutmamalıyıq ki, düşmənimizdən ən azı əlli il geridəyik, və gecikmiş həqiqətlərimiz toydan sonra nağara misalı olacaqdır.

Atalar nahaq deməyiblər ki, balıq başdan iylənər. Ölkəmizin o vaxtki hakim dairələri vətən torpağının satılması kimi çirkin oyunlara bulaşmışdılar. Torpaqlarımız hərraca qoyulmuşdu. Sadə insanlarsa bu oyunlardan xəbərsiz, vətən sevgisindən qeyrətə gəlir, hər şeyi bir tərəfə atır, vətən uğrunda canından belə keçmək üçün, könüllü olaraq cəbhəyə yollanırdılar. Onlar ortada namərd əli olduğundan xəbərsiz idilər, onlar inanırdılar ki, doğru-düzgün savaş gedir. Mərd oğullarımız hər şeyi göz altına alıb, döyüşlərdə

doğurdan da cəngavər kimi vuruşurdular. Yadıma gəlir ki, hələ məktəblərdə yuxarı sinif şagirdlərini tutub saxlamaq olmurdu, onlar da qeyrətdən boğula-boğula könüllü cəbhəyə getmək istəyirdilər. Biz müəllimlər onları güclə fikirlərindən daşındırırdıq, çox çətinliklə dərslərə davam etdirə bilirdik. Onları qınamaq da olmurdu, hər evdən kimsə ya cəbhədə vuruşurdu, ya da artıq şəhid olmuşdu. Bakının küçələri yas mağarları ilə dolu idi. Gənc oğulları səfərbər edib qisa bir döyüş-hazırlığı məşqləri keçib cəbhəyə aparırdılar, döyüş səriştəsi olmadığı üçün, az qala yarısı qırılırdı, əvəzinə yeniləri gedirdi. O il ən amansız döyüşlər oldu, minlərlə vətən oğlu qanlı-qadalı vuruşlarda həlak oldu. O döyüşlərdə nələr oldu, nələr baş verdi ki, qoşunlarımız hücuma keçəndə də pusquya düşüb qırılırdı, geri çəkiləndə də?... Biz bilmədik. Cavabsız qalan suallar çox oldu. Bunlar nə vaxtsa, yəqin ki, açıqlanacaq, çünki, bu dünyada heç nə sonuna kimi gizli qalmır, bütün sirlərin bir gün açılması vardır. Ancaq bir şey var ki, o günü görmək kimə qismət ola, kimə olmaya... Beləcə vətənimizin torpağı, dövlətimizin bayrağı, analarımızın örpəyi şəhid qanına bulaşdı. Bir gün o torpağın, o bayrağın, o örpəyin haqqını düşməndən almalı, o məğlubiyyət ləkəsini üstümüzdən silməli, millətin uca adını qaytarmalıyıq ki, heç olmasa şəhidlərimiz yerlərində rahat yata bilsinlər, onların nahaq qanı yerdə qalmasın...

***

Çox ağır, çox mürəkkəb bir vaxt idi. Ordu sıralarına çağırılmış yeniyetmələr işğal olmuş torpaqların düşmən tapdağında qalmasına dözə bilmir, birbaşa cəbhəyə can atırdılar. Halbuki, onların heç bir hərbi hazırlığı yox idi, döyüş silahını yalnız kinolarda, bir də hərbi hazırlıq dərslərində görmüşdülər. Bu səbəbdən də, amansız döyuşlər qeyri-bərabər qüvvələr arasında gedirdi. Düşmən tərəfdən xüsusi təlim keçmiş, böyük döyüş təcrübəsi olan, ən müasir texnika və silahlarla silahlanmış, tərkibində ermənilərin də çoxluq təşkil elədiyi rus ordusu, biz tərəfdən isə yetərincə hazırlığı olmayan, tərkib hissəsi əsasən yeni

çağırışçılardan ibarət olan pərakəndə dəstələr vuruşurdu. Bütün bunları bildiyi halda, qanlı döyüş meydanını təcrübə meydanına çevirmiş, biri gedib, biri gələn, səriştəsiz olduğu qədər də vicdansız olan müdafiə nazirlərisə, millətin zillətlə boya-başa çatdırdığı, bığ yeri yenicə tərləmiş minlərlə belə qeyrətli balalarını "uf" demədən qırğına verirdi. Hərdən fikirləşirəm ki, Allah gərək başqalarının həyatı ilə oynayan, ölümünə səbəb olan adamları bir dəfə yox, bir neçə dəfə öldürəydi. Yoxsa ki, hər bir insan oğlu da bir cana borclu olsun, minlərlə, həyatları yarımçıq, sevgiləri nakam qalmış gənc insanları bilə-bilə ölümə yollayan vicdansız çinovniklər də bir can verməklə yaxasını qurtarsın? Belə insanlar gərək yüz dəfə ölsün, yüz dəfə dirilsin, sonunda yenə ölsün. Hər diriləndə də bilsin ki, yenə də öləcək. Bəlkə o zaman öz millətinə qarşı düşməndən də artıq qəddarlıq eləmiş xainlər, namərdlər atdığı hər addımı yüz dəfə ölçüb-biçərdi, insan həyatına qiymət verməyi öyrənərdi, imza atdığı hər qərarın məsuliyyətini hiss edərdi. Vətənin dar günündə düşmənə mərdliklə sinə gərən oğullarımızı öz mənfur niyyətlərinə qurban verib, sonunda üstümüzə məğlubiyyət damğası vurduran namussuzların ucbatından minlərlə evin ocağı söndü, yol gözləyən qız-gəlinin həyatı alt-üst oldu.

Heyif o oğullardan, o qara gözlü balalardan...

Xocalının işğalı, beş ildən artıq sürən müharibə illərində ən amansız, ən qanlı bir işğal oldu. Ermənilər Xocalıya gecə yarısı bir qəfil hücum eləmiş, bütün kəndə, hər evə, hər komaya od vurub yandırmışdılar. Şirin yuxusundan silah səslərinə oyanmış dinc camaatdan hər kim qaçıb canını od-alovdan qurtarmaq istəmişdisə, onu atəşə tutub öldürmüş, qaçmağa qoymamışdılar. Nə qocaya, nə cavana, nə qadına, nə uşağa aman verməmişdilər. Beləcə, o boyda Xocalı kəndindən sağ çıxan bir neçə adam olmuşdu ki, onlar da müxtəliv güllə yarası alandan sonra, ölmüş hesab olunduğuna görə sağ qalmışdılar. Xocalı faciəsi Bakıda çox böyük sarsıntıya səbəb oldu. Millət böyüklü-kiçikli, qadınlı-kişili, müdafiə nazirliyinə axışır, könüllü cəbhəyə getmək istədiklərini bildirir, bu hayıfı düşməndə qoymamağa cağırırdılar. Belə həyəcanlı, qarişiq bir vaxtda Səməngül öz həyəcanını mənimlə

bölmək üçün mənə zəng vurdu. Tələşlı səsini eşidən kimi bildim ki, yenə nəsə olub:

--Həyat, salam, mənə sizin köməyiniz lazımdır, qurban olum, kömək edin,--dedi.

--Nə olub, Səməngül?Sakit ol, danış görüm, nə olub?--deyə soruşdum.

--Həyat, Qismət könüllü orduya gedir, cəbhəyə. Yalvarıram, siz bir onunla danışın, mənə yazığı gəlsin, cəbhəyə gedəcəksə, heç olmasa öz növbəsini gözləsin. Nə vaxt çağırış gələr, zamanı yetişər, onda da gedər də...

--Sən özün onunla danışdın, nə deyir?

--Nə deyəcək, deyir ki, hamı gedir cəbhəyə, mən niyə Musanın çənəsinin altını kəsdirməliyəm?

--Səməngül, yenə Musa?Nə oldu ki, Qismət belə dedi?

--Nə olacaq?Həmişəki dığ-dığ. İçir gəlir, dilini də dinc qoymur, yerli-yersiz sancır Qismətı. Əslində Qismət çoxdan cəbhəyə can atırdı, indi bu Xocalı faciəsindən sonra tuturam, tutulmur. Elə hey deyir:"Mənim evdə nə işim var, mənim yerim cəbhədir, burax gedim qırım o murdar ermənilərı". Həyat, qurban olum, Süleyman əmiyə de, onu çağırsın bir söhbət eləsin. Bəlkə Süleyman əmi daşındırar onu fikrindən.

--Səməngül qorxma, indi onun yaşıdlarının hamısı eyni sözü deyir. Buraxsaq, yuxarı sinif şagirdləri hamısı bu gün gedər cəbhəyə. Yaşlarının pis vaxtıdır, haqsızlığa da dözə bilmirlər. Əlbətdə, onunla danışmaq lazımdır. Mən indi atama zəng vurub məsələni danışaram, görək, atam nə deyəcək.

Səməngüllə söhbəti burda kəsib atama zəng vurdum, məsələni başa saldım. Atam dedi ki, elə bu gün Qismətlə görüşəcək. Onun oxuduğu məktəbin ünvanını soruşdu, mən də verdim. Atam dedi ki, onunla danışıb mənə xəbər verəcək. Mən bir az rahatladım.

***

Həmin gün atamdan səs çıxmadı. Axşam Fərhad işdən gələndə məni fikirli görüb səbəbini soruşdu. Mən də Səməngülün sözlərini ona da dedim. Fərhad diqqətlə mənə qulaq asıb dedi:

--Allah saxlasın, həm çox ağıllı, həm də qeyrətli oğlandır. Onu yolundan döndərmək çətin olacaq. Bir yandan da evdə günü xoş keçsəydi, bəlkə yola gətirmək olardı. Amma indiki şəraitdə ona nə deyəsən ki, qərarını dəyişsin?

--Sən lap məni ruhdan saldın ki... Bəs necə edək, nə çarə tapaq?Axı o hələ uşaqdır, barı bir hazırlıq keçəydi. Fərhad, bəlkə onu hərbi məktəbə düzəldək, hələlik oxusun?

Fərhad bir az fikirləşdi, sonra dedi:

--Bu yaxşı fikirdir. Ali zabit məktəbinə düzəltsək, dörd ildən sonra ondan bir zabit olar ki, gəl görəsən. Sən zəng vur, tapşır sənədlərini hazırlasın, mən də görüm neylərəm.

Mən bu söhbətdən çox sevindim. Fikirləşdim ki, səhər Səməngülə zəng vurub hər şeyi ona danışaram.

Səhəri qün dərsim olmadığı üçün Səmədlə Fəxrini məktəbə yola salıb atama zəng vurmağı düşünürdüm. Uşaqların arxasınca qapını örtmüşdüm ki, ikisinin də səsini eşidib qapını yenidən açdım. Uşaqlar pilləkəndə atamın boynuna sarılmışdılar. Onlar babaları ilə hal-əhval tutub məktəbə getdilər, mən də atamla görüşüb onu içəri apardım. İlk dəfə fikir verdim ki, atam nə qədər qocalıb, həmişəki gümrahlığı da harasa yoxa çıxıb. Mən yəqin bilirdim ki, əyər həyatımızda bu qədər gözlənilməz, ağır hadisələr baş verməsəydi, atam belə tez qocalığa boyun əyməzdi. Namərd qonşularımızın üstümüzə gözlənilməz hücumu, rus dövlətinin onlara qahmar çıxması, onların güclü müttəfiqlərə güvənib, daha da azğınlaşması, evimizin içində basılmağımız, siyasi arenada təklənməyimiz --bunların hamısı millətin qeyrətli insanlarının qəddini xeyli əymişdi ki, onlardan biri də mənim atam idi.

Atamı ən rahat yerdə əyləşdirib onun üçün çay gətirməyə getdim. Atamın sevdiyi heyva mürəbbəsini də, dilimlənmiş limonu da siniyə qoyub, təzə-dəm çayla birlikdə gətirib süfrəyə qoydum. Atam sakitcə mənim hərəkətlərimi izləsə də hiss edirdim ki, hansısa ağır fikirlərin altında əzilir, oturmağımı gözləyir ki, sözə başlasın. Mən də onu daha gözlətməmək üçün, düz qarşısında oturub üzünə baxdım. Atam çox yavaşdan sözə başladı:

--A bala, mən dünən Qismətlə görüşüb danışdım axı... . Dünən sənə zəng vurmadım, çünki dünən ürəyim bir az şıltaqlıq elədi.

Mən bunu eşidib çox qorxdum:

--Nə danışırsan ay ata, bəs niyə anam xəbər eləməyib?Həkim çağırdınız?

--Rəşadgil bizdəydi, Gülnar özü iynə vurdu, bir as sonra özümə gəldim. Çox şükür, özümüzün həkimimiz var da... Gülnar olan yerdə başqasını neyləyirəm? Heç nə yox, uşaqları yaman qorxutmuşdum. Baba, baba, deyib qarışmışdılar bir-birinə. Nə isə, sözüm onda deyil. Mən Qisməti yola gətirmək istəyirdim, Qismət məni yola gətirdi.

--Necə yəni?Bu nə demək olur, ay ata?

--Söhbət çox uzundur, icazə ver bu ətirli çayı içim, sonra...

--Bu nə sözdür, ay ata, əlbəttə iç, nuş olsun, özün də tələsmə, mənim gedəsi yerim yoxdur, bu gün evdəyəm.

Atam tələsmədən çayını içirdi, mən də fikirləşirdim ki, görəsən söhbət necə olub ki, ondan sonra atam o hala düşüb?Atam çayını içdi, stəkanı da kənara itələdi ki, bu da daha içmirəm demək idi. Sonra aramla sözünə başladı:

--Qızım, mən sənə deyim ki, həyatında çox çətinlik görmüş insanlar, həyatı dərindən anlayan olurlar, ən incə məsələləri nəzərdən qaçırmirlar, hər şeyi düzgün başa düşən olurlar. Götürək elə Qisməti, onun dünyaya baxışı, həyatı anlaması, hər şeyə qarşı həssas olması handa bir dünya görmüş, ağsaqqal adamda olmur. Dünən onun dediklərinə qulaq asdım, ağzım açıla qaldı. Bu uşaq nə qədər ağıllı, necə dərrakəli, necə qeyrətli imiş?! Onun dedikləri məni həm kövrəltdi, həm də ürəyim dağa döndü ki, bu gənc yaşında o boyda ürək sahibidir. Biz dünən onunla bir tay-tuş, bir dost kimi söhbət elədik. Mən onun dediklərini ürəyimin də içindən keçirtdim, beynimin də. İndi bilmirəm, sən, yaxud Səməngül məni düzgün başa düşəcəksiniz, ya yox?Ancaq mən onun yolunu kəsəcək bir səbəb tapa bilmirəm. Onun dedikləri ilə razıyam. Mənə qalırsa, onu rahat buraxmaq lazımdır ki, hər şeyə özü qərar versin. O da bunu xahiş elədi.

--Ay ata, axı o sənə nə dedi ki, sən bu qədər tez təslim oldun?Axı o hələ uşaqdır, savaş nə bu gün bitir, nə də sabah, onun

da sırası gələcək, biz deyirik ki, hələ bir az oxusun, sonra əyər ehtiyac olarsa, o da gedər də... Bəlkə o oxuyana kimi müharibə də bitərdi?

--Elə məsələ də ondadır ki, o vaxtı yubatmaq istəmir də...

Bu sözlərdən sonra atam Qismətin dediklərini olduğu kimi mənə danışdı. Qismət deyirmiş ki, baba, mən çox ağır bir mühitdə böyümüşəm, özün yaxşı bilirsən. Həyatımı danışmağa ehtiyac yoxdur, sənin gözünün qabağında olub. Sən bilirsən, niyə başqa uşaqlar atalarının çiynində gəzəndə, anam məni hər kəsdən gizlədirdi, bayıra çox buraxmırdı. Sən bilirsən, niyə hər uşaq atasının üstünə qaçıb ona istədiyi oyuncağı sifariş edəndə, mən evdə bir küçük kimi anamla nənəmin başmaqları ilə oynayırdım. Mən oyuncağı onda tanıdım ki, onu sən verən pulla Həyat xala ilə Yasəmən nənə alıb gətirmişdilər. Hər kəs atasının çörəyini yeyib, anasının qucağında nazlananda mən anamın üzünü görməyə həsrət idim, çünki, bizim çörəyimizi o qazanırdı. Düzü bu gün mən sevinirəm ki, o cür şərəfsizin çörəyi ilə böyüməmişəm. Yoxsa indi ikinci Firuz olardım. Mən çörəyimi də tərbiyəmi də anamdan almışam. Sən yaxşı bilirsən, o necə ağır işlərdə çalışırdı, üstəlik gənc oldugu üçün, kimsəsiz olduğu üçün başı nələr çəkirdi. Bunlardan bildiklərimiz də oldu, bilmədiklərimiz də... Rəhmətlik nənəm ona görə yaşıdlarından çox erkən ayrıldı ki, ən ağır, ən qara günlərimizi ürəyinin başına yazırdı. Mən necə böyüdüm, nənəm bilirdi. Nənəm gözünü yumana kimi mənim dərdimi çəkirdi. Anamsa, hər əzaba qatlaşa-qatlaşa məni həm böyütdü, həm də hər xatadan-bəladan qorudu. İndi anamın pis-yaxşı bir ailəsi var. Bəlkə də mən evdən bir az uzaqlaşsam, o evdə bir əmin-amanlıq yaranar. Musa da daha anamın gününü qara eləməz. Bununla mən anamın haqqını az da olsa ödəmiş olaram. Digər tərəfdən də, düşmən gəlib qapını kəsdirib, millətimi qıra-qıra, el-obanı yandıra-yandıra gəlir. Mən nəyi gözləməliyəm? Bəlkə elə cəbhədə biri də mənim yerimdir boş qalan ki, ordan düşmən cəbhəni yarır?Mən bu gün anamı, bacımı düşünməsəm, üstümüzə gələn düşmən həmləsindən gizlənsəm, sabah anamın, bacımın talehi necə olar?Mənim kimi oğullar hərbi məktəblərdə

vaxtı yubatmağa başlasalar, əzizlərimizin aqibəti Xocalının aqibəti kimi olmaz ki?Mən də döyüş meydanına atılmaq əvəzinə, orda-burda gizlənib müharibənin bitməsini gözləsəm, həmən o aləmi qatıb, çətinliyə düşən kimi, anamı o halda buraxıb Amerikaya qaçan Firuzun tayı olmaram ki?Bir də, ay baba, anama xatırlat ki, o özü mənə deyirdi ki, alın yazısından qaçmaq olmaz. Əyər qismətimdə şəhidlik varsa, nə vaxt olsa, harda olsa, gəlib məni tapacaq. Cəbhəyə getmək, hələ ölümə getmək demək deyil, şəxsən mən düşməni öldürməyə gedirəm. Döyüşdən sağ qayıtsam, həyatımın bütün ağrı-acısını unudar, dünyaya gəldiyimə peşiman olmaram. Anam da mənimlə öyünər, hamının gözünün içinə də düz baxar. Mən bu gün özümü məhz cəbhədə görürəm, mənim yerim oradır. Hər nə olacaqsa, qoy olsun, bu Allahın işidir. Anama tapşır, mənə mane olmasın, əksinə mənə xeyir-dua versin. Mən onun üçün, onun uğrunda vuruşmağa gedirəm. Mən öz müqəddəslərimi--vətənimi, anamı, bacımı qorumaq üçün gedirəm. Hamınız mənə halallıq verin ki, qələbə mənə yar olsun.

Atam bu yerdə sözünə bir az ara verdi, elə bil nəfəsini dərdi, sonra dedi:

--İndi, a qızım, sən de görüm, bu sözləri deyən on doqquz yaşlı gəncə mən nə deyim ki, onu fikrindən döndərsin?Yainki, deməyim düz olarmı?Biz oğullarımızı belə günlər üçün böyütmədikmi?İndi vətənini, anasını, bacısını düşünən, damarında qanı qaynayan bir gəncə qaç gizlən, qoy bu dava sənsiz keçsin, qurtarsin, desəm düz olar?O öz doğma atasına nifrət elədiyi kimi mənə də nifrət edər axı... Onun dünyada heç nəyə və heç kimə inamı qalmaz ey... Ona görə deyirəm ki, məncə onu, özü demişkən, xeyir-dua ilə yola salsaq yaxşıdır. Səməngülü başa salmaq lazımdır ki, onsuz da Qismәti yolundan saxlaya bilməyəcək, onun qərarı qətidir.

Atam sözünü qurtarıb əli ilə süfrənin naxışlarını sığallaya-sığallaya fikrə getdi. Mən də onun dediklərini ürəyimdə götür-qoy eləyə-eləyə fikirləşirdim. Bütün qadınlar kimi içimdə, "bir yandan, o biri yandan" çəkişməsi gedirdi. Doğurdan da bir

yandan, atamın və Qismətin dedikləri mənim də düşündüklərim idi, lazım gəlsə balalarımı anama əmanət edib, Fərhadla cəbhəyə getməyi belə düşünmüşdük. Həm də yalnız biz deyil, neçə-neçə dost-tanışlarımız da bu fikirdə idilər. O biri yandan da, Səməngülü qınaya bilməzdim. Qismət onun təkcə oğlu deyildi, Qismət Səməngülü həyata bağlayan tək varlıq idi. Bunu kim bilməsə də, mən yaxşı bilirdim. Onun öz balasını odun-alovun içinə buraxmaq istəməməsi, balasının üstünə qanad sərməsi bütün analar kimi onun da haqqı idi. Belə olan vəziyyətdə necə hərəkət etməli, kimin tərəfini tutmalı idim ki, nə şiş yansın, nə kabab?Çox çətin bir məqam idi. Bunları fikirləşirdim ki, atam dedi:

--Qızım, mən bilirəm, sən nə fikirləşirsən. Mən özüm də bir qərar verməkdə çətinlik çəkirəm. Ona görə də deyirəm ki, bu günlərdə hamımız yığışaq Səməngülgilə, bizim yanımızda ana-bala danışıb bir qərar versinlər. Yoxsa, belə olmayacaq, Səməngülə deyəcəyik, gözünün yaşını tökəcək, Qismətə deyəcəyik, dediyində duracaq. Biz sadəcə şahid olaq, qoy özləri danışsınlar, nə deyirsən?

--Nə bilim vallah, məndən soruşsan, mən özüm Qismәti bağrıma basıb gizlədərəm, heç yana buraxmaram, o qədər onu çox istəyirəm. O da ola yazıq Səməngül... Ancaq sən də doğru deyirsən, yığışaq gedək ki, Səməngül də özünü tək hesab eləməsin. Qalanı da necə qismətsə...

Atam bir az da oturub getdi. O gün əlim-ayağım bir işə yatmadı. Danışılanları başımda təhlil edə-edə özümü o qədər yordum ki, axırda başım ağrıdı, ancaq "qatığı yaralama, çörəyi paralama, doğra, doyunca ye" misallı bu məsələni nə həll edə bildim, nə də bir yana çıxarda bildim. Sonunda çatlayan başıma çalma çalıb girib yatdım ki, uşaqlar dərsdən gələnə qədər özümə gəlim.

Axşam bu söhbəti Fərhada danışdım. Fərhad da atamın sözlərinə qüvvət verdi, halbuki, hərbi məktəb məsələsini demək olar ki, həll eləmişdi. Fərhad dedi ki, boşuna çalışdım, Qismət oxumağa razı olmayacaq. Mən də artıq inanmağa başladım ki, biz Qismәti yolundan saxlaya bilməyəcəyik. Mən atamın təklifini də

Fərhada dedim. Fərhad bu təklifi bəyəndi, həftə sonu toplaşmağı məsləhət gördü. Mən zəng vurub atamla danışdım. Beləcə həftə sonu Səməngülgilə toplaşmağı qərarlaşdırdıq.

***

Şənbə günü hamımız yığışıb Səməngülgilə getdik. Gəlişimiz gözlənilməz olsa da, Səməngül bizi gördüyünə çox sevindi. Musa bir az özünü itirdi, ancaq hələki ayıq olduğu üçün özünü tez ələ aldı. Bizə gülərüzlə xoşgəldin elədi. Sona böyük qız olmuşdu, artıq beş yaşı vardı. Bizi gec-gec görürdüsə də, hamımızı tanıyırdı. İstiqanlılıqla qabağımıza qaçır, boynumuza sarılırdı. Mən zarafatla ona Sona xala deyirdim, o da bu çağırışa hay veriridi. O, doğurdan da elə bil özündə rəhmətlik Sona xalanın bizə əziz olan xüsusiyyətlərini yaşadırdı. Biz hamımız onu çox sevir, Sona xalanın əziz yadigarı hesab edirdik. Qismət də bacısını sonsuz bir məhəbbətlə sevirdi. Onların bir-birinə bağlılığı bizim hər birimizin qəlbini kövrəldirdi. Səbəbini də hər birimiz bilirdik, ona görə də bu kövrəkliyin səbəbini izah eləməyə ehtiyac yox idi.

O gün Səməngüllə Qismət çox söz güləşdirdilər, çox mübahisə elədilər, amma heç biri dediyindən dönmədi. Əslində hər ikisi özlüyündə haqlı idi. Səməngülün dedikləri bir ananın təlaşı, fəryadı idisə, Qismətin dedikləri də, bir gəncin mərdliyi, qeyrəti idi. Səməngül ən sonda göz yaşına güc verib Qismәti bir də bu yolla fikrindən döndərmək istədi. Qismətsə gəlib düz anasının qabağında diz çöküb dedi:

--Ana, sənə qurban olum, xeyir-dua ver, məni yolumdan eləmə. Bu gün mən bu qərarı vermişəmsə, məni sən belə böyütmüsən, indi sən xeyir-dua ver, mən də fərəh hissi ilə yola çıxım. Sənə söz verirəm, özümü boş yerə təhlükəyə atmayacağam, sənin üçün qoruyacağam. Düşməni öz torpaqlarına qədər qovub, orda qırandan sonra geri dönəcəyəm. Qabağımı kim kəssə, deyəcəyəm:Çəkil yolumdan, məni anam gözləyir!--bunu deyib Qismət gülə-gülə anasına sarıldı.

Biz hamımız qəhərdən boğula-boğula ancaq qulaq asır, bu dialoqa qarışmağa ürək eləmirdik. Buna bizim haqqımız yox idi. Bu söhbət onların ikisinin dünyasında baş verirdi. O dünyaya müdaxilə eləmək qəbahət olardı. Musa da bizim kimi yalnız kənardan baxır, cınqırını da çıxartmırdı. O da gördüyü mənzərədən, eşitdiyi söhbətdən qəhərlənmişdi. Hər halda insan idi axı... daş deyildi...

Səməngül çox yalvardı, çox yaxardı, axırda başa düşdü ki, xeyri yoxdur, oğlunu bağrına basıb hönkür-hönkür ağladı. Dilinə heç nə gətirməsə də, hamı başa düşdü ki, Səməngül duruş gətirə bilmədi, təslim oldu...

Biz onları sakit olmuş halda, üz-üzə dərdləşdikləri bir vəziyyətdə qoyub gəldik. Atam o gecə yenə ürəyindən şikayət edibmiş. Gecə Rəşadla Gülnar gəliblər, səhərə kimi atama dava-dərman ediblər. Mən bunları ertəsi gün Rəşaddan öyrəndim. Rəşad mənə zəng vurub atamın gecədən bəri nə hallara düşdüyündən danışdı. Sonra dedi ki, indi artıq yaxşıdır. Mən hiss elədin ki, Rəşad daha nəsə demək istəyir, ona görə də soruşdum:

--Rəşad, Gülnar nə deyir, atamın ürəyində ciddi bir şey var yoxsa?

--Həyat, mən elə onu deyəcəkdim ki, onu daha çox ağır söhbətlərə cəlb eləməyin, atamın ürəyi çox zəifləyib, bir gün tab gətirməyə bilər. İndi onu bütün həyəcanlardan, qorxulardan, hətta sevinclərdən də uzaq tutmaq lazımdır. Atamız daha əvvəlki adam deyil. Görmürsən, bu son hadisələrdən sonra birdən-birə necə qocaldı?Biz indi gərək onu qoruyaq. Gülnar da bunu deyir.

Mən lal-dinməz qardaşımın dediklərinə qulaq asırdım. Bir söz deməyə ehtiyac yox idi, hamısı döğru idi. Birdən Rəşad soruşdu:

--Həyat, siz Qisməti fikrindən döndərə bilmədiniz?

--Yox, qardaş, yox. Yaşı az da olsa, bir kişi xasiyyəti var onda, dediyindən dönmədi ki, dönmədi.

--Yaziq Səməngül, bəs neyləyəcək indi? Anam deyir, ağlamaqdan gözləri qan çəkibmiş.

--Eh, ay Rəşad, o nə vaxt ağlamadı ki? Bütün ömrü göz yaşı içində keçmədimi?

--Allahın ona yazığı gəlsin, Qisməti xatadan-bəladan saxlasın. Çox ağır vəziyyətdir. Səməngül bu ayrılığa necə dözəcək, yazıq...

--Amin, qardaş, amin. Allah bütün balaları yağı gülləsindən qorusun, hamısı sağ-salamat geri dönsün.

Rəşadla söhbəti bitirdikdən sonra içimdə daha bir göynərti özünü bildirdi: sən demə, Rəşad Səməngülün ağrısını-acısını hələ də içinə çəkirmiş...

28 Qisməti yola salmağa çox adam gəlmişdi.

Heç biz bilməzdik ki, onun bu qədər dostu, tanışı var. Üstəlik, bizim ailə, Nigargilın ailəsi, Rəşadgil, yaxın qonşular, hamı bu mərd, qeyrətli balanı cəbhəyə yola salmağa, ona xeyir-dua verməyə, uğurlar arzulamağa gəlmişdi. Bu məclisə toplaşanların hər biri Qisməti öz balası kimi sevirdi, ona görə də onun bu gənc yaşında könüllü cəbhəyə getməsinə təəssüf edirdi. Ancaq hamı da onu yaxşı tanıyırdı, xasiyyətinə bələd idilər, bilirdilər ki, dediyindən dönən deyil. Belə olan halda, toplaşanların hər biri onu bağrına basır, duz kimi yalayır, ən gözəl sözlərlə xeyir-dua verirdilər. Səməngül özünü nə qədər tox tutmağa çalışırdısa da, nəmli gözlərindən halı bəlli idi.

O gün Qismət sanki birdən-birə neçə yaş böyümüşdü. Uca boyu ilə, yaraşıqlı çöhrəsi ilə yəqin ki, neçə-neçə qızların ürəyində özünə yer eləmiş Qismət, bu gün onun adına gələn qonaqları yetkin bir kişi ciddiyyəti ilə qəbul edir, hamının söylədiklərinə təmkinlə qulaq asırdı. Mən kənardan ona göz qoyurdum, Qismət eynilə Firuz idi, amma fərqli bir Firuz idi. Qismət bir zamanlar Səməngülün ağlını başından alan, onu çoşqun bir eşqlə özünə bağlayan, lakin sonradan qaçıb aradan çıxan Firuz yox, həmişəlik Səməngülün ürəyinə köçən, orda sevilən, əzizlənən, hamıdan qorunan bir Firuz idi. Səməngül Firuzu belə bir oğlan bilib sevmişdi. Səməngül Firuzun xarici görünüşünə vurulub, daxili aləmini özündən uydurmuşdu. Daha doğrusu, bütün yeniyetmə qızlar kimi, Səməngül də ürəyində yaratdığı qəhrəmanını Firuzla eyniləşdirmiş, xəyalındakı müsbət qəhrəmanın məhz Firuz olduğuna inanmışdı. İnsafən, min bir

zillətlə də olsa, Səməngül ən sonunda sonsuz sevgisi sayəsində, istədiyi Firuzu həyatda da yaratdı. Qismət onun tanıdığı, sevdiyi, kürəyinə söykənə biləcəyi, güvənəcəyi Firuz idi. Ona görə də çətinliklərdən, ehtiyaclardan, məhrumiyyətlərdən keçə-keçə yaratdığı, nəhayət ki, xəyalındakı, ürəyindəki Firuzla eyniləşdirdiyi Qismətini belə qeyri-adi məhəbbətlə sevir, gözündən qoymaq istəmirdi. Görünür Musa da bunu anlamış, o vaxt məhz bunu demək istəmişdi. Bu yerdə fikirləşdim ki, əyər Musa belə incə məsələni anlamışdısa, deməli o da heç düşündüyümüz kimi dayaz, qaba adam deyilmiş.

Qismətə bir həftə vaxt vermişdilər, bir həftədən sonra o cəbhəyə yola düşəcəkdi. Mən fikirləşdim ki, yola salma mərasimini bu gün keçirməyimiz yaxşı oldu. O biri həftəni Səməngül Qismətlə bol-bol dərdləşər, ürəyinin sözünü doya-doya danışardı. Bu günü isə mütləq əbədiləşdirmək lazım idi. Oktay son model fotoaparatını gətirib hamının bir yerdə şəklini çəkdi. Sonra hamı kiçik qruplar halında Qismətlə şəkil çəkdirdi. Qismət Sonanı boynuna mindirib bu cür də şəkil çəkdirdi. Son olaraq Səməngül və Qismət, ana-bala şəkil çəkdirdilər. Qismət boyca ondan çox balaca olan anasını özünə sıxıb, başını onun başının üstünə əymişdi, lap o vaxt atası, başını anasına sarı əydiyi kimi. Mən hiss edirdim ki, artıq Qismətin hər hərəkəti, yadıma Firuzun hansısa hərəkətini salır. Bu müqayisəmi deyim, bənzətməmi deyim, məndə qəribə hisslər oyadır, acı xatirələrlə qəmli reallığın üz-üzə durmasına səbəb olurdu. Heç özümə də izah edə bilmədiyim bir hiss, ürəyimi deşə-deşə gəlir, gözümdən yaş kimi çölə axırdı. Ortalığı yığışdıra-yığışdıra arabir gözümün yaşını silirdim ki, heç kəs görməsin. Birdən Qismət yan otaqdan başdan-ayağa hərbi forma geyinmiş halda çıxdı, mən elə bil buna bənd imişəm kimi, elə ucadan hönkürüb ağladım ki, hər kəs döyüküb qaldı. Bilmirəm, mənə nə olmuşdu, hətta Səməngül də özünü unudub məni sakitləşdirməyə çalışırdı. Fərhad ortanı şənləndirmək üçün gülə-gülə dedi:

--Bu da bizim ağıllımız, burda deyiblər ey, sənə güvəndiyim dağlar, sənə də qar yağarmış?

Qismət gəlib məni qucaqladı, qaldırıb fırlatdı, sonra yerə qoyub dedi:

--Heç kim mənim xalamın xətrinə dəyməsin, yoxsa mənə cavab verməli olar haa... Baxmaram kimdir.

Atam yaxınlaşıb onu qucaqladı:

--Boyuna qurban, ay oğul, bütün sevdiklərini qocaca canıma əmanət elə, özün də arxayın ol, söz verirəm, sən gələnə kimi heç əzrayıla da can vermərəm.

Hamı gülüşdü. Mən də özümü ələ alıb sakitləşdim, hər kəsdən üzr istədim. Səməngül gəlib məni qucaqladı, üzümdən öpdü. Oktay da bu hərəkətə belə bir şərh verdi:

--Ah, qadınlar, qadınlar... Gəl indi bunları başa düş, biz kimi kimə tapşırmışdıq, indi kim kimi sakitləşdirir?

Bu sözə də hamı güldü.

Tanışlar, qonşular yavaş-yavaş dağılışırdı, Qismət də bir barmağını Sonanın əlinə verib, bacı-qardaş əl-ələ, gedənləri yola salırdılar. Mən onlara baxırdım, birdən içimdə bir hikkə qaynadı. Öz-özümə məətəl qalmışdım ki, bu gün mənə nə olub?Fikrimi cəmlədim ki, görüm nədir bu daxilimdə baş verən?Birdən-birə nə istədiyimi anladım. Mən dəlicəsinə istəyirdim ki, Firuz indi, bu dəqiqə, Qismətı bu geyimdə görəydi, Qismətin cəbhəyə getdiyini biləydi. Heç özüm də bilmirdim, bunu niyə istəyirdim, bunun kimə, nə xeyri olacaqdı? Ancaq, anlatması çətin olsa da, mən bunu neyçünsə istəyirdim. Məyər insan həmişə özünü axıra qədər anlaya bilir? Olur ki, insan başqalarını daha yaxşı başa düşür, nəinki özünü. Mən ürəyimdən keçənləri heç kimə demədim, onsuz da heç bir mənası yox idi. Firuz öz Amerikasında hər şeydən xəbərsiz rahat yaşayırdı. Ona heç kim lazım deyildi, onun bu dünyada bir tayı var idi, o da onunla orda idi. Firuz bu dünyanın hər cür gözəlliyinə ki, ora ən birinci insani gözəllik daxildir, arxa çevirib, xarici görünüşü bir yana qalsın, daxili də bu qədər çirkin, üstəlik də Firuza övlad verməyəcək qədər də sonsuz Almazla hər şeydən xəbərsiz, vətənə qayıtmaq üçün əlverişli şərait gözləyirdi. Onun o eqoist, dayaz ağlına da gəlmirdi ki, sabah gəlib ən gözəl guşəsində firavan həyat quracağı vətəni, bu

gün düşməndən körpə Qismət qorumağa gedir. Qismət də yəqin o bir-iki görüşdə, onun nə insan olduğunu anlamış, ona görə də hər təklifini rədd eləmişdi. Qismətin atama dediyi "mən də Firuzun tayı olmaram ki?" deməsi bir də onu göstərirdi ki, Qismət anasından fərqli olaraq, Firuzun çox şıq, çox yaraşıqlı xarici görünüşünə aldanmamış, onun daxili çürüklüyünü çox tez anlamışdı. Hətta qan bağlılığı da onun gözünü bağlamamışdı, hər şeyi olduğu kimi görmüş, lazımı qiyməti də vermişdi.

***

Qismət cəbhəyə gedirdi. Onun alın yazısında nələr var idi, başına nələr gələcəkdi, heç kəs bilmirdi. Ancaq ortada hamının bildiyi bir şey var idi. Qismət müharibənin ən qızğın çağında, döyüş meydanında leşin-leşə, başın-başa qarışdığı bir vaxtda özünü həmin odun-alovun içinə atırdı. Bilə-bilə atırdı. Eynilə anasının bir vaxt özünü bilə-bilə eşq oduna atdığı kimi. Bu fikirlər ürəyimdə min bir təlaş yaradırdı, ancaq mən o fikirləri başımdan qovur, dua edirdim ki, Qismətin anasına bənzəyişi elə burdaca bitsin. Dua edirdim ki, görünüşcə necə atasına bənzəyirsə, bəxti, talehi də eləcə atasının bəxtinə, talehinə bənzəsin.

Beləcə ziddiyyətli fikirlərin məngənəsində sıxıla-sıxıla, pis fikirləri başımdan qova-qova Qismәti yola salmaq üçün Biləcəri stansiyasına gedənlərə qoşuldum. Çox illər bundan qabaq burdan Rəşadı əskərliyə yola salmağımız yadıma düşdü. Onda hamımız necə də xoşbəxt idik. Onda Mahmud əmi də, Sona xala da sağ idilər. Ayrılıq həmişə insanı kövrəldir, bir də bu yerdə yadına belə qəmli xatirələr düşərsə, indi gəl, özünü saxla, ağlama görüm... Mənə elə gəlirdi ki, mən qətiyyən ağlamıram, di gəl ki, gözümün yaşı məndən xəbərsiz üzü aşağı elə hey axırdı... ürəyim idi ağlayan...

Qismətin uca qaməti dəfələrcə əyilib-düzəldi, hər kəs onu doyunca öpüb, xudahafisləşdi. Bütün qəmli notları görüb, eşitsə də, üzündən təbəssüm əskik olmadı. Son olaraq yola düşən qatarın pəncərəsindən bizə əl elədi... Gülümsəyə-gülümsəyə... İmkan vermədi ki, kimsə onu qəmli görsün, kiminsə ona yazığı gəlsin. İstədi ki, hamı onu elə bu cür, gülərüz yadda saxlasın...

Qismət getdi, o gündən hər birimizin evində televizor ən qiymətli əşya, cəbhə xəbərləri ən vacib, ən baxılası veriliş oldu. Günümüz televizoru güdməklə, cəbhədən gələn xəbərləri su kimi içməklə keçirdi. Müharibə gedən illərdə orduya yardım eləmək kimi mühüm bir işi respublikanın hər bir vətəndaşı öz üzərinə çəkmişdi. Hamı birdən cəbhəyə gedə bilməzdi, odur ki, hər kəs cəbhəyə necəsə kömək eləmək, bununla da ordumuzun döyüşlərdə qələbə çalmasına az da olsa yardım eləmək istəyirdilər. Qışın soyuğunda səngərlərdə vuruşan əskərlər üçün isti köynəklər, yun corablar toxuyan qadınların əl işlərini toplayıb bağlamalar düzəldir, arasına evlərdə bişmiş şirniyyat, siqaret yığıb cəbhələrə göndərirdik. Bu işlər əsasən məktəblərdə təşkil olunurdu. Şagirdlərin təşəbbüsü ilə həmin bağlamalara əskərlərə yazılmış səmimi məktublar da qoyulurdu. Bu məktublarda məktəblilər, düşmənə sinə gərən mərd oğullarımıza, onların əhvali-ruhiyyəsini qaldıracaq xoş sözlər yazırdılar. Əli qələm tutan ən balaca şagirdimiz də elə təsirli məktublar yazırdı ki, özümüz oxuyanda nə qədər kövrəlirdik. Biz inanırdıq ki, bu səmimi sözlər əskərlərimizim ürəyini isidəcək, onları döyüşə daha da ruhlandıracaq.

Qismətin ilk məktubu gəldiyi günü hamımız xatırlayırıq. İlk məktub düz uç aydan sonra gəldi. Bir gün atam mənə zəng vurdu:

--A bala, Həyat salam. A bala, Musa zəng vurmuşdu, deyir Qismətdən məktub gəlib.

Mənim qorxudan ürəyim düşdü, güclə qorxumu gizlədərək soruşdum:

--Bəs niyə Musa?Səməngül özü niyə zəng vurmayıb?Ata, sən Allah, düzünü de, bir şey olmayıb ki?

Atam məni sakitləşdirdi:

--Yox, yox, salamatçılıqdır, çox şükür. Musa deyir Səməngül özünü bir təhər aparır. Nə bilim vallah, deyir məktubu alandan basıb sinəsinə oturub, heç nə danışmır, yemir, içmir.

--Aaa... İrağ olsun, bəlkə xəbərlər pisdir?Heç olmasa oxuyub məktubu?

--Deyir oxuyub, elə bir şey də yazmayıb, hər şey yaxşıdır, sadəcə Səməngül, ola bilsin ya qorxusundan, ya sevindiyindən bir

az əsəb keçirib. Onu deyirdim ki, gəlin gedək onlara, həm məktubu oxuyaq, həm də o qıza bir az öyüd-nəsihət verək, belə olmaz axı...

Mən atamın sözünü haqlı saydım, fikrini də bəyəndim. Axşam Fərhad gəldi, hamımız toplanıb Səməngülgilə getdik. Qapını Musa açdı. Salamlaşıb görüşəndən sonra dedi ki, Səməngül səhərdən oturub Qismətin otağında, nə onları içəri buraxır, nə də özü ordan çıxır. Beləcə, ac-susuz oturub orda. Mən hamıdan əvvəl Qismətin otağına girdim. Səməngül oğlunun yatağının kənarında heykəl kimi oturmuşdu . O böyümüş gözləri ilə mənə baxırdı, mənsə onun başı üstündən divara vurulmuş şəkillərə baxırdım. Bu həmin o üç ay bundan əvvəl Oktayın çəkdiyi şəkillər idi. Səməngül hamısını böyütdürüb divara vurmuşdu. Səməngülün bu hərəkəti ürəyimi elə üşütdü ki, ona elə qəzəbləndim ki... Üstünə cumub qışqırdım:

--Az sən nə axmaq insansan Səməngül, sən nə yaramaz anasan, sən nə pis niyyətli qadınsan! Nədir sənin bu elədiklərin?Necə qıyırsan o cür balaya? Heç nə olmamış, indidən belə qaramatı niyə qurursan?Utanmırsan, Səməngül? Mən sənə nə deyim, ana da öz balasını bu cür yada salar? O orda döyüşür, qan-qadanın içində hələ bir vaxt tapıb sənə məktub da yazır, bəs sən neyləyirsən? Sən bu məktubu hər kəsə göstərməkdənsə, onu hamıya oxumaqdansa, sevinməkdənsə, gör nə eləyirsən?!

Mənim bu qışqır-bağırıma anamgil də içəri girdilər. Səməngül sanki, onları görüb özünə gəldi, hamıya mat-mat baxa-baxa ayağa qalxdı. Anam onu qucaqlayıb üzündən öpdü, sonra dedi:

--Ay bala, ay qızım, sənin gözün aydın olsun ki, oğlundan məktub gəlib. Niyə bəs belə eləyirsən, sənə qurban olum?Allaha şükür, sağ-salamatdır, sənə də məktub yazıb ki, ondan arxayın olasan, daha nə olub? Gəl gedək o biri otağa, bir az çörək ye, özün də məktubu bizə oxu, görək əsgər balamız nə yazır?Belə eləmə qızm, belə olmaz mənim balam...

--Yasəmən xala, məni bağışlayın, heç bilmirəm, mənə nə olub. Həyat, sən də bağışla, bilə-bilə eləmədim, vallah... Gedim çay qoyum, hamınız xoş gəlmisiniz...

Səməngül mətbəxə getdi. Musa çox ciddi görkəmlə dedi:

--Sizi də narahat elədim, siz Allah bağışlayın, heç özündə deyildi, ona görə qorxdum...

Atam ona baxıb dedi:

--Çox düz eləyib mənə zəng vurmusan, o mənim qızım sayılır, nə baş versə, mən bilməliyəm. Ancaq indi düzünü de görüm, məktubda nəsə vardı, ya ikinizin arasında nəsə olub?

--Vallah Süleyman əmi, elə məsələ də ondadır ki, heç biri deyil. Qismət xoş sözlər yazıb, anasını arxayınlaşdırıb ki, guya müharibə uzaqdan adama qorxulu görünür, əslində uşaqlıqda oynadıqları dava-dava oyunundan heç də fərqlənmir. Belə-belə şeylər. Məktubu oxuyana kimi mən də elə bildim ki, nəsə pis xəbər var, amma aldım, oxudum, gördüm hər şey yaxşıdır. Bu niyə belə eləyir, bilmirəm.

Bir azdan Səməngül heç nə olmamış kimi süfrə açdı, çay, mürəbbə, şirniyyat gətirdi. Onun hərəkətlərinə fikir verə-verə rəhmətlik Sona xalanın çay süfrəsi açmağı yadıma düşürdü. Səməngül hər şeyi eynilə anası kimi edirdi. Mən arada qalxıb ona kömək edirdim, çayları bir-bir hamıya ötürürdüm, Səməngül dönüb üzümə baxdı, mən gülümsədim, o da mənə gülümsəməklə cavab verdi. Elə bil heç nə olmamışdı. Biz uşaqlıqda olduğu kimi bir-birimizi yenə sözsüz də başa düşürdük.

Qismətin məktubunu hamımız oxuduq. O doğurdan da Musanın dediyi kimi, qanlı vuruşları uşaqlıqda oynadığı dava-dava oyununa bənzədirdi. Hamımız başa düşürdük ki, o anasına təskinlik vermək üçün, onu sakitləşdirmək məqsədi ilə belə şux məktub yazmışdı. Əslində o, ən qanlı döyüşlərin getdiyi Ağdərə cəbhəsində idi. Bu da o demək idi ki, o döyüşdə əskərin bir günü yox, bir anı da hər dəqiqə son an ola bilərdi. Səməngülü o hala salan da, məhz elə bu olmuşdu. Cəbhə bölgəsindən gələn xəbərlərdən hamı hər şeyi bilirdi. Odur ki, bir yana baxanda, Səməngülü qınamaq da insafdan deyildi. Hər halda, hamımız ona öyüd-nəsihət verdik, özünü ələ almağı, oğlu barədə ən gözəl şeylər fikirləşməyi tövsiyə eləyib evə gəldik. Mən düşüncələrimə dalmışdım ki, Fərhad dedi:

--Yazıq qadın, tələşlanmağında haqlıdır, orda indi ən dəhşətli döyüşlər gedir. Gündə nə qədər gənc oğullar qırılır. Az qala hər evdə yas qurulub. Əclaflar, körpə balaları, demək olar ki, əli yalın quduz düşmənin üstünə göndərirlər.

Mən özümü saxlaya bilmədim, dizlərimi qucaqlayıb hönkür-hönkür ağladım. Fərhad daha heç nə demədi.

Aradan xeyli vaxt keçdi. Bu vaxt ərzində Qismətdən üç məktub da gəldi. Bu məktublara mən də cavab yazırdım. Qismət bizi gümrah saxlamaq istəyirdi, ona görə də şux məktublar yazırdı, biz də onu nigaran qoymamaq üçün ona müxtəlif xoş xəbərləri yazırdıq. Səməngül də oğluna məktub yazırdı, hər məktubun sonunda Sonanın əlini məktubun üstünə qoyub, qələmlə cızırdı. Bunu Qismət özü istəmişdi, demişdi ki, Sonanın əlinin şəklini çəkin, güya o da məktub yazıb, mən də o şəkli öpüm, sanki Sonanın əlini öpürəm, balaca xanımdır axı...

Bir gün Səməngül mənə zəng vurdu:

--Həyat, salam, necəsən? Süleyman əmi, Yasəmən xala necədirlər? Hamı yaxşıdırmı?

--Salam Səməngül, sağ olasan, hamı yaxşıdır. Nə var, nə yox?Qismətdən yeni məktub almamısan?

--Yox, nə vaxtdır ondan məktub yoxdur, çox nigaranam.

--Nigaran olma, ora sanatoriy deyil ki, cəbhədir, uyğun şərait olan kimi yazacaq. Darıxma.

--Həə... Mən də özümü elə sakitləşdirirəm, deyirəm, yəqin vaxtı yoxdur, vaxtı olan kimi yazacaq. Həyat, sənə başqa bir şey deyəcəkdim ey... Qismətin məktəbinə çağırmışdılar məni.

--Bıy... Bismillah, niyə?

--Firuz Amerikadan məktub yazıb, Qismətə yazıb. Elə bilir Qismət burdadır, xahiş eləyib ki, tapıb məktubu ona versinlər. Deyib ki, ünvan yadında deyil, ona görə də məktəbə yazıb. Bunlar da məni çağırıblar ki, neyləyək, nə cavab verək?Dedim, düzünü yazın, yazın ki, Qismət cəbhədə vuruşur, məktub yazmağa vaxtı olsa, anasına yazar.

--Vallah, məətəl qalmışam onun abırsızlığına, nə istəyir görəsən bu uşaqdan?

--Məktublarını aldım axı, neçəsini yazıbmış, aldım da, oxudum da... Məktublarda Amerikanı tərifləyir, bir də Qismәti yanına çağırır. Yazir ki, qərarını mənə bildirən kimi, adam göndərəcəyəm, gəlib səni gətirəcək.

--Səməngül, heç səndən də bir şey yazırmı?

--Bir kəlmə də. O məktubları Almaz yoxlamasa buraxarmı gəlsin? Bir də nə yazacaq məndən?Axmaq deyil ki, nə deyibsə, şifahi deyib, burda olanda. Onu da biz bilmərik. Nə o deyər, nə də Qismət.

--Məktəbdən nə dedilər?Cavab yazacaqlarmı?

--Həə... Müdür mənim yanımda katibəyə tapşırıq verdi, rəsmi bir cavab yazdılar.

--Firuzu tanımasaydım, deyərdin ki, indi bir də gördün, gəldi oğlunun dalınca...

--Tanıdığına görə, xam xəyal qurma, qoy rədd olsun...

--Səməngül, Qismətdən məktub ilk sənə gəlsə, sən xəbər ver, mənə gəlsə, mən, yaxşı?

--Yaxşı.

***

Qismətdən daha məktub gəlmədi...

Düz bir il olacaqdı ki, Qismәti deyə-gülə cəbhəyə yola salmışdıq, Qismәti geri gətirdilər. Dəmir qutuda... Səməngülün o gün qaraçuxası əbədilik yatdı. Dünyada övlad yarasından, bala dağından dəhşətli bir şey olmasın gərək. Allah heç bir ananı o yoldan keçirtməsin ki, bəxtiqara Səməngül keçdi...

Adi günlərin birində, heç bir xəbərdarlıq eləmədən, Qismәti dəmir qutuda gətirib evin ortasına qoydular. Biz bu xəbəri eşidər-eşitməz hamımız, kimin əlində nə işi vardısa buraxıb ora axışdıq. Girişdən dördüncü mərtəbəyə kimi əskərlər fəxri qarovulda durduqları kimi durmuşdular. Bir də qonum-qonşular sıxlaşıb durmuş, için-için ağlaşırdılar. Biz həm tələsdiyimiz üçün, həm də xəbərin acılığından boğula-boğula özümüzü içəri güclə saldıq. Qonaq otağının ortasında ürəkləri parçalaya biləcək bir mənzərə

var idi. Bu mənzərə heç bir vaxt, heç birimizin yadından çıxmayacaq. Evin ortasında dəmir qutuda bir az nimdaşlaşmış, bir-iki yerdən dəlik-deşik olmuş əskər formasında Qismət bir az dəyişmiş görünüşü ilə uzanmışdı. Sanki yatmışdı. Bircə şey bu fikri alt-üst edirdi, alnındakı güllə yeri. Üstünü sarğıyla bağlasalar da, sarğıdan vurub çıxmış qan ləkəsi, orada bir ölüm yarası olduğundan xəbər verirdi. Vaxt elə bir vaxt idi ki, belə dəmir qutular da sonsuz sayda gəlirdi, anaların fəryadı da günün hər saatında eşidilə bilirdi. Ona görə də bilirdik ki, bu qutuları açmağa icazə yox idi. Necə olmuşdu ki, Qismətin tabutunu açmışdılar, hələ bilmirdik. Hələ gördüyümüzün dəhşətindən qurtarmamış gözümüz Səməngülü axtarırdı. Anam bir tərəfdə, atam o biri tərəfdə özündən getmişdi. Əskərlərlə gəlmiş hərbi həkim onları ayıltmaqla məşğul idi. Mən isə Səməngülü ortalarda görmədiyim üçün, onun üçün narahat olurdum, bəs hardadır Səməngül, birdən özünü balkondan atar. Mən ağlaya-ağlaya yanımda dayanmış qadından soruşdum:

--Bəs Səməngül hanı?Hanı mənim bədbəxt bacım?

Qadın lal-dinməz əli ilə tabutun ayağında heykəl kimi oturmuş qadını göstərdi. İndi fikir verib gördüm ki, bayaqdan tabuta ən yaxın oturan bu qadını mən niyə tanımamışam. Qar kimi ağ saçlarını yolub yanlara tökmüş, arxası toplaşanlara tərəf oturmuş qadına yaxınlaşdım, əyilib üzünə baxdım. Aman Allah, bu Səməngül idi... Mən də bayılıb tabutun yanına düşdüm.

Mən özümə gələndə, içəri adamla dolu idi, iynə atsan, yerə düşməzdi. Ağlaşma səsi ucalmışdı. Mən gə hönkürə-hönkürə qadınları yara-yara gəlib anamla Səməngülün yanında oturdum. Ağlaya-ağlaya dönüb Səməngülə baxdım. Səməngül səksən yaşlı qarıya oxşayırdı, başı ağappağ idi. Ancaq ağlamırdı, daş heykəl kimi oturmuşdu. Anam ağlaya-ağlaya ona yalvarırdı:

--Ay qızım, Səməngül, a bala ağla, ağla ki, ürəyin davam gətirsin. Ay qızım, Sonanı da yetim qoymaq istəyirsən?Sənsiz o neyləyər?

Anam daha nələrsə dedi, ancaq Səməngül məncə heç deyilənləri eşitmirdi. Hər məktub alanda ağlayıb özünü öldürən

Səməngül, indi oturub gözünü oğlunun ölüsünə zilləyərək, heykəl kimi donmuşdu. Bu arada hərbiçilər girir-çıxır, dəfn mərasimi üçün tədbirlər görürdülər. Bir azdan yüksək rütbəli hərbiçilər də gəldi. Onlar axşama doğru, Qismәti dəfn edəcəklərini bildirdilər. Binanın qabağına əskərlərdən dördbucaq şəklində canlı çəpər çəkilmişdi. Bir azdan əllərində əklillər tutmuş əskərlər, gül-çiçək dəstələri tutmuş məktəblilər həyətə daxil oldular. Qismәti son mənzilə yola salmaq vaxtı gəlib çatmışdı. Yalnız tabutun qapanmasına sərəncam veriləndə, Səməngül elə bil yatmışdı, oyandı, qar kimi ağ saçlarını yola-yola bircə şey qışqırırdı:

--Qismət! Qismət! Qismət! Qismət! Qismət!... .

Bu fəryada dözmək mümkün deyildi, vay-şivən göylərə ücalırdı, qadınların ağı deməsini, mollanın azan səsini, buraya toplaşmış sonsuz sayda izdihamın ah-vayını bircə səs yarıb keçirdi.

--Qismət!Qismət!Qismət!Qismət!Qismə!... .

29. İnsan torpaqdan yaranıb, torpağa da gedəcək.

Kimin tez, kimin gec getməsi şərtdir. Yəqin ki, torpaq da bunu bilir və qoynuna aldığı insanin yaşlı və yaxud gənc olmasına görə fərqli ağrılar, acılar çəkir. Yəqin ki, torpaq da hiss edir ki, ömrünü demək olar ki, başa vurmaq üzrə olan yaşlı insanın məzarı başında qohum-əqrəba hüzünlü, sakit bur ağlaşma deyirsə, ömrünün çiçəklənən vaxtında hər hansı səbəbdən həyatı yarımçıq qalan gənclərin üstündə fəryadlar qopur, saçlar yolunur. Uzaq-yaxın, hər kəs bu faciəni eyni ürək ağrısı ilə, eyni yanqı və dəhşətlə qarşılayır. O da, vətən yolunda gözünü qırpmadan canından keçən, vətənin, xalqın xilası yolunda gənc ömrünü qurban verən əskər ola. Şəhidin ölümü hər kəsi yandırır. O da Qismət kimi, özünü ən təhlükəli, ən qızğın döyüşlər gedən cəbhədə odun-alovun içinə atanlar ola...

Qismәti, əvvəllər Bakı əhlinin gəzinti yeri olan Dağüstü parkda dəfn elədilər. İyirmi yanvar hadisələri zamanı şəhid olmuş insanları burda dəfn elədikləri gündən bura Şəhidlər xiyabanı adlandı. Həmin vaxtdan bəri Bakı şəhərindən döyüşlərdə şəhid düşən əskərləri

həmin xiyabanda dəfn edirdilər. Biz bura əvvəl də neçə dəfə gəlmişdik, ancaq onda məzarlıq bu boyda deyildi. Qisməti son mənzilə yola salmaq üçün gəldiyimiz bu xiyabanda qırmızı qərənfillərlə, lentlərlə, xonçalarla bəzədilmiş gənc oğulların məzarlarını görəndə başa düşdük ki, dərdimiz nə qədər böyükdür. Qəbirsanlıq izdihamla dolu idi. Hər məzarın üstündə həmin şəhidin anası-bacısı fəryadlar qoparır, saçını-başını yolurdu.

Qisməti yola salmağa onun döyüş yoldaşları, komandirləri, məktəb yoldaşları, bir sözlə eşidən-bilən, hər kəs gəlmişdi. Təkcə Firuz yox idi burda. Ötən il kölgə kimi Qismətin dalınca sürünüb onun ürəyini ələ almaq istəyən Firuz, indi onun qəhrəmancasına şəhid olmasından bixəbər, Amerikada qayğısız günlərini yaşayırdı.

Qisməti əskəri qayda-qanunla dəfn elədilər. Tabutu məzara endirəndə Səməngül bayıldı. Hərbi həkim onu özünə gətirməyə çalışır, lazımı tədbirləri görürdü. Məzarın üstünü torpaqla örtüb, əklillərlə bəzəyəndən sonra, Qismətin şəninə silahlardan atəş açıldı. Bu atəş səslərinə Səməngül gözünü açdı.

Dəfn mərasimi bütünlüklə dövlət hesabına oldu. Atam bu ailənin ağsaqqalı kimi yas məclisinin məsləhətini eləmək üçün hələ günorta həyətdə hamını başına toplayanda, hərbi rütbəli şəxs yaxınlaşıb atama demişdi:

--Ağsaqqal, siz zəhmət çəkməyin, biz hamısını təşkil edəcəyik, həm də qırxı çıxana kimi. Bu bir əmrdir. Hər bir tədarük görülmüşdür. Şəhidlərin xərcini dövlət öz boynuna götürmüşdür. Siz yalnız nəzarət edin ki, hər şey adətincə olsun.

Çox böyük mağar qurulmuşdu. İzdihamın da ücü-bücağı yox idi. Musa, sanki Qismətə qarşı elədiyi haqsızlıqların peşimançılığını çəkir, gözlərindəki xəcalət kölgəsini hamıdan gizlətməyə çalışaraq, elə bil günahını yumaq istəyirdi. Gələni-gedəni ehtiramla qarşılayıb, yola salırdı.

Əskərlərin nəzarəti ilə hüzünlü, çox qəmli bir matəm gecəsi idi o gecə.

Səməngül yenə Qismətin otağına çəkilmiş, oğlunun yatağının kənarında heykəl kimi oturmuşdu. O, birçə gündə ağarmış qar kimi ağ saçlarının üstündən qara kəlağayı atmışdı. Səməngül

qərinələrdəm keçib gəlmiş qoca qarıya bənzəyirdi, halbuki, yazığın vur-tut qırx üç yaşı vaq idi. O gözünü bir nöqtəyə dikib baxırdı. Nə ağlamırdı, nə sızlamırdı. Onun bu halı həkimləri narahat edirdi. Qadınların bir qismi onu tək qoymamaq üçün, yatağın yanında yerdəcə oturmuşdular. Onlar, nə yaxşı ki, qabaqcadan fürsət tapıb divardakı şəkillərin hamısını çıxardıb gizlətmişdilər. Səməngülün bu vəziyyətində o şəkillərin nələrə səbəb ola biləcəyini təsəvvür eləmək çətin deyildi. Həkimin dediyinə görə, qəfil dəhşətli xəbərdən Səməngül bu gün reallıqdan uzaqlaşmışdı. Onu baş verənlərin üstünə yavaş-yavaş qaytarmaq lazım gələcəkdi.

Anam girib-çıxır, o biri otaqdakı qadınlara da baş çəkirdi. Gah o biri otaqda ağlaşanlara qoşulub ağı deyirdi, gah da gəlib Səməngülün vəziyyətini yoxlayırdı. Hərdən ona heç olmasa su vermək istəyirdi, ancaq Səməngül heç nəyə reaksiya vermirdi. Nigarla mən əl-ayaq eləyən qadınların yanındaydıq. Ehsan bişirən, halva çalan, süfrəni hazırlayan qadınlara kömək edirdik. Bu işlərin hamısı həyətdə qurulmuş mətbəx-mağarda görülürdü deyə, biz tez-tez aşağı-yuxarı qalxıb enirdik. Arabir qadınların yanında oturub ağlayır, sonra yenə işimizə dönürdük. Ürəyimizin göynərtisi nə qədər dözülməz olsa da, istəyirdik ki, Qismət kimi igid bir oğulun yas məclisi onun adına layiq olsun. Halbuki, onu tanıyanların hamısı, illər boyu, onun toyunda qol götürüb oynamağı arzulamışdı.

Çay işinə əskərlər baxırdılar. Onlar həyətdə qoyulmuş xeyir-şər samovarlarına odun salır, böyuk dəmliklərdə çay dəmləyir, sonra da qız-gəlinin yuyub gətirdiyi stəkanlara çay süzüb içəri, mağara daşıyırdılar.

Elə olurdu ki, əskərlər öz işlərini görüb boş dururdular, onda Fərhad, Oktay, Musa, Rəşad onların başına toplaşıb Qismətin ömrünün son anları barədə suallar verirdilər. Əskərlər də onun döyüş şücaətlərindən, elədiyi qəhrəmanlıqlardan danışırdılar. Sən demə, Qismət cəbhədə olduğu bu bircə ildə öz hərbi xidmətlərinə və döyüş şücaətlərinə görə bir-birinin ardınca üç rütbə alıbmış. Bəs necə olmuşdu ki, belə mahir döyüşçü alnını düşmən

gülləsinin qabağına vermişdi?Əskərlər danışıblar ki, elə ki, düşmən bizim üstünlüyümüzü gördü, bizimlə bacara bilməyəcəyini anladı, keçmiş sovet ordusunun ən sərraf atıcılarını topladı, həmin o döyüşə, bizim üstümüzə göndərdi. Kəşfiyyat xidmətimiz bu məlumatı bizə çatdırmaqda bir az gecikdi. Bizə əmr gəldi ki, akoplarda yaxşıca gizlənək, bizi aşkar edən hər şeyi yox edək, parıltılı hər nə varsa yığışdıraq. Düşmən tərəfdən snayper atıcılar korpusu döyüşə girib. Ancaq, artıq olan olmuşdu. Qismət qarşı tərəfdə dağlarda gizlənmiş düşmənin nəfəsini əməlli-başlı kəsmişdi, kökünü də kəsəcəkdi ki, snayper gülləsi ilə alnından vuruldu. Ölüm ani oldu, yazıq heç nə baş verdiyini anlamağa da macal tapmadı. Biz orda çox düşmən qırdıq, Qismətin qanını aldiq, ancaq heyif ki, düşməni sonuna kimi qırsaq da, Qismәti geri gətirə bilməyəcəyik. Adamı yandıran da budur.

Hərbi ekspertlər adətən tabutu açmağa izin vermirdilər. Ancaq bu dəfə icazə vermişdilər, çünki, Qismət ölüdən çox yatmış birinə bənzəyirdi. Bədəninin hər əzası yerində idi. Anası da israr edincə, tabutu açmışdılar. Bütün bunları Fərhad mənə sonradan danışdı. O dedi ki, komandir atama Qismətin şəxsi əşyalarını verib, deyib ki, uyğun bir vaxtda anasına verərsiniz...

***

Qismətin üçü də, yeddisi də, cümə axşamları da beləcə arxada qaldı. Bu müddətdə Səməngülə nə qədər sakitləşdirici içirtdilərsə, yenə xeyri olmadı. Atam Qismətin şəxsi əşyalarını ona verdiyi gün, Səməngül bir fəryad qopartdı, özünü bir günə qoydu ki, Allah göstərməsin, gözlər də görməsin. Səməngül eyni o faciə olan gündəki kimi bir gün axşama kimi bircə kəlmə söz bağırdı:

--Qismət!Qismət!Qismət!Qismət!Qismət!...

Sanki, Qismət harasa gedirdi, anasının səsini eşitmirdi, amma eşitməli idi. Heç kəsin cəsarəti çatmırdı ki, Səməngülü susdursun, desin ki, boşuna çağırma, o yoldan dönüş yoxdur, o yol yalnız bir tərəfədir. Səməngül bir neçə gün ərzində ağlaya bilmədiyi günlərin əvəzini çıxdı. Geçə bilmədən, gündüz bilmədən ağladı.

O günləri biz onun yanında növbə ilə keşik çəkirdik. Sona anasının bu halını görüb necə qorxmuşdusa, anasına yaxın gəlmirdi. Bir gün nəhayət, Səməngül toxdadı. Biz Sonaya su verdik ki, anasına versin. Sona suyu qorxa-qorxa anasına verdi, Səməngül suyu alıb içdi, sonra Sonanın əlindən tutub, onu özünə sarı çəkdi, bağrına basdı. Biz onun bu hərəkətinə çox sevindik. Səməngül, nəhayət ki, bir qızı olduğunu xatırladı. Bu artıq reallığa dönüş demək idi. Bundan sonra Səməngül bütün başına gələnləri xatırlayıb, bəlkə də daha çox ağlayacaqdı, daha çox fəryad qoparacaqdı, ancaq daha ağlını itirmək təhlükəsi olmayacaqdı.

Səməngül birdən tutulur, birdən də açılırdı. Gah dəli kimi fəryad qoparıb ağlayırdı, gah da birdən-birə sakitləşirdi, elə bil heç nə olmayıb. Qalxıb işini görürdü, bizimlə söhbət edirdi. Biz artıq onun bu hallarına alışmışdıq.

Bir gün Səməngül üzünü mənə tutub dedi:

--Həyat, səndən xahiş eləsəm, mənimlə bir yerə gedərsən?

--Gedərəm, niyə getmirəm?Təki sən de görüm, hara?

--Bir ünvan var, onu tapmalıyam.

Birdən mənə elə gəldi ki, o yenə özündə deyil. Mənim bu fikrimi o sanki üzümdən oxudu:

--Qorxma, dəli olmamışam, ancaq başqa heç nə də deməyəcəyəm. Gedək o ünvanı tapaq, orda hər şeyi sənə başa salaram,--dedi.

Biz birlikdə həyətə enib bir taksi tutduq, Səməngül ünvanı dedi. Hardasa Günəşli qəsəbəsində bir ünvan idi. Taksi bizi həmin ünvana gətirdi. Doqquzmərtəbəli binanın önündə maşından endik. İlk gözümə sataşan, bloklardan birinin önündə qurulmuş yas mağarı oldu. Səməngül mənim əlimdən tutub, əlimi sıxa-sıxa dalınca çəkdi. O elə bil öz-özünə:

--Dözə bilməyib, mən dözdüm, ancaq o dözə bilməyib,--deyirdi.

Yenə də mənə elə gəldi ki, onun ağlı qarışır, dediyini heç özü də bilmir. Mən yavaş-yavaş onun dalınca gedə-gedə soruşdum:

--Kimi deyirsən?Kim dözə bilmədi?

--O özünü öldürüb, ya balkondan atıb, ya da özünü asıb. Hər necəsə, öldürüb özünü, istəyirsən, and içim?

--Ay Səməngül, sən Allah, qorxutma məni, nə danışırsan, məyər özün bilmirsən ki, hər küçədə neçə-neçə mağar qurulub?Məyər Şəhidlər xiyabanını görmədin?Gündə neçəsini gətirirlər. Kim olar özünü öldürən?Yəqin bu da şəhid mağarıdır.

O dönüb üzümə baxdı. Qəribə baxdı, mən doğurdan qorxdum.

--Həyat, burda sevgilisinin ölüm xəbərini eşitmiş bir qızın yası qurulub. İnanmırsan, gəl!

Bu sözləri deyib, o qabağa düşdü. Mağar kişilərlə dolu idi. Bir az aralı yemək bişirmək üçün qurulmuş mağarda qadınlar öz işlərində idilər. Səməngül bir qadını çağırdı:

--Bacı, Allah rəhmət eləsin, axır qəminiz olsun, kimdir rəhmətə gedən?

Qadın əlindəki işi yarımçıq qoyub bizə yaxınlaşdı.

--Eh, ay bacı, heç soruşma. Ömrünün ən gözəl çağında şirin canına qəsd edən on səkkiz yaşlı bir qız.

Mənim bu sözlərdən yer ayağımın altından qaçdı. Birdən ağlımdan keçdi ki, bəlkə bu sarsıntılı günlərdə Səməngülə vergi verilib?Yoxsa o hardan bilirdi burda kimin öldüyünü?

Səməngül qadına daha bir sual verdi :

--Aman ay bacı, səbəb nə idi ki, o bədbəxt belə elədi?

--Səbəb? Səbəb ermənilər. Onların görüm ki, kökləri kəsilsin, evləri dağılsın. İllərlə çörəyimizi yeyib qudurdular, sonra da üstümüzə hücum elədilər. Müharibəni başladılar, həm torpaqlarımızı əlimizdən alırlar, həm də millətimizin qaymağı olan oğullarımızı. Bizim bədbəxt qızımızın istədiyi oğlan da bu yaxınlarda şəhid olub. O da bunu eşidib, öz otağına çəkilib, bir şüşə yuxu dərmanını içib, yatıb. Elə o yatan, yatıb, bir daha oyanmayıb.

--Vay, vay, vay... Bəs həkimlər niyə xilas edə bilmədilər, axı olur ki, mədəsini yuyurlar, qurtarırlar?

--Məsələ ondadır ki, qız bunu yatmağa gedəndə eləyib, hamı girib yatıb, kimin ağlına gələrdi?Səhər oyanıb xəbər tutanda artıq meyid soyumuşdu. Bax beləcə, öz sevgilisinin ölümünə dözə

bilməyib, onun yanına getdi. İndi yəqin bir yerdədilər, bədbəxtlər.

Mənim matım-qutum qurumuşdu. Lal-dinməz onların söhbətinə qulaq asır, əlaqə tapmağa çalışırdım. Səməngül qadından soruşdu:

--Bacı, sən o qızın nəyisən?

--Mən qonşuyam, ancaq onu lap uşaqlıqdan tanıyırdım, çox yaxşı uşaq idi. Adamın heyfi gəlir o cür balaya.

--Bacı, mən onun anasını görmək istəyirəm, apar məni onun yanına.

Qadın sınayıcı baxışla Səməngülə baxdı, sonra mənə baxdı, sonra dedi:

--Nə deyirəm, gedək.

Qadın irəli düşüb bizi binanın üçüncü mərtəbəsindəki qapısı taybatay açıq bir mənzilə gətirdi. İçəri qadınlarla dolu idi. Ağlaşma ən şiddətli məqama çatmışdı. Səməngül evin baş tərəfində qadınların ortasında oturmuş, saçı-başı yolunub yanına dağılmış qadını görüb, onun üstünə getdi. Onun qarşısında diz çökərək, əllərini əlinə aldı:

--Dərdinə qurban, ay bacı, niyə xəbər vermirsən ki, qızın mənim oğluma qoşulub qaçıb? Mən də deyirəm, hanı mənim oğlumun Leylisi? Niyə demirsən ki, onlar qovuşdular bir-birinə? Sənin balan mənim oğlumu məndən də çox sevirmiş, mən ölmədim, dözdüm onsuz, ancaq o dözmədi. Mən də deyirəm, Qismət, Qismət çağırmaqdan yoruldum, bəs bu niyə gəlmir? Sən demə sevgilisi yanında imiş. Off... off... yandı bağrım!!!

Bu sözlərdən sonra Səməngül huşunu itirdi, qızın anası da özünü onun üstünə atıb, elə yanıqlı ağı dedi ki, bütün oturanlar yenidən səs-səsə verib ağlaşma dedilər. Qorxunc bir səhnə idi. Gənc övladlarını itirmiş iki ana sarmaş-dolaş olub, özlərini didib tökürdülər. Heç kim onları ayıra bilmirdi. Mən Səməngülü çəkib qadından qopartmaq istəyirdim. Səməngül elə bil məni indi gördü:

--Həyat, bu qız mənim gəlinim olmalı idi. Gördünmü nələr oldu? Həyat, bizə toy qismət deyilmiş... Ay camaat, mən oğlumun adını Qismət qoydum ki, ona həyatda ən gözəl şeylər qismət

olsun. Bəs niyə belə oldu?Ay Allah, niyə belə oldu?Nə idi onun günahı?

Leylinin anası da başını yola-yola ağlayırdı:

--Uy... uy. . uy... bu sənsənmiş ay bədbəxt, ay mənim kimi bədbəxt, o sənin oğlun imiş? Deyibmiş gələcək, bəs niyə gəlmədi?Bəs bilmirdi, qızların gözünü yolda qoymaq olmaz?Gördün nələr oldu?

Bu dəhşət daha acı idi. Mən gördüm ki, Səməngülü təkbaşına çəkib apara bilməyəcəyəm. Ona görə də qonşuya keçdim, zəng vürüb vəziyyəti atama başa saldım, ondan kimisə buraya göndərməyi xahiş elədim. Bir saatdan sonra Fərhad, Rəşad bir də Musa gəldilər. Onlar məclisdə iştirak elədilər, başsağlığı verdilər, sonra yuxarı qalxıb Səməngüllə məni çağırdılar. Biz hamıya səbir diləyib çıxanda, Səməngül Leylinin anasına dedi ki, yenə gələcək. Dedi ki, biz balalarımızın iyini bundan sonra bir-birimizdən alacağıq.

Səməngül doğurdan da bir neçə dəfə həmin ünvana getdi. O, sonradan mənə danışdı ki, Leyli barədə Qismətin şəxsi əşyalarının içində tapdığı məktublardan xəbər tutub. Gedirmiş tanış olmağa, fikirləşirmiş ki, oğlunun iyini bu qızdan alar, bir az təskinlik tapar. Yaman da tapdı. Mən soruşanda ki, nədən bildin, o mağar Leylinin yas yeridir, dedi ki, məktubları sən də oxusaydın, bilərdin ki, o qız Qismətsiz yaşaya bilməyəcək.

Bir neçə həftədən sonra Qismətin ölümünün qırx günü olacaqdı. Hərbi nazirlikdən Səməngülə məktub gəlmişdi. Biz Qismətin ölümündən sonra işdən əvvəlcə Səməngülgilə gəlir, xəbər-ətər alır, sonra evlərimizə dağılışırdıq. Həmin gün də hamımız orda idik. Məktubu açıb oxuduq. Qismətə "Milli qəhrəman" Fəxri adı verilmişdi. Məktubda deyilirdi ki, milli qəhrəmanın məzarının üstü qara mərmərlə götürüləcək, onun qırx məclisi dövlət hesabına keçiriləcək. Oxuduğu məktəbə və yaşadığı küçəyə onun adı veriləcək. Səməngül məktubu gözlərinə sürtdü, sinəsinə basıb xısın-xısın ağladı.

İki həftə keçmişdi ki, Səməngül bizə daha bir məktub gəldiyini söylədi. Bu dəfə məzarın mərmər işlərinin bitdiyi bildirilirdi. Səməngül mənalı-mənalı üzümə baxdı. Mən soruşdum:

--Nədir, Səməngül, nə demək istəyirsən?

O məni kənara çəkib dedi:

--Həyat, heç kəs bilməsin, gedək Qismətə bir baş çəkək də... Görək balamın üstünü necə düzəldiblər? Hə... ?

Onun bu yalvarışına ürəyim ağrıdı, odur ki, dedim:

--Əlbəttə, gedək, mən də görmək istəyirdim, vallah...

O elə sevindi ki, elə bil ona nəsə qiymətli bir hədiyyə vermişdilər. Mən yolüstü qırmızı qızılgüllərdən böyük bir dəstə də aldım. Səməngül buna da uşaq kimi sevindi.

***

O illər insanların qərənfillərə acığı tutmuşdu. Sanki, qərənfillər günahkar idi ki, bu qədər insan qanı tökülürdü. Qərənfillərdən incimək, əslində insanların acizliyini göstərirdi. Hər necəsə, qərənfillər o düşən gözdən düşdülər. Ona görə mən də qızılgül aldım ki, Səməngülə xoş gəlsin. Biz Şəhidlər xiyabanında məzarlara baxa-baxa, üstündə yazılmış ürəkləri parçalayan yazıları oxuya-oxuya gəlib Qismətin məzarına çatdıq. Gözümüz qara mərmərin üstündə, Qismətin adamboyu cızılmış şəklinə dikildiyindən ətrafda başqa heç nəyi görmürdü. Bu şəkil o vaxt Oktayın çəkdiyi şəkillərdən biri idi. Ola bilsin ki, qonşularla çəkdirdiyi şəkillərdən hansınısa ayırıb götürmüşdülər. Qismət eynilə o günkü kimi, əskər formasında gülümsəyə-gülümsəyə bizə baxırdı. Səməngül ağlaya-ağlaya gözünü oğlunun gözündən çəkmədən yerində donub qalmışdı. Mən onu daha yaxına çəkmək istəyirdim ki, lap məzarın önündə durmuş şıq geyimli adamı gördüm. O arxası bizə durmuşdu, ancaq mənə elə gəldi ki, mən onu hardasa görmüşəm. Mən Səməngülə yaxınlaşıb dirsəyimlə ona toxundum. O nəmli gözləri ilə dönüb mənə baxdı. Mən başımla o adama işarə elədim. Səməngül gözünü oğlundan çəkib orda duran o adama baxdı, rəngi qaçdı, ağzı açıla qaldı. Kişinin üzünü görməsək də çiyinlərinin enib-qalxmasından bilinirdi ki, ağlayır. Biz xırda addımlarla məzara bir az da yaxınlaşdıq. Kişi elə bil bizim ayaq səslərimizi eşitdi, döndü... İkimiz bir ağızdan:

--Firuz?--dedik.

Bu Firuz idi. Oğlunun ölüm xəbərini Oktaydan öyrənib gəlmişdi. Firuz vicdansız ata idi, oğlu sağ ikən gəlib onu görmədi, özü ilə aparmağa daha bir cəhd göstərmədi, onda Qismət də indi sağ olardı. Ancaq Firuz bir ata idi. Oğlunun ölüm xəbərini eşidib, dözməmişdi, gəlmişdi. Qismətin o gözəl şəklinin qabağında dayanıb, həyatının ən böyük itkisini verdiyini anlayaraq, için-için ağlayırdı...

30. O gündən xeyli vaxt keçdi.

Qismətin qırxı da, ili də qəhrəmanlara layiq təntənəli şəkildə keçirildi, arxada qaldı. Onun və onun kimi yüzlərlə şəhidin, Milli qəhrəmanın adı, onların oxuduğu məktəblərə, yaşadığı küçələrə verildi. Qoynunda igid oğulların uyuduğu Şəhidlər xiyabanı o vaxtdan bəri yeni evlənənlərin and yeri, ölkəmizə gələn qonaqların ziyarət yeri oldu. Bu səbəbdən də, dövlət Şəhidlər xiyabanına böyük xərc çəkib qara mərmərlə döşətdi, bu ədalətsiz savaşın tarixdə əbədiləşməsi üçün orada xatirə abidəsi də tikdirdi. Qanı qanımızdan, canı canımızdan olan türk qardaşlarımız da şəhidlərin əziz xatirəsinə cami tikdirməklə, dərdimizə şərik olduqlarını ifadə elədilər. Azərbaycan xalqı öz milli təqviminin qara tarixində də, qırmızı tarixində də mütləq bura gəlir, bu günləri görmək nəsib olmamış vətən oğullarını yad edir, məzarların üstünü gül-çiçəklə bəzəyirdilər. Ancaq əfsuslar olsun ki, bütün bu bayramsayağı rituallar acı həqiqətin üstünü örtə bilmir, ürəyi dağlı anaların acısını azaltmır, əksinə, onların yarasının qaysağını qopardırdı. Çünki, bu saxta təntənələr, bu yalan vədlər, aradan keçən bu illər ərzində insanları tamamən ümidsizliyə qapadır, qələbə inamını qırırdı. Altı il davam edən qanlı döyüşlərdən sonra atəşkəs elan edib savaşı donduran, məsələni guya diplomatik yolla həll edəcəyinə söz verən dövlət başçıları, öz yalanlarında dolaşıb qalmış, aradan keçən bu müddət ərzində bir addım da olsun, irəli getməmişdilər. Günü bu gün də dövlət aparatında vəzifə paylamaqla, yer bölüşdürməklə məşğul olan dövlət məmurları bütün televiziya kanallarında xəbərlər proqramını ermənilərin

cəbhə xəttini atəşə tutmaları ilə başladıb, daha sonra düşmənin milli ordumuzun cavab atəşi ilə susdurulduğunu dedirdir, digər tərəfdən də belə bir durumu utanmadan "atəşkəs" adlandırır, bununla hələ bir öyünürlər də. Ortada bu boyda yalanı görən şəhid anaları heç nədə təskinlik tapa bilmir, qanlı göz yaşlarını tökməkdə davam edir, oğullarının qanının yerdə qalması ilə barışa bilmirdilər. Bir yanda torpağımızın sərvəti olan nefti ata malı kimi satıb milyonlar, milyardlar sahibi olan kef əhlinin ölkəni bürümüş bayram çal-çağırı, o biri yanda da bu bayramın hansı üzlə keçirildiyini anlamaqda çətinlik çəkən şəhid analarının göylərə ücalan fəryadı, digər tərəfdə də bu təzadlı şəraitdə bir parça çörək üçün olmazın əzab-əziyyət çəkən siravi vətəndaş. Durum bu idi. Halbuki, namərd düşmən qalib gəldiyi gündən gah ağlayıb-sızlamaqla dünyanın fikrini azdırır, sanki torpaqları gedən biz yox, onlar imiş, gah da səslərini çıxartmadan bu neçə ili öz mənfəətləri üçün istifadə eləmişdilər. Düşmən bir gün də boş durmamışdı. Bizim torpaqlardan çıxan təbii sərvətləri daşıyıb dünyaya satır, o torpaqlarda istədikləri strateji obyektləri tikdirir, orada müasir döyüş silahları, ən son texnika ilə təmin olunmuş ordu, çox sayda hərbi sürsat yerləşdirirdilər. Düşmənin tökdüyü tədbirlərdən, atdığı addımlardan niyyəti ən savadsız kəndliyə də aydın olduğu halda, bu boyda dövlətin daxili və xarici siyasətini yeridən, bu siyasət üçün məsuliyyət daşıyan məmurlar özlərini bilməməzliyə vururdular. Guya bu qədər haqq-hesabdan sonra ermənilərlə oturub danışıq aparacaqdılar, bu danışıq nəticəsində də düşmən əlində gördüyü işləri yarımçıq qoyub gedəcəkdi. Bu, uşaq başı aldatmağa da yaramayan yalanı artıq on il idi ki, eşitməkdən qulağımız döyənək olmuşdu, başqa heç bir şey olmamışdı. O tərəfdə düşmən nə qədər aktiv olub, zəbt elədiyi torpaqların altını-üstünə çevirirsə, istədiyini söküb, istədiyini tikirsə, bu tərəfdə boş danışıqdan başqa heç nə baş vermir, millətin gün-gündən azalan ümidini heçə endirir, sanki bilərəkdən bu duruma alışdırmağa çalışırdılar.

Düşmən bizi bizdən yaxşı tanıyırdı. Nə qədər ki, biz ağıllı olub fikirləşirdik, düşmən özünü dəliliyə vurub çayı keçdi, indi də ağzımızı kəsərsiz tanıdığı üçün özünü çox sərbəst aparır, bildiyini

eləyirdi. Düşmən bu gün o qədər qudurub ki, heç bir atəşkəs qaydalarına riayət eləmir, hesab soruşan olmadığı üçün, xain əməllərindən bir gün də qalmır. Cəbhə xəttində bu gün də atəş səsləri kəsilmir, oğullar boş yerə qurban gedir. Ancaq bir şəxsin də həyatını müdafiə eləməli olan müdafiə nazirliyimiz bunu daha itki deyil, statistik məlumat adlandırır. Biriləri üçün statistik məlumat kimi qəbul olunan bu itkilər, başqaları üçün sönmüş ocaqlar, sınmış talelər, başsız qalmış ailələr kimi dəhşətli faciə demək idi. Bu faciənin nə qədər sağalmaz yara olduğunu can yoldaşım Səməngülün timsalında özüm gördüm, özüm şahidi oldum.

***

Səməngül Qismətin ölümü ilə barışmadı. Doğrudur, daha adam içində ağladığını görən olmurdu, amma güldüyünü də bir də heç vaxt görən olmadı. Səməngül canlı insandan çox, müqəvvaya bənzəyirdi. Qupquru qurumuşdu. Qismətin ili çıxandan sonra, elə ki, gələn-gedən azaldı, millət ayağını o evdən kəsdı, Səməngül də Musa ilə demək olar ki, bütün haqqı-sayı kəsdi. Musa hətta bir dəfə atamın yanına məsləhətə də gəlmişdi. Ancaq atam bu vəziyyətdə ona heç bir yol göstərə bilmədi, yalnız səbirli olub gözləməyi məsləhət gördü. Mən bilirdim ki, Səməngül oğlunun ölümündə Musanı günahkar saydığı üçün onu heç vaxt bağışlamayacaqdı. Musa da ümidsizliyə qapılıb yenə də içməyə başladı.

Atamın ürək ağrıları onu əldən salmışdı, üzün zaman idi ki, xəstə yatirdı. Gülnarın günü onun yatağının başında keçsə də, hamımızı bir həkim soyuqqanlılığı ilə ən gözlənilməz vəziyyətə hazır olmağa çağırırdı. Onun nə demək istədiyini başa düşür, gecələri sabaha kimi atamın yanında keşik çəkirdik. Səməngül də iki günün biri gəlib atamın yanında saatlarla otururdu. O arada, özü can hayında olan atam, ona öyüd-nəsihət verir, Musaya qarşı bu qədər zalım olmamağı tövsiyə edirdi. Səməngül atamın əlini sığallayır, heç nə demirdi.

Atam hər halda çox qəlbi təmiz adam imiş ki, həyata gözünü yumduğu son anda hamımız, hətta Musa da yatağının yanında idik. Atam o gün dili ilə az danışdı. Daha çox gözləri ilə danışdı. Bir-bir hamının üzünə baxdı, baxdı, sonra üzünü yana çevirib getdi. Mən əminəm ki, atam o baxışlarıyla hər kəsə nəsə dedi, və hər kəs də onu anladı, heç zaman olmadığı kimi...

Atamın ölümü tək bizim ailə üçün deyil, onu tanıyan hər kəs üçün böyük itki oldu. Bizim ailəmiz isə o gün həm də öz ağsaqqalını itirdi. Yaşadığımız hər günümüzdə, gördüyümüz hər işimizdə atamın yoxluğunu hiss edirdik. Onun yeri elə görünürdü ki...

Həyatın qanunu belədir ki, ölənlə ölmək olmur. İtki nə qədər ağır da olsa, faciə nə qədər dözülməz də olsa, gedən gedir, qalan qalır, həyat da davam edir. Əlbəttə, insan sevdiklərini heç vaxt unutmur, onları yada saldığı xatirələrdə, şəkil albomlarında, divardan asılmış portretlərdə yaşatmağa çalışır. Və nə qədər ki, biz dünyasını dəyişmiş əzizlərimizin sözünü danışmaqla, xatirəsini yad eləməklə, məzarını ziyarət eləməklə yaşatmağa çalışacağıq, onlar həqiqətən də hər zaman yanımızda olacaqlar.

Mən sözümün lap əvvəlində demişdim ki, danışacağım həyat hekayəsi mənim uşaqlıq, gənclik və ümumiyyətlə bütün ömrüm boyu ən yaxın rəfiqəm olan Səməngülün acı talehi olacaq. Bir ömür boyu gözümün önündən yüzlərlə, minlərlə insan talehi gəlib keçdi. Ancaq gəncliyində buraxdığı bircə səhvə görə ömrünün bu qədər uğursuz, talehsiz olduğu ikinci bir insan görmədim. Bu səbəbdən də özümün və yaxud digər tanışların ömür yolunu yalnız Səməngülün ömür yolu ilə toqquşduqda yada salıram. Bizim hamımızın bir ağ günü, bir qara günü olmuşdu,Səməngülün ömrü isə ancaq qara günlərdən ibarət oldu, dərdi dərd üstünə gəldi.

Səməngül lal-dinməz, yalnız nəfəsi gedib-gələn bir ruha dönmüşdü. Atamın dəfnində də fürsət tapıb özünü o ki var, didib tökdü.

Biz onu güclə sakitləşdirirdik, özümüz də bilirdik ki, o əslində oğul dərdini körükləyib alovlandırır, özünü də bu alovaun içinə atırdı.

Aradan zaman keçir, müharibənin gətirdiyi ağrı-acılar köz bağlayırdı. Zaman hər kəsi öz yoluna qaytarırdı. Uzun sürən

gərginlikdən sonra hamı işinə dönüb başını qatmağa, dərdi-sərini az da olsa unutmağa çalışırdı. Mən yeniyetmələrin təlim-tərbiyəsi ilə məşğul olan bir şəxs kimi, yaşadığımız bu qarışıq zamanda heç nəyi nəzərdən qaçırmaq istəmirdim. Çünki, ətrafda baş verənlərin böyüməkdə olan nəslin həyatında dərin izlər buraxacağını qözəl bilirdim. Odur ki, özümün müəllimlik fəaliyyətimlə, Fərhadın artmaqda olan vəzifə tələbləri ilə başım nə qədər qarışsa da, oğullarımın gündəlik qayğıları mənim üçün ən önəmli bir məsələ olaraq qalırdı. Həyat zamanın axarı ilə gedirdi. Mən başa düşürdüm ki, əsrin sonunda respublikamızda yaşanmış bu qarmaqarışıq hadisələrin nəticəsi özünü yeni əsrdə mütləq göstərəcək. Millətimin nələrlə qarşılaşacağını təxmin edirdim. Bu gün ətrafda nə baş verdiyinə əhəmiyyət verməyənlərin, övladlarının əxlaqı üçün narahat olmayanların, daha çox gündəlik mənfəətini güdənlərin ailəsində çox şeylər nəzərdən qaçır, gənclər də üzərində heç-bir nəzarət olmadığını hiss edib yolunu azırdı. Azyaşlıların oxumağın daşını birdəfəlik atmaları, onların evdən qaçıb küçə həyatı yaşamaları, tədricən xırda cinayətlərə başlamaları məni çox narahat edirdi. Mən anlayırdım ki, gözümün önündə sabahkı cəmiyyətin həm dahisi, həm də, canisi yetişməkdədir.

Məktəbdə iş başdan aşırdı. Respublikamız müstəqil dövlət olmuşdu, amma nə dinimiz var idi, nə də dilimiz. Nəhayət, xatırladıq ki, biz də müsəlmanıq. Nəhayət, yadımıza düşdü ki, bir zamanlar özümüzün əlifbamız olub. Yadımıza düşənləri bərpa eləmək üçün bizə çox vaxt lazım olacaqdı. Bundan sonra Allahın adını ucadan çəkməyi, öz əlifbamızda yazıb-oxumağı yenidən öyrənməli idik. Bundan sonra tariximizdə tərsi-məzhəb yazılmış hər nə vardısa, hamısını silib yenidən yazmalı, üzün illər balalarımıza öz əlimizlə yazdırıb oxutduğumuz yalnışları düzəltməli olacaqdıq. Bu qədər hadisələrdən sonra bir "manqurdluq"-la üz-üzə dayanmışdıq. Bir millət olaraq əslimizi-kökümüzü dəqiq bilmirdik. Bundan istifadə edən bədxahlar soyumuzu yüz yerə yozurdu. Nə olursa olsun, hər şeyi araşdırmalı, millətimizin tarixini yenidən yazmalı idik. Hər şey öz başlanğıcına qayıtmalı, hər şey öz yerini tutmalı idi.

***

Atəşkəs müvəqqəti bir saziş idi, lakin heç olmasa, gənc oğullarımızın külli miqdarda qırılmasının qarşısı bir az alınmışdı. Ona görə də, buna sevinən camaat yenidən qolunu çırmayıb qurub-yaratmağla məşğul olurdu. Ümumilikdə, həyat yavaş-yavaş normal vəziyyətə qayıdırdı. Di gəl ki, üzdə nə qədər sakit görünsək də, hər kəsin içini, verdiyimiz itkilərin peşimançılığı, itirilmiş torpaqların göynərtisi, uduzulmuş bir savaşın xəcaləti yandırıb yaxırdı. Nə qədər ki, o torpaqları geri almamışdıq, o peşimançılıq, o göynərti, o xəcalət bizi rahat yaşamağa qoymayacaqdı.

Bizi boğan bu qeyrəti vətən övladlarında yaşatmaq üçün, onları atalarının layiqli davamçıları kimi yetişdirmək üçün, çox çalışmaq lazım idi. Bu barədə buzum boynumuza həm ağır, həm də şərəfli bir vəzifə düşürdü. Şagirdlərə bilik, savad verməklə işimiz bitmirdi. Biz elə eləməli idik ki, onların qüruru itməsin, heysiyyatı kütləşməsin.

Çox yorulurdum o aralar. Evə gələn kimi Səmədlə Fəxrinin dərslərini yoxlayır, yemək hazirlayır, Fərhadın köynəklərini ütüləyirdim. Hər gün üçün vacib olan işlər bunlar idi. Məktəbdən gətirdiyim yazı-pozünü bitirər-bitirməz girib yatırdım. Hər dəfə də yatmazdan qabaq özümə söz verirdim ki, bu həftə sonu gedib Səməngülə baş çəkəcəyəm. Artıq neçə həftə idi ki, beləcə özümə söz verirdim, özüm də vaxtın məhdudluğundan öz sözümü pozurdum. Ancaq Səməngülü elə ürəyim istəyirdi ki...

Qərar verdim ki, sabah Nigarla da danışım, şənbə günü birlikdə gedək Səməngülə baş çəkək. Sonanın yəqin gözü yolda qalıb. Bu fikirlərlə uşaqları yatmağa göndərdim. Fərhadla çay içə-içə "Bizim Cəbiş müəllim" filminə baxırdıq. Mən bu filmi çox sevirdim, və onu müəllim sənətinə verilən ən yüksək qiymət hesab edirdim. Elə bu vaxt telefon zəng çaldı. Fərhad telefonu götürdü. Bivaxt telefon zənglərindən həmişə qorxmuşam. Belə zənglər əksər hallarda pis xəbərlər demək uçun edilir, ona görə də adamın ürəyi düşür. Mən bunları düşünə-düşünə Fərhadın üzünə

baxırdım. Fərhadın üzü deyilən xəbərdən bəmbəyaz oldu, nəfəsi təngidi. Anladım ki, nəsə baş verib.

--Fərhad, nədir?Nə olub?

--Gözlə,--deyə Fərhad dinləməyə davam elədi.

Mən dözə bilmirdim, yəqin idi ki, çox pis bir şey baş verib. Fərhad məni gözlətməklə daha çox həyəcan keçirməyə vadar edirdi.

--Fərhad, kimdir, nədir?Ürəyim partladı ki!

Fərhad telefonun o başındakı adama:

--Yaxşı, qoy bir məsləhət eləyək, mən sənə zəng vuraram,--deyib telefonu yerə qoydu.

--Həyat, bir az sakit ol, bir şey bilmədən, bu qədər həyəcan keçirirsən, özünü ələ al. Otur, deyəcəyəm. Oktay idi zəng vuran. Deyir, bir az bundan əvvəl xəbərlərə baxırmış, yol nəqliyyatı qəzalarını göstərirlərmiş, bir nəfəri Musaya bənzədib.

--Nə???Vay, vay, vay!!!Yazıq Səməngül, bir bu gəlməmişdi başına, vay, vay, vay... Ay Allah, ay Allah...

--Həyat sakit ol, hələ bilmirik, bu odur, ya yox.

--Fərhad, düzünü de, o adam ölmüşdü?

--Oktay deyir, maşın xurt-xəşil olub, sağ qalması mümkün deyil.

--Ox, ox, ox... anası ölsün.

Mən göz yaşlarımı tuta bilmirdim, ürəyimə dammışdı ki, Oktay hamısını dəqiq deyib, bu Musadır. Fərhadın dedikləri isə məni bir az toxtatmaq üçün idi. Elə bu vaxt telefon yenə zəng çaldı. Fərhad telefonu qulağına tutdu, sonra mənə uzatdı. Mən tələsik telefonu ondan alıb qulağıma yaxınlaşdırdım. Xəttin o ucundan güclə eşidiləcək bir səs gəldi:

--Həyat, bacı, bura gələ bilərsiniz?

--Səməngül?Sənsən? Nə olub?

--Gəlin, hamınız gəlin, sizdən başqa heç kimim yoxdur...

Fərhad işarə elədi ki, deyim ki, gəlirik.

--Səməngül, bu saat gəlirik, gözlə bizi,--dedim və telefonu qoydum.

Fərhad dedi:

--Hazırlaş, deməli düzdür. Mən də qohum-qardaşa xəbər verim, hamı gəlsin.

Mən ağlaya-ağlaya geyindim, sonra Səmədi çağırıb hər şeyi ona başa saldım, qardaşından, ev-eşikdən muğayat olmağı tapşırdım.

Geçənin bir vaxtında Səməngülün dərdinə şərik olmaq üçün yola düzəldik.

O gün Səməngül həyatının daha bir zərbəsini aldı.

Musa içkili-içkili maşın sürməyi adət halına gətirmişdi. Şəhərin onsuz da çətin keçilən dar-dolanbac yollarında ayıq başla maşın sürənlərdən necə məharət istənilirkən, sərxoş adamın sükan arxasında oturması, gec-tez belə param-parça olmaqla bitməli idi.

Musa Səməngülün ona olan soyuq münasibətinə görə həyatı ilə oynamağa başladı. Bircəcik qızı Sonanı heç düşünmədi, onu kimin ümüdünə qoyub getdiyini fikirləşmədi. Beləcə tutduğu yolun sonuna gəldi, və bu dünyada kimi-kimsəsi olmayan bir ana ilə bir bala qoyub getdi.

Səməngül bu dəfə vay-şüvən salmadı, saçını-başını yolmadı, için-için ağladı. Onsuz da kədərli üzündə heç nə dəyişmədi. Bir müddət də "Qurd ağzı" qəbirsanlığına gedib-gəldi. Musanın basdırıldığı torpaq soyuyan kimi, Səməngül də ordan ayağını kəsdi. Ancaq heç kəs buna görə onu qınaya bilmədi. Onun gedəcəyi başqa bir yer var idi ki, qınayan olmasaydı, Səməngül gecəni də orda qalardı. Bu da Qismətin Şəhidlər xiyzbanındakı qəbri, onun adamboyu mərmərin üstündəki gülümsər şəkli idi.

Səməngül çox qürurlu, dərdini heç kimə yük eləmək istəməyən bir insan idi. Ancaq ilin-günün bu vaxtı heç bir gəlir yeri olmayan bir ailənin mənəvi bir yana qalsın, maddi sıxıntılarını təsəvvür eləmək çətin deyildi. Bilirdim ki, bizim ona əl tutmağımız onun ağrı-acılarını daha da artırırdı. Ancaq Sona artıq böyüyüb, anasının gəncliyindəki kimi gözəl bir qız olmuşdu. Onun ehtiyaclarını az da olsa ödəməli olan Səməngül bir çıxış yolu tapmalı, bundan sonra necə yaşayacaqlarını düşünməli idi. Səməngül qızıyla nəfəs alırdı, onu bir an belə gözündən qoymurdu. Sona onun həyata yeganə bağlantısı idi. Səməngül

Sonaya olan dəli sevgisi ilə, Qismətə olan dəli həsrətinin arasında çabalaya-çabalaya qalmışdı. Fürsət tapan kimi də, Sonanı da yanına alıb Qismətin məzarını ziyarət eləməyə gedirdi.

Dövlət qurumları şəhid ailələrini çox tez unutdular. Milli qəhrəmanın ancaq dəfnini təşkil etməklə, bir də xatirəsini əbədiləşdirməklə öz işlərini bitmiş bildilər. Daha bu qəhrəmanın ailəsi, uğrunda canından keçdiyi ana-bacısı neçə oldu, nə ilə dolandı, bununla maraqlanan olmadı. Ona görə də şəhid ailələrinin aqibəti çox acınacaqlı oldu. Başsız qalmış ailələr yaşamaq üçün çabaladıqca başlarına olmazın işlər gəlirdi. Bu qədər sərvəti, dövləti olan bir respublika, bütün xalqı bir yana, heç olmasa göz-bəbəyi balalarını itirmiş belə dərdli ailələrə də nə bir gün ağladı, nə də yardım əlini uzatdı.

Biz Səməngüllə Sonanın ən yaxın adamları kimi, onların talehi üçün məsuliyyət daşıyırdıq. İrəlidə daha böyük maddi çətinliklərlə üz-üzə gəlməsinlər deyə, Səməngülün bir işə düzəlməsinə kömək eləmək lazım idi. Mən bir gün axşama kimi beynimi yorub çıxış yolu axtarırdım. Sənəti olmayan, orta məktəbi də bitirməmiş Səməngülə nə iş tapaydıq ki, həm onun mənliyini sindirmasın, həm də ehtiyaclarını az da olsa, təmin edən maaşı olsun. Axşamı gözləyirdim ki, bu məsələni Fərhadla məsləhətləşim. Fərhad belə məsələlərdə çox həssas, çox məsuliyyətli olurdu. Fərhad mütləq bir yol göstərərdi. O hələ nə qədər əvvəl deyirdi ki, artıq Səməngülü evlə Şəhidlər xiyabanının yolunu ölçməkdən uzaqlaşdırmaq lazımdır. Bir iş tapmaq lazımdır ki, həm başı qarışsın, həm də göydən yerə ensin. Mən bilirdim ki, Fərhad düz deyir. Səməngülü bir işə calamaq lazım idi ki, həm özü dəyişsin, həm də həyatı.

Səmədlə Fəxri idman bölməsinə üzv olmuşdular. Onlar yeniyetmələrin arasında o vaxt çox populyar olan karate idman növünə gedirdilər. İdmançıları məşqə yola salıb oturmuşdum ki, qapının zəngi çalındı. Heç kəsi gözləmirdim, deyə qapını açmağa gedə-gedə "bu kim ola?" deyə fikirləşdim. Qapını açdım, gözlərimə inanmadım, Səməngüllə Sonanı görüb sevindim. Onları qucaqlayıb öpdüm, içəri dəvət edərək dedim:

--Nə yaxşı ay Səməngül, nə yaxşı səndən. Ay insafsız, bu neçə ildə sənə nə qədər yalvardım ki, arabir dur gəl bizə, oturaq doyunca söhbət edək, dərdləşək, bir-birimizin dərd-sərinə birlikdə çarə tapaq. Nə yaxşı ki, axırda insafa gəldin. Nə deyim, maşallah, göz dəyməsin. Sona xala, sən də xoş gəlmisən, səfa gətirmisən. Həmişə siz gələsiniz.

--Ay Həyat, sən də utandırma bizi. Daha nə qədər yükümüzü sizə çəkdirəcəyik?Arada səsimizi çıxartmırıq ki, siz də bizdən dincələsiniz də...

--O nə sözdür? Ayıb olsun sənə, yenə ayrı-seçkilik edirsən? Siz-biz nədir? Mən bayaqdan ürəyimdə elə səninlə danışırdım. Niyə ürəyimdə danışmalıyam? Olmaz ki, elə ürəyimiz istəyəndə oturaq üz-üzə, doyunca söhbət edək?

--Düz deyirsən, ancaq Fərhad qardaşdan utanıram. Gör nə qədər zəhmətimizi çəkib?Üzüm yoxdur, vallah...

--Səməngül, birdəfəlik anla ki, Fərhad sənin yeznəndir, çünki, əyər unutmamısansa, biz bacıyıq. Ata ayrı, ana ayrı, amma, bacı. Belə də olur, Fərhad da bunu hələ o vaxt mənimlə evlənəndə belə qəbul edib. Əslində o da səni özünə bacı bilir. İndi deyirsən, bu qədər bağlılıq olduğu halda, dayanıb kənardan baxmalıyıq? Birdəki, biz neyləmişik ki?

--Çox şey, çox şey. Sizə qurban olum. Siz olmasaydınız mən neyləyərdim? Bu dünyada təkbaşına neyləyərdim mən, Həyat?

--Yaxşı, yaxşı, Sonanı da kövrəltdin, sakit ol. Sən əslində heç vaxt tək olmadın, həmişə yanında səni sevənlər oldu. Özü də necə sevənlər?! Mahmud əmi, Sona xala, anam, atam, Rəşad, mən, Qismət, Musa, Sona... Yenə sayım?Səni sevənlərdən kim getdisə, bu dünyada sənin üçün öz məhəbbətlərini qoyub getdilər. Səninlə qalanlarsa, səni heç vaxt tək qoymayacaqlar. Biz həmişə yanınızda olacağıq.

Səməngül qalxıb məni qucaqladı, beləcə qol-boyun olub xeyli dayandıq. Axırda Sona dözməyib dedi:

--Həyat xala, əyər sən aralanmasan, anam beləcə saatlarla duracaq haa... Bax deyirəm, xəbərin olsun.

Mən Sonanın bu sözünə güldüm, Səməngülün üzündən öpüb aralandım. Səməngül Sonaya baxıb başını buladı. Sona ona məhəl qoymadan gülürdü.

Beləcə biz xeyli söhbət elədik. Sohbət əsnasında Nigarın Oktaydan eşitdiklərini də Səməngülə danışdım. Bilmirəm bunun yeri idi ya yox, amma mən Firuzun Almazı boşadığını, artıq iki ildən yuxarı ayrıldıqlarını dedim. Ömrünün ən gözəl illərini Almaz kimi bir ifritə ilə çürütmüş Firuz, gör nə qədər bezibmiş ki, yaşlarının bu çağında da olsa, ondan canını qurtarmağa qərar vermişdi. Bədbəxt vaxtında ondan ayrılmadı ki, barı bir başqası ilə evlənərdi, övladı da olardı. Bu söhbətdən Səməngül bulud kimi tutuldu, xeyli sakitcə oturdu. Birazdan özü danışdı ki, bir neçə dəfə Qismətin ziyarətinə gedəndə Firuzu orda görüb. Onlar bir kəlmə danışmasalar da, son dəfə görəndə Firuz gözünə xeyli qocalmış görünüb. Mən də iyirmi beş-otuz il bundan əvvəl Firuzla Almaza elədiyim qarğışı xatırladım, o epizodu Səməngülə danışdım. Mən onda heç bilmirdim ki, irəlidə onlar evlənəcəklər. Mən sadəcə onların ikisinə, öz çirkin əməllərinə görə uzun-uzun ömür, və bu uzun ömür boyu dərmanı tapılmayan bir dərd arzulamışdım. İndi bu dediklərimin bu şəkildə yerini tutması özümü də məətəl qoymuşdu. Doğru deyirlər ki, dünyanın min-bir halı varmış...

Fərhad Səməngüllə Sonanı bizdə gördüyünə çox sevindi. Səmədlə Fəxri də evdə belə gözəl qonaqların olduğuna sevindilər. Axşam Səməngülgil getmək istəyəndə, nə Fərhad, nə də uşaqlar buna razı olmadılar. O gecə böyük bir ailə kimi bir süfrə başında şam elədik, sonra da bəxtəvər uşaqlığımızdan yadımıza gələn maraqlı xatirələr danışdıq.

Səhəri gün bazar günü idi. Birlikdə keçirdiyimiz bu günün bitməsini istəməsək də, axşam Səməngül getmək istədiklərini bildirdi. Getməzdən əvvəl məni kənara çəkib dedi:

--Həyat, bizi o qədər əzizlədiniz ki, gəlişimizin səbəbini də unutduq. Axı biz sizdən mənə bir iş tapmaqda kömək eləməyinizi xahiş edəcəkdik. Həyat, nə iş olur olsun, axır ki, iş olsun. Tanışlarınız çoxdur, baxın, görün, nə tapa bilərsiniz?

--Səməngül, inanırsanmı, dünən siz gələndə mən elə bunu fikirləşirdim. Düzdür, bir fikrə gələ bilmədim, ancaq mən də deyirəm ki, gərək sənə bir iş tapaq. De, görüm ağlına gələn bir şey var?Məsələn, necə iş istəyərdin?

--Həyat, düzünü deyim, ürəyimdən xəstəxanada işləmək keçir. Sən bu istəyin hardan gəldiyini bilirsən. Mən bilirəm ki, heç on illik təhsilim də olmadığı üçün mənə xadimə, və ya dayə işindən başqa heç nə verməzlər. Odur ki, istəyərdim mənə dayə kimi xəstəxanada işə düzəlməyə kömək edəsiniz. Xəstələri müalicə eləmək mənə qismət olmadısa da, heç olmasa onlara dayə kimi qulluq edərəm. Bu, döşəmə yumaqdan daha çox ürəyimə yatır.

--Yaxşı. Sən narahat olma, biz soraqlaşıb bir iş yeri taparıq sənin üçün.

Beləcə, Səməngülün arzularını ürəyində dəfn eləyib talehi ilə barışması, tibbin ən aşağı pilləsi olan xəstə baxıcısı işini seçməklə, heç olmasa bu yolla, həkimlərə yaxın bir yerdə çalışmaq istəməsi ürəyimi ağrıtsa da, onun bu seçimini düzgün saydım, və ona bu yolda əlimdən gələni eləməyi qərara aldım.

***

İki həftədən sonra Fərhad Səməngülə Eksperimental ürək-damar klinik xəstəxanasında gecə baxıcısı işi tapdı. Fərhad onu da dedi ki, Səməngül gecələri işləyəcəyinə görə gündüz onu tibb məktəblərindən birinə düzəltmək lazımdır. Bütün bunları Səməngülə deyəndə, yazıq sevindiyindən göz yaşlarını tuta bilmədi. Mən özüm də, Fərhad bunları mənə deyəndə, uşaq kimi atılıb onun boynuna sarılmışdım. Fərhadın böyük ürəyi var idi, o ürəkdə ancaq gözəl arzular, xoş niyyətlər yaşayırdı. Fərhada güvənmək, Fərhada inanmaq məni ona daha çox bağlayırdı. Hərdən fikirləşirdim ki, böyük sevgi yaşamaq hələ heç də xoşbəxtlik demək deyil. Bir-birini dəlicəsinə sevən Səməngüllə Firuzun aqibətinə baxın, sonra da bir-birimizi heç tanımadan, böyüklərimizin məsləhəti ilə evlənən Fərhadla mənə baxın. Firuzla Səməngül tez alışıb tez də sönən bir çılğın hissin qurbanı oldular. Fərhadla mən isə bir-birimizi bir ömür boyu kəşf edə-edə, bir-birimizə daha çox bağlanırdıq. İndi gəl de ki, bunların hansı düzgündür, hansı yaxşıdır. Bu barədə proqnoz vermək mümkün deyil. Çünki, nə insanlar, nə də onların talehi bir-birinə bən-

zəməz. Hər kəsin özünün alın yazısı var. Hər şey alın yazısında yazıldığı kimi başlayır, alın yazısında yazıldığı kimi də bitir. Bir şey dəqiqdir ki, hər düzələn iş də, düzəlməyən iş də Allahdandır!

Səməngül işə böyük həvəslə başladı. Qısa zamanda işlədiyi kollektivin hörmətini qazandı. Səməngülün işi ağır, maaşı isə az idi. Buna baxmayaraq, o heç nədən şikayət eləmir, işinə məsuliyyətlə yanaşırdı. O, arzularından çox uzaqda duran bu işə də çox can yandırırdı. Çünki, xəstələrin çoxu muharibə iştirakçıları, yaralılar idi. Mən inanırdım ki, o xəstələrin hər birindən Səməngül Qismətin iyini alırdı. O yorulmaq bilmir, həm işləyir, həm də tibb texnikumuna daxil olmaq üçün imtahanlara hazırlaşırdı.

Həmin il Səməngülün həyatında çox önəmli iki hadisə baş verdi. Səməngül tibb texnikomuna, Sona isə tibb institutuna daxil oldu. Səməngülü heç bu qədər həyəcanlı görməmişdik. Yazıq nə zaman idi ki, xoş xəbər eşitməmişdi. O xoş xəbərə də ağladı. Mən onun əlindən tutub dedim:

--Səməngül, barı bu gün ağlama. Sevinməyi də unutmusan. Bax gör Sona necə sevinir?

Səməngül göz yaşlarını silə-silə dedi:

--Hə... Yaziq balam, çox sevinir. Həyat, sən bilirsən də onun məhz tibb institutuna girməsi mənim üçün nə deməkdir? Yadındadır, o vaxt, gecə damda danışdıqlarımız? O arzuladıqlarım mənə qismət olmadı, indi heç olmasa Sona mənim arzularımı çin edər. Düz demirəm?

--Düz deyirsən, ancaq sən özün də bir-necə ilə tibb işçisi olacaqsan, bunu unutmadın ki?Görərsən, hər şey gözəl olacaq, mənə inan.

--Həyat, biz istəyirik gedib bu xəbərləri Qismətə də deyək, o da çox sevinəcək. Yəqin ki, hər şeyi hiss eləyib, gözü yoldadır.

--İndi ki, belə oldu, biz də sizinlə gedirik.

Fərhad deyəndə ki, bu iki qələbəni qeyd eləmək lazımdır, mən dedim:

--Fərhad, mən bilirəm, onlar bu sevinci Qismətlə paylaşmağa gedəcəklər, gəl biz də gedək. Səməngülə bundan artıq heç nə lazım deyil.

Fərhad dedi:

--Mən bir söz demirəm Həyat, qoy ürəkləri necə istəyir, elə də eləsinlər. Onda biz də onları tək buraxmayaq, uşaqları da götürək, gül-çiçək alaq, belə bir gündə bir yerdə olaq.

Beləcə hamımız birlikdə Şəhidlər xiyabanına getdik. Səməngül mənə demişdi ki, hər gedəndə Qismətin məzarı üstündə təzə-tər al-qırmızı qızıl gül dəstəsi görür. İkimiz də bilirdik ki, bu gülləri Firuz gətirir, bədbəxt ürəyinin odunu bu yolla söndürməyə çalışır. Fikirləşdim ki, insan nə qəribə məxluqdur. Bir zamanlar adını belə çəkəndə hirsimdən dünyanı başına çevirmək istədiyim Firuza indi yazığım gəlirdi. Zarafat deyil, elədiyi alçaqlığa görə, bir ömrü hədər getdi. O təkcə Səməngülü bədbəxt eləmədi, daha çox özünü dünyanın ən bədbəxt insanı elədi. O özünü Səməngül kimi bir mələk simalı qadının əri olmaqdan, Qismət kimi bir oğulun atası olmaqdan məhrum elədi. Bir vaxt Səməngülün hamilə olduğunu bilib Amerikaya qaçan Firuz, bu gün həmin uşağın onun yeganə övladı olduğunu, həm də bu övladın artıq həyatda olmadığını anlamış, bu acı həqiqətin önündə günahları ilə təkbətək qalmışdı.

Səməngülün isə Qismət kimi bir qəmli dünyası, Sona kimi bir sevincli dünyası var idi. Birinin kədəri nə qədər ürəyini ağrıtsa da, o birinin sevinci onu yaşadacaqdı...

EPİLOQ

Son dəbdə tikilmiş möhtəşəm şadlıq evinin gur işığına toplaşmış qonaqlar "Vağzalı" səsini eşidib hamısı bir nəfər kimi ayağa qalxdı, və əl çalmağa başladı. Bu da o demək idi ki, gəlin gətirməyə getmiş maşın karvanı artıq gəlib şadlıq evinin önündə dayanmışdı. "Vağzalı"nın sədasını eşidən tamada bu məqama uyğun bildiyi, ən gözəl şerləri söyləyərək səbəbkarları salamlamağa başladı. Toy sahibləri, yaxın adamlar giriş qapısına yaxınlaşıb gələnləri qarşılamaq üçün onlara sarı yeridilər. Maşından enən gəlinlə bəy gur işıqların altında bir cüt göyərçinə bənzəyirdi. Onlar, giriş qapısından bəy-gəlin kürsüsünə kimi döşənmiş xalçanın üstü ilə yeridikcə, bu gün onları ömürlük bir-birinə qovuşduracaq nigah masasına doğru çox böyük həyəcan içində yaxınlaşırdılar. Bəylə gəlinin ardınca yeriyən qohum, əqrəba "Vağzalı"-nın təsirindən kövrəlmiş, nəmli gözlərini silə-silə keçib bir-bir öz yerlərini tuturdular. "Vağzalı", sevən gəncləri vüsala yetirən bir həsrət nəğməsi, həm də o gənclərin valideyinlərini murada yetirən bir təntənənin carçısı idi. Elə ona görədir ki, müasir toylarda baş alıb gedən bayağı musiqilərin müqabilində bir tək "Vağzalı" dəyişməz qalır, toy "Vağzalı" ilə başlayır, " "Vağzalı"ilə bitir. "Vağzalı" bir möcüzədir, bir sirrdir. Onun ecazkar səsi, hər kəsdə kövrək hisslər oyadır, hər kəsin qəlbini titrədir...

Gözəllikdə anasını da ötüb keçmiş Sona, qar kimi ağ gəlin paltarında nağıllardan gəlmiş bir mələkəyə bənzəyirdi. Onun həyat yoldaşı olacaq Nazim də öz sevgilisinin bu gözəlliyinə heyran-heyran baxır, həyatlarının bu müqəddəs anında nəhayət ki, bir yerdə olduqlarına uşaq kimi sevinirdi.

Çoxlu qonaqlar gəlmişdi. Onların əksəriyyəti Nazimin qohum-əqrəbası, dostu-tanışı idisə, qalanı da Sonanın tələbə yoldaşları, iş yoldaşları, Səməngülün işlədiyi kollektivdən gəlmiş qonaqlar idi. Bir də biz idik. Səməngülün uzaq keçmişindən, həyatının lap o başından gəlmiş, onun kədərli günlərinin də, sevincli günlərinin də şahidi olmuş köhnə dostları...

Bəy-gəlin masasının lap yanında çox böyük masanın arxasında bizim balalarımız-Səməd, Fəxri, Fatimə, Ceyhun, Tural və Səbinə, hər biri öz həyat yoldaşı və uşaqları ilə əyləşmişdilər. Musiqiçilərə ən yaxın yerdəki böyük masanın arxasında biz oturmuşduq-anamla Səməngül, Fərhadla mən, Oktayla Nigar, Rəşadla Gülnar, bir də Lalə ilə Rasim. Lalə ilə Rasim tək gəlmişdilər. Onların oğlu və qızı öz ailələri ilə Antaliyada istirahətdə idilər .

Biz nənələr tez-tez o biri masaya yaxınlaşır, dəcəllik eləyən nəvələrə nəzarət edir, onları yanımıza aparırdıq. Başımız nə qədər qarışsa da çalışırdıq ki, Səməngülü bu şad günündə qəmli fikirləri, kədərli xatirələri ilə tək qoymayaq. Bununla belə, hər dəfə üzümüzü ona sarı çevirəndə gözlərini nəmli görürdük. Səməngül tez-tez Sonaya və Nazimə baxırdı. Baxırdı, sonra ah çəkib üzünü yana çevirirdi. Mən dəqiq bilirdim ki, o indi Qisməti xatırlayır, onu da bəy masasının arxasında təsəvvür eləyir, və bu xəyalın heç vaxt gerçək ola bilməyəcəyinə içində yanıb yaxılır.

Tamada adəti üzrə toy şənliyini yeni evlənənlərin valideyinlərini ortaya çəkib onların təbrik sözləri ilə açır, yalnız bundan sonra toy başlayırdı. Nazimin ata-anası ortaya çıxanda, biz də Səməngülə işarə elədik ki, qalxsın. Səməngül həm ürəyindəki ağır fikirlərdən, həm də bu məclisə gəlmiş qonaqların göz qamaşdıran geyimlərinin müqabilində özünün qoca qarıya bənzər görkəmindən yəqin ki, sıxılırdı. Tamada isə təkidlə gəlinin valideyinlərini də yanına çağırırdı. Səməngül günahkar baxışlarla Sonaya baxdı. Sona geniş açılmış gözlərlə anasına baxir, keçirdiyi həyəcan üzündən bəlli olurdu. Elə bu vaxt, Fərhad ayağa qalxdı, gəlib Səməngülün qarşısında dayandı, əlini ona üzatdı. Səməngül qar kimi ağ saçlarının üstündən atdığı qara kəlağayını düzəldib əlini Fərhada üzadaraq ayağa qalxdı.

Təbrik sözünü, gənclərə səadət arzularını əvvəlcə bəyin ata-anası dedi. Sonra Fərhad özünü gəlinin dayısı kimi təqdim elədi, və onun dünyasını dəyişmiş atasına və müharibədə həlak olmuş Milli qəhrəman qardaşına rəhmət oxudu. Fərhad daha sonra toy əhlini bu toyda yerləri boş qalmış iki şəxsin, gəlinin atası ilə

qardaşının xatirəsini bir dəqiqəlik sükutla yad etməyi təklif elədi. Hamı bir nəfər kimi ayağa qalxdı, bir dəqiqəlik sükutla həyatdan erkən getmiş bu insanların ruhunu hörmətlə yad elədilər. Səməngül heç nə deyə bilmədi, onun deyə bilmədiklərini göz yaşları dedi...

Tamada çox təcrübəli adam idi, bu qəmli anların çox da uzanmaması üçün şən bir oyun havası ilə toyun başlandığını elan elədi.

Bu toyda da son vaxtlar dəbdə olan soyu, kökü, hansı millətə mənsub olduğu bilinməyən havalar çalınırdı. Gənclər bu musiqilərin fərqinə varmadan hamısı bir nəfər kimi meydana çıxır, bir-birinə toxuna-toxuna atılıb düşürdülər. Biz gənclərimizin əhval ruhiyyəsinin yüksək olmasına nə qədər sevinirdiksə, xatirimizə yenə özümüzün gənclik illərimizdəki toylar, xalqımızım musiqi inciləri sayılan məşhur oyun havaları, onları rəqs eləmək üsulları, onları böyük ustalıqla rəqs eləyən insanlar düşürdü. Bəlkə də gəncliyimiz, gözəlliyimiz o toylarda qaldı, deyə o toylar bizə daha döğma, daha əziz gəlirdi...

İndi bu gənclərə baxa-baxa öz gəncliyimizi yada salır, "Qoçəli"nın, "Süleymani"nin, "Tərəkəmə"nin, "Balabacı"nin, "Fəridi"nin, "Ləzginka"nın, "Heyvagülü"nün mahir ifaçılarını xatırlayırdıq. Toya gedərkən sanki konsertə gedirdik, səbirsizliklə həmin adamların rəqsini gözləyirdik. Halbuki, onlar adi qonaqlar idilər, sadəcə seçdikləri oyun havasını o qədər ürəkdən oynayırdılar ki, hamının ruhunu oxşayır, toya da xüsusi yaraşıq verirdi.

Toyu aparan xanəndə mahnını-mahnıya calaya-calaya məclisi şənləndirir, hamını rəqsə dəvət edirdi. Nazimin atasi ilə anası başqa qohum- əqrəbaları ilə ortadan çıxmırdılar. Onların bu qədər şənlənməyə haqları var idi. Oğul toyu bir özgə səadətdir. Oğul toyu muraddır, mürvətdir. Bu günü hər ana ən azı iyirmi beş-otuz il gözləyir. Anaların murada yetdiyi gün onlar körpə uşaq kimi dəymə-düşər olurlar. Onların sevincinə şərik olmayanları, bu müqəddəs gündə onlarla birlikdə qol götürüb oynamayanları bağışlamırlar. Bu barədə biz, qız evini təmsil eləyənlər, oğlan evinin adamları kimi çox da şuxluq edə bilmirdik. Bir yandan elə qız evi olduğumuz

üçün, el adətinə görə bir az ağır taxtalı olmalı idik, digər yandan da Səməngülün ürəyində nələr baş verdiyini hamımız gözəl bilidiyimiz halda, sevincimizi də müəyyən çərçivədə saxlayırdıq. Bizim balalarımız bizim əvəzimizdən də çoxlu oynadılar. Arada bizi də təkidlə özlərinə qatdılar. Səməngüldən başqa hamı rəqsə qoşuldu. Düzdür bu qələbəlikdə çox da rəqs eləyə bilmədik, meydanı gənclərə buraxıb yerimizə qayıtdıq.

Məclisin ən qızğın vaxtı idi. Qonaqlar artıq yetərincə yeyib-içmiş, oynamaqdan əldən düşmüşdülər. Kimi yerində oturub müğənniyə qulaq asır, kimi siqaret çəkmək üçün bayıra çıxır, kimi də uşağının dalınca gəzirdi. Musiqiçilər hər şeyin vaxtını yaxşı bilirdilər. Bu məqam muğamatın yeri idi ki, hər kəs bir az dincəlsin. Xoş avazlı müğənni Bahidin qəzəllərindən oxuduqca hamı öz yerini tutur, səs salan uşaqları sakitləşdirirdi. Salonun girişinə toplaşmış qonaqlar həm siqaret çəkir, həm də elə ordan muğamata qulaq asırdı. Hamımız muğamatın təsiri ilə dərin xəyala dalmışdıq. Hər kəs öz aləmində idi.

Salonun döşəməsində məchul bir nöqtəyə baxa-baxa muğamata qulaq asan Səməngülün diqqətini salonin girişindən düz bəylə gəlinin masasına doğru gedən bir nəfər cəlb elədi. Onun əlində çox gözəl bəzədilmiş bir bağlama və böyük bir gül dəstəsi var idi. Yəqin kimsə toya gələ bilməmiş, öz hədiyyəsini göndərmişdi. Oğlan masaya yaxınlaşıb bağlamanı və gül dəstəsini Sonaya verdi, nə isə deyib getdi. Biz hamımız diqqətlə baxırdıq ki, Sona bu hədiyyəyə necə reaksiya verəcək. Sona oğlanın ardınca qapı ağzına tərəf boylandı. Sonra hədiyyəni açıb baxdı. Sonra... Sona hədəqəsindən çıxmaq istəyən gözləri ilə əvvəl Səməngülə, sonra yenə qapı tərəfə baxdı. Səməngül yerindən qalxıb Sonanın yanına getdi, mən də onunla getdim. Biz Sonaya yaxınlaşıb nə baş verdiyini soruşduq. Sona əlindəki böyük qırmızı qutunu açdı. Qutuda brilyant qaşlarla bəzədilmiş çox bahalı bir boyunbağı var idi. Boyunbağının bağlanan yerində kiçik qızıl lövhəciyin üzərinə bu sözlər həkk olunmuşdu:

"Sonaya qardaşından toy hədiyyəsi. Lütvən xoşbəxt ol! Ruhum hər zaman yanında olacaq. Qismət. "

Bu sözləri oxuyan kimi Səməngül halsızlaşıb yerə çökdü. Özlərini yetirən Nigar, Lalə, Gülnar yaxınlaşıb onu araya aldılar. Kimsə Səməngülə su verdi . Mən isə adamların başının üstündən çıxışa tərəf baxdım. Oraya toplaşmış adamların arasında lap arxadan bura boylanan Firuzu gördüm. Dönüb Səməngülə baxdım ki, görüm o necədir, Səməngül deyəsən özünə gəlmişdi. Mən yenə salonun ayağına baxdım, Firuz artıq orda yox idi. Səməngül sual dolu baxışlarla mənə baxırdı, sanki məndən izahat istəyirdi. Mən onu qucaqlayıb öz yerinə qaytardım, sonra əllərini əlimə alıb dedim:

--Səməngül, bu Firuz idi. Qismətin adından hədiyyə göndərib.

Səməngül heç nə demədən qapıya tərəf getdi. Mən də onun ardınca detdim. Biz salondan bayira çıxdıq, payız küləyi üzümüzə vurdu.

Şadlıq evinin qapısından darvazaya gedən yolun o başında, çıxışa döğru bir adam gedirdi. O üzü kuləyə getdikcə, külək də onun qar kimi ağ saçlarını o yan bu yana dağıdırdı. Bu Firuz idi. Ömrünün əlli beş yaşında yetmiş yaşlı qocaya bənzəyən Firuz Səməngüldən nə qədər uzaq qaçdısa da, nə qədər fərqli həyat yaşadısa da, bir-birindən xəbərsiz Səməngüllə eyni dərdi paylaşdı, eyni itkinin göynərtisindən həyatı alt-üst oldu.

Mən heykəl kimi donub qalmış Səməngülün qoluna girib onu şadlıq evinə geri gətirdim. Biz içəri girirdik ki, çoxdan unutduğum bir musiqinin sədası ürəyimdə bir təlatüm əmələ gətirdi. Mənim dünyamda ömrümüzün geridə qalmış xatirələrini yada salacaq bircə oyun havası var idi. O da, "Sevgilim" idi. Baxışlarımla bu havanı sifariş verə biləcək adamı axtarırdım. Birdən Rəşadı gördüm. O, gəlinlə bəyi rəqsə dəvət elədiyinə görə, yəqin ki, bu oyun havasını da o sifariş eləmişdi. Qardaşım dönüb gülümsər baxışlarla mənə baxdı. Mən onun nə demək istədiyini başa düşdüm. Gəlinlə bəyi ortaya çəkib onlarla oynamağa başladım. Nigar, Oktay, Lalə, Rasim, Fərhad, Gülnar da ləngimədən bizə qoşuldu. Səməngül əyləşdiyi yerdən bizə baxırdı. Qonaqlar da diqqət kəsilib heyranlıqla bu gözəl oyun havasını məharətlə ifa edən adamlara baxırdılar. Nə əcəbsə, heç

kəs bizə müdaxilə eləmirdi. Sanki anlamışdılar ki, bu rəqsin xüsusi bir özəlliyi var. Biz dövrə vurub gəlib Səməngülün qarşısında rəqs eləməyə başladıq. Səməngül məmnun baxışlarla bizə baxır, uzun illərdən sonra ilk dəfə bizə gülümsəyirdi. Mən bilirdim ki, "Sevgilim" onun daxili aləmində bir dönüş yaradacaq, ruhuna ruh verəcək, onu özünə qaytaracaq. Sonanın rəqsinə baxdıqca, həyatının yeni səhifəsini açırdı Səməngül... Çünki "Sevgilim" rəqsi gəlin gedən qızların xoşbəxt gələcəyindən müjdə gətirən ən gözəl oyun havası idi...

"Sevgilim" həyatımıza qayıtmaqla bizim hər birimizi yenidən özümüzə qaytaracaqdı...

***

P. S. Həyat təkcə itkilərdən ibarət deyil, biz bəxtimizə çıxan sürprizləri də görməyi və qiymətləndirməyi bacarmalıyıq...

Nəsibə Günəş. 2007-ci il. Belçika

Yığılmağa verilmişdir: 01.03.2016
Çapa imzalanmışdır: 16.03.2016
Kağız formatı: 60x84 1/16
Fiziki çap vərəqi: 15.75
Mətbəə kağızı: № 01
Sifariş: № 042 Sayı: 500 nüsxə
Ofset üsulu ilə çap olunmuşdur

*Kitab **"Yazıçı"** nəşriyyatında yığılıb, səhifələnmişdir,*
Ünvan: Bakı, Mətbuat pr. 24,
Telefon:(99412) 510-68-49
e-mail: desinger2010@mail.ru

AZf-289365

...Hər keçən gün sürətlə bizdən uzaqlaşaraq, yavaş-yavaş unudulur.
Yaşanmış günlərdən geriyə ancaq xatirələr qalır...

Yazıçı nəşriyyatı - 2016